# HEYDƏR ƏLİYEV
# və
# MÜASİR AZƏRBAYCAN

## I ÜMUMRESPUBLİKA ƏLİYEVŞÜNASLIQ KONFRANSI



Bizim milli ideologiyamızın konsepsiyası olmalıdır.

*Heydər ƏLİYEV*

T3(2A)
Ə 64

AZƏRBAYCAN FƏLSƏFƏ VƏ SOSİAL-SİYASİ ELMLƏR ASSOSİASİYASI

ƏLİYEVŞÜNASLIQ İNSTİTUTU

2277893

# HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN

I ümumrespublika

Əliyevşünaslıq konfransının

materialları

6 may 2003-cü il

M. F. A u.. ov adına
Azərbaycan Dövlət
Ki A : ANASI

"Azərbaycan Universiteti" nəşriyyatı

Bakı – 2003

Elmi redaktor:

RAMİZ MEHDİYEV
fəlsəfə elmləri doktoru, professor

**Heydər Əliyev və müasir Azərbaycan** (I Ümumrespublika Əliyevşünaslıq konfransının materialları). Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2003, 362 səh.

H $\frac{4603000000-55}{059-2003}$

©"Azərbaycan Universiteti" nəşriyyatı, 2003

## *Ön söz*

*Liderliyin, birinci şəxs olmağın ağırlığını uzun bir dövr ərzində çiyinlərində daşıyan Heydər Əliyev ömrün müdriklik çağına qədəm qoymuş, həyati təcrübə güclü intellekt və siyasi iradə ilə zirvədə birləşmişdir.*

*Heydər Əliyev böyük siyasətçi olmaqla bərabər, həm də böyük politoloqdur. Dövrünün böyük alimi, mütəfəkkiri, habelə böyük ədəbiyyat və sənət bilicisidir. O, həm qədim, həm də müasir tariximizi az qala əzbər bilir. Özü də təkcə mülki tarixi yox, iqtisadiyyatımızın tarixini, mədəniyyətimizin tarixini, milli köklərimizi və milli-mənəvi dəyərlərimizi heç kim Heydər Əliyev qədər dərindən mənimsəməmişdir.*

*Lakin Heydər Əliyevin filosofluğu təkcə onun öz çıxışlarında ayrı-ayrı müdrik kəlamlar, fəlsəfi fikirlər işlətməsi ilə məhdudlaşmır. Onun deyilməmiş, yazılmamış bütöv fəlsəfi sistemi vardır. H.Əliyevin çox müxtəlif sahələrə dair söylədiyi fikirlər əslində dərin qatlardakı vahid konsepsiyanın ayrı-ayrı təzahürləridir. Bu konsepsiya Azərbaycanın milli ideologiyasıdır, müasir azərbaycanlının sosial idealı, milli-fəlsəfi dünyagörüşüdür, Azərbaycan gerçəkliyini, onun ictimai-siyasi və mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl elmi-nəzəri bir sistemdir. Bizim*

borcumuz onun söylədiyi fikirləri və əməli fəaliyyətini nəzəri təfəkkür səviyyəsində təhlil etməklə bu konseptual sistemin təməllərini üzə çıxarmaqdır.

Eyni şəxsin müxtəlif sahələrdə, müxtəlif istiqamətlərdə nümayiş etdirdiyi bilik onu tanımayanları təəccübləndirir və heyrətləndirir. Lakin Heydər Əliyev fenomeni qarşısında heyrətlənməklə iş bitmir. Onu öyrənmək, şərh etmək və gənc nəsillərə çatdırmaq lazımdır. Təəssüf ki, Heydər Əliyevin siyasi uğurları və quruculuq fəaliyyəti fonunda onun siyasi maarifçilik fəaliyyəti çox vaxt arxa plana keçir və lazımi səviyyədə qiymətləndirilmir. Halbuki, demokratik cəmiyyət quruculuğu ilk növbədə ictimai şüurun, xalqın siyasi düşüncə səviyyəsinin inkişafını tələb edir. Heydər Əliyev xalqın səviyyəsinə uyğun gəlməyən, onun başının üstündən keçən qərarlar qəbul etməkdənsə, xalqın inkişaf səviyyəsinə uyğun islahatlar aparılmasına və dövlətin də xalqla birlikdə inkişaf etdirilməsinə üstünlük verir. Bu baxımdan, xalqın maarifləndirilməsi dövlət quruculuğunun mühüm istiqamətlərindən biri kimi çıxış edir.

Düzdür, Heydər Əliyev öz fikirlərini daha çox çıxışlarında, şifahi nitq vasitəsi ilə ifadə edir. Bu çıxışlar bir qayda olaraq iki səviyyədən, iki qatdan ibarət olur: görünən qat və alt qat. Birincisi, hər bir çıxış konkret real bir hadisə ilə bağlı olduğundan tariximizin müəyyən bir səhifəsini əks etdirir. Bunlar Azərbaycanın çağdaş ictimai-siyasi, mədəni-mənəvi həyatını öyrənmək baxımından xüsusi



əhəmiyyətə malikdir. İkincisi, Heydər Əliyev bu və ya digər konkret hadisə ilə əlaqədar danışarkən, bəzən hadisənin çərçivəsindən kənara çıxır, problemi ümumiləşdirir, təkcə bu hadisəyə deyil, bu qəbildən olan bütün hadisələrə aid ümumiləşmiş, nəzəri fikirlər söyləyir.

Əməli fəaliyyətində də Heydər Əliyev Azərbaycanda gedən prosesləri məhdud dairədə, öz çərçivəsində qapanan lokal proseslər kimi götürmür. O, beynəlxalq miqyasda analoji hadisələrin ümumiləşdirilməsi və ancaq bundan sonra məhz bizim üçün səciyyəvi olan cəhətlərin də nəzərə alınması mövqeyindən çıxış edir. Yerli hadisələr regional kontekstdə, regional hadisələr isə beynəlxalq miqyas üçün səciyyəvi olan ümumi tendensiyalar, meyllər kontekstində nəzərdən keçirilir.

Hər hansı bir hadisəyə münasibətdə təkcədən xüsusiyə, xüsusidən ümumiyə keçmək, nəzəri müddəalar, elmi-fəlsəfi fikirlər səviyyəsinə qalxmaq və fəlsəfi fikrin yüksəkliyindən yenidən təhlil obyektinə, hadisəyə nəzər salmaq – bax, Heydər Əliyevin düşüncə tərzini və hadisələrə münasibətini səciyyələndirən mühüm xüsusiyyətlərdən biri budur.

Heydər Əliyevin ideya dünyasının, nəzəri və praktik irsinin öyrənilməsi müasir Azərbaycan ictimai elminin mühüm vəzifələrindən biridir. Əsas məqsəd Heydər Əliyevin həm çıxışlarının, həm də quruculuq fəaliyyətinin əsasında dayanan prinsipləri müəyyən etmək, onun mahiyyətini üzə çıxarmaq.

*Heydər Əliyevin nəzəri irsi də onun praktik fəaliyyəti kimi çoxşaxəlidir. Müasir Azərbaycan dövlətinin təməl daşını qoymuş və möhkəm özülünü yaratmış bu böyük şəxsiyyətin ideya dünyası onun davamçıları üçün gələcəkdə də örnək olmalıdır. Ona görə də* ***Əliyevşünaslığın*** *bir elmi tədqiqat istiqaməti kimi yaradılmasına böyük ehtiyac vardır. Heydər Əliyevin fikirləri, irəli sürdüyü prinsiplər, çıxışlarındakı elmi-nəzəri müddəalar əslində yeni bir təlimin təməlini təşkil edir. Əsas məqsəd bu təməl üzərində bütöv bir elmi sistem qurmaq, müasir Azərbaycanın müxtəlif aspektlərdəki problemlərini Heydər Əliyev ideyalarının işığında araşdırmaqdır.*

*Heydər Əliyevin 80 illik yubileyinə həsr olunmuş bu elmi-praktik konfrans Əliyevşünaslıq İnstitutunun keçirdiyi ilk geniş miqyaslı tədbirlərdən biridir. Burada əhatə olunan mövzular bu yeni tədqiqat sahəsinin bütün ölkə miqyasında və bütün ixtisas sahələri ilə əlaqəli şəkildə inkişaf etdiyini göstərir.*

*Təşkilat Komitəsi* ***Əliyevşünaslıq*** *konfransının hər il mayın 10-da keçirilməsini və bu sahədəki tədqiqatların müntəzəm surətdə davam etdirilməsini nəzərdə tutur.*

*Konfransda Heydər Əliyevin dünyagörüşü, siyasi fəaliyyəti, iqtisadi quruculuq konsepsiyası ilə yanaşı onun rəhbərliyi ilə həyata keçirilən böyük sosial və mənəvi proseslərin əsas aspektləri üzrə də məruzə və çıxışlar ediləcəkdir.*

Ramiz Mehdiyev
fəlsəfə elmləri doktoru, professor



# I BÖLMƏ

# HEYDƏR ƏLİYEV: ŞƏXSİYYƏT VƏ DÖVLƏTÇİLİK

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MÜSTƏQİL DÖVLƏT QURUCULUĞU

Ramiz MEHDİYEV
*Azərbaycan Respublikası*
*Prezidenti İcra Aparatının rəhbəri,*
*professor*

Heydər Əliyev bəşər tarixində özünəməxsus siyasi dəst-xətti, idarəçilik üslubu və yaradıcılıq əzmi olan böyük şəxsiyyətlərdən biri olmaqla yanaşı, konkret bir şəraitdə konkret bir dövlətin formalaşmasına bilavasitə rəhbərlik etmiş, onun həm ideya müəllifi, həm memarı, həm də qurucusu olmuşdur. Müasir Azərbaycan dövlətçiliyi müstəsna olaraq Heydər Əliyevin adıyla bağlıdır.

Lakin Heydər Əliyev dühasının hududları ancaq Azərbaycanla məhdudlaşmır. O, bütövlükdə şərq dünyasında dövlətçiliyin yeni tipologiyasının əsasını qoymuşdur. Qərb dünyasında, xüsusi mülkiyyətə əsaslanan cəmiyyətlərdə kapitalist iqtisadi münasibətlərinə adekvat olan siyasi-hüquqi formaların

yaranması, hüquqi-demokratik dövlət quruculuğu qanunauyğun bir haldır. Lakin bir ənənəvi şərq ölkəsində, üstəlik sosializm dövründə dərin kök salmış, ictimai şüurda və mentalitetdə iz qoymuş kommunist ideologiyasından imtina edilməsi və yeni sosial-iqtisadi münasibətlərə keçilməsi şəraitində müasir tipli bir dövlət qurmaq çox çətindir və dövlət quruculuğu praktikasında yeni bir hadisədir. Bu, heç şübhəsiz, yeni konseptual baxış, yeni dövlətçilik ideologiyası, yeni fəaliyyət taktikası tələb edir.

Müstəqil dövlət hər bir xalqda qürur və şərəf hissi doğuran güclü amildir. *Hər bir xalq və millət üçün müstəqillik əvəzedilməz nemətdir. Xalqların öz taleyini müstəqil şəkildə müəyyən etməsi, suveren dövlət halında təşkilatlanması onun milli potensialının, maddi və mənəvi resurslarının tam gücü ilə üzə çıxarılmasına imkan yaradır, iqtisadi, siyasi, intellektual, mədəni qüvvələrinin maneəsiz inkişafına təkan verir, xalqın və millətin nəyə qadir olduğunu nümayiş etdirir. Xalqın müstəqil dövlət halında yaşamaq qabiliyyəti, milli təsisatların inkişafı, dünya birliyində müstəqil dövlətin yeri bu halda bütün əyaniliyi ilə üzə çıxır. Müstəqillik vətənpərvərlik ideyalarının və duyğularının güclənməsinə imkan yaratmaqla yanaşı, həm də bunları ciddi sınağa çəkir, milli və ümumbəşəri dəyərlərin daha düzgün və dolğun uyğunlaşdırılmasını təmin edir.*

*Müstəqil dövlət halında yaşamaq vətəndaşlara geniş hüquqlar və azadlıqlar verməklə bərabər, həm də onların üzərinə böyük məsuliyyət qoyur. Müstəqil dövlətin vətəndaşları daim onun güclü və zəngin olmasına çalışmalı, onu bütün vasitələrlə, lazım gələrsə, əldə silahla qorumağa hazır olmalı, ölkə və xalq üçün, etibar edilmiş iş sahəsi üçün məsuliyyət hiss etməli, dövlət nizamını, qanunçuluğu möhkəmləndirməlidirlər. Beləliklə, müstəqil dövlətdə yaşamaq hər*



*kəsdən – dövlət məmurundan, ziyalıdan, hərbçidən, polisdən, gənclərdən, sıravi vətəndaşlardan daha yüksək vətənpərvərlik, məsuliyyət və intizam tələb edir.*

*Xalqımız həmişə müstəqil dövlət qurmaq, sərbəst olmaq arzuları ilə yaşamış və əksər dövrlərdə bu arzularını həqiqətə çevirə bilmişdir. Azərbaycanın mühüm coğrafi-strateji mövqeyi və zəngin mədəni-mənəvi ənənələri buna əlverişli imkanlar yaratmışdır. Azərbaycan öz coğrafi-siyasi mövqeyinə görə həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Qədim dövrdə və orta əsrlərdə Azərbaycan Yaxın və Orta Şərqin siyasi, ticarət və mədəni mərkəzlərindən biri kimi çıxış edirdi. Bunun nəticəsi olaraq, tarixin müxtəlif dönəmlərində Azərbaycanda şərqin siyasi və ideya-mədəni proseslərinə böyük təsir göstərən güclü dövlətlər mövcud olmuşdur. Lakin Azərbaycanda ictimai-siyasi təşkilatlanma və dövlətyaratma prosesi heç də həmişə rəvan, ardıcıl getməmişdir. Tarixin müəyyən dövrlərində müstəqil dövlətçilik ənənələri müvəqqəti itirilmiş, Azərbaycan daha güclü dövlətlərin və xalqların hökmranlığı altına düşmüşdür.*

*1969-cu ildə Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə gəlişi Azərbaycan dövlətçiliyi tarixi üçün böyük rol oynamışdır. Bununla xalqımızın həyati problemlərinə, taleyüklü məsələlərinə yeni ideoloji-konseptual və fəlsəfi yanaşmaların əsası qoyuldu. Bu dövrdən ölkədə olduqca mühüm ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi proseslər başlanmışdır. Yeni əsrin zirvəsindən həmin dövrə nəzər saldıqda, böyük şəxsiyyətin, siyasi liderin və dövlət xadiminin hətta totalitar rejim və sərt ideoloji normalar şəraitində də nələrə qadir olduğunun şahidi oluruq. Belə ki, 1970-80-*

*ci illərdə, əslində, Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar – iqtisadi, mədəni-mənəvi potensial yaradılmış, milli kadr problemləri həll olunmuşdu.*

Azərbaycanda milli şüurun və milli özünüdərkin bütün formalarının yüksək vüsət almasına imkan verən sürətli inkişaf strategiyasının seçilməsi və uğurla həyata keçirilməsi Heydər Əliyevin rəhbərlik və idarəetmə fəlsəfəsinin aparıcı qayəsini təşkil edir. İstehsal, elm, mədəniyyət, Azərbaycan dilinin inkişafı sahəsində əldə edilmiş tərəqqi, milli ruhun inkişafına, milli özünüdərkin və milli qürurun yüksəlməsinə, gələcəkdə müstəqil Azərbaycan dövlətinin yaranmasına xidmət edən uzaqgörən planın tərkib hissələri olmuşdur. *Azadlıq uğrunda açıq mübarizəyə hazırlıq mərhələsi 70-80-ci illəri əhatə etmişdir. Həmin mərhələnin əsas məqsədi Azərbaycanda hərtərəfli iqtisadi, siyasi, sosial, mədəni inkişaf zəminində xalqın mübarizlik ruhunu və əzmini gücləndirmək, onu gələcək çətinlik məhrumiyyətlərə hazırlamaq olmuşdur. O zaman SSRİ-də gedən prosesləri müşahidə edən bir çox ekspertlər belə bir fikir söyləyirdilər ki, yalnız iki respublika – Rusiya və Azərbaycan müstəqil dövlət halında yaşamağa hazırdır.*

*Təəssüf ki, bu proses müntəzəm, fasiləsiz xarakter ala bilməmiş və respublikamız üçün olduqca məsuliyyətli, taleyüklü bir məqamda Azərbaycan rəhbərliyində sözün tam mənasında güclü şəxsiyyətin, ümummilli liderin olmaması ölkəmiz və xalqımız üçün olduqca ağır nəticələrə gətirib çıxarmışdır. 1991-ci ilin oktyabrında Azərbaycan Respublikasının müstəqillik aktı qəbul edildikdən sonra yaşadığımız tarixi mərhələ olduqca mürəkkəb, xalqımızın tarixi müqəddəratı üçün əhəmiyyətli hadisələrlə zəngin bir dövr olmuşdur.*



*Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi 80-cı illərin birinci yarısından başlayaraq, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin labüd sonluğu idi. Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin müstəsna xidmətləri hesab etmək olmaz. Bu, obyektiv tarixi proseslərin qanunauyğun nəticəsi, taleyin Azərbaycan xalqına və bütün keçmiş SSRİ respublikalarının xalqlarına əvəzsiz töhvə idi. Heydər Əliyevin dediyi kimi, "Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir və bu sərvətin ayrı-ayrı qurumların, şəxslərin inhisarına alınması heç cür yolverilməzdir".* (Yeni XXI əsr, yeni III minillik münasibəti ilə Azərbaycan xalqına Azərbaycan Respublikası Prezidentinin müraciəti).

Azərbaycanda müstəqil dövlət quruculuğu ardıcıl və məqsədyönlü proses olaraq, əslində, 1993-cü ilin oktyabrında başlanmışdır. Yalnız 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə qısa müddət ərzində ölkədə asayişi və qanuni hakimiyyəti bərpa etməyə, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırmağa, şəxsiyyətin təhlükəsizliyinə təminat yaratmağa, dövlət quruculuğu işlərinə başlamağa və demokratik cəmiyyətin inkişafına nail olunmuşdur.

Həmin ilin iyun-oktyabr ayları ancaq böhrandan çıxış, müstəqilliyin xilası dövrü kimi səciyyələndirilə bilər. *Müstəqillik tariximizə ən böhranlı, keşməkeşli, həm də ən şərəfli dövr kimi daxil olan 1993-cü ilin iyun-oktyabr ayları, 15 iyun «qayıdış məqamı»ndan başlayaraq, Azərbaycanda dövlət və cəmiyyət böhranından xilas olmaq istiqamətində ciddi addımların atıldığı bir dövr oldu.* Bir-birinə qarşı dayanmağa hazır olan qüvvələrin mənfi enerjisinin,

mübarizə potensialının silahlı döyüş meydanlarında deyil, ideya-siyasi arenada «boşaldılması» və tədricən, mahir diplomatik gedişlərlə, qansız-qadasız yeni məcraya yönəldilməsi Heydər Əliyev dühasının tarixə örnək ola biləcək səhifələrindən biridir.

Qeyd etməliyəm ki, gənc, müstəqil Azərbaycan dövlətinin on il ərzində keçdiyi inkişaf yolunun zaman baxımından mərhələləri ilə dövlət quruculuğunun istiqamətləri arasında sıx dialektik əlaqə vardır. Təbii ki, dövlət quruculuğu heç də sadəcə dövlət idarəçilik orqanlarının formalaşması ilə bitmir. Bu, sadəcə ancaq ilk mərhələdir. Sözün geniş mənasında müstəqil dövlətin qərarlaşması onun öz maraqlarına və beynəlxalq siyasi reallıqlara uyğun müstəqil xarici və daxili siyasət xəttinin formalaşmasını, uzunmüddətli proqnoz əsasında müəyyənləşmiş inkişaf strategiyasının yaradılmasını və həyata keçirilməsini nəzərdə tutur.

1993-cü ildən bəri Azərbaycanda əldə olunmuş müstəqilliyin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi, dövlət strukturlarının və ümumiyyətlə, dövlətçiliyin böhrandan çıxarılması istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərilmişdir. Dövlətçilik üçün ciddi təhlükə törədən silahlı birləşmələr ləğv edildikdən və dövlət orqanlarında müəyyən idarəçilik təcrübəsinə malik olan adamların bilik və qabiliyyətindən optimal surətdə istifadə olunduqdan sonra daxili stabillik dövrü başlandı ki, bu da qruculuq işləri üçün ilkin zəruri şərait yaratdı.

Ölkə Prezidenti Heydər Əliyev Azərbaycanın bu sahədə tutduğu strateji yolu belə səciyyələndirir: «Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir». *(Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, 1997. səh. 30)*. Dövlət quruculuğunda demokratik prinsiplərə, iqtisadiyyatda azad iqtisadi münasibətlərə üstünlük verilməsi, qanunvericilikdə insan hüquqlarının müdafiəsinin əsas prinsip kimi götürülməsi – bütün bunlar müstəqil Azərbaycan Respublikasının öz gələcək inkişafını hansı dəyərlər sistemi ilə bağladığını açıq-aşkar göstərirdi.



Azərbaycanda demokratikləşmə, hüquqi dövlət quruculuğu öz templəri və xüsusiyyətləri ilə fərqlənir desək, səhv etmərik.

Müstəqillik dövründə Azərbaycan qlobal inteqrasiya proseslərində yaxından iştirak etməklə, qabaqcıl dünyaya, ümumbəşəri dəyərlərin hökm sürdüyü xalqlar ailəsinə daha tez qovuşmaq istəyini nümayiş etdirir. Bununla yanaşı, Azərbaycan öz milli xüsusiyyətlərini, özünəməxsusluğunu, xalqımızın əsrlərin sınağından çıxmış mütərəqqi adət-ənənələrini qorumaq və zənginləşdirmək əzmindədir. 2001-ci il mayın 22-də Avropa Parlamentinin nümayəndə heyətini qəbul edərkən, Azərbaycan Prezidentinin dediyi kimi, *«Azərbaycanın bugünkü reallığı Avropa Şərq milli dəyərlərinin sintezindən ibarətdir. Bizim kimi ölkələrin Avropa Birliyinə daxil olması Avropanın mə'nəviyyat, ənənələr cəhətdən zənginləşdirməsinə gətirib çıxaracıqdır».*

Demokratiya yolu ilə cəsarətlə irəliləyən, insan hüquqlarının və qanun aliliyinin həyat normasına çevrildiyi cəmiyyət

qurmaq istəyən Azərbaycan Respublikası, onun xalqı bu sahədə də təqdirəlayiq nailiyyətlər qazanmışdır. *Qabaqcıl demokratik dövlətlərin yüzilliklər böyu addımbaaddım qəbul etdiyi prinsipləri, qanunları və normaları ölkəmiz bir neçə il ərzində tətbiq edə bilmişdir. Şərqdə ilk dəfə ölüm hökmünün ləğvi, on minlərlə insanı əhatə edən amnistiyalar, siyasi plüralizmə, söz və əqidə azadlığına geniş imkan yaradılması Azərbaycanın böyük nailiyyətləridir.* Lakin öz qanunvericiliyini, dövlət və cəmiyyət həyatını beynəxalq standartlara uyğunlaşdıran Azərbaycan xalqı bu qanunları korkoranə, digər ölkələrin nümunəsini təqlid etməklə yaratmır, əksinə, onları Azərbaycan reallığına, milli xüsusiyyətlərinə, xalqımızın adət-ənənələrinə uyğunlaşdıraraq qəbul edir.

Dövlət quruculuğu ictimai şüurun inkişafı ilə paralel surətdə həyata keçirilir. Belə bir həqiqəti anlamaq gərəkdir ki, müstəqillik hər şeydən əvvəl, hər bir vətəndaşdan – istər dövlət məmuru olsun, istər ziyalı, istər hakim partiyanın üzvü olsun, istər müxalifətçi – dövlət və xalq qarşısında yüksək məsuliyyət, hər bir sahədə ciddi intizam, təşəbbüskarlıq, qanunçuluğa dönmədən əməl etmək tələb edir. İnsanların şüurunda dəyişiklik etmədən, ictimai şüurun ictimai varlığa adaptasiyasına nail olmadan həyata keçirilən islahatlar böyük uğur gətirə bilməzdi.

Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti hətta demokratikləşdirmə xətti ilə əlaqədar dönə-dönə qeyd edir ki, bu məsələdə tələsikliyə yol vermək sabitliyin pozulmasına gətirə bilər. Demokratiya cəmiyyətin hərtərəfli inkişafının qanunauyğun nəticəsi kimi ortaya çıxmalıdır.

Ölkədə həyata keçirilən ictimai-siyasi inkişaf xətti demokratikləşdirməni və fikir plüralizmini üstün prinsip kimi



nəzərdə tutur. Bu barədə Heydər Əliyev özü belə demişdir: "Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir pluralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim qəbul etdiyimiz prinsiplərdir". *(Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, 1997, səh.8).*

Azərbaycanda demokratiyanın bərqərar olması həm də strateji məsələdir. Qafqazda ciddi coğrafi-siyasi mövqeyə malik olan Azərbaycanın Qərb dövlətləri siyasi və iqtisadi əlaqələrinin güclənməsi Yaxın və Orta Şərqdə demokratiyanın inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

Heydər Əliyev dünyanın coğrafi-siyasi xəritəsində Azərbaycanın yerini möhkəmlətmək, onun beynəlxalq nüfuzunun artmasına nail olmaqla yanaşı, həm də daxildə ictimai-siyasi sabitliyi qorumaq, demokratik, hüquqi dövlət qurmaq istiqamətində bir sıra mühüm addımlar atmışdır ki, bunların da ən əhəmiyyətlisi yeni Konstitusiyanın hazırlanması oldu. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyası müstəqil dövlətin hüquqi əsaslarını müəyyən etdi və hüquqi dövlətə, vətəndaş cəmiyyətinə doğru cəsarətli və qətiyyətli addım oldu. İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edildi. Konstitusiyada insan hüquq və azadlıqlarına həsr olunmuş maddələr onun ümumi həcminin üçdə birindən çoxunu təşkil edir. Beynəlxalq hüquqi sənədlərdə və konvensiyalarda əksini tapmış bütün hüquq və azadlıqlar Konstitusiyada öz əksini tapıbdır. İnsan və vətəndaşın hüquq və azadlıqlarını məhdudlaşdıran

dəyişikliklər edilməsi, hər hansı bir maddənin bu ruhda təfsir edilməsi yolverilməz elan edilmişdir. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları olduğu bəyan edilmişdir. Burada insan hüquqları insanın mövcudluğu faktı ilə, onun təbiəti ilə şərtlənən meyar kimi qəbul edilmişdir. *Konstitusiyanı tamamilə haqlı olaraq, "insan hüquqları manifesti" adlandırmaq mümkündür.*

Müasir şəraitdə hər bir dövlətin demokratik imici onun insan hüquqlarına münasibəti ilə müəyyən edilir. Dövlətin inkişafı, demokratiya və insan azadlıqları bir-biri ilə üzvi surətdə bağlıdır və biri digərini şərtləndirir. Demokratiya daim inkişafdadır və bu, dinamik prosesdir. Demokratik cəmiyyətdə insan hüqqlarının pozulması nəinki cəmiyyətə qarşı yönəlmiş haldır, o, həmçinin sosial və siyasi problem olmaqla, dövlətlə cəmiyyət arasında tarazlığın pozulmasına, cəmiyyətin özündə zorakılığa və münaqişələrə səbəb olur. Lakin hər bir şəxsin azadlığının hüdudları digər şəxsin azadlığı başlanan anda sona çatır. Şəxsiyyətin hüquq və azadlıqları arasında bir harmoniya mövcud olmalıdır. Hər hansı bir şəxsin hüquqlarının həyata keçirilməsi digər şəxslərin hüquq və azadlıqlarının pozulmasına gətirib çıxarmamalıdır.

Azərbaycan Prezidenti tərəfindən insan hüquqlarının təminatının genişləndirilməsi sahəsində atılmış mühüm addımlardan biri də ölüm cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində görülən mühüm işlərdən biridir. Şərq aləmində ilk dəfə Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini



bir daha sübut etdi. Beynəlxalq Amnistiya Təşkilatı Azərbaycanda ölüm cəzasının ləğvinə gedən yolu digər ölkələr üçün nümunə kimi göstərmişdir.

*Ölkəmizdə aparılan hüquqi islahatlar ciddi konsepsiyaya söykənir və onun əsasında inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, eyni zamanda Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri dayanır.* Hüquqi islahatların konsepsiyası azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat yaratmışdır. Respublikamızda hüquqi islahatların sistemli və ardıcıl surətdə aparılması məqsədilə 1996-cı ildə Azərbaycan Prezidentinin sərəncamı ilə Hüquqi İslahat Komissiyası yaradılmışdır. Son illərdə 10-dan artıq yeni məcəllə və 1000-ə yaxın qanun qəbul edilmiş və bu qanunlar inkişaf etmiş Avropa ölkələrinin hüquq sistemlərinə tam uyğundur.

Bundan əlavə, islah-əmək müəssisələrində və istintaq təcridxanalarında təşkilati, qanunvericilik və digər məsələləri nəzərdə tutan tədbirlər proqramının hazırlanması üçün Azərbaycan Prezidentinin 1999-cu il 11 fevral tarixli fərmanı ilə komissiya yaradılmış və istintaq təcridxanalarının beynəlxalq standartlara uyğun təşkili və fəaliyyətinin tə'min olunması üçün onların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir nəzarət, mühafizə, mühəndis-texniki qurğularla və digər xüsusi vəsaitlərlə təmin edilməsi üçün zəruri tədbirlər görülməsi, məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Fərmana uyğun olaraq, tədbirlər proqramı hazırlanıb təsdiq edilmiş, istintaq təcridxanaları Daxili İşlər

Nazirliyindən alınıb Ədliyyə Nazirliyinə verilmişdir. Dünyada çox az ölkə tapılar ki, qısa müddətdə hüquqi islahatlar sahəsində belə nailiyyətlər əldə etmiş olsun. Respublikamızda hüquqi islahatlar Azərbaycanın çiçəklənməsi, hər bir vətəndaşın azad cəmiyyətdə yaşaması, şəxsiyyətin inkişafı naminə həyata keçirilir.

*Azərbaycanın Avropa Şurasına qəbul edilməsi də onun Avropa ölkələri tərəfindən müstəqil demokratik, dünyəvi dövlət kimi tanınması demək idi.* Azərbaycan bu etimadı doğrultdu. Bu yaxınlarda ölkəmizi bu qurumda təmsil edən nümayəndə heyətinin başçısı İlham Əliyevin Avropa Parlament Assambleyasının vitse-prezidenti və Büro üzvü seçilməsi Azərbaycana göstərilən etimadın daha bir parlaq nümunəsi oldu.

Cəmiyyətdə siyasi münasibətlərin mahiyyətini təşkil edən demokratik düşüncənin formalaşmasının hamı tərəfindən qəbul olunması üçün milli dövlətçiliyin əsası olan iqtisadiyyatı inkişaf etdirmək lazımdır. Azərbaycanda dövlət quruculuğunun əsas istiqamətlərindən biri də, heç şübhəsiz azad iqtisadi münasibətlərə uyğun islahatların və inkişaf proqramının həyata keçirilməsi idi.

İqtisadiyyatın bazis rolu oynaması, siyasətdə və mədəni-mənəvi həyata nisbətdə daha önəmli yer tutması haqqında marksist tezisdən fərqli olaraq, Azərbaycanın müasir iqtisadi quruculuğunda iqtisadiyyat, siyasət və mədəniyyətin bir-birini tamamlaması və qarşılıqlı inkişafı prinsipi rəhbər tutulur. Azərbaycanda iqtisadi inkişafın dövlət mülkiyyətinə əsaslanan əvvəlki təsərrüfat sistemindən, yeni mülkiyyət münasibətlərinə uyğun olaraq, sərbəst iqtisadi fəaliyyət prinsipinə keçməsi iqtisadi siyasət sahəsində dövlətin ana xəttini təşkil edir. Heydər Əliyevin dediyi kimi: «Biz həm ölkəmizin suverenliyini, ərazi bütövlüyünü



qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın, xalqımızın rifahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxtəlif və yeni formalardan istifadə edərək azad bazar iqtisadiyyatını, azad iqtisadi münasibətləri inkişaf etdirməyə çalışırıq». *(Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, 1997. səh.52)*

1995-ci ildən başlayaraq, iqtisadiyyatın bütün sahələrində ardıcıl olaraq islahatlar həyata keçirilir. Qəbul edilmiş yüzlərlə qanun əsasında mülkiyyət, torpaq, maliyyə-bank, pul-kredit islahatları, vergi, ticarət və s. sahələrdə islahatlar aparılır.

İslahatların dərinləşməsində həlledici yer tutan özəlləşdirmə prosesi sahəsində xeyli işlər görülmüş və kiçik özəlləşdirmə artıq yekunlaşmışdır. İri və orta müəssisələrin özəlləşdirilməsi ayrı-ayrı sahələrə investisiya axınının sürətlənməsinə, ölkənin iqtisadi potensialından daha səmərəli istifadə edilməsinə geniş imkanlar açır.

*Ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşunda «Əsrin müqaviləsi» və ondan sonrakı neft müqavilələri mühüm rol oynayır. Azərbaycanın xarici şirkətlərlə bağladığı neft müqavilələrinin sayı 21-ə çatmışdır və bu müqavilələr çərçivəsində neft sənayesinə 60 milyard ABŞ dolları həcmində investisiya ayırmağı nəzərdə tutulur. Dünyanın ən böyük şirkətlərindən biri olan təkcə «Bi-Pi» şirkəti Azərbaycana 8 milyard investisiya qoymağı qərara almışdır. Neft şirkətləri 4 layihənin reallaşdırılmasına 12 milyard dollar vəsait qoymağı planlaşdırırlar. Neft satışından əldə edilən ölkəmizin sosial-iqtisadi tərəqqisi üçün səmərəli şəkildə istifadə etmək məqsədi ilə xüsusi Dövlət Neft Fondu yaradılmışdır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi demək olar ki, reallaşmaqdadır.*

*Azərbaycan artıq regional iqtisadi, enerji, nəqliyyat layihələrinin mərkəzinə çevrilmişdir.* Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsində Azərbaycan mühüm rol oynayır. Əsasən iqtisadiyyat və nəqliyyat sahəsində əməkdaşlıq maraqları üzərində qurulmuş GUÖAM birliyinin yaradılmasının təşəbbüsçülərindən biri Azərbaycan olmuşdur. 1998-ci ilin sentyabrında Bakıda tarixi böyük İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın keçirilməsi bunun əyani sübutudur.

Şəxsi təşəbbüskarlığın və sahibkarlığın inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Əlverişli sahibkarlıq mühiti yaratmaq üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Bununla əlaqədar olaraq, sahibkarların hüquqlarını müdafiə edən, onların fəaliyyətinə əsas-sız müdaxilənin və yoxlamaların qarşısını alan iki fərman (1996-cı il 17 iyun tarixli və 1999-cu il 7 yanvar tarixli) qəbul edilmişdir. Hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində iş davam etdirilir.

Dövlətimizin fəal xarici siyasət xətti də müstəqilliyimizin möhkəmləndirilməsi üçün optimal beynəlxalq şərait yaradılmasına xidmət edir. Azərbaycan rəhbərliyi artıq aparıcı dünya dövlətləri ilə hərtərəfli iqtisadi, siyasi, mədəni əlaqələr qurmuş, dünya birliyinin tam hüquqlu, nüfuzlu üzvlərindən birinə çevrilmişdir.

Azərbaycan Respublikası bu gün BMT, MDB, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUÖAM, Amerika Dövlətləri Təşkilatı kimi nüfuzlu beynəlxalq və regional dövlətlərarası təşkilatların üzvüdür. NATO, Avropa Birliyi kimi qurumlarla sıx əməkdaşlıq qurulmuşdur.



Azərbaycan müstəqil dövlət quruculuğu və iqtisadi tərəqqi yolunda ən ciddi maneə, şübhəsiz, Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ problemidir. *Azərbaycan dövləti münaqişənin beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in Budapeşt və Lissabon sammitinin prinsiplərinə, Azərbaycan Prezidentinin Ki Uest bəyanatına uyğun həlli uğrunda çıxış edir, məqbul kompromislərə hazır olduğunu bildirir.* Tam əminliklə demək olar ki, Azərbaycan Prezidentinin apardığı ardıcıl, ədalətli mübarizə nəticəsini verəcək, münaqişə Azərbaycanın ərazi bütövlüyü, suverenlik və müstəqillik maraqları gözlənilməklə həllini tapacaqdır.

Ölkə rəhbərliyi siyasi fəaliyyətində varisliyin təmin edilməsi qayğısına qalır, XXI əsrdə Azərbaycanı idarə edəcək gənc, perspektivli kadrların dövlət vəzifələrinə irəli çəkilməsini cəsarətlə tətbiq edir və xüsusi nümunə göstərir. Məqsəd isə dövlət idarəçiliyinin davamlılığını və fasiləsizliyini təmin etmək, yaşlı, təcrübəli kadrların bilik və səriştəsi ilə gənclərin enerjisini, əldə etdikləri müasir vərdişləri və bacarığı birləşdirməkdən, milli idarəçilik potensialını maksimum gücləndirməkdən ibarətdir. Həmçinin nəzərdə tutulmalıdır ki, *indiki siyasi xətt, iqtisadiyyat, dövlət quruculuğu, insan hüquqlarının və azadlıqlarının təminatı sahəsində görülən işlər, gerçəkləşdirilən proqramlar uzun onilliklər üçün planlaşdırılır və onların uğurla başa çatdırılması üçün bilikli, bacarıqlı, vətənpərvər, məsuliyyətli, müasir beynəlxalq standartlara uyğun işləyə bilən, zəngin dövlətçilik məktəbini keçmiş kadrlar ordusuna ehtiyac vardır.*

Ölkədə demokratik proseslərin sivil, konstitusion normalar çərçivəsində getməsinin, müstəqil dövlət quruculuğunun mühüm şərti hakimiyyət-müxalifət dialoqu, ümummilli məsələlər ətrafında siyasi qüvvələrin konsensusa gəlməsidir. Məsələn, Yeni Azərbaycan Partiyası 1992-93-cü illərdə əvvəlcə sağlam, konstruktiv, milli-vətənpərvər müxalifət olduğunu, sonra isə milli-siyasi potensialdan tam istifadə etməyə, normal iqtidar-müxalifət münasibətləri qurmağa çalışan hakim partiya olduğunu sübut etmişdir.

Azərbaycan Prezidenti dəfələrlə yüksək kürsülərdən müxalifət partiyalarına müraciət edərək, onları dialoqu, ümummilli problemləri birgə həll etməyə, əməkdaşlığa çağırmışdır. Azərbaycan Prezidenti sonuncu dəfə müxalifətə belə bir çağırışla 2001-ci il mayın 26-da, Respublika gününə həsr olunmuş təntənəli mərasimdəki nitqində müraciət etmişdir. O, xüsusi vurğulamışdır ki, müstəqilliyimizin bundan sonra da möhkəmlənməsi, yaşaması, Azərbaycanın inkişaf etməsi ölkəmizdə vətəndaş birliyinin, həmrəyliyinin əsasında olmalıdır. Avropa Şurası Parlament Assambleyasında hakimiyyəti və müxalifəti təmsil edən deputatların səmərəli əməkdaşlığını müsbət nümunə kimi vurğulayan Prezident arzu etdi ki, bu kiçik çərçivədə olan əməkdaşlıq Azərbaycanda bütün qüvvələr arasında səmimi, Azərbaycanın milli mənafelərini təmin etmək üçün geniş əməkdaşlığa çevrilsin. Heydər Əliyev artıq neçənci dəfə yüksək kürsüdən xalqımızı, millətimizi, vətəndaşlarımızı, Azərbaycanda mövcud olan müxtəlif siyasi, ictimai qüvvələri Azərbaycanın bu günü və gələcəyi naminə birliyə, həmrəyliyə dəvət etdi.



Təbii ki, bu gün Azərbacan cəmiyyətinin sivil, konstruktiv, Konstitusiya və qanunlar çərçivəsində fəaliyyət göstərən müxalifətə ehtiyacı vardır. Elə bir müxalifətə ki, prinsipial tənqid və obyektivlik mövqelərində dayansın, milli, demokratik, vətənpərvər düşüncə və davranış nümayiş etdirsin. Təəssüflər olsun ki, hazırda özünü müxalifət adlandıran qüvvələrin xeyli hissəsi belə keyfiyyətlərdən məhrumdur.

Nə qədər qəribə və paradoksal olsa da, bir çox müxalif siyasətçilər və qurumlar üçün xarici təşkilatlarla, hətta açıq-aşkar antiazərbaycan qüvvəllərlə əməkdaşlıq, təhrif olunmuş və siyasi konyukturaya uyğunlaşdırılmış informasiya ötürülməsi normal qəbul edilir. Hakimiyyətlə hər hansı əlaqələr, ümumi məqsədlər naminə əməkdaşlıq isə bu düşərgədə separatçılıq və satqınlıq kimi qiymətləndirilir. Azərbaycanın Avropa Şurasına qəbul edilməsini əngəlləmək üçün bir çox pozucu, dağıdıcı müxalifət qüvvələrinin ardıcıl fəaliyyəti, Azərbaycanda parlament seçkilərinin BMT tərəfindən keçirilməsi haqqında cəfəng tələblər, xaricdə Azərbaycanın açıq düşməni, ermənipərəst konqresmenlərlə sıx işbirliyi, müxtəlif xarici qüvvələrin diktəsi ilə müxalifətin fəaliyyətinin əlaqələndirilməsi – bütün bunlar antimilli, pozucu müxalifəti xarakterizə edən biabırçı faktlardır. Qəribə və təəccüblü olan budur ki, belə hallardan sonra da həmin müxalifət qurumlarının başbilənləri özlərini milli amallar və demokratiya uğrunda mübariz kimi qələmə verir, Azərbaycan dövlətinin gördüyü böyük işləri şübhə altına almağa çalışırlar.

Bunları sağlam məntiqlə və *mənəvi meyarlarla izah etmək və başa düşmək mümkün deyildir. Lakin müxalifət düşərgəsində də gec-tez sağlam təfəkkürün qələbəsinə şübhə yoxdur: inkişaf etmiş demokratik*

*dövlətlərdə olduğu kimi, Azərbaycanda da tədricən sivil, normal, vətənpərvər müxalifət formalaşacaq və o, cəmiyyətin inkişafının güclü amilinə çevriləcəkdir.*

Dövlət quruculuğunun mühüm istiqamətlərindən biri də milli mədəniyyətin hərtərəfli inkişafına nail olmaq, milli-mənəvi dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi üçün obyektiv ictimai zəmin yaratmaqdır.

Dövlətimiz milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürür. Bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək və onu qorumaq əzmindədir. Çünki milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı olmur. Belə ki, milli dövlət, bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən və daha artıq dərəcədə milli-mənəvi dəyərlərin qorunması və müstəqil inkişafın təmin olunması məqsədi daşıyır.

Cəmiyyətdə yaranmış mənəvi-psixoloji mühitin araşdırılması, müstəqil dövlətçilik və Azərbaycan vətəndaşlığı prinsiplərinin mənəvi inkişafın əsas postulatlarına çevrilməsi hazırkı hakimiyyətin əsas fəaliyyət istiqamətlərindəndir.

Heydər Əliyevin fəaliyyətində mənəvi problemlər, Azərbaycan mədəniyyətinin, elminin, incəsənətinin, musiqisinin, Azərbaycan dilinin inkişafı məsələləri həmişə prioritet əhəmiyyət və məna kəsb etmişdir. Xalqımızın mentalitetini, günümüzün reallıqlarını, tarixi keçmişimizi, ümummilli psixoloji yönümlərimizi, adət-ənənələrimizi və



sivil beynəlxalq təcrübəni nəzərə alan azərbaycançılıq ideologiyasının yaranması və yayılması onun məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Bu gün qarşıda dayanan və gələcəkdə meydana çıxa biləcək problemlərin uğurlu həlli üçün azərbaycançılıq ideologiyasının bütün elementlərinin möhkəm mənimsənilməsi zəruri şərt hesab edilməlidir. Bu ideologiyanın əsas qayəsini – müstəqillik, azərbaycançılıq, dövlətçilik, dünyəvi respublika, ədalətlilik, demokratiya, milli tərəqqi, bəşərilik kimi anlayışlar təşkil edir. Məhz ona görə də, Azərbaycan xalqına vahid tam kimi baxılmalı, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, ölkənin bütün vətəndaşları Azərbaycan xalqının tərkib hissəsi kimi qəbul edilməlidir. Daha geniş miqyasda isə Azərbaycanı bütün dünya azərbaycanlılarının vətəni hesab etməliyik.

Heç də təsadüfi deyil ki, dünya azərbaycanlıları ilə əlaqələrin inkişaf etdirilməsi, onların Azərbaycan dövlətinin ətrafında sıx birləşdirilməsi dövlətini siyasətinin mühüm tərkib hisələrindəndir. *Dünya azərbaycanlıları arasında həmrəyliyin gücləndirilməsi tarixi zərurətdən, soydaşlarımızın ümummilli ideyalar ətrafında birləşdirilməsinin vacibliyindən irəli gəlir. Təcrübə göstərir ki, mütəşəkkil icmalar halında dünyanın müxtəlif ölkələrində yaşayan, məqsədyönlü fəaliyyət göstərən, özünəməxsus milli ideyalar ətrafında birləşən, mütərəqqi adət-ənənələrini qoruyub saxlayan soydaşlar öz ölkələrinə böyük kömək göstərir, yaşadıqları ölkələrlə tarixi vətən arasında qarşılıqlı faydalı əməkdaşlığın qurulmasında güclü amil kimi çıxış edirlər.* Müstəqil Azərbaycan Respublikasının getdikcə güclənməsi, zəngin və demokratik bir ölkəyə çevrilməsi, təbii ki, həm dünya azərbaycanlılarının milli birliyinə, Azərbaycan xalqına və dövlətinə mənsubluq hissinə

mütəşəkkilik, yenilik və daimilik gətirəcək, həmçinin bütün dünyada onların vətəndaş və milli haqlarının daha dolğun təmin olunmasına, qorunmasına təkan verəcəkdir.

2001-ci il noyabrın 9-10-da Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının I qurultayı ölkənin ictimai-siyasi həyatında və dünya azərbaycanlılarının həmrəyliyinin güclənməsi işində əlamətdar hadisə oldu və Heydər Əliyevin azərbaycançılıq ideyalarının təntənəsinə çevrildi.

«Bu gün Azərbaycanın iqtisadi, sosial, mənəvi və siyasi həyatının bütün sahələri dünya sivilizasiyasının nailiyyətlərinə tam cavab verən bir səviyyədədir. Azərbaycanın XX əsrdə yaratdığı qüdrətli iqtisadi potensial, böyük mütəxəssislər ordusu xalqımızın ümdə maraqlarının və arzularının həyata keçirilməsi üçün möhkəm baza, əlverişli zəmin rolunu oynayır». Azərbaycan Prezidentinin yeni əsr, yeni minillik münasibətilə Azərbaycan xalqına müraciətindən götürülmüş bu fikirlər xalqımızın tarixi, dövlətçiliyi, mədəniyyəti haqqında əsassız, səviyyəsiz və qərəzli mülahizələrlə çıxış edən bədxah «tədqiqatçılara», «ideoloqlara» və «siyasətçilərə» layiqli cavab verməkdə alimlərimiz üçün təməl prinsiplər rolunu oynamalıdır.



## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏT FƏALİYYƏTİNİN FORMALAŞMASI

**Əli HƏSƏNOV**

*Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı İctimai-siyasi şöbəsinin müdiri, tarix elmləri doktoru*

Hər bir müstəqil dövlət özünəməxsus prinsip və xüsusiyyətlərlə fərqlənən, müxtəlif istiqamətli daxili və xarici siyasət yeridir. Dövlətin daxili siyasəti xalqın ümumi rəyi ilə yaradılmış və qəbul olunmuş Konstitusiya əsasında onun tam bir varlıq kimi yaşamasına, fəaliyyətinə, ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrində təmsil etdiyi vətəndaşların maddi və mənəvi tələbatının fasiləsiz təmin edilməsinə yönəldilirsə, xarici siyasət bu vəzifələrin yerinə yetirilməsi və habelə öz ərazisində qanunverici, icraedici və məhkəmə hakimiyyətinin hec bir kənar müdaxilə olmadan həyata keçirilməsi üçün təhlükəsiz və əlverişli beynəlxalq şərait yaradılması məqsədilə zəruri tədbirlər kompleksinin təmin edilməsinə, ayrı-ayrı dövlətlərlə qarşılıqlı-faydalı əməkdaşlığa, iqtisadi, siyasi, sosial və mədəni həyatın bütün sahələrində əldə edilmiş beynəlxalq təcrübələrin mənimsənilməsinə, qarşıya çıxan problemlərin aradan qaldırılması yönümündə dövlətlərin səylərinin birləşdirilməsinə və s. xidmət edir. Başqa sözlə ifadə etsək, ölkə

daxilində gedən proseslərdən və qarşıya qoyulan vəzifələrdən irəli gələn siyasi xətt dövlətin beynəlxalq münasibətlər sahəsində mövqeyini və buradan da onun xarici siyasətinin istiqamətlərini, xarakterini, prinsiplərini müəyyənləşdirir və şərtləndirir. Bu mənada xarici siyasəti dövlətin daxili inkişafının əsas vəzifələrindən irəli gələn, xalqın özəl dövlət mənafeləri ilə xarici aləmin maraq və mənafeləri arasında sivilizasiyalı birgə yaşayış qaydaları və normaları əsasında uyğunlaşdırılmış, uzlaşdırılmış münasibətlər sistemi yaratmağa xidmət edən məqsədyönlü fəaliyyət növü kimi xarakterizə etmək olar.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət tarixini öyrənmək, onun əsas vəzifələrini, prinsip və xüsusiyyətlərini, həyata keçirilməsi metodlarını araşdırmaq indiki şəraitdə mühüm elmi və praktiki əhəmiyyətə malikdir. Bu, bir tərəfdən, özünün xarici siyasət konsepsiyasının yaranması, təkmilləşdirilməsi və həyata keçirilməsi mərhələsini yaşayan müstəqil Azərbaycan dövlətinin gələcək diplomatik fəaliyyətində indiyə qədər buraxılan səhvlərin aradan qaldırılması, digər tərəfdən isə xarici siyasətin yeni istiqamətlərinin və taktiki gedişlərinin müəyyən edilməsi üçün zəruri elmi-nəzəri bazanın yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri respublika Prezidenti Heydər Əliyevin ayrı-ayrı çıxışlarında və Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan Prezidenti 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki



çıxışında qeyd etmişdir ki, "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

Azərbaycan dövlətinin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələri aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar:

- ölkənin müstəqilliyini, suverenliyini və beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü qorumaq, onun təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə sıx əlaqələndirmək;
- Azərbaycanın bütün beynəlxalq və regional təşkilatlarda təmsil olunması, sivilizasiyalı birgə yaşayış qaydaları ilə tənzimlənən böyük dünya siyasətinə qatılması və beynəlxalq və regional münasibətlərin həllinə fəal iştirak etməsi zəminində dünyanın siyasi xəritəsində layiqli yer tutmasına nail olmaq;
- dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq əlaqələri yaratmaq, bu əlaqələrdən respublikanın iqtisadiyyatının, elminin və mədəniyyətinin inkişafında səmərəli amil kimi istifadə etmək;

– mənafeyi Azərbaycanın dövlətçilik və milli mənafeləri ilə uyğun gələn dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikamızın beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından isttifadə etmək;

– ölkəmizin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi, müstəqil daxili və xarici siyasət yeritməsi üçün əlverişli beynəlxalq şəraitin bərqərar olmasına çalışmaq;

– əhalinin əsas hüquq və azadlıqlarının qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsinə şərait yaratmaq;

– regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək;

– Azərbaycana xarici təzyiqlərin qarşısını alan və ya onları minimuma endirən beynəlxalq himayə mexanizminin yaradılmasına nail olmaq;

– dövlətimizin bütün beynəlxalq, regional, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. qurumlarda və təşkilatlarda fəal iştirakına çalışmaq;

– xalqın mənafeyinə tabe edilmiş xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası üçün bütün xarici və daxili amillərdən bəhrələnmək;

-xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr və geniş informasiya mübadiləsi mexanizmləri yaratmaq və s.

Bütün bu vəzifələr və onların həyata keçirilməsi ilə bağlı konkret səylər həm Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ayrı-ayrı çıxışlarında, həm də beynəlxalq, regional və dovlətlərarası münasibətlər sahəsində Azərbaycan dövlətinin atdığı praktiki addımlarda, bağlanan müqavilələrdə öz əksını tapmışdır.



Müstəqil Azərbaycan dövlətinin xarici siyasəti özünəməxsus xüsusiyyətləri ilə də secilir. Azərbaycanın xarici siyasətinin mahiyyətinə və xüsusiyyətlərinə toxunan Prezident Heydər Əliyev qeyd etmişdir ki, "...bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq".

Siyasi sahədə Azərbaycan dövlətinin xarici siyasətinin əsas mahiyyəti beynəlxalq hüquq normaları və prinsipləri ilə tənzimlənən sivilizasiyalı dövlətlərarası münasibətlərə hörmət etməkdən, beynəlxalq, regional və dövlətlərarası münaqişələr sülh və danışıqlar yolu ilə həll etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan;

iqtisadi sahədə – qarşılıqlı-faydalı əməkdaşlıq yaratmaqdan, dünya ölkələrinin imkanlarından Azərbaycan iqtisadiyyatının, Azərbaycanın imkanlarından isə dünya dövlətlərinin mənafelərinin təmin olunması üçün səmərəli istifadə etməkdən, iqtisadi maraqların uzlaşdırılmasından, uyğunlaşdırılmasından, qarşılıqlı təminat mexanizminin yaradılmasından və onun qorunmasından;

mədəni sahədə - dövlətlərarası əlaqələrə və ünsiyyətlərə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan, mənəvi sərvətlərin maneəsiz, azad və demokratik mübadiləsindən və s. ibarətdir.

Respublikamızın xarici siyasətinə xas olan xüsusiyyətlərindən bəhs edərkən Azərbaycan Prezidenti beynəlxalq, regional və dövlətlərarası münasibətlərin inkişaf tendensiyasına uyğun çevik, praqmatik və tarazlı siyasət yeridilməsini, qonşu ölkələrlə əlaqələr

qurulmasına üstün yer verilməsini, dünya siyasətinə əhəmiyyətli təsir göstərən böyük dövlətlərlə partnyorluq münasibətlərinin yaradılmasının ön plana çıxarılmasını, onların maraqları ilə Azərbaycanın strateji mənafelərinin uzlaşdırılması zəruriyyətini və s. mühüm amilləri də xüsusi vurğulamışdır.

Azərbaycan demokratik və hüquqi dövlət quruculuğu yolu tutduğundan onun xarici siyasəti də dünya təcrübəsinin bütün mütərəqqi nailiyyətlərini, sivil beynəlxalq normaları özündə əks etdirir və hər cür etmək və dini məhdudiyyətləri inkar edir. Azərbaycanın müasir xarici siyasəti açıq və demokratik prinsiplər əsasında qurulmuş, xalqımızın və dövlətimizin mənafelərinə, mentalitetinə zidd olmayan bütün beynəlxalq normaları özündə birləşdirmişdir.

Müstəqilliyinin ilk illərində Azərbaycanın xarici siyasətini əsasən etnik və dini təəssübkeşlik üzərində qurmağa cəhd edən ayrı-ayrı siyasi qüvvələr və dövlət rəhbərləri zamanın sınağından çıxa bilmədilər. Çünki beynəlxalq aləmin yüzillərlə yaranmış və formalaşmış sivilizasiyalı münasibətlər sistemi dövlətlərarası əlaqələrin etnik və milli birlik amili üzərində deyil, tərəflərin mənafelərinin tarazlığı, qarşılıqlı təminatı üzərində qurulmasını tələb edirdi. Hec şübhəsiz ayrı-ayrı dövlətlərin əlaqə və münasibətlərinin müəyyən edilməsində etnik və dini təssübkeşlik prinsipi əsas rol oynayır və çoxəsrlik tarixi olan bu amili beynəlxalq siyasətdə tamamilə inkar etmək mümkün deyil. O hər zaman dövlətlərarası münasibətlərin qurulması və inkişafına öz ciddi təsirini göstərmiş, göstərir və bundan sonra da göstərəcəkdir. Lakin dövlətlərarası münasibətlərin sırf etnik və dini mənsubiyyət əsasında qurulması, bir qayda olaraq, müasir beynəlxalq münasibətlərin inkişaf tendensiyası ilə ziddiyyət təşkil edir və bu meyara istinad edən dövlətin beynəlxalq aləmdən təcrid olunması təhlükəsi yaranır. Buna görə də eyni dinə və soy kökə malik xalqlar və dövlətlər arasında da əlaqələrin qurulması, mədəni, humanitar və s. sahələrdə münasibətlərin yaradılaraq gücləndirilməsi ifrat millətçi və dini meyllərin yaranması istiqamətində deyil, bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq, dünya inteqrasiyası istiqamətində inkişaf etdirilməlidir.



1993-cü ilin ikinci yarısından etibarən Azərbaycanın xarici siyasət sahəsində tutduğu yolun mahiyyəti məhz bu amillərlə səciyyələnir. Ölkə Konstitusiyasının 7-ci maddəsində göstərilir ki, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Deməli, onun xarici siyasəti də bu prinsipləri özündə əks etdirməli, beynəlxalq münasibətlərin sivil və demokratik əsaslar üzərində qurulmasına istiqamətlənməlidir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətini səciyyələndirən əsas cəhətlərdən biri də onun beynəlxalq hüquq normalarına, beynəlxalq prinsiplərə uyğun şəkildə qurulmasıdır. Respublika Prezidenti Heydər Əliyevin həyata keçirdiyi xarici siyasət xəttində, beynəlxalq, regional və dövlətlərarası münasibətlər sahəsində diplomatiyamızın gördüyü bütün işlərdə bu norma və prinsiplər daim qorunur və nəzərə alınır. Bu mövqedən çıxış edən Azərbaycanın xarici siyasəti xalqın və dövlətin strateji maraqlarını tam əks etdirməklə bərabər, həm də beynəlxalq hüquq normalarına, beynəlxalq təşkilatların əsas prinsiplərinə, sivil birgə yaşayış qaydalarına tam uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur". Beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər Azərbaycanın da üzv olduğu BMT-nin nizamnaməsində, ATƏT-in "Helsinki aktı"nda və "Paris xartiyasında" öz əksini tapmışdır. Azərbaycan dövlətinin beynəlxalq, regional və dövlətlərarası münasibətlər sahəsində əsaslandığı əsas prinsiplər aşağıdakılardan ibarətdir:

– Hər bir dövlətin suveren hüquqlarına hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, ölkələrin dövlət quruculuğu və sosial-siyasi inkişaf modelləri arasındakı fərqlərdən asılı olmayaraq seçdiyi inkişaf yoluna hörmətlə yanaşmaq, dövlətlərarası münasibətlərdə beynəlxalq normaları və üzərinə götürdüyü öhdəlikləri vicdanla yerinə yetirmək;

– beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun olaraq dövlətlərin ərazi bütövlüyünü pozulmasına, sərhədlərinin zorla dəyişdirilməsinə və dövlət müstəqilliyinin təhlükə altına alınmasına yol verməmək, mübahisəli məsələləri dinc yolla həll etmək;

– ictimai-siyasi, iqtisadi və mədəni əlaqələrdə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq, ortaq maraq və mənafeləri qorumaq, qarşılıqlı təhlükəsizliyə can atmaq, dinc və faydalı əməkdaşlıq üçün perspektivli adıdımlar axtarmaq və həyata keçirmək;

– ikitərəfli əlaqələrdə beynəlxalq hüquq normalarını və sivilizasiyalı birgə yaşayış qaydalarını, başqa dövlətlərin, regional və beynəlxalq birliklərin mənafelərini nəzərə almaq;



– xalqların və millətlərin öz müqəddəratlarını təyin hüququna hörmət etmək, insan hüquqlarını və haqlarını qorumaq;

– separatizmə, terrorizmə, dövlətlərin və xalqların təhlükəsizliyinə, maddi və mənəvi həyatına ziyan verə biləcək digər neqativ hallara qarşı birgə mübarizə aparmaq;

– bəşəriyyəti və ayrı-ayrı dövlətlərin xalqlarını narahat edən qlobal problemlərin həlli istiqamətində birgə çalışmaq, bütün səyləri birləşdirmək və sair.

Beynəlxalq prinsiplər BMT, ATAT və digər beynəlxalq təşkilatların üzvü olmuş bütün dövlətlər üçün məcburi xarakter daşıyır. Bəşər cəmiyyəti bəhs etdiyimiz prinsipləri beynəlxalq münasibətlər sisteminin və sivilizasiyalı birgə yaşayışın əsas hüquq normasına çevirmək üçün yüzillərlə qanlı müharibə və dağıntılarla müşayiət olunan tarixi bir dövr keçmişdir.

Hazırda bütün dünya dövlətləri, regional və məhəlli təşkilatlar istər ayrı-ayrılıqda, istərsə də birgə bağladığı müqavilələrdə, həyata keçirilən tədbirlərdə, BMT-nin nizamnaməsində, ATAT-in 1975-ci ildə imzalanmış "Helsinki aktı"nda və 1990-cı il "Paris Xartiyasında" öz əksini tapmış prinsip və normaları qorumağa, onlara əməl etməyə borcludurlar.

Beynəlxalq hüquq normaları və prinsipləri hazırda beynəlxalq münasibətlər praktikasında hamının qəbul edə biləcəyi, sivilizasiyalı dövlətlərarası münasibətlərin inkişafına və möhkəmlənməsinə bu və ya digər dərəcədə müsbət təsir göstərə biləcək yeni-yeni kollektiv sənədlərlə, müqavilə və maddələrlə zənginləşdirilir. Azərbaycan son üç ildə otuza qədər belə birgə sənədə imza atmış, özünün hüquqi fəaliyyət və öhdəlik dairəsini genişləndirmişdir.

Müstəqil Azərbaycan diplomatiyası bəhs olunan sivil məcraya və normal inkişaf istiqamətinə düşmək üçün 1991-ci ilin sonundan günümüzə qədər mürəkkəb və ziddiyyətli bir yol keçmişdir.

Ümumiyyətlə, müstəqil Azərbaycan dövlətinin xarici siyasət tarixinə qısa nəzər salsaq görərik ki, 1991-ci ildə və 1992-ci ilin birinci yarısında Azərbaycan dövlətinin xarici siyasətinin əsasını Rusiya-Azərbaycan əlaqələri və bütövlükdə Rusiyaya meyllilik strategiyası təşkil edirdi. Mütəllibov hökuməti SSRI-nin dağılması ərəfəsində dünyada və SSRI-də gedən ictimai-siyasi proseslərə, beynəlxalq və regional hadisələrin inkişaf meyllərinə zidd siyasət yeridərək, bütün mümkün vasitələrlə imperiyanı qoruyub saxlamağa çalışanlarla bir sırada dayanır və Azərbaycanın bu qurum tərkibindən ayrılmasına yol verməməyə səy göstərirdi. Bu məqsədlə hətta o, SSRI-nin dağılmasına cəmi bir neçə ay qalmış Sovetlər İttifaqının saxlanılması haqqında Moskvanın təşkil etdiyi və Azərbaycan əhalisinin əleyhinə olduğu referendumu (mart 1991-ci il) Azərbaycanda da keçirərək səsvermədə iştirak edənlərin guya 93,3%-nin SSRI-nin saxlanılmasına tərəfdar olması haqqında mərkəzə saxta məlumat vermişdi. A.Mütəllibov rejiminin əksinə olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi o zaman SSRI-nin saxlanılması haqqında referendumun Naxçıvan ərazisində keçirilməsindən imtina etmiş, beləliklə də əhalinin müstəqillik əzmini və arzularını nümayiş etdirmişdir.

Əslində xalqın təzyiqi və o zamankı ictimai-siyasi proseslərinin təsiri A.Mütəllibov hakimiyyəti dövründə qəbul edilmiş 30 avqust 1991-ci il "Müstəqillik haqqında bəyannamə" və 18 oktyabr



1991-ci il "Müstəqillik haqqında Konstitusiya Aktı" da SSRİ-nin tam dağılmasını təsdiqləyən 8 dekabr 1991-ci il tarixli Belovejsk sazişinə qədər hüquqi sənəd qüvvəsinə mindirilmədi. Onun hüquqi sənəd kimi qüvvəyə malik olmasını təmin edəcək "Müstəqillik haqqında" referendum yalnız 1991-ci il dekabrın 29-da keçirildi və SSRİ-nin saxlanılması haqqında 1991-ci il mart referendumunun nəticələri qüvvədən salındı. Bütün bunlar göstərir ki, Azərbaycan hökuməti o dövrdə nəinki müstəqil siyasət yeritmirdi, əksinə respublikanın o zamankı müstəqillik imkanlarına hər vasitə ilə mane olmağa çalışırdı.

SSRİ dağıldıqdan və Azərbaycan müstəqil dövlət statusu aldıqdan sonra belə A.Mütəllibov hökuməti xarici siyasətdə yalnız Rusiyaya birtərəfli üstün meyllilik və beynəlxalq münasibətlərə Moskvanın movqeyinə uyğun yanaşma kursu güdürdü. Bu da sözsüz ki, həmin dövr üçün nə Azərbaycanın iqtisadi, siyasi maraqlarını əks etdirir, nə də onun müstəqilliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün, suveren dövlət hüquqlarının qorunması və beynəlxalq təminatına cavab verirdi. Buna görə də həmin mərhələdə yeridilən siyasət Azərbaycanın dövlət mənafelərini bütövlükdə nə dövlətlərarası, nə də regional və beynəlxalq münasibətlərin əsas inkişaf tendensiyası ilə uzlaşdırmağa imkan vermədi və verə də bilməzdi. Bəhs etdiyimiz dövrdə bütövlükdə Rusiya prizmasi və mövqeyi üzərində qurulan xarici siyasəti çətin ki, müstəqil dövlətin xarici siyasət kursu kimi qiymətləndirilsin.

Azərbaycanın siyasi hakimiyyətində dəyişiklik baş verdikdən sonra, yəni 1992-ci ilin mart ayından 1993-cü ilin iyun ayına qədərki dövrdə də yeni hakimiyyət xarici siyasət sahəsində

dövlətin qarşısında duran strateji məqsədlərə nail olmaq baxımından A.Mütəllibov dövründən uzağa gedə bilmədi. Əgər birinci mərhələdə məqsəd və məramı bilinməyən xarici siyasət birbaşa Moskvadan diqtə olunurdusa və hər şey Rusiyaya, onun rəhbərlərinin mövqeyinə bağlı idisə, ikinci mərhələdə bunun əksinə, lakin yenə də birtərəfli qaydada, beynəlxalq siyasətin obyektiv gerçəkliyi, dövlətin real vəziyyəti və mənafeləri nəzərə alınmadan yalnız Türkiyə ilə münasibətlərə üstünlük verilməsi, başqa dövlətlərlə əsassız gərginliyin yaradılmasına səbəb olan addımların atılması və s. kimi ziyanlı hallar açıq müşahidə olunan ənənə halını alırdı. Bunu isə Azərbaycanın dövlətçiltk mənafeyinə cavab verməyən, düşünülməmiş, təhlükəli, ağır və gözlənilməz nəticələr doğuran xarici siyasət xətti kimi qiymətləndirmək olar.

Qeyd olunan dövrdə Azərbaycan hökumətinin xarici siyasətini xarakterizə edən əsas cəhtələrdən biri vahid xətt üzrə aparılan ardıcıl və prinsipial xarici siyasət kursunun olmaması idi. Ə.Elçibəy hökumətinin xarici siyasət kursu və beynəlxalq münasibətlər sahəsində həyata keçirdiyi tədbirlər bütövlükdə vahid bir konsepsiya və sistem əsasında deyil, ayrı-ayrı məsul vəzifə sahiblərinin təsadüfi bəyanatları, çox vaxt bir-birini təkzib edən, ziddiyyətli və emosional çıxışları üzərində qurulmuşdu. Xarici siyasət və diplomatik missiya qarşısında duran əsas vəzifələri, Azərbaycan dövlətinin strateji mənafelərini, regional və beynəlxalq münasibətlər sahəsində dövlət siyasətinin əsas mahiyyətini müxtəlif səviyyəli dövlət rəhbərləri fərqli şəkildə izah edərək, bir-biri ilə uzlaşmayan addımlar atırdılar.



Cənubi və Şimali Azərbaycanın təcili birləşdirilməsinə dair çağırışlar, Ermənistanı atom bombası ilə dağıtmaq, Rusiya və keçmiş sovet respublikaları ilə haqq-hesab çəkməyə hazırlıq haqqında məsuliyyətsiz bəyanatlar, bütün türkdilli və türkəsilli dövlətləri dərhal "birləşdirməyə", "Çinə türk bayrağı sancmağa" dair yüksək səviyyələrdə səslənən müraciətlər Azərbaycanın xarici siyasətinin ali məqsədi və vəzifələri, əsas prinsip və istiqamətləri haqqında beynəlxalq aləmdə yanlış rəy yaradır, respublikamızın beynəlxalq imicinə zərbə vururdu. Bütövlükdə təsadüfi bəyanatlar, məsuliyyətsiz və ziddiyyətli çıxışlar üzərində qurulmuş xarici siyasət Azərbaycanın bir ilin içərisində regionda və beynəlxalq aləmdə tam təklənməsinə və respublika ətrafında antiazərbaycan koalisiyasının yaranmasına səbəb oldu.

Ə.Elçibəy hökumətinin xarici siyasət sahəsindəki əsas səhvləri sırasında respublikamız ətrafında yaranmış regional və beynəlxalq münasibətlərin xarakterini, əsas tendensiyasını və axarını düzgün müəyyən edə bilməməsi;

-ayri-ayri region dövlətlərinin Azərbaycanda kəsişən və toqquşan təsir və nüfuz dairələrini qiymətləndirə bilməməsi və müvafiq olaraq səhv addımlar atması;

– həmin dövr üçün Azərbaycanın geostrateji əhəmiyyətini və dünya dövlətlərinin mənafe müstəvisində yerini düzgün qiymətləndirməməsi və sairə düşünülməmiş addımları xüsusi qeyd edilməlidir. Bütün bunlar nəticə etibarilə Azərbaycanı çox pis və ağır vəziyyətə saldı. Bir tərəfdən, region dövlətləri ilə münasibətlər kəskinləşdi, digər tərəfdən isə beynəlxalq himayəyə olan inam itdi və bu himayəni təmin edə biləcək dövlətlərlə münasibətlər sərinləşdi. Azərbaycan beynəlxalq aləmdə təkləndi.

Beləliklə, Ə.Elçibəy hökumətinin xarici siyasət xətti Azərbaycan dövlətini beynəlxalq aləmdən tamamilə təcrid etməklə bərabər, respublikanın strateji mövqeyinə və təbii sərvətlərinə xüsusi maraq göstərən bəzi dövlətləri də qeyri-adekvat addımlar atmağa sövq etdi. Bütün bunlar Azərbaycanda dövlət quruculuğu sahəsində baş alıb gedən hərc-mərclik, özbaşınalıq, ayrı-ayrı dövlətlər və siyasi dairələr tərəfindən dəstəklənən silahlı qüvvələrin hakimiyyət uğrunda mübarizəsi ilə müşayiət olunurdu. Nəticədə 1993-ci ilin yayında Azərbaycan dövlətçiliyi qaçılmaz böhran və məhvolma təhlükəsi qarşısında qaldı.

1993-cü ilin yayında Azərbaycanda baş verən hakimiyyət dəyişikkliyi onun xarici siyasət fəaliyyətinin də yeniləşməsinə və ölkənin strateji maraqları əsasında yenidən qurulmasına şərait yaratdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilk növbədə keçmiş sələflərinin xarici siyasət sahəsində buraxdığı səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalşmış son dərəcə gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq, ölkənin strateji maraqlarını əks etdirən yetkin xarici siyasət konsepsiyası hazırlamaq zərurəti ilə üzləşdi.

Eyni zamanda, Azərbaycan dövlətinin strateji maraqlarını beynəlxalq güc mərkəzlərinin, region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmaq üçün silsilə tədbirlər düşünülüb həyata keçirilməli, respublikamızın mənafelərini qorumaq və reallaşdırmaq üçün hərtərəfli ölçülüb-biçilmiş addımlar atılmalı idi. Bu işin ən çətin tərəfi müxtəlif dövlətlərin bütövlükdə Qafqaz regionu və bilavasitə Azərbaycan Respublikası üzərində kökləniiş imperiya ambisiyaları, ərazi



iddiaları, iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizəsinin reallıqlarını, onlarin kəsişən və toqquşan maraqlarını dəqiq müəyyənləşdirmək, çevik manevrlər və xüsusi taktiki gedişatlarla Azərbaycanın dövlətcilik mənafelərini maksimum qorumaq idi.

Digər tərəfdən, geniş elmi və analitik təhlil əsasında Azərbaycanın geosiyasi vəziyyəti və dövlətin ona təsir etmək üçün real imkanları oyrənilməli, bütün diplomatik imkanlar va vasitələr səfərbər edilməli, müvafiq tədbirlər proqramı işlənib hazırlanmalı idi. 1993-cü ilin ikinci yarısına qədər Azərbaycanın beynəlxalq aləmdə uğursuzluğa düçar olması əsasən məhz bu amillərin nəzərə alınmaması nəticəsində baş vermişdir.

1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsir etmə imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Ilk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər müstəvisində yeri, Avropa ölkələri və ABŞ-la, kecmiş Sovet respublikalari və Rusiya ilə, müsəlman dünyası və Iranla, türkdilli dövlətlər və Türkiyə ilə, Cənubi Asiya dövlətləri və başqa ölkələrlə əlaqələrinin yaxın dövr üçün prioritetləri, istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi, hər qrupa daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə münasibətlərin düşünülmuş, bütün amilləri nəzərə alan sistemi yaradıldı.

Azərbaycanda müstəqil dövlət quruculuğu vəzifələri - müstəqilliyin möhkəmləndirilməsi, təhlükəsizliyin, ərazi bütövlüyünün və iqtisadi maraqların təmin olunması və s. Özünəməxsus xüsusiyyətlərlə, vəzifə və taktiki gedişlərlə fərqlənən müxtəlif

istiqamətli xarici siyasət yeridilməsini tələb edirdi. Ona görə də Prezident Heydər Əliyev Azərbaycanın müstəqilliyinin dönməzliyinə nail olmaq, ölkəni tədricən ənənəvi siyasi təsir dairəsindən cıxarmaq, tarixən formalaşmış xarici iqtisadi, siyasi və mədəni əlaqələrdən onun müstəqillik manafeləri ücün daha səmərəli istifadə olunmasını və Şərqlə Qərb arasındakı münasibətlər sistemində Azərbaycanın özünəməxsus yer tutmasını təmin etmək ücün region dövlətlərinin köklü mənafelərinə və maraqlarına toxunmamaq şərti ilə tarazlaşdırılmış siyasət mexanizmlərini həyata kecirməyə başladı.

Ilk növbədə regionda böyük təsir gücünə malik olan Rusiya ilə qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlər sisteminin yaradılması strategiyasının əsası qoyuldu. Iki ölkə arasındakı münasibətləri normallaşdırmaq üçün bütün incəlikləri nəzərə alan yollar, vasitələr araşdırıldı, hər iki tərəfin mənafeyinə cavab verən iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı üçün bir sıra təsirli addımlar atıldi.

Müstəqil dövlət quruculuğu prosesində Rusiya ilə əlaqələrdən bəhrələnmək, bəzi imperiyapərəst qurumları bitərəfləşdirmək səyləri Azərbaycanın xarici siyasət kursunda müstəqil bir istiqamət kimi həyata kecirilməyə başlandı. 1993-cü ilin sentyabrın 6-da Heydər Əliyev Moskvada Rusiya Prezidenti Boris Yeltsin və Rusiyanın başqa rəhbər şəxsləri ilə görüşüb iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması məsələlərini müzakirə etdi, sentyabrın 24-də isə Azərbaycanın MDB-yə daxil olması haqqında sənədləri imzaladı.

Eyni zamanda, müstəqil dövlətcilik problemlərini həll etmək, bu yolda qarşıya cıxan təzyiqlərə birgə sinə gərmək, yeni



iqtisadi və dövlətlərarası münasibətlərə uyğun ikitərəfli və coxtərəfli əlaqələr yaratmaq məqsədilə digər MDB dövlətləri, Ukrayna, Belorusiya, Gürcüstan, Moldova ilə, xüsusən 1993-cü ilin sonuna qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Orta Asiya respublikalari və Qazaxıstanla əlaqələrin köklü şəkildə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi.

Həmin dövr üçün Azərbaycanın xarici siyasət fəaliyyətində mühüm əhəmiyyət kəsb edən istiqamətlərdən biri də Qafqaz bölgəsinin dövlətləri və xalqları ilə mehriban qonşuluq münasibətlərinin yaranması idi. Cünki tarix boyu bu regionda baş verən ictimai-siyasi proseslər bölgə xalqlarının və dövlətlərinin bir-birinə qarşı qoyulması yolu ilə gərginləşdirilmiş, beləliklə də Qafqazda ümumi təhlükəsizlik sisteminin yaradılması sahəsində səylərin qarşısı alınmalıdır. Yeni şəraitdə Qafqazın Təhlükəsizlik problemlərinin və strateji dövlətcilik mənafelərinin eyniliyi, bölgə dövlətlərinin qarşı-qarşıya qoyulması hallarının aradan qaldırılması zərurəti bu yönümdə xüsusi xarici siyasət yeridilməsini və region dövlətləri arasındakı hərtərəfli əlaqələri tənzimləyən münasibətlər sisteminin yaradılmasını tələb edirdi. 1993-cü ilin sonundan etibarən Azərbaycanın xarici siyasətində bu istiqamat xususilə aydın parametrlər kəsb etməyə başladı. 1994-cü ildə Ermənistan-Azərbaycan cəbhəsində atəşkəsin əldə olunması, 1996-cı il martin 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstana rəsmi səfəri zamanı "Qafqaz bölgəsində sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan Bəyannaməsinin imzalanması respublikamızın Qafqazda həyata kecirdiyi xarici siyasətin mühüm uğuru idi. Tbilisidə iki dövlət

başcısının imzaladığı birgə Bəyannamə "Ümumi Qafqaz evi" ideyasının amalı olaraq həyata kecirilməsinin başlanğıcını qoydu.

Azərbaycan dövləti özünün bütün inkişaf tarixi boyu Iran və Türkiyə kimi böyük, nüfuzlu və regionda xüsusi təsir gücü olan dövlətlərlə sıx qarşılıqlı münasibətlərdə olmuşdur. Istər Azərbaycanın hər iki dövlətlə ayrı-ayrılıqda, istər birgə, istərsə də bu iki dövlətin oz aralarında movcud olan əlaqələri hər zaman respublikamızın həm daxili həyatı, həm də beynəlxalq vəziyyətinə oz təsirini göstərmişdir. Ona görə də müstəqil Azərbaycan diplomatiyasi hər iki dövlətlə öz əlaqələrini əla qurmalı idi ki, bir tərəfdən, onların imkanlarından və bölgədə kəsişən maraqlarından Azərbaycan dövlətciliyinin mühüm problemlərinin həll edilməsində istifadə etsin, digər tərəfdən, respublikanin inkişafını və maraqlarını bu iki dövlət arasındakı münasibətlərin təsirindən azad etsin.

Lakin 1993-cü ilin ortalarına qədər olan dövrdə Azərbaycanın xarici siyasət kursunda bu mühüm prinsipin əhəmiyyəti lazımınca qiymətləndirilə bilmədi. Tarazlaşdırılmamış xarici siyasət strategiyasi Azərbaycanın cənub qonşusu Iranla münasibətlərinin kəskin siyasi-ideoloji qarşıdurma vəziyyətinə gəlib cıxması ilə nəticələndi.

Iran-Azərbaycan münasibətləri xarakterinin bütün dövrlərdə yalnız Azərbaycanın beynəlxalq vəziyyətinə deyil, hətta respublikanın daxili həyatına da əhəmiyyətli dərəcədə təsir göstərmək imkanlarını nəzərə alan Azərbaycan diplomatiyası Iranla gərgin vəziyyətə catdırılmış siyasi-ideoloji qarşıdurmanı dayandırmaq, münasibətləri mehriban qonşuluq və əməkdaşlıq prinsipləri üzərində yenidən qurmaq, iki ölkə arasındakı əlaqələri bütün mümkün yollar



və vasitələrlə yaxşılaşdırmaq üçün 1993-cü ilin ortalarından başlayaraq gərgin və səmərəli iş apardı. Bunun nəticəsində artıq 1993-cü ilin sonu - 1994-cü ilin əvvəlində bu qonşu dövlətlə əlaqələrdə dönüş yaratmaq mümkün oldu.

Bundan başqa, Heydər Əliyev hökuməti Azərbaycan-Türkiyə münasibətlərini normal, sivilizasiyalı, qarşılıqlı faydalı iqtisadi-siyasi əməkdaşlıq və tərəfdaşlıq münasibətləri üzərinə kecirmək üçün də uzun müddət ciddi və məqsədyönlü iş aparmaq zərurəti ilə uzlaşdı və bu səylər tezliklə öz müsbət nəticələrini verdi. Hər şeydən əvvəl region dövlətlərini və beynəlxalq qurumları iki ölkə arasındakı münasibətlərin AXC hökuməti dövründə olduğu kimi sırf etnik amillər əsasında deyil, məhz sivil əlaqələr və iki müstəqil dövlətin beynəlxalq birgə yaşayış normalarına söykənən qarşılıqlı mənafeyi üzərində qurulduğuna inandırmaq mümkün oldu ki, bu da Azərbaycanın beynəlxalq münasibətlər sisteminə daha uğurla inteqrasiyası qarşısında əlverişli imkanlar acdı.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin ən mühüm strateji məqsədlərindən biri də Avropa ölkələri və ABŞ-la münasibətlərin tənzimlənməsindən, Azərbaycan ilə həmin ölkələr arasında əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı münasibətlərin qurulmasından ibarət idi. Bunun üçün ilk növbədə Azərbaycanın geosiyasi mövqeyi və iqtisadi tərəfdaşlıq imkanları obyektiv qiymətləndirilməli, həmin amillərin Qərbin iqtisadi və siyasi maraqları ilə uzlaşdırılması yönümündə təsirli addımlar atılmalı idi.

Bu zərurəti tam aydınlığı ilə dərk edən Azərbaycan hökuməti 1993-cü ilin axırlarından başlayaraq həm Şərq, həm də Qərb ölkələri ilə münasibətləri ayrı-ayrı təsadüfi əlaqələr

səviyyəsindən sistemli bir xarici siyasət kursu səviyyəsinə qaldırmaq strategiyası seçdi.

Həyata kecirilən yeni xarici siyasət xəttinin müsbət nəticəsi göz qabağındadır. Indi dünyanın aparıcı dövlətlərinin iqtisadi və siyasi maraqlar sisteminə daxil olan müstəqil Azərbaycan dövləti öz təhlükəsizliyi və digər dövlətlər ilə sivilizasiyalı birga yaşayış əlaqələri yaradılması üçün etibarlı beynəlxalq təminat qazanmışdır. Nəzərə alsaq ki, müstəqil dövlət quruculuğunun həyata kecirilməsinə və onun təhlükəsizliyinə nail olmağın daxili amili əhalinin müstəqillik iradəsi və əzmi, xarici amili isə beynəlxalq təminat hesab olunur, onda bu gun inamla söyləmək olar ki, müstəqil Azərbaycan dövlətinin qorunması və inkişafını şərtləndirən hər iki amilin təmin edilməsi və möhkəmləndirilməsi 1993-1996-cı illərdə müstəqil Azərbaycan diplomatiyasının qazandığı ən böyük uğuru kimi qiymətləndirilə bilər.

Müstəqillik və dövlətcilik mənafelərini qorumaq, bu sahədə qarşıya cıxan problemləri beynəlxalq aləmin dəstəyi ilə həll etmək üçün Azərbaycan diplomatiyası bəhs etdiyimiz dövrdə beynəlxalq və məhəlli taşkilatlarla da sıx əlaqələr yaratmaq, beynəlxalq hüquq normaları və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq sahəsində də mühüm işlər gördü. Xüsusən BMT, Avropa Birliyi, Avropa Şurası, ATAT, MDB, Islam dünyası ölkələrini birləşdirən IKT, Yaxın və Orta Şərq ölkələrinin təmsil olunduğu EKO, Qara dəniz ətrafı dövlətləri birləşdirən Qara dəniz Hövzəsi Iqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, məhəlli təşkilatlarla sıx inteqrasiyanın, onlarla hərtərəfli münasibətlar qurulmasının yeni yolları və vasitələri müəyyənləşdirildi və həyata keciriildi.



Ermənistanın təcavüzünün dəf edilməsi, respublikamızın pozulmuş ərazi bütövlüyünün bərpa olunması və işğalçıların ölkə ərazisindən cıxarılması, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı beynəlxalq aləmin dəstəyinin qazanılması müstəqil dövlət quruculuğunun bütün dövrlərində Azərbaycan diplomatiyasının qarşısında duran ən mühüm vəzifələrdən biri olmuşdur. Dağlıq Qarabağ ətrafında yaranmış münaqişənin səkkiz illik qanlı tarixi göstərdi ki, beynəlxalq rəyi nəzəra almadan, ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin dəstəyinə nail olmadan, gərgin və hərtərəfli düşünülmüş diplomatik iş aparmadan güc tətbiq etməklə bu məsələnin həllinə yönələn hər bir cəhd əvvəlcədən acı nəticəyə və uğursuzluğa məhkumdur.

Ona gorə də Azərbaycanın diplomatiyası bu dövrdə bütün gücünü müstəqil dövlətimizin dünyada tanınmasına, onun beynəlxalq nüfuzunun artmasına, ictimai-siyasi, iqtisadi və mənəvi hayatın bütün sahələrində dünya birliyinə inteqrasiya olunmasına yönəldərək Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ və respublikamızın ərazi bütövlüyü problemlərinin həllinə əlverişli beynəlxalq dəstəyin təmin edilməsi zərurəti ilə qarşılanmalıdır. Bunun üçün bu problemin dünya səviyyəsinə cıxarılması və həlli ilə bağlı xüsusi bir konsepsiya hazırlanmalı və aşağıdakı konkret vəzifələrin həyata kecirilməsini nəzərdə tutan ardıcıl siyasi kurs yeridilməli idi:

Əvvəla, Ermənistanı və Dağlıq Qarabağ probleminin ermənisayaq həllini dəstəkləyən ölkələri bitərəfləşdirmək, bu

məsələdə əvvəlcədən bittərəf qalan dövlətləri tərəfimizə çəkmək, Azərbaycanın müstəqil dövlətciliyində marağı olan və onu müdafiə edən dövlətləri və beynəlxalq təşkilatları Azərbaycanla daha sıx bağlamaq, onların Ermənistana təzyiq etməsi üçün hərtərəfli düşünülmüş müvafiq diplomatik və siyasi iş aparmaq;

Ikincisi, Dağlıq Qarabağın və bu bölgə ətrafında yaranmış problemlərin tarixini, mahiyyətini və köklərini hərtərəfli açıqlamaq, Azərbaycanın haqq səsini bütün dünya ictimaiyyətinə çatdırmaq, mövcud olan informasiya boşluğunu doldurmaq və dünyada ictimai rəyi respublikamızın xeyrinə formalaşdırmaq məqsədilə qeyd olunan problemin milli zəmin əsasında baş verən etnik münaqişə və ya insan hüquqlarının pozulması ilə meydana çıxan qarşıdurma deyil, Azərbaycanın istiqlaliyyəti yolunda süni yaradılmış maneə, onun müstəqilliyinin qarşısını almaq üçün ayrı-ayrı dövlətlər tərəfindən düşünülmüş siyasi məsələ və Ermənistanın Azərbaycana olan ərazi iddiasının bilavasitə nəticəsi olduğunu inandırıcı şəkildə bütün dünyaya bəyan etmək;

Üçüncüsü, Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan dövlətinə qarşı yönəlmiş çıxışlarının beynəlxalq separatizmin tərkib hissəsi kimi qorxulu, ağır nəticələr törədən və digər dövlətlərin də ərazisində oxşar problemlərin alovlanmasına təkan verən təhlükəli bir hərəkət olduğunu sübut etmək, dünya ictimaiyyətini belə təhlükənin qarşısını almağın vacibliyinə inandirmaq;

Dördüncüsü, bu problemin Azərbaycanın Avropaya və ABŞ-a meyl göstərməsinin, sıx inteqrasiya olunmasının qarşısını almağa, onun əvvəlki kimi ayrı-ayrı region dövlətlərinin təsir və nüfuz



dairəsində saxlanılmasına yönəldilən xüsusi məqsədlə ortaya atılmış bir məsələ olduğunu sübut etmək və beynəlxalq aləmdə bu istiqamətdə geniş təbliğat aparmaq.

Lakin qeyd edilən məsələlər 1991-1993-cü illərdə Azərbaycanın xarici siyasətində nəzərdən qaçırılmış, onların aktuallığına və praktiki əhəmiyyətinə ciddi fikir verilməmiş, nizamsız atılan müəyyən addımlar isə səmərəsiz olmuşdur. Azərbaycan diplomatiyası yalnız 1993-cü ilin ortalarından başlayaraq Dağlıq Qarabağ probleminin həlli ilə bağlı bəhs edilən məsələlər üzərində gərgin işləmiş, hərtərəfli düşünülmüş konsepsiya hazırlamış və real praktiki addımlar ataraq onu ardıcıl surətdə həyata keçirməyə başlamışdır.

Beləliklə, müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin beş illik tarixinin qısa təhlili göstərir ki, ölkənin həyati mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli işlənib hazırlanmış, özünün aydın, konkret vəzifə və istiqamətləri, prinsipləri ilə seçilən, bitkin, ardıcıl və prinsipial xarici siyasət xətti yalnız 1993-cü ilin ikinci yarısından etibarən yeridilməyə başlanmışdır. Prezident Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmlətmək və ölkəmizin dünya birliyinə inteqrasiya olunması üçün dinc və əlverişli beynəlxalq şəraitin təmin edilməsinə yönəlmiş çoxşaxəli, fəal xarici siyasətinin nəticəsidir ki, respublikamiz planetin siyasi xəritəsində özünə layiq yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsirli və əhəmiyyətli mövqe qazanmışdır. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur.

Respublikamızın daxilində gedən demokratik proseslər və iqtisadi dəyişikliklər də əlavə olunmaqla, uğurlu xarici siyasət bu gün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır.



## MÜSTƏQİL AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFININ HEYDƏR ƏLİYEV YOLU

Əli NAĞIYEV
*Azərbaycan Respublikası Əmək
və Əhalinin Sosial Müdafiəsi Naziri,
professor*

On iki illik müstəqillik tarixində on ildir ki, dünya şöhrətli siyasətçi, böyük tarixi şəxsiyyət möhtərəm Prezidentimiz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda ictimai həyatın sosial, iqtisadi və siyasi aspektlərini əhatə edən islahatlar uğurla həyata keçirilir. Həyata keçirilən tədbirlərin əsas məqsədini isə əhalinin sosial rifahının və həyat səviyyəsinin yüksəldilməsi təşkil edir. Müvəffəqiyyətlə həyata keçirilmiş islahatların nəticəsi kimi respublika iqtisadiyyatına əlavə xarici investisiyalar cəlb olunmuş, müasir texnika və texnologiyanın tətbiqi genişləndirilmiş, ümumiyyətlə, dövlətçiliyimiz möhkəmləndirimiş və inkişaf etdirilmişdir.

İqtisadi islahatlar nəticəsində ölkədə makroiqtisadi sabitlik bərqərar olmuş, 1996-2002-ci illərdə ÜDM-un həcmi 2,6 dəfə artmış, inflyasiyanın qarşısı alınmış, büdcə kəsiri ÜDM-un 1-2%-i qədər endirilmiş, milli valyutanın məzənnəsi sabitləşdirilmişdir.

Müstəqillik illərində sosial-iqtisadi inkişafın hərtərəfli təhlilini apardıqda aydın olur ki, əldə olunmuş nailiyyətlər, məhz Heydər Əliyevin Respublikamıza rəhbərlik etdiyi dövrü əhatə edir.

Müdrik Prezident təkcə iqtisadi inkişafın sürətləndirilməsi üçün deyil, Azərbaycanın dünya ölkələri arasında layiqli yerini tutması üçün də müvəffəqiyyətli siyasət yürütmüşdür. Belə ki, Azərbaycan Respublikasının Avropa Şurasına qəbulu, NATO və Avropa Birliyi ilə əməkdaşlıq bu siyasətin məhsuludur. Bundan əlavə 42 siyasi partiyanın, 30 dio və televiziyanın, 500-dən artıq qəzet və jurnalın, 1400-dən artıq QHT-nın fəaliyyət göstərməsi Respublika rəhbərliyinin demokratik prinsiplərə sadiq qalmasına real sübutdur.

İqtisadi inkişafın sintetik göstərici olan ÜDM-un həcmini təhlil etdikdə görünür ki, 1990-2002-ci illərin ilk beş ilində, daha dəqiq desək, 1991-1996-cı illərdə ÜDM-un real həcmi azalma istiqamətində, 1996-cı ildən başlayaraq isə artma istiqamətində dəyişmiş və bu artım 68% təşkil etmişdir. 2000-ci ildə bu göstərici özünün ən yüksək artım tempinə – 11,4%-ə çatmışdır.

1996-2002-ci illərdə dövlət büdcəsi 2,2 dəfə, sənaye istehsalı 23%, kənd təsərrüfatı məhsulu 39%, xarici ticarət dövriyyəsi 2,2 dəfə artmışdır.

2002-ci ildə Azərbaycanın ÜDM 29.602 mlrd. manat, real artım isə 10,6% təşkil etmişdir. Adambaşına ÜDM-un həcmi 2001-ci ilin eyni göstəricisi ilə müqayisədə 10,5% artıqdır və 3676,4 min manat, yəni 756,3$ həcmindədir. Bütün bunlar isə həyata keçirilən sosial-iqtisadi siyasətin məntiqi nəticəsidir.

Respublikamızda bərqərar olmuş siyasi, iqtisadi stabillik, həyata keçirilən islahatların uğuru Respublikamızı investisiya qoyuluşları üçün sərfəli regiona çevirmişdir. Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri arasında əsaslı kapital qoyuluşu üzrə 2002-ci ilin yanvar-iyun aylarında (ötən ilin uyğun dövrü ilə müqayisədə) Azərbaycanda ən böyük artım – 101% qeydə alınmışdır. Bu isə ölkəmizdə iqtisadi fəaliyyət üçün məhsuldar şəraitin yaradılmasının nəticəsidir. Müqayisə üçün qeyd edək ki, bu göstərici Ermənistanda – 25%, Moldovada – 12%, Ukraynada – 10%, Qazaxıstanda – 9%, Belarusda- 6%, Gürcüstanda – 3%, Rusiya Federasiyasında isə – 2% təşkil etmişdir.



DSK-nin məlumatlarına əsaslanaraq qeyd edək ki, 2002-ci ilin yanvar-iyun aylarında respublika iqtisadiyyatına 4,302 mldr manat, yəni 900 mln.ABŞ-dolları sərmayə qoyulmuşdur. Bu məbləğin 81,1%-i – 3,488 mlrd. manatı daxili kapital, 814 mlrd. manatı – 18,9%-i xarici kapitaldır.

ÜDM-un həcm göstəricisi ölkədə ümumi inkişafın göstəricisidir, əhalinin həyat səviyyəsi isə əsasən ÜDM-un adambaşına həcmindən asılıdır. Adambaşına ÜDM-un həcmi 1990-2002-ci illər arasında müntəzəm olaraq artmış, lakin bü artım 1995-ci ildən daha böyük sürətə malik olmuşdur. Belə ki, həmin illərdə bu göstərici 2 dəfədən də çox artmışdir.

Yeni iş yerlərinin açılması, iqtisadiyyatın canlanması əmək haqqı səviyyəsinin də yüksəlməsinə səbəb olmşdur. Əmək haqqı vətəndaşların pul gəlirlərinin əsas hissəsini təşkil edir. 1999-cu ilə nisbətdə 2000-ci ildə nominal əmək haqqı 39% artmış, 1995-ci illə müqayiəsədə əhalinin real gəlirləri 3 dəfə, orta aylıq əmək haqqı isə 4 dəfə artmışdır. 2002-ci ilin avqustun 1-ə olan məlumatala əsasən respublikada orta aylıq əmək haqqı keçən ilin müvafiq dövrü ilə müqayisədə 21,4% yüksəlmişdir.

Cənab Heydər Əliyev Respublikamızda quruculuq tədbirlərinə neft strategiyasının yaradılması və həyata keçirilməsi ilə başladı. Neft Respublikamızın milli sərvətidir, iqtisadi və siyasi çəkiyə malik strateji məhsuldur. Məhz Prezident Heydər Əliyev tərəfindən dəqiqliklə həyata keçirilmiş neft strategiyası respublikamızda ilbəil hiss etdiyimiz iqtisadi inkişafın təməlidir. Dünyada analoqu olmayan «Əsrin Müqaviləsi»nə əsasən 504 mln. ton neft çıxarılması nəzərdə tutulmuşdur, onun da 244 mln. tonu mənfəət olaraq Azərbaycan Respublikasına çatacaq. Pul şəklində isə respublikamızın mənfəəti 33 mlrd. ABŞ dolları həcmində dəyərləndirilir. «Əsrin Müqaviləsi» də daxil olmaqla dünyanın 15 ölkəsindən 33 şirkətlə 21 müqavilə bağlanmışdır. Bu müqavilələr daxilində Respublikamıza qoyulacaq investisiyaların proqnozlaşdırılan həcmi 60 mlrd. ABŞ dolları təşkil edir. Düzgün işlənib müvəffəqiyyətlə həyata keçirilən neft strategiyası ABŞ, Böyük Britaniya, Norveç və s. kimi qüdrətli və inkişaf etmiş ölkələri respublikamızın iqtisadi və siyasi partnyorlarına çevirmiş, Xəzərin statusunun ədalətli təyin edilməsini əsaslandırmışdır. Məhz Prezidentimizin müdrik siyasəti nəticəsində Azərbaycanın neft müqavilələrində payı 10%-dən 50%-dək artmışdır.

Respublikamızda həyata keçirilən islahatlar Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Ərzurum qaz kəmərinin tikilməsinə başlanması üçün həyata keçirilən fəaliyyət müstəqilliyimizin möhkəmlənməsinə və xalqımızın rifahının yüksəlməsinə xidmət edir və regionda sabitliyin qarantı olacaqdır. Ümumi dəyəri 2,9 mlrd$, uzunluğu 1730 km, illik gücü 50-60 mln ton olacaq Bakı-



Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyətə başlaması 2004-cü ilə planlaşdırılmışdır.

Neft müqavilələrindən əldə olan gəlirlərin effektivliyini və onlara nəzarətin şəffaflığını təmin etmək məqsədilə Prezidentin Fərmanı ilə Dövlət Neft Fondu yaradılmış və hazırda onun vəsaitləri yarım milyard dolları keçmişdir. Yığılan vəsaitlərin həcminin artması qeyri-neft sektorunun, bütövlükdə iqtisadiyyatın güclənməsinə, bunlar isə öz növbəsində sosial-iqtisadi problemlərin həllinə xidmət edəcəkdir.

Respublikamızda qeyri-neft sektorunun da inkişafına dövlət diqqəti güclüdür. Həyata keçirilən aqrar islahatlar və bu islahatların uğuru buna əməli sübutdur. Belə ki, ÜDM-un dörddə bir hissəsinin istehsal olduğu, əmək qabiliyyətli əhalinin üçdə birini özündə birləşdirən aqrar sahədə islahatların mühüm əhəmiyyətli olduğunu və onu struktur islahatların tərkib hissəsi kimi qiymətləndirən Prezident bu sahə ilə bağlı keçmiş SSRİ məkanında ən radikal addımlar atmışdır. Naxçıvan Muxtar Respublikasında aqrar islahatlar proqramının ilkin təcrübəsi Azərbaycanın kənd təsərrüfatında aparılan köklü islahatların metodiki bazasına çevrildi. Bu gün torpaqdan soyumuş kəndli yenidən torpağa bağlanır. Bu sahədə aparılan islahatların nəticəsi olaraq 1 mln. 350 min hektar torpaq kəndlilərə verilərək 34000-dən artıq fermer təsərrüfatı yaradılıb və məhz bu əsasdan da hazırda Azərbaycan Respublikası özünün kənt təsərrüffatı məhsullarına olan tələbatını ödəyə bilir. Kənd təsərrüfatında məşğul olan əhalinin payının artması respublikamızda islahatların tərkib hissəsi kimi həyata keçirilən aqrar islahatların və özəlləşdirmə prosesinin məntiqi

nəticəsidir. Bazar iqtisadiyyatı dövründə respublikamızda məşğulluq sahəsində həyata keçirilən siyasətin əsas məqsədi onun məhsuldarlığının təmin edilməsidir.

Respublikamızda həyata keçirilən islahatlar ictimai həyatın həm iqtisadi, həm sosial, həm də təşkilati aspektlərini əhatə edir. Onlar arasında ən mühüm yeri öz zəruriliyi ilə seçilən özəlləşdirmə islahatları tutur. Azərbaycan Respublikasının Prezidenti, Cənab Heydər Əliyev iqtisadiyyatımızın əsas məqsədini də məhz bu əsasdan aşağıdakı kimi təyin etmişdir: «Strateji xəttimiz – sərbəst iqtisadiyyat, özəlləşdirmə və sosial inkişaf yoludur».

2001-ci ilin yekunlarına əsasən dövlət qeydiyyatından keçmiş hüquqi şəxs statuslu təsərrüfat strukturlarının sayı 40000-dən çox olmuş, ÜDM-un qeyri-dövlət payı – 71% təşkil etmişdir. Məşğulluq sahəsində özəl sektorun payı – 70%, sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərinin sayı – 106873 olmuşdur. Özəl sektorda orta aylıq əmək haqqı 500 min manatı keçmişdir.

Bundan əlavə həyata keçirilən özəlləşdirmə prosesi nəticəsində 24000-ə yaxın kiçik müəssisə özəlləşdirilmiş, 155 orta və iri müəssisə səhmdar cəmiyyətə çevrilmiş, 100000 vətəndaş səhm, 140000 vətəndaş əmlak sahibi olmuşdur. Prezident Heydər Əliyev 2002-ci il aprelin 25-də yerli sahibkarlarla görüşdə özəl sektorun və sahibkarlıq fəaliyyətinin əhəmiyyətini xüsusilə vurğulayaraq və qeyd etmişdir ki: «Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır». Bu görüşdə sahibkarlığın inkişaf problemləri müəyyən olunmuş,



respublikamızda sahibkarlığa yardım Prezident tərəfindən dövlətin əsas vəzifələrindən biri kimi təyin edilmişdir.

Ölkəmizdə vergi islahatlarının da əhəmiyyətini qeyd etməliyik. Gəlirlərin leqallaşdırılması və orta sinifin formalaşdırılması məqsədilə vergilərin sayı 15-dən 9-a, mənfəət vergisi 35%-dən 27%-ə, ƏDV 28%-dən 18%-ə, gəlir vergisi 55%-dən 35%-ə, sığorta ödəmələri 40%-dən 29%-ə endirilmişdir.

Respublikamızda yeni iqtisadi münasibətlərin inkişaf etdiyi son illər əhalinin aztəminatlı təbəqəsinin, xüsusilə pensiyaçı və əlillərin, sosial müdafiəsi dövlətin xüsusi diqqət mərkəzindədir. Bu istiqamətdə həyata keçirilən islahatlar öz müsbət nəticəsini verməkdədir. İqtisadi çətinliklərə baxmayaraq pensiyaların məbləği ildən-ilə artmaqdadır. 1997-ci ilin yanvarın 1-nə olan məlumatla müqayisədə pensiyaların həcmi 3,8 dəfə yüksəlmişdir. Respublika Prezidentinin 2001-ci ildə imzaladığı Pensiya Konsepsiyası 1 mln. 200 min nəfər əhalini özündə birləşdirən bu kateqoriyalı insanların həyat səviyyəsinin beynəlxalq standartlara bərabərləşdirilməsi məqsədilə həyata keçiriləcəq tədbirlər kompleksini təyin edir.

Dövlət Sosial Müdafiə Fondunun xərcləri son illərdə xeyli artmış və Respublika Dövlət Büdcəsi xərclərinin ümumi məbləğində 1995-ci ildəki 17,5%-ə qarşı 2000-ci ildə 23,3% təşkil etmişdir. Ümumiyyətlə qeyd etməliyik ki, son illər sosial yönümlü xərclər Dövlət Büdcəsində ümumi kəsrlərin yarısını təşkil edir. Müqayisə üçün qeyd etməliyik ki, 1997-2002-ci illər ərzində təkcə pensiya və müavinətlərin artırılmasına əlavə olaraq 700 milyard manat qədər vəsait ayrılmışdırsa, 2003-cü ili də bu dövrə əlavə

etdikdə bu məbləğ 900 milyard manatı keçir. 2003-cü ildə isə Dövlət Neft Fondundan sosial problemlərin həllinə, infrastruktur layihələrin həyata keçirilməsi məqsədilə Dövlət Büdcəsinə 505 mlrd. manat vəsait ayrılacağı planlaşdırılmışdır.

Bütün uğurlara baxmayaraq hələ də kəskin şəkildə qarşıda dayanan yoxsulluq probleminin həll edilməsi məqsədilə Prezident Heydər Əliyev «Yoxsulluğun azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı»nı imzalamış, bu proqram çərçivəsində həyata keçirləcək tədbirlər planını təyin etmişdir. Qeyd etməliyik ki, hələ 1996-cı ildə Dünya Bankı tərəfindən aparılmış sorğulara əsasən yoxsulluğun səviyyəsi 61%, 2001-ci ildə isə 47% qiymətləndirilmişdir. Beş il ərzində bu səviyyənin nəzərə çarpacaq şəkildə aşağı düşməsi məhz uğurlu sosial-iqtisadi islahatların nəticəsidir.

Həyata keçirilən bütün islahatların özəyini vətəndaşın rifahının yüksəldilməsi təşkil edir. Bu isə yalnız iqtisadi inkişafın sürətləndirilməsi nəticəsində mümkündür. Cənab Prezident Heydər Əliyevin qeyd etdiyi kimi «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir».



## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF MODELİ

Fərhad ƏLİYEV
*Azərbaycan Respublikasının İqtisadi İnkişaf Naziri*

1991-ci ildə yenicə müstəqillik əldə etmiş gənc Azərbaycan dövləti böyük çətinliklərlə üzləşmişdi. İlk növbədə ölkə qarşısında dayanan ən çətin və vacib məsələ, məhz əldə edilmiş müstəqilliyin qorunub saxlanılmasından və onun möhkəmləndirilməsindən ibarət idi. Buna nail olmaq üçün ölkə iqtisadiyyatını qısa bir müddət ərzində düşdüyü böhrandan çıxarmaq və iqtisadi artımı təmin etmək həyati əhəmiyyət kəsb edirdi. Qeyd etmək zəruridir ki, müstəqilliyin ilk illərində iqtisadiyyatda baş vermiş böhran həqiqətən də böyük təhlükə mənbəyi idi. Təkcə onu demək kifayətdir ki, ÜDM-un həcmi hər il orta hesabla 13-20 faiz azalmış, artıq 1994-cü ildə 1990-cı il səviyyəsinin 67 faizini təşkil edirdi. 1994-cü ildə hiperinflyasiyanın bütün mənfi sosial-iqtisadi nəticələrinə məruz qalmış ölkəmizdə inflyasiya səviyyəsi 1764 faizə çatmışdı. Bu dövrdə büdcə kəsiri ÜDM-in 10 faizindən çox olmuş, dövlətin valyuta ehtiyatı, demək olar ki, tükənmişdi. Bütün bunların nəticəsində bir çox müəssisələrin fəaliyyəti dayanmış, işsizlərin sayı gündən-günə artırdı.

İflic vəziyyətinə düşmüş ölkə iqtisadiyyatı Ermənistanın Azərbaycana hələ 1988-ci ildən başladığı hərbi təcavüzü, torpaqlarımızın 20 faizini zəbt etməsi və 1 milyondan çox soydaşımızın öz doğma yurd-yuvalarından məcbur çıxarılması, qaçqın və köçkün vəziyyətinə düşməsi ilə daha da ağırlaşmışdı.

Bütün bunlarla yanaşı bu illərdə mövcud olmuş hakimiyyət böhranı, bir tərəfdən sosial-iqtisadi vəziyyəti daha da ağırlaşdırır, digər tərəfdən isə zəruri tədbirlər görməyə imkan yaratmırdı.

Ölkənin belə çətin vəziyyətində xalqın iradəsi ilə siyasi hakimiyyətə qayıtmış Cənab Heydər Əliyev qısa bir vaxtda müsbət nəticələr verən əsaslı islahatlar sahəsində misli görünməmiş addımlar atdı. İlk öncə siyasi sabitlik təmin edilərək, Ermənistanla atəşkəsə nail olundu. Mövcud çoxsaylı və ciddi iqtisadi problemləri ayrı-ayrılıqda həll etməklə ölkə iqtisadiyyatını dərin sosial-iqtisadi böhrandan çıxarmağın mümkünsüz olduğunu qət edən Cənab Heydər Əliyevin rəhbərliyi ilə, kompleks tədbirlər sistemi işlənib hazırlandı. Başqa sözlə, ölkə iqtisadiyyatını dərin böhrandan çıxarmağa təminat verən və onu ölkə vətəndaşlarının tələbatlarının ödənilməsinə yönəldən bazar iqtisadiyyatına transformasiya strategiyası hazırlandı.

Bazar iqtisadiyyatına keçid sahəsində müsbət nailiyyətlər əldə etmiş keçmiş sosialist ölkələrinin təcrübəsini təhlil etməklə və Beynəlxalq maliyyə təşkilatları ilə sıx əməkdaşlıq şəraitində ölkənin sosial-iqtisadi inkişaf strategiyası həyata keçirilməyə başlandı. Bu strategiyanın əsasını liberallaşdırma, sabitləşdirmə, özəlləşdirmə ilə yanaşı ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb



edilməsi və kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması təşkil edir.

Həmin illərdə inflyasiyanın yüksək səviyyəsinin ölkə iqtisadiyyatının inkişafına mane olan əsas problem kimi qiymətləndirilməsi qiymətlərin liberallaşdırılmasını və sərt pul-kredit siyasətini alternativi olmayan bir zərurətə çevirdi. Bu obyektiv zərurətdən doğan iqtisadi tədbirlər sistemi qısa bir müddət ərzində – artıq 1996-cı ildə inflyasiyanın səviyyəsinin 119 faizə qədər enməsi ilə nəticələndi. Sonrakı illərdə inflyasiyanın illik səviyyəsi 2-3 faizədək endi. Bununla yanaşı, büdcə kəsirinin Milli Bank tərəfindən maliyyələşdirilməsi praktikasına son qoyuldu, büdcə kəsiri ÜDM-ə nisbəti 1 faiz səviyyəsinə endirildi.

Azərbaycanın əldə etdiyi nailiyyətlərdə həlledici rol oynayan neft sektoru onun gələcək inkişafına da böyük təsir göstərən amillərdəndir. Ona görə də təsadüfi deyildir ki, ölkənin sosial-iqtisadi inkişaf modelinə neft strategiyasına xüsusi diqqət yetirilmişdir. 1994-cü il 20 sentyabrda imzalanmış «Əsrin Kontraktı» ilə başlanan Cənab Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın Neft Strategiyası artıq öz həyatiliyini sübut etmişdir.

Dünyanın ən aparıcı transmilli neft şirkətləri ilə imzalanmış 21 kontrakt üzrə Azərbaycan iqtisadiyyatına yaxın gələcəkdə 60 milyard dollar xarici investisiya qoyulacaqdır. Xarici Neft Şirkətlərinin Azərbaycan iqtisadiyyatına genişmiqyaslı investisiya yatırması Cənab Heydər Əliyevin Neft Strategiyasının alternativi olmadığına və mövcud makroiqtisadi sabitliyin dayanıqlılığına əyani sübutdur.

Azərbaycanın neft strategiyasının əsas məqsədlərindən biri hasil olunan neftin ixracında bir ölkənin inhisarından azad olmaqdır. Ona görə alternativ ixrac neft kəmərlərinin tikilməsi həyati əhəmiyyət kəsb edirdi. Bu məqsədlə qısa bir vaxtda Bakı-Supsa neft kəməri tikilib istifadəyə verilmiş və artıq Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyulmuşdur. Bu addımlar Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına güclü təkan verməklə yanaşı, ölkə müstəqilliyini daha da möhkəmləndirəcəkdir.

Ölkə iqtisadiyyatının gələcəkdə də tarazlı inkişafı neftdən gələn böyük gəlirlərin səmərəli istifadəsini tələb edir. Ölkə Prezidenti Cənab Heydər Əliyevin 1999-cu il 29 dekabr tarixində Neft Fondunun yaradılması haqqında imzaladığı Fərman misilsiz əhəmiyyət kəsb edir. Bu Fərmanda Neft Fondunun gəlir mənbələri müəyyən edilmiş, gəlirlərin xərclənməsinin şəffaflığı təmin edilmişdir. Hal-hazırda Neft Fondunun vəsaitləri 600 milyon dollardan çoxdur.

Liberallaşdırma ilə ölkə iqtisadiyyatında əsası qoyulmuş makroiqtisadi sabitlik özəlləşdirmə prosesinə başlamaq üçün zəruri şərait yaratmış oldu. Dövlət mülkiyyətinin özəlləşdirilməsi ilə bağlı birinci Dövlət Proqramı artıq həyata keçirilmiş, ikinci Dövlət Proqramının reallaşdırılması isə davam etməkdədir. Azərbaycanda artıq 36 mindən çox kiçik müəssisə və obyekt özəlləşdirilmiş, dövlət müəssisələrinin bazasında 1500-ə yaxın açıq səhmdar cəmiyyətləri təsis edilmişdir. MDB ölkələri sırasında torpağın özəlləşdirilməsinə birinci dəfə Azərbaycanda başlanaraq artıq başa



çatmış, 1350 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanmışdır.

İkinci Dövlət Özəlləşdirmə Proqramı çərçivəsində ölkə Prezidentinin Fərmanı ilə yanacaq-energetika kompleksi, maşın-qayırma, kimya, nəqliyyat, rabitə müəssisələri artıq özəlləşdirilməyə açılmışdır. Ölkənin elektrik paylayıcı şəbəkələri dörd səhmdar cəmiyyətdə birləşdirilmiş və uzunmüddətli idarəetməyə verilmişdir.

Ölkədə kiçik və orta sahibkarlığın inkişafı da, bütün yuxarıda göstərilənlərlə yanaşı, Azərbaycanın bazar iqtisadiyyatı strategiyasının təməl daşlarındandır. Ona görə də təsadüfi deyil ki, Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət yardımı iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Hələ 1993-cü ildə Cənab Heydər Əliyev bəyan etmişdi ki, «sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur».

Azərbaycan Prezidentinin 2002-ci ildə yerli və xarici iş adamları ilə görüşləri ölkədə uğurla həyata keçirilən iqtisadi islahatlar proqramının tərkib hissəsi olmaq etibarilə kiçik və orta sahibkarlığın inkişafı sahəsində əldə olunmuş nailiyyətləri, eyni zamanda bu sahədə mövcud olan problemləri aşkara çıxarmış, bütün cəmiyyətin diqqətini onların vacibliyinə yönəltmişdir. Ölkə Prezidentinin bu görüşləri bir daha göstərdi ki, hazırki mərhələdə ölkədə bazar iqtisadiyyatına keçid dövrünün başa çatdırılması, əhalinin sosial problemlərinin həlli, yeni iş yerlərinin yaradılmsı və digər vacib sahələrdə qarşıda dayanan vəzifələrin uğurlu həlli sahibkarlığın inkişafının sürətləndirilməsini, onun fəaliyyətinin

ölkənin mövcud iqtisadi potensialının tezliklə və dolğun şəkildə reallaşdırılmasına yönəldilməsini tələb edir.

Həmin görüşlərdən sonra ölkə Prezidenti tərəfindən sahibkarlığın inkişafı ilə bağlı imzaladığı «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət proqramı (2002-2005-ci illər)», «Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında», «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında», «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında» və digər fərmanları, Azərbaycan Respublikasının Prezidenti yanında Sahibkarlıq Şurasının yaradılması sahibkarlığın dəstəklənməsi istiqamətində keyfiyyətcə yeni mərhələnin təməlini qoymuş və ölkədə biznesin inkişafına böyük təkan verəcəyi şübhə doğurmur.

Bu mühüm sənədlər və eyni zamanda atılmış digər addımlar bir daha sübut etdi ki, ölkədə sahibkarlıq fəaliyyəti və onun inkişafı dövlətin strateji maraq və mənafelərinə uyğundur və daima onun himayəsindədir.

Bütövlükdə ölkədə, o cümlədən regionlarda işgüzar fəaliyyəti həvəsləndirmək üçün nəzərdə tutlan vergi güzəştləri, o cümlədən 2003-cü il yanvarın 1-dən etibarən mənfəət vergisinin bütövlükdə, sahələr və regionlar üzrə differensiallaşdırılaraq aşağı salınması, sadələşdirilmiş vergi sisteminin təkmilləşdirilməsi, habelə sosial sığorta haqlarının azaldılması ölkədə sahibkarlıq fəaliyyətinin daha da güclü inkişafına əlverişli şərait yaradaraqcaq



və çox tezliklə müsbət nəticələrin əldə ediləcəyinə imkan yaradacaqdır.

Bazar iqtisadiyyatının əsasını təşkil edən azad rəqabət mühitinin yaradılması və onun genişləndirilməsi ölkədə həyata keçirilən iqtisadi islahatın dönməzliyini təmin edən amillərdən biridir. Həmin amilin vacibliyini nəzərə alaraq bu sahədə dövlət tərəfindən məqsədyönlü işlərin aparılması davam etdirilir. Ölkədə ədalətli rəqabət mühitini və rəqabət mübarizəsində bütün iqtisadi subyektlərin bərabərliyini təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 2002-ci ildə Azərbaycan Respublikası Tarif (qiymət) Şurası yaradılmış və təbii inhisarçı təsərrüfat subyektlərinin (elektirk enerjisi, qaz, su, dəmir yolu, hava və dəniz nəqliyyatı, rabitə xidməti və s.) tariflərinin təkmilləşdirilməsi sahəsində həmin Şura tərəfindən artıq bir sıra ciddi qərarlar qəbul edilmişdir.

Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olan qurumların artan maliyyə tələbatlarını ödəmək üçün dövlət dəstəyinin zəruriliyi Prezident tərəfindən bir daha qeyd edilmiş və bu məqsədlə Prezidentin tapşırığı ilə həmin subyektlərə dövlət tərəfindən maliyyə dəstəi artırılmışdır. Belə ki, 2003-2005-ci illər ərzində Azərbaycan Respublikasında sahibkarlığın inkişafına 250 milyard manat, o cümlədən 2003-cü il dövlət büdcəsində 50 milyard manat vəsait nəzərdə tutulmuşdur. Müqaisə üçün qeyd edək ki, 1999-2001-ci illərdə dövlət büdcəsindən həmin məqsədlər üçün 37,3 milyard manat vəsait nəzərdə tutulmuş, sahibkarlara cəmi 5,4 milyard manat həcmində güzəştli kredit ayrılmışdır.

Artıq bu gün bazar iqtisadiyyatını səciyyələndirən ən əsas göstəricilərdən biri olan özəl sektorun ÜDM-də və iqtisadiyyatın ayrı-ayrı sahələrində xüsusi çəkisi Azərbaycanın sosial-iqtisadi inkişafının Heydər Əliyev strategiyasının əsas məqsədinə – bazar iqtisadiyyatının formalaşmasına nail olunduğunu söyləməyə əsas verir. Belə ki, hal-hazırda qeyri-dövlət sekorunun xüsusi çəkisi ÜDM-da 73%, kənd təsərrüfatında 99,1%, əmtəə dövriyyəsində 98,5%, sənayedə 53,7%, yük daşımalarında 56%, sərnişin daşımalarında 85,3%, xarici ticarət əməliyyatlarında 52,7%, rabitə xidmətlərində 66,5% təşkil edir.

Yuxarıda göstərilən məqsədyönlü iqtisadi tədbirlərin uğurla həyata keçirilməsi ölkə iqtisadiyyatının strukturunu mülkiyyət və təşkilati-hüquqi baxımdan köklü surətdə dəyişdirmişdir. Bu dəyişiklik isə öz növbəsində inzibati struktur islahatların keçirilməsini və inzibati idarəetmə sisteminin yeni prinsiplər əsasında yenidən qurulmasını zəruri etmişdir. Bu zərurət həm də ölkə qarşısında dayanan keyfiyyətcə yeni vəzifələrdən doğur. Artıq bazar prinsiplərinin əsasən bərqərar olduğu Azərbaycanda müasir şəraitdə dövlətin iqtisadiyyata geniş müdaxiləsinə ehtiyac yoxdur. Ona görə də ölkə Prezidentinin rəhbərliyi ilə həyata keçirilən strategiyaya uyğun olaraq 25-dən çox nazirlik və komitə ləğv edilmiş və ya birləşdirilmiş, nazirliklərin təsərrüfat funksiyaları ləğv edilmişdir.

Ölkə Prezidenti Cənab Heydər Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən sosial–iqtisadi inkişaf strategiyasının mövcud nəticələri seçilmiş yolun tamamilə doğru olduğunu göstərir. Azərbaycanın əsas makroiqtisadi göstəricilərinə görə Azərbaycanın MDB ölkələri arasında aparıcı mövqe tutması buna sübutdur. Təkcə onu qeyd etmək kifayətdir ki, 1993-cü illə



müqayisədə ÜDM 2002-ci ildə 4,6 dəfə artmışdır. Azərbaycan adambaşına xarici investisiyaların həcminə əsasən təkcə MDB məkanında deyil, hətta Şəri Avropa ölkələri sırasında qabaqcıl mövqelərdən birini tutur və yaxın üç ildə Azərbaycan iqtisadiyyatına ayrılacaq investisiyaların həcmi 10 milyard dollara çatacaqdır.1994-cü illə müqayisədə dövlət büdcəsinin gəlirləri 17 dəfə artmış, ölkənin valyuta ehtiyatları 1,3 milyard dollardan artıqdır.

Azərbaycan iqtisadiyyatına müstəqillik illərində 14 milyard dollara yaxın investisiya qoyulmuş və bunun da 10 milyard dollara yaxını xarici investisiyaların payına düşür. İnvestisiya mühitinin daha da yaxşılaşdırılması daim gündəlikdə olan məsələlərdəndir. İnvestisiyaların qeyri-neft sektoruna daha da artırılması məqsədilə 2003-cü ilin may ayında Bakıda beynəlxalq iqtisadi təşkilatların və dünyanın tanınmış şirkətlərinin iştirakı ilə Beynəlxalq İnvestisiya Konfransı keçiriləcəkdir.

Ölkənin sosial-iqtisadi inkişaf strategiyasının ən əsas istiqaməti, hökümətin daim diqqət mərkəzində saxladığı məsələ əhalinin həyat səviyyəsinin yaxşılışdırılmasıdır. Məhz bu məsələ ölkədə aparılan iqtisadi islahatların əsaas məqsədidir. Bu sahədə son 6-7 ildə əldə edilmiş nailiyyətlər də sevindiricidir. Belə ki, Azərbaycanda orta əmək haqqı 1996-cı illə müqayisədə 3,6 dəfə, orta aylıq pensiyalar 3,4 dəfə artmışdır. Son 6 ildə büdcədən ayrılan sosial xərclər 1,7 dəfə çoxalmış, əhalinin həyat səviyyəsi 2,5 dəfə yaxşılaşmışdır. Dünya Bankının 1995-ci ildə apardığı tədqiqatların nəticələrinə əsasən mütləq yoxsulluq Azərbaycanda

61 faiz təşkil edirdisə, hal-hazırda bu göstərici 49 faizə qədər azalmışdır.

Əldə edilmiş yüksək iqtisadi nailiyyətlər əhalinin həyat səviyyəsinin yaxın gələcəkdə daha da yaxşılaşdırılmasına şərait yaratmışdır. Azərbaycan Respublikasının Prezidentinin Fərmanına uyğun olaraq hazırlanmış və artıq təsdiq olunmuş «Azərbaycan Respublikasında 2003-2005-ci illər üçün yoxsulluğun azaldılması və iqtisadi inkişafı üzrə Dövlət Proqramı»nın reallaşdırılması, yaxın gələcəkdə Azərbaycanda yoxsulluq səviyyəsinin kəskin azaldılması və əhalinin sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması təmin edəcəkdir.

Azərbaycanın milli təsərrüfatın dünya iqtisadiyyatının tərkib hissəsinə çevrilməsi bu gün artıq bir reallıqdır. Bununla bağlı belə bir faktı qeyd etmək yerinə düşər ki, Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 1994-cü ilə nisbətən 2,7 dəfə artmış və ÜDM-də xüsusi çəkisi 63 faizə çatmışdır. Azərbaycanın xarici ticarətinin əmtəə strukturu və coğrafiyası əhəmiyyətli dərəcədə genişlənmişdir. Belə ki, hal-hazırda Azərbaycan dünyanın 128 ölkəsi ilə ticarət əməliyyatları aparır. Azərbaycanda xarici ticarət rejimi, demək olar ki, tamamilə liberallaşdırılmış, ixraca görə gömrük rüsumu demək olar ki ləğv edilmiş, idxal rüsumları əhəmiyyətli dərəcədə azaldılmışdır. Bütün bünların məntiqi davamı kimi Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmaq istiqamətinə məqsədyönlü işləri davam etdirilir. Azərbaycan beynəlxalq maliyyə-iqtisadi təşkilatlarla, o cümlədən Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə qarşılıqlı faydalı daşlığı müvəffəqiyyətlə həyata keçirir. Beynəlxalq Valyuta Fondu



və Dünya Bankı makroiqtisadi sabitliyin təmin edilməsinə, iqtisadi islahatların davam etdirilməsində, infrastruktur, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə Azərbaycanı maliyyə, texniki və s. yardımla dəstəkləmişdir. Azərbaycan hökuməti gələcəkdə də beynəlxalq təşkilatlarla əməkdaşlığı davam etdirmək və genişləndirmək əzmindədir.

Azərbaycan yeni iqtisadi nailiyyətlərin astanasındadır. Bu inam Cənab Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış, tarixin sınağından çıxmış strategiyaya söykənən iqtisadi siyasətə əsaslanır. Bu iqtisadi siyasət Cənab Prezidentin dediyi kimi «islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik veirlməsi, sahibkarlıha, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu dövlət siyasətinin əsas prinsipləridir».

# HEYDƏR ƏLİYEV VƏ TƏHSİL QURUCULUĞU

Şahlar ƏSGƏROV

*Milli Məclisin Elm və Təhsil Daimi Komissiyasının sədri, professor*

«Azərbaycan əsrlər boyu müstəqil olmaq arzusu ilə yaşamış, xalqımız əsrlər boyu azad olmaq istəmiş, öz müstəqil dövlətinin olması arzusu ilə yaşamış, müstəqil ölkəsinin vətəndaşı olmaq istəmişdir».

**Heydər ƏLİYEV**

Azərbaycan bir ictimai-siyasi quruluşdan digərinə keçid dövrünü yaşayır. Təbii olaraq, ölkənin təhsil sistemi də öz keçid dövrünü yaşayaraq, Sovet təhsil sistemindən yeni təhsil sisteminə keçir.

Yeni təhsil sisteminə keçid ciddi problemlərlə müşahidə olunur. Köhnə təhsil sistemi ilə yeni təhsil sistemi, bəzi sahələrdə yeni biliklərlə köhnə biliklər, yarıqapalı cəmiyyətin kütləvi təhsili ilə açıq cəmiyyətin liberal təhsili arasında ziddiyyətlər var və bu səbəbdən də onlar arasında mübarizə gedir. Yeni qurulan cəmiyyətin nəzəri əsası əvvəlkindən kökündən fərqlənir. Bugünkü siyasət, ideologiya keçmiş siyasətin, ideologiyanın davamı deyildir. Bugünkü təhsil sistemi də keçmiş təhsil sisteminin davamı olmamalı, yeniləşməlidir.



Çağdaş təhsil sistemi inzibati-amirlik dövrünün təhsil sistemi ilə liberal-demokratik cəmiyyətin təhsil sistemi arasındakı dövrü yaşayır. Köhnə təhsil sistemi özünün saf başlanğıcını və əldə etdiyi səviyyəsini mühafizə edə bilmir.

Yeni quruluşun ruhunu özündə əks etdirən təhsil sisteminə ehtiyac duyulur. Bir tərəfdən dünyada gedən qlobal dəyişikliklər, inkişaf etmiş ölkələrin sənaye bazalı cəmiyyətlərdən texnoloji, elmi-informasiya bazalı cəmiyyətlərə keçmələri, digər tərəfdən Azərbaycanda müstəqil dövlət quruculuğu, ölkəmizin Avropa dövlətlərinə inteqrasiyası, çağdaş ictimai-siyasi durum təhsilin qarşısında yeni-yeni problemlər qoyur. Elm və texnologiyanın təsiri altında sürətlə dəyişən cəmiyyətdə qarşıya çıxa bilən problemləri həll etmək üçün təhsil insanlara yeni biliklər, bacarıqlar və vərdişlər, lokal, qlobal düşüncə tərzi öyrətməlidir. Azərbaycan cəmiyyətinə müxtəlif bucaqlar altında baxanda **"oxuyan-oynayan cəmiyyət"** təsəvvürü yaranır. Biz təhsil vasitəsilə cəmiyyətimizi **"öyrənən cəmiyyətə"** çevirməliyik.

Bizim müasir orta məktəblərimiz 1920-ci illərdən bəri formalaşdığına görə, bu məktəblərdə təhsilin məzmununda bəşəri dəyərlərlə bərabər marksizm-leninizm ideyaları da əsas yer tuturdu. Sovetlər zamanında bu dəyərlər orta və ali məktəblərdə sistemli şəkildə öyrədildiyinə görə insanlar sonralar öz praktiki fəaliyyətlərində sosialist ideyalarına, marksizm-leninizm müddəalarına zidd addımlar atmırdılar.

Azərbaycanda yeni dövlət liberal-demokratik dəyərlər əsasında qurulmuş və bu proses bu gün də davam edir. Sosializmdən və onun nəzəri əsasını təşkil edən marksizm-leninizm ideya-

larından imtina etmişik. Təbiət boşluğu sevmir. Bəşəri və milli dəyərlərə söykənən yeni nəzəri müddəalara ehtiyac vardır. Yeni quruluşun əsaslandığı bu dəyərlər hələlik təhsil müəssisələrində lazımi səviyyədə tədris olunmadığına, cəmiyyət tərəfindən mənimsənilmədiyinə və ictimai şüurda hələlik özünə yer tutmadığına görə bir çox vətəndaşlarımız fəaliyyətlərində qüsurlara yol verirlər. Belə səhvlər təhsil müəssisələrində təhsilin səviyyəsini və keyfiyyətini aşağı salır. Bu səbəbdən də cəmiyyətin hər bir üzvünün yeni quruluşun ruhuna uyğun ideyalara, müddəalara, istiqamətverici kəlamlara ehtiyacı vardır.

XIX əsrdə yaşamış E.Renanın bir kəlamında deyilir: **"Müasir cəmiyyətlərdə təhsil məsələsi ölüm-dirim məsələsidir, cəmiyyətin gələcək taleyinin asılı olduğu məsələdir".** Onun həmyerlisi və həmyaşıdı Lui Paster həmin fikirə rəğmən başqa bir fikir söyləmişdir: **"Elm vətənin ən uca təcəssümü olmalıdır, çünki xalqlardan hansı biri başqalarını fikir və əqli fəaliyyətdə üstələsə, o, həmişə birinci olacaqdır".**

Əmək ehtiyatlarının keyfiyyəti, deməli bütövlükdə iqtisadiyyatın vəziyyəti birbaşa təhsilin səviyyəsindən asılıdır. Bu səbəbdən də Yaponiya, Cənubi Koreya təhsil sistemini yeniləşdirərək iqtisadi sferada keyfiyyət sıçrayışına nail olmuşdurlar. Keyfiyyətli təhsil həm fərdə, həm də cəmiyyətə lazımdır. Keyfiyyətli təhsil bir tərəfdən ölkəni yüksək ixtisaslı kadrlarla təmin edir (bu isə əmək məhsuldarlığını artırır, yeni texnologiyanın tətbiqini asanlaşdırır və sosial inkişafda yüksək səviyyələri tutmağa imkan verir). Digər tərəfdən yüksək təhsil görmüş fərd cəmiyyətdə özünü asanlıqla reallaşdıra bilir.



Ekspert rəylərinə görə təhsilin inkişafına dövlət tərəfindən qoyulan investisiya ən sərfəli və tez bəhrə verən sahə hesab olunur. Başqa sözlə, kapital qoyulması üçün ən əlverişli obyekt gənclər üçün təhsil sistemidir.

Müstəqil Azərbaycanda dövlət quruculuğu, ölkəmizin dövlətlər birliyinə inteqrasiyası, çağdaş ictimai-siyasi durum, həm dünyada gedən qlobal dəyişikliklər çoxlu mürəkkəb, həlli vacib problemlər yaradır. Bu problemlərin həlli insanlardan daha çox biliklərə və vərdişlərə yiyələnməyi tələb edir. Rasional dünyagörüşə görə, yaradıcı fəaliyyət üçün bilik lazımdır. Bilikli, ağıllı olmaq üçün təhsil almaq lazımdır.

Yeni təhsil sisteminin uğurlu qurulması müstəqilliyimizin təminatı üçün çox vacibdir. Uğursuz təhsil sistemi ilə müstəqilliyi qorumaq mümkün deyildir.

Təhsil almaq insanların əsas hüquqlarından biri olmaqla bərabər cəmiyyət üçün çox lazımlı və dərk olunduğundan daha vacib məsələlərdən biridir.

Subyektiv fikrimə görə, yeni qurulan dövlətdə birinci vacib məsələ dövlət maşınının qurulması, ikinci vacib məsələ isə mükəmməl təhsil sisteminin yaradılmasıdır. Bu sistem nə qədər mükəmməl olarsa, dövlətimiz dövlətlər sırasında bir o qədər qabaqcıl mövqe tutmuş olar.

Təhsilin cəmiyyətdə rolunu rasional düşüncə əsasında yüksək tutan amerikalılar hesab edirlər ki, əvvəla, XXI əsrdə dövlətlərin qarşılaşacağı problemlər XX əsrdəkilərdən asan olmayacaqdır. İkincisi, ölkənin inkişaf vasitəsi onun siyasi quruluşu, iqtisadiyyatı, bankı, hərbi deyil, **yeni tipli təhsildir.**

Üçüncüsü, təhsil ölkəni **lazımi səviyyədə** saxlamağa qadir olan vasitədir. Elm üzrə Şuranın Ağ Evə göndərdiyi məruzələrin birində yazılır: «Amerika cəmiyyətinin firavanlığı universitetlərdə işin vəziyyətindən birbaşa asılıdır».

ABŞ prezidentlərindən birinin fikrincə: "Amerika universitetləri qüvvətlidir ona görə yox ki, Amerika varlıdır. Amerika varlıdır, ona görə ki, onun universitetləri qüvvətlidir".

*Təhsilin cəmiyyətin sosial strukturunun formalaşmasına təsiri vardır. Belə ki, təhsil səviyyəsi yüksək olduqca fərdlər sosial strukturada da yüksək səviyyələri tuturlar. Bu şərt ödəndikcə cəmiyyət daha öncül mövqe tuta bilir, daha çox öyrənən cəmiyyətə çevrilir.*

Dünyəvi təhsil dini təhsildən ayrıldıqdan sonra Qərb ölkələrində elm sürətlə inkişaf etmişdir. Qərb Şərqdən öyrənmiş və yüksəlmişdir. İndi növbə Şərqindir. Qeyd etmək lazımdır ki, dünyəvi təhsil Şərq ölkələrində XX əsrin əvvəlindən formalaşmağa başlamışdır. Azərbaycanda ilk müasir universitet 1919-cu ildə Azərbaycan Demokratik Cumhuriyyəti tərəfindən yaradılmışdır.

Dövlətlər təhsil indeksi adlanan parametrə görə sıraya düzülürlər. **Təhsil səviyyəsinin indeksi** az olan cəmiyyətin müstəqil dövlət şəklində yaşaması gələcəkdə çətin olacaq. Hal-hazırda bu indeks Azərbaycanda kifayət qədər yüksəkdir və 0,89-a bərabərdir. Qeyd edək ki, bu indeks Ermənistanda 0,92, Gürcüstanda isə də 0,89-dur. Təhsil səviyyəsi indeksini izləmək vacibdir, çünki insan potensialının inkişaf indeksini (İPİİ) təyin etmək üçün lazım olan üç indeksdən biridir.

Bu indeksi hesablamaq üçün yaşlı əhalinin savad səviyyəsi (S) və təhsilalan kontinqentin ümumi sayı (N) əsas götürülür.



BMT-nin inkişaf proqramı çap etdirdiyi **«Doklad o razvitii çeloveka za 2002 qoda"** kitabında Azərbaycan üçün S=0,97, N isə 0,71-ə bərabər göstərilmişdir. Beynəlxalq metodologiyaya görə ölkəmiz üçün hesablanmış təhsil indeksi yuxarıda qeyd edildiyi kimi 0,89-a bərabərdir. Azərbaycanda bu indeks ilbəil aşağı düşəcək, ən azı ona görə ki, həm orta, həm də ali təhsilin səviyyəsi hər il aşağı düşür və ilbəil təhsildən yayınan kontinqentin sayı artır.

Böyük alman filosofu İ.Herder dövləti idarə edən qurumu maşına, aparata bənzətmişdir. (Bax: Ş. Əsgərov: "Keçid dövrünə fəlsəfi baxış". Bakı, 1998.). Texnokrat baxışına görə **dövlət maşını** ölkənin iqtisadi, intellektual və zaman potensialını xalqın arzusuna, məqsədinə çevirən bir maşındır. Bu maşın yan-yana qoyulmuş üç qab kimi təsəvvür edilə bilər. Birinci qaba iqtisadi, intellektual və zaman potensialı (çox təəssüf ki, Şərq ölkələrində **zaman potensialı** dəyərincə qiymətləndirilmir. Vaxtında Həzrəti Reyğəmbərimiz bu qüsurdan qaçmaq üçün demişdir: **«İki nemət var ki, insanlar onların dəyərini bilməz: səhhət və zaman»**. Üçüncü qaba xalqın məqsədi - xoşbəxt və rahat yaşamaq arzusu toplanır. Orta qab potensialı arzuya çevirən aparatdır, maşındır. Deməli, arzuya çatmaq üçün hökmən potensial, sonra potensialı arzuya çevirən qurum (mexanizm, qurğu) lazımdır. Potensialın arzuya çevrilmə dərəcəsi bu aparatın faydalı iş əmsalından asılıdır. Faydalı iş əmsalı çox olan aparat daha mükəmməl hesab olunur. Qeyd edək ki, Danimarkada, Yaponiyada dövlət maşınının işlətdiyi potensial, əsasən, intellektual potensialdır. Bizim dövlət maşınının işlətdiyi potensial isə əsasən neft, qaz, kənd təsərrüfatı

məhsulları və sairədir. İnkişaf etmiş ölkələrlə, üçüncü dünya ölkələrinin fərqi bundadır.

Dövlət əhalisinin savadlı olmasında maraqlıdır. Çünki savad gələcəkdə dövlət maşınının işlətdiyi potensialdır. Ona görə əhalinin (xüsusi ilə gənclərin) təhsil alması üçün xeyli vəsait ayırır. Bu vəsaitin vətəndaşların biliyinə çevrilməsi üçün dövlət **qurumlar** təsis edir. Bu qurumların ən böyüyü **Təhsil Nazirliyidir**. Bu niyyətlə Təhsil Nazirliyi özü də çoxlu sayda qurumlar (orta, ali və digər təhsil müəssisələri) təsis edir. Təhsil nazirliyinin əsas vəzifəsi dövlətin təhsilə ayırdığı pulu gənclərin biliyinə çevirməkdən ibarətdir.

Deməli, Təhsil Nazirliyi dövlət maşınının bir hissəsi olmaqla bərabər, dövlətin təhsilə ayırdığı maliyyə və maddi vəsaitləri gənc nəslin biliyinə çevirən bir maşındır, aparatdır. Bu maşın çoxsaylı hissələrdən (təhsil müəssisələrindən) - uşaq baxçaları, orta məktəblər, universitetlər və digər təhsil qurumlarından ibarətdir.

Təhsilimizə dövlət tərəfindən ayrılan vəsait ilbəil artır, 2002-ci ildə bu vəsait təqribən 1082 mld. manatdan çox olmuşdur. Qeyd edək ki, müharibə şəraitində yaşamağımıza baxmayaraq, dövlət təhsilə müdafiədən çox pul xərcləyir.

Azərbaycan Respublikasının dövlət büdcəsindən son illərdə təhsilə və elmə ayrılan vəsait aşağıdakı cədvəldə milyon manatlarla göstərilmişdir.

Dövlət büdcəsindən təhsilə və elmə ayrılan xərc son illər üçün aşağıdakı cədvəldə göstərilmişdir.



| İllər | Təhsil | Elm |
|---|---|---|
| 1999-cu il | 860212,5 | 43378,1 |
| 2000-ci il | 955270,2 | 50926,2 |
| 2001-ci il | 1011133,0 | 58521,8 |
| 2002-ci il | 1082269,6 | 61705,1 |
| 2003-cü il | 1216265,8 | 89546,0 |

Təhsil sisteminin əhatə dairəsi həm struktur, həm də kontingent baxımından çox böyükdür. Belə nəhəng sistem elmi müddəalar, milli-bəşəri dəyərlər və prinsiplər əsasında yaradıla və idarə oluna bilər. Bu səbəbdən də təhsilin nəzəri əsasını, fəlsəfəsini bilmək çox vacibdir. Əks halda təhsil maşını dövlətin təhsilə ayırdığı vəsaiti biliyə çevirə bilməz.

Göründüyü kimi təhsil çox qədim və nəhənk sistemdir. Bu sahədə güclü yenilik etmək çox çətindir. Radikal dəyişikliklər faciə ilə nəticələnə bilər.

Azərbaycan prezidenti Heydər Əliyevin yeni quruluşun bütün sahələrinə aid, o cümlədən də təhsillə bağlı qiymətli kəlamları - fəlsəfi fikirləri və aforizmləri çoxdur.

Fikirlər bəşəri, deyim lokanik olarsa, kəlamlar aforizm səviyyəsinə yüksəlir. Aforizmlər zaman və məkan hüdudlarına sığmayan müdrük kəlamlardır. Sözə bu qüdrəti böyük şəxsiyyətlər, filosoflar və mütəfəkkir insanlar verə bilirlər. Mütəfəkkir insanlar o şəxslərdir ki, sözün qüdrətindən və hikmətindən istifadə edərək, xalqın inkişaf yoluna işıq tutur. Bu məqalədə əsasən Azərbaycan prezidenti Heydər Əliyevin təhsil quruculuğu ilə bağlı söylədiyi kəlamlar, aforizmlər və fikirlər diqqət mərkəzinə çəkilmişdir.

Təhsil ictimaiyyətini bu kəlamların bir qismi ilə tanış etməyi məqsədəuyğun hesab edirik. Güman edirik ki, bu kəlamlar alimlərimizin, müəllimlərimizin, tələbələrimizin, şagirdlərimizin, vətəndaşlarımızın elm və təhsillə bağlı fəaliyyətlərində düzgün mövqe və istiqamət seçmələrinə kömək edəcəkdir.

- Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.
- İnsan üçün, birincisi, onun anadangəlmə istedadıdır, ikincisi, aldığı mükəmməl təhsil və cəmiyyətdə qazandığı təcrübədir, üçüncüsü, təcrübəli insanların, həyatı görmüş insanların təcrübəsindən istifadə etməkdir.
- Cəmiyyət haradan olur olsun, nədən olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllíminə kömək etməlidir.
- Əgər biz xalqımızda mə'nəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər.
- Çətinliklərə qarşı yeni addımlar atmalıyıq. Bu addımlarla mədəniyyətimizi, ədəbiyyatımızı, incəsənətimizi nə qədər yüksəltsək, onun hörmətini, ziyalının hörmətini nə qədər qaldırsaq, o qədər də bu bəlalardan, çətinliklərdən, cəmiyyətimizdə olan mənfi cəhətlərdən tez xilas ola bilərik.
- Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir - bunlar fitri istedada malik olan nadir adamlardır və öz mədəniyyəti, yaradıcılığı, fəaliyyəti ilə bizim cəmiyyətin mədəni səviyyəsini qaldırırlar.
- Savadlı, iradəli, bilikli, bacarıqlı, dəyanətli, mərd gəncləri olmayan bir ölkənin gələcəyi ola bilməz.



- Dünyaya gələn körpələr, birinci sinfə qədəm qoyan uşaqlar, ali məktəblərə daxil olan gənclər təhsil, bilik almalıdırlar, müstəqil Azərbaycan Respublikasının bu gününü, gələcəyini təmin etmək üçün təhsil almalıdırlar, bilik toplamalıdırlar, özlərini cəmiyyətdə fəaliyyətə hazırlamalıdırlar.
- Təhsili olmayan gənc, şübhəsiz həyatda lazımi yer tuta bilməz. İndi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır.
- Hər bir insan üçün həyat anadan olduğu gündən başlayırsa, insanın şüurlu həyatı, onun gələcəyi, onun cəmiyyətdə özünə yer tutması məktəbdən başlayır.
- Müstəqil dövlət olaraq dünyada tanınmağımız və dünya birliyində yer tutmağımız onu tələb edir ki, bizim ölkəmizin xalqımızın bütün sahələrdə gərək yüksək ixtisasa malik olan, dünyada gedən elmi texniki proseslə ayaqlaşan və bəlkə də müəyyən istiqaəmtlərdə onu qabaqlayan, buna qabil ola bilən potensialı olmalıdır.
- Müasir texnikanı, texnologiyanı, müasir bazar iqtisadiyyatının bütün yollarını mənimsəmək, respublikada tətbiq etmək üçün gələcək nəsli hazırlamaq və keçmiş dövrə nisbətən bir çox yeni ixtisaslar üzrə kadrlar hazırlamaq lazımdır və bunların əsası orta təhsil illərində qoyulmalıdır.
- Hər bir gənc əsaslı təhsil almalıdır. Hər bir gənc müasir həyatın tələblərini mənimsəməlidir. Hər bir gənc müasir həyatda iqtisadiyyat, siyasət sahələrində, sosial sahədə bütün yenilikləri, dünyada gedən prosesləri bilməlidir.

- Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır.
- Müəllim adı dünyada ən yüksək addır. Məsələn, şəxsən mən Yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir.
- Biz istəyirik ki, ali təhsil müəssisələrimiz, universitetlərimiz, birincisi, özləri öz işlərini daim təkmilləşdirsinlər və dünya səviyyəsidir.
- Universitetlərin vəzifəsi qəbul olunan gənclərin hamısının yaxşı almasını təmin etməkdir. Universitetlərin, ali məktəblərin üzərinə çox böyük vəzifələr düşür və çox da böyük məsuliyyət düşür.
- Özəl təhsil müəssisələrinin yaranması Azərbaycanda yeni bir hadisədir və biz bunları dəstəkləyirik. Ancaq bir şeyi qeyd etmək istəyirəm ki, ümumiyyətlə, təhsil biznesə çevrilməməlidir.
- Özəl təhsil müəssisələrinin də keyfiyyətinin yüksək olması ən vacib amildir. Əgər bu olmasa, biz belə özəl təhsil müəssisələrinin yaranmasına imkan verməyəcəyik.



# MÜDRİKLİK: İDEYA VƏ ƏMƏLİN HARMONİYASI

Səlahəddin XƏLİLOV
*Milli Məclisin deputatı, professor*

Azərbaycanda və hətta onun hüdudlarından kənarda Heydər Əliyev haqqında belə bir fikir formalaşmışdır ki, onun üçün mümkün olmayan iş yoxdur. Bəzən ən çıxılmaz vəziyyətlərdə də çıxış yolu tapan, yeganə mümkün addımları atmaqla ən mürəkkəb böhranlardan da uğurla çıxan Heydər Əliyevin "sirrini" açmaq çox çətindir.

Müdrikliyin verdiyi bir şans da gücün optimal istifadə olunmasıdır.

Situasiyanı düzgün qiymətləndirmək, həm özünün, həm də başçılıq etdiyi dövlətin mövcud reallıqlar şəraitində imkanlarını bir sövq təbii ilə ölçüb-biçmək və həmişə məhz real imkanlardan çıxış etmək qabiliyyəti Heydər Əliyevi səciyyələndirən əsas keyfiyyətlərindən biridir. O özü bu barədə belə deyir: "Kim ki öz biliyindən, bacarığından artıq iddialar edir, o, həmişə məğlub olur". Lakin, öz biliyini, bacarığını düzgün qiymətləndirə bilmək istedadı heç də hamıya verilməmişdir. Müdrikliyin bir əlaməti də məhz bu məqamda təzahür edir. Təsadüfi deyildir ki, Konfutsi

insan üçün ən böyük məziyyəti onun nəyi bilib, nəyi bilmədiyini fərqləndirmək qabiliyyətində görür. Lakin, insanın eyni zamanda həm öz bilik və qabiliyyətinin hüdudlarını, həm də gerçəkliyi, situasiyanı düzgün qiymətləndirməsi nadir istedaddır.

Napoleonun fikrinə görə, "dahilik çətin olanla qeyri-mümkün olanı fərqləndirmək qabiliyyətidir". Və çətinlik dərəcəsindən asılı olmadan bütün səyləri məhz həlli mümkün olan problemlərə yönəltmək və mövqeyində israrlı olmaq, iradə nümayiş etdirmək Heydər Əliyevə məxsus spesifik cəhətlərdir. Burada İ.Nyutonun da məşhur bir fikrini yada salmaq yerinə düşərdi: "Dahilik müəyyən səmtə yönəlmiş fikrin dözümlüyüdür". Həqiqətən də, görülən işin uğurla nəticələnəcəyinə böyük daxili inam olması və bu istiqamətdə ardıcıl və dözümlü siyasət yeridilməsi əvvəlcə məqsədin, ideyanın aydın olmasını, fikrin özünün dözümlü və sürəkli olmasını nəzərdə tutur. Heydər Əliyevə aid edildikdə isə, təkcə fikrin yox, həm də məqsədyönlü səylərin ardıcıllığından və dözümlüyündən danışılsa, daha çox yerinə düşərdi. Təsadüfi deyildir ki, Bakı – Tbilisi – Ceyhan boru kəməri layihəsinin bir sıra çətinliklərə və müqavimətlərə baxmayaraq, nəhayət, reallaşmağa başlaması məhz Heydər Əliyevin məqsədyönlü, prinsipial mövqeyi ilə bağlıdır.

Bu baxımdan, bizcə, Heydər Əliyev üçün səciyyəvi olan bir cəhəti də xüsusi qeyd etməyə ehtiyac vardır. O, hər hansı bir şərait daxilində qarşısına qoyduğu müəyyən bir ideyanı hələlik gerçəkləşdirə bilmirsə, bu, heç də o demək deyildir ki, Heydər Əliyev bu ideyadan imtina etmişdir və ya onu unutmuşdur. Xeyr, Heydər Əliyev dünyasında *heç nə yaddan çıxmır, heç nə unudulmur.*



İdeya arxa planda, passiv hafizə fondunda yaşamaqda davam edir və əlverişli şərait, münbit mühit yaranan kimi ön xəttə qayıdır, aktivləşir, reallaşdırılır. Beləliklə, Heydər Əliyevin bu günü onun keçmişi ilə kəsilməz bir əlaqə halındadır. Bu cəhət onun şəxsiyyətinin bütövlüyünü təmin etməklə yanaşı, həm də çağdaş tariximizin bütövlüyünü, kəsilməzliyini təmin edir.

Heydər Əliyev dünyasında hadisələr həmişə müəyyən bir ideyanın kontekstində cərəyan edir. Hadisələr fikri formalaşdırmazdan əvvəl, fikir hadisələri yönəldir. Bununla belə, Heydər Əliyev vaxtaşırı hadisələrə sərbəst cərəyan etmək imkanı da verir. Beləliklə, o, başqalarının da ideyaları üçün meydan açır, təkcə fikir plüralizminə deyil, həm də əməl plüralizminə şərait yaradır. Lakin bütün bunlar başlı-başına buraxılmır və daha böyük bir ideyanın reallaşması planının strukturuna daxil edilir. Nəticədə ilk baxışda xaos kimi görünən ictimai gerçəklik əslində mürəkkəb və zəngin bir ideyanın ahənginə uyğunlaşmış olur. Belə bir ideyanı G.V.F.Hegel *ən ümumi məqsəd* adlandırır. "Tarix fəlsəfəsi" kitabında Hegel o adamları *dünya miqyaslı tarixi şəxsiyyət* adlandırır ki, onların ideyaları, məqsədləri ən ümumilik, zərurilik məziyyətinə malik olsun. Heydər Əliyev öz fəaliyyətində həmişə ictimai-tarixi zərurətdən çıxış edir. Onun ideyaları da ictimai-tarixi reallığın özündən intixab olunur.

Dahiləri səciyyələndirən cəhətlərdən biri də budur ki, nə qədər vacib iş görülürsə görülsün, başqa işlər yaddan çıxarılmır. Yəni ən əsası yaranmış şəraitin mənzərəsini kompleks halda görməkdir. Və hadisələrin birini o birisinin hesabına həll etmək yox, hamısının birgə və ya növbəli həll yollarını tapmaqdır.

Burada Heydər Əliyevin fenomenal hafizəsi və canlı tarix rolunu oynaması köməyə gəlir. O, tarixdən ibrət dərsi götürməyi bacarır və başqalarına da həmişə bunu tövsiyə edir. Əvvəlki hakimiyyətin "proletkultçuluq" və dağıdıcılıq mövqeyindən fərqli olaraq Heydər Əliyev nəinki milli köklərə və ənənələrə qayıtmağa üstünlük verdi, eyni zamanda bunu tarixi kəsilməzliyə əməl etməklə, hətta sosializmdən qalan dəyərlərə də qayğı və diqqətlə yanaşmaqla həyata keçirdi. J.Jores deyir: "Biz keçmişdən külü yox, odu götürməliyik". Lakin bunun üçün əvvəlcə odu küldən, sağlam əsasları çürük hissələrdən ayırmaq qabiliyyəti lazımdır. Bu isə müdriklik tələb edir.

Xarici siyasət sahəsində əsas məsələ Azərbaycan haqqında həqiqətləri dünyaya çatdırmaqla yanaşı, Azərbaycanı böyük ölkələrin iqtisadi maraq dairəsinə daxil etmək, yerli iqtisadiyyata böyük sərmayələr qoyulmasına nail olmaq idi. Yalnız bu yolla böyük dövlətlər Azərbaycanda stabilliyin təmin olunmasında maraqlı ola bilərdilər. Təsadüfi deyildir ki, "Bi-Pi" şirkətinin prezidenti Con Braun da bunu etiraf edir: "Regional sabitlik sərmayə qoymaq istəyən hər bir insanın beyninə həkk olunmuş bir şeydir". Və o, Heydər Əliyevi "öz nüfuzundan istifadə edərək, bu regionda lazım olan, çox mühüm olan sabitliyi" möhkəmləndirmək istiqamətində fəaliyyətə dəvət edir. Lakin hamımıza məlumdur ki, regionda sabitliyin dayanıqlı olmasının ən mühüm şərti Dağlıq Qarabağ probleminin ədalətli həllidir. Bax, burada böyük xarici şirkətlərin mənafelərinin, artıq bunu istəsələr də, istəməsələr də bizim haqq-ədalət mövqeyimizlə üst-üstə düşməsinin şahidi oluruq. Bəsit şüur belə uzaqgörən, belə "dolayısı" siyasətin mənasını hələ çox-çox sonralar başa düşə bilər.



Bəli, dini təəssübkeşlik hissini ancaq iqtisadi maraqla kompensasiya etmək mümkün idi. Heydər Əliyev artıq buna da nail olmuşdur.

Bir daha təkrar etməyi lazım bilirik ki, müdrikliyin əsas şərtləri böyük maraqları kiçik maraqlardan, mühümü qeyri-mühümdən, çətin mümkün olanı heç mümkün olmayandan seçə bilməkdir, nəyin məhz əvvəl, nəyin sonra həyata keçirilməli olduğunu müəyyənləşdirmək, hadisələrin ardıcıllığını düzgün seçməkdir. Yeri gələndə pauza vermək və onu lazım olan qədər uzatmaq qabiliyyətidir.

Rəhbər üçün *müdrikliyin bir əlaməti də xalqla optimal məsafə saxlamaqdır.* Xalqın içərisindən çıxdığını, onunla bir olduğunu isbat etməklə yanaşı, onun önündə getməyi, ona yol göstərməyi bacarmaqdır. Bu baxımdan, Heydər Əliyev şəxsiyyətinin bütövlüyünü təmin edən cəhətlərdən biri də xalqla bağlılığın liderlik keyfiyyətləri ilə üzvi vəhdəti, bir-birini tamamlamasıdır. Xalqın liderə olan ehtiyacını da hamıdan gözəl şəkildə o özü izah edir: "Azərbaycan xalqı həmişə güclü olub. Amma bu xalqı qaldırmaq, səfərbər etmək lazım idi".

Demokratik cəmiyyət quruculuğu prosesində rəhbərin liderlik keyfiyyətləri ilə bağlı bircə bunu yada salmaq istərdik ki, Amerika Birləşmiş Ştatlarında da vətəndaş cəmiyyətinin hələ tam formalaşmadığı dövrlərdə liderlərin roluna böyük qiymət verilirdi. Məsələn, Con Adams belə hesab edirdi ki, respublika siyasi quruluşunun uğurları onun liderlərinin şöhrətindən asılıdır. Məhz

yeni dövlət quran Azərbaycanda da liderin nüfuzu, beynəlxalq şöhrəti əlavə müsbət amil kimi çıxış edir.

Sosial fəlsəfi fikrin inkişafı əsasən *"ağıl və gücün vəhdəti"* ideyasını ön plana çəkir. İnkişaf və tənəzzül üçün şərait ilk öncə bununla şərtlənir ki, ağılını gücə, gücmü ağıla rəhbərlik edir. Heydər Əliyev isə: "Ağıl olan yerdə zora ehtiyac yoxdur", - deyir.

Bəs zor, güc nə ilə əvəz ediləcəkdir? Bütün məsələ də bundan ibarətdir ki, siyasət dünyasında ağıl elə rəqibin öz gücündən özünə qarşı istifadə etməyə imkan verir. Burada Horatsinin məşhur fikri yada düşür: "Hikmətlə cilovlanmayan kobud qüvvə öz məxsusi ağırlığı altında məhvə məhkumdur". Lakin kobud qüvvələr düzgün istifadə olunmadıqda və ya başlı-başına buraxıldıqda özləri ilə bərabər, cəmiyyəti də məhvə sürükləyir. Əsas məharət, siyasi ustalıq ondan ibarətdir ki, bu qüvvələr toplusu qaydasız, xaotik prosesdən məqsədyönlü, idarə olunan bir prosesə çevrilsin.

Cəmiyyəti ağılla idarə etməyin iki yolu vardır. Birincisi, hər bir güc mərkəzinin intellektual mənəvi səviyyəsini yüksəltməyə, onun istiqamətini xalqın milli maraqları istiqamətində yönəltməyə çalışmaq. İkincisi, bu qüvvələri sərbəst buraxmaq (yeri gəlmişkən, demokratiya da bunu tələb edir), lakin onların münasibətlərini elə yönəltmək, elə tənzimləmək və nəticə etibarı ilə elə idarə etmək ki, onların yekun, əvəzləyici qüvvəsi cəmiyyətə, xalqa, pozitiv ictimai proseslərə qarşı yönələ bilməsin, elə öz içərilərində ərisin.

1993-cü ilin yayında müxtəlif yönümlü daxili qüvvələr, vahid mərkəzdən idarə edilə bilmədiyindən, artıq cəmiyyət, xalq bu qarşıdurmaya cəlb olunmuşdu və proses nəzarətdən çıxmış,



idarə olunmaz hala gəlib çatmışdı. "Cin butulkadan çıxmışdı" və nəyin bahasına olursa-olsun, onu öz yerinə qaytarmaq lazım idi. Belə kritik vəziyyətdə hər anın bir hökmü var idi. Çox geniş miqyas almış, ordunu, xalqı ehtiva etmiş qarşıdurma təcili surətdə lokallaşdırılmalı, artıq kinetik enerji halına keçmiş kütləvi, emosional güc ponetsial qüvvə halına qaytarılmalı, silahlı birləşmələrin münaqişə enerjisi siyasi qüvvələrin potensial enerjisinə çevrilməli idi.

Tarixdə siyasi qarşıdurmaların güc müstəvisinə keçməsinə, silahlı münaqişə və müharibələrə gətirib çıxarmasına misallar çoxdur. Kobud qüvvə həmişə özü üçün əlverişli şəraitə, münaqişə və müharibəyə meyllidir. Entropiyanın artması qanunu da bunu təsdiq edir. Lakin əks proses, xaosda nizam yaratmaq, hadisələrin artıq güc müstəvisinə keçmiş axarını döndərib, yenidən siyasi müstəviyə qaytarmaq - tarixdə çox nadir hallarda, ancaq nadir şəxsiyyətlərə qismət olan, misli görünməmiş müdrüklük nümunəsidir.

Həm də bu böyük tarixi missiya ancaq "cini bardağa qaytarmaqla", azğınlaşmış qüvvələri ovundurmaqla bitmirdi. O biri tərəfdən, əsasən xalqın emosional enerjisindən bəhrələnmiş, lakin xalqın ağlına, hikmətinə biganə qalmış, təcrübəsiz səbatsız, kobud qüvvəni də ram etmək, kompensasiya etmək və idarəetmə sükanını ağlın iradəsinə tapşırmaq lazım idi.

Ağıl hakimiyyətə gəldi və bir güc o biri gücü əritdi; həm də bu missiya geniş xalq kütlələrini yüksək temperatur mərkəzinə sürükləmədən həyata keçirildi. 1993-cü il Gəncə hadisələrində əvvəlcə azğın güc nadan gücə "qalib gəldi". Narkobiznesin başçısı

hökumətin başına keçdi, lakin hadisələrin gələcək gedişatını özü də anlamadan böyük bir iradənin təsir dairəsinə düşərək, dağıdıcı hərbi gücü siyasi gücə, vəzifə gücünə dəyişməyə razılıq verdi. Lakin bu hadisələrin görünən tərəfi idi. Heydər Əliyevi yaxşı tanıyanlar bilirdilər ki, Surət Hüseynovun hökuməti – müvəqqəti hökumətdir. Tarix göstərdi ki, bu hökumət müvəqqəti olmaqla yanaşı həm də bir illüziyon hökumət imiş. Bəli, böyük ağıl azğın qüvvə ilə əl-ələ verib işləyə bilməzdi. Bir gün azğınlıq yenidən baş qaldırmalı idi. Və bu məntiqi nəticə özünü çox gözlətmədi. 1994-cü ilin oktyabrında hər şey aşkarlandı və bu kobud gücün son qalıqları da qansız-qadasız səhnədən süpürüldü.

Ən başlıcası da odur ki, məhz qansız-qadasız!

*"Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü."*

Cavidin bu məşhur misraları Heydər Əliyevin fəaliyyəti üçün elə bil ki, əsas prinsip, fəaliyyət devizi seçilmişdir. Bəli, Heydər Əliyevin atdığı ilk addımlardan biri atəşkəs haqqında müqavilə bağlanması oldu. Atəşkəs rejimi bu gün də davam etməkdədir. Sülh hələ tam bərqərar olmasa da, heç olmazsa qan tökülmür.

Heydər Əliyev gözəl bilirdi ki, cəbhə xəttində atəşkəsə nail olmadan, dövlət quruculuğu və iqtisadi quruculuq üçün şərait yaratmaq, cəmiyyətdəki silahlı qruplaşmaları tərksilah etmək mümkün olmayacaqdır. Əsas olan isə məhz dövlətçiliyin bərpası idi. Bu böyük işin həyata keçirilməsi isə ən azı sülh pauzası tələb edirdi.

Siyasi lider mübarizənin ağırlığını öz üzərinə götürür. Hərbi müstəvidə aparılan müharibə siyasi müstəviyə keçirilir. Sülh və sabitlik prinsipi, həm də daxili antidövlət qüvvələrinə qarşı



mübarizədə əsas prinsip kimi rəhbər tutulur. Daxili çəkişmələrdən, silahlı dövlət çevrilişi cəhdlərindən də əsasən ağlın gücü ilə xilas olmaq yolu seçilir.

Azərbaycan müstəqilliyə elə bir dövrdə və elə bir tarixi, ictimai-siyasi şəraitdə qədəm qoymuşdur ki, burada cəmiyyətin standart inkişaf qanunauyğunluqlarına söykənərək fəaliyyət göstərmək bəs eləmir. Sadəcə bilikli olmaq, yüksək təfəkkür mədəniyyəti, siyasi təcrübə də bəs eləmir. Çünki, situasiya özü standartdan kənardır. Və belə bir şəraitdə Azərbaycanın həm beynəlxalq ictimai proseslərin, qloballaşmanın tələblərinə uyğun gələn, həm də öz milli dövlətçilik mənini saxlaya bilən addımlar atması məlum biliklərin mənimsənilməsi hesabına mümkün deyil. Ekstraordinar qərarlar qəbul edilməlidir ki, bu da qeyri-adi, şablondankənar təfəkkür tələb edir.

*Müdriklik – tam və hissə arasındakı optimal nisbətdən çıxış etmək deməkdir.* Heç bir ölkə öz işini beynəlxalq prosesləri nəzərə almadan, ancaq öz daxili inkişaf meylləri əsasında qura bilməz. Lakin nəyi və nə dərəcədə dünya təcrübəsindən götürmək, nədə və nə dərəcədə milli zəminə əsaslanmaq böyük siyasi fəhm və fəlsəfi təfəkkür tələb edir. Heydər Əliyevin özünün dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan ümumbəşəri dəyərlərə söykənərək, demokratik, hüquqi dövlət qurmaq yolunu tutmuşdur. Təbii ki, bu yolu bizdən qabaq keçənlərin təcrübəsi nəzərə alınmalıdır. Lakin başqalarını təqlid etməklə böyük uğur əldə etmək mümkün deyil. Ona görə də Azərbaycan öz müstəqil inkişaf yolunu müəyyənləşdirərkən, demokratiyanın da, dövlət quruculuğunun da, iqtisadi islahatların da məhz özünə uyğun olan modelini işləyib hazırlamalı idi. Xarici

ekspertlər bizdən öz standartlarına uyğun islahatlar tələb etdikdə, demokratiyanın da məhz Qərb modelini təklif etdikdə, Heydər Əliyev böyük təmkin və səbatla onlara yerli şəraitin və milli xüsusiyyətlərin nəzərə alınması zərurətini izah edir. Dönə-dönə başa salır ki, demokratiya kənardan transformasiya yolu ilə deyil, milli-ictimai tərəqqinin, ictimai şüurun inkişafının qanunauyğun nəticəsi kimi yaranmalı, tədricən, addım-addım irəliləməlidir. Burada biz ya yenə də Moskvadan ikiəlli yapışıb ayrıla bilməyən, ya da kor-koranə Qərbi təqlid etməyə çalışan ölkələrdən fərqli olaraq, Azərbaycanın həqiqətən müstəqil siyasət yeritdiyinin və ümumbəşəri dəyərlərlə milli dəyərlərin sintezinə əsaslanaraq, daha dayanıqlı, stabil cəmiyyət qurmaq əzmi göstərdiyinin şahidi oluruq.

Belə incə və məsuliyyətli bir prosesdə kənar təsirlərə uymamaq, yaradıcılıq nümayiş etdirmək olduqca çətindir. Bu baxımdan, artıq qərarlaşmış, stabil cəmiyyətlərdən fərqli olaraq, keçid dövründə olan ölkələrin qarşısında daha çətin vəzifələr durur və dövlət başçısının da üzərinə daha böyük yük, daha böyük məsuliyyət düşür. Heydər Əliyev özü bu barədə belə deyir: "Keçid dövrü yaşayan ölkələrə başçılıq etmək istəyən şəxslər gərək çox təcrübəli, dünyanı bilən adam olsun". Biz əlavə edərdik ki, gərək həm də müdrik və fövqəladə insan olsun. Əks təqdirdə formal müstəqillik qalsa da, başqa dövlətlərin təsiri altına düşmək və yaxud da öz milli düşmənlərinin ətəyindən ikiəlli yapışmaq taleyi qaçılmaz olur. Gözümüzün qarşısında türkdilli dövlətlərin bir qisminin türkə düşmən qüvvələrin dəyirmanına su tökməsi buna ən bariz misaldır.



*Müdriklik – tarix və müasirliyin vəhdətindən çıxış etməkdir.* Çağdaş həyat ancaq öz daxili məntiqi ilə yaşaya bilməz. Tarixin öz makrostrukturu, yalnız böyük miqyaslarda üzə çıxan qanunauyğunluğu vardır ki, bunlar heç vaxt nəzərdən qaçırılmamalıdır. Vaxtilə baş vermiş hadisələr heç də tamamilə keçmişdə qalmayaraq, müasir həyatın strukturuna bir rüşeym və bir fon kimi daxil olur və onu istiqamətləndirir. "Tarix heç nəyi silmir", "tariximiz bizim üçün dərs olmalıdır", – deyir Heydər Əliyev. Lakin o, bununla heç də yalnız tarixi öyrənməyi və hafizələrdə yaşatmağı nəzərdə tutmur. O, tarixin həm də məhz çağdaş proseslərin iştrakçısı kimi nəzərə alınmasını tövsiyə edir, yeni dövrün tarixini yaradarkən də, onu həmişə böyük tarixin kontekstinə uyğunlaşdırmağa çalışır.

Lakin tarixi gündəlik fəaliyyətdə daha yaxşı nəzərə ala bilmək üçün, onu olduğu kimi və dərindən mənimsəmək tələb olunur. "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək la-zımdır". "Xalq gərək daim öz kökünü xatırlasın" *(Heydər Əliyev)*. Nəyə görə? Ona görə ki, indi atılan hər-hansı addım min illik inkişaf meyllərinə zidd olarsa, uğur gətirə bilməz. Təsadüfi deyildir ki, minilliklərin ayrıcında Heydər Əliyevin Azərbaycan xalqına müraciəti tariximizə müasir səviyyədən, yeni əsrin zirvəsindən salınan bir nəzər olmaqla yanaşı, həm də bu günümüzə tarixi proseslərin qanunauyğun davamı kimi baxış nümunəsidir. Bir sözlə, tarix və müasirliyin vəhdətidir. Heydər Əliyev müstəqil Azərbaycanın konstitusiyası hazırlanarkən də məhz bu mövqeni rəhbər tutmuşdur: "Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək

perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

*Müdriklik – əsası qeyri-əsasdan, ali məqsədi cari məqsədlərdən fərqləndirmək qabiliyyətidir.* Heydər Əliyevi səciyyələndirən ən mühüm cəhətlərdən biri də məhz hadisələr fonunda mahiyyəti görmək və məhz mahiyyətlər arasındakı münasibətləri diqqət mərkəzində saxlamaqdır. Hadisələr və cari məqsədlər içərisində itib-batan, əsasən şəxsi maraqlar üzərində qurulmuş cari fəaliyyət proqramlarını həyata keçirən yüz minlərlə insanlardan fərqli olaraq, böyük şəxsiyyətlər bütün fəaliyyətlərini son məqsədin əldə olunmasına yönəldilmiş mürəkkəb, çoxpilləli proqramlar əsasında qururlar.

Ali məqsədin köməkçi məqsədlərdən fərqləndirilməsi, xüsusən xalq və millət qarşısında duran böyük məqsədlərin müəyyənləşdirilməsi bir qayda olaraq hər bir millətin mütəfəkkirləri tərəfindən həyata keçirilir. Dövlət başçısının dar məqamda bu şərəfli vəzifəni də öz üzərinə götürə bilməsi isə olduqca əlamətdar bir haldır. Bu zaman ideyanın yaranması ilə onun icrasının təşkili üst-üstə düşür ki, bu da bir sıra bürokratik əngəlləri və bu istiqamətdəki ictimai strukturlaşmanı istisna edir.

Kommunist ideologiyasından və marksizm fəlsəfəsinin ictimai inkişaf konsepsiyasından üz döndərdikdən sonra qarşımızda milli ictimai tərəqqinin yeni meyarlarının və yeni sosial idealın müəyyənləşdirilməsi kimi çətin bir vəzifə durur. Cəmiyyət qarşısında duran yeni məqsədlərin və onların həyata keçirilməsində prioritetlərin müəyyənləşdirilməsi sadəcə dövlət başçısının yox, məhz mütəfəkkir dövlət başçısının görə biləcəyi bir işdir:



"Azərbaycan cəmiyyətinin əksəriyyəti kommunist ideologiyasından, sosializm quruluşundan imtina etmişdir və Azərbaycanı müstəqil, dünyəvi dövlət kimi, ümumbəşəri dəyərlər əsasında, eyni zamanda milli dəyərlər əsasında hüquqi dövlət qurmaq yolu ilə getməsinin tərəfdarıdır" *(Heydər Əliyev).*

Heydər Əliyev ictimai fikir qarşısında duran bu böyük məsuliyyətli işin də əsas prinsiplərini müəyyənləşdirməklə, milli fəlsəfi fikrin inkişaf yolunu göstərmişdir. Bu yol materialist təlimindən fərqli olaraq, mənəviyyatın ön plana çəkilməsini, milli-mənəvi ənənələrin yaşadılmasını və milli tarixi fikir zəmininə qayıdılmasını nəzərdə tutur. Heydər Əliyev deyir: "İnsan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır". Mənəvi kamillik olmasa, maddi həyatın da təkmilləşdirilməsi mümkün deyil. Marksizmin ən böyük nöqsanlarından biri mənəvi amillərin kifayət dərəcədə nəzərə alınmaması, son məqsəd olan insanın vasitəyə çevrilməsi və az qala unudulması idi.

Halbuki, son məqsəd insanın özüdür, onun mənəviyyatıdır. "Azərbaycanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıcası qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif dinlərə etiqad edən adamlardır" *(Heydər Əliyev).* Cəmiyyət də, dövlət də o zaman yaxşıdır ki, ayrıca götürülmüş insanlara, insanın mənəvi kamilliyinə, milli-mənəvi özünüdərkə xidmət edir. Təsadüfi deyildir ki, Heydər Əliyev "dövlət onun ərazisində yaşayan əhalinin təminatçısı olmalıdır", - tezisini irəli sürür, əhalini, xalqı, insanları ön plana çəkir. Yeni quruculuq işləri təbii sərvətlərdən daha çox xalqın

milli-mənəvi dəyərlərinə söykənməlidir. Həm də bu cəhətdən biz kasadlıq çəkmirik: "Azərbaycan xalqı qəhrəman, cəsur, dəyanətli saf əxlaqlı bir xalq kimi bütün dünyada tanınır" *(Heydər Əliyev)*.

Hər bir insanın səadəti, hüquq və azadlığı bütün quruculuq proseslərinin ali məqsədidir. Lakin bu məqsədə aparan yol uzun, keşməkeşli və mürəkkəbdir. Bunun üçün ilk növbədə cəmiyyət təkmilləşdirilməlidir. Qanunların aliliyi təmin edilməlidir. "Hər bir şəxs konstitusiya və qanunlara dönmədən əməl etməlidir, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməklə ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir" *(Heydər Əliyev)*. Beləliklə, müxtəlif istiqamətlərdəki quruculuq işləri vahid məqsəd ətrafında birləşdirilmiş olur.

*Müdriklik – gerçəkliyin müxtəlif rakursları arasında əlaqəni görməkdir.*

Ola bilsin ki, kimsə ictimai-siyasi prosesləri, kimsə iqtisadi problemləri və onların həll yollarını, kimsə mədəniyyət problemlərini və s. çox gözəl bilir. Hərə bir sahənin mütəxəssisidir. Hər bir mütəxəssisə elə gəlir ki, onun öyrəndiyi sahə müstəqildir. Lakin bu nisbi müstəqil sahələr arasında ilk baxışda gözə çarpmayan daxili əlaqələr vardır. Bu əlaqələr nəzərə alınmadıqda cəmiyyətin ümumi ahəngi pozula bilər.

Marksizm iqtisadi münasibətləri ön plana çəkir, bütün digər münasibətləri ondan törəmə hesab edirdi. İndi biz bu təlimdən imtina etmişik. Bəs qurmaq istədiyimiz yeni Azərbaycan cəmiyyətində bu sahələrin daxili əlaqəsi və prioritetliyi necə təsəvvür olunur? Milli fəlsəfi fikir hələ bu suallara cavab verəcək dərəcədə



inkişaf etməmişdir. Dövlət quruculuğu prosesi isə kəsilməz bir prosesdir və dayanıb fəlsəfi fikri gözləyə bilməz.

Yaxşı ki, bu məsələdə də Heydər Əliyev dühası köməyimizə gəldi. İctimai-siyasi, iqtisadi və mədəni-mənəvi sahələrdə islahatlar növbəli şəkildə deyil, kompleks şəkildə həyata keçirildi. Hər bir sahədə yeniləşmə başqa sahələrdəki islahatlar üçün zəmin yaratdı və bu daxili əlaqə spiralvari inkişaf prosesi üçün əsas yaratdı. Bir sıra iqtisadi islahatların, böyük xarici şirkətlərlə bağlanmış kontraktların, həm də siyasi əhəmiyyətə malik olduğunu və qabaqcadan düşünülmüş böyük coğrafisiyasi planlara daxil edildiyini biz hələ indi-indi dərk edirik.

*Müdriklik – istənilən tərəflə münasibətləri qarşı tərəfin maraqları prizmasından çıxış edərək qurmaqdır.*

Əlbəttə, ilk yaxınlaşmada, adi şüur səviyyəsində hər kəs, hər tərəf öz maraqlarından çıxış edir, son nəticədə isə hamı buna nail ola bilmir. Lakin Heydər Əliyevin müdrikliyi bir də bunda təzahür edir ki, münasibət qurduğu qarşı tərəfləri, onların maraqlarını əvvəlcədən öyrənməklə əlaqələrin qurulmasında bunlardan məharətlə istifadə edir. Milli maraqlar isə alt qatda, üstüörtülü saxlanılır və ilkin danışıqlar zamanı yox, sonrakı mərhələlərdə, danışıqlardan praktik reallaşma müstəvisinə keçid zamanı prosesin kontekstinə üzvi surətdə daxil edilir. Nəticədə əsasən öz maraqları baxımından qarşılıqlı əlaqəyə girən tərəf öz ilkin istəyindən asılı olmayaraq, nəticə etibarilə bizim mənafeyimizə də xidmət etmiş olur. Başqa sözlə, Heydər Əliyev daxil olduğu münasibətlərdə bir qayda olaraq subyekt rolunda çıxış edir, prosesləri adi şüurun gözü ilə görünməyən dərin qatlardan idarə

edir. Məsələn, İpək Yolunun bərpası ideyasını əsaslandırarkən Heydər Əliyev onun həm Qərb ölkələrinin, həm də Şərq ölkələrinin milli maraqlarına uyğunluğuna istinad edir, böyük dövlətlərə ideya verir. Çox böyük sərmayə tələb edən beynəlxalq miqyaslı layihələr həyata keçirilməyə başlandıqdan sonra, proses dönməz xarakter aldıqdan sonra, burada Azərbaycanın da maraqlarının ödənməsi artıq de-fakto həyata keçir. Yaxud Bakı-Ceyhan layihəsinin reallaşması naminə Heydər Əliyev Gürcüstana müəyyən güzəştlərə getdikdə çoxları bunu milli maraqların qurban verilməsi kimi anladı. Lakin bir tərəfdən böyük maraqlar naminə kiçik maraqlardan imtina etmək, digər tərəfdən qarşı tərəfə güzəşt etməklə, öz siyasi xəttini yeritmək məhz mahiyyətdən çıxış etmək qabiliyyətinin təzahürüdür. Beləliklə, biz Heydər Əliyev şəxsiyyətində müdrikliyin daha bir əlamətini görmüş oluruq. Belə ki, müdriklik həm də məqamında güzəştə gedə bilmək qabiliyyətidir. Böyük, həlledici məsələlərdə israrlı olmaqla, kiçik, cari məsələlərdə geri çəkilməyi bacarmaq qabiliyyətidir.

Və nəhayət, müdriklik taleyin qismət etdiyi bütün məziyyətlərdən, bilik və qabiliyyətlərdən öz şəxsi məqsədləri üçün deyil, millət, xalq yolunda istifadə etməklə milli tərəqqinin aparıcı qüvvəsinə çevrilmək şansından istifadə etməkdir.



# II BÖLMƏ

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA YENİ CƏMİYYƏT: SİYASİ, SOSİAL VƏ MƏDƏNİ İNKİŞAF PROBLEMLƏRİ

## HEYDƏR ƏLİYEV VƏ QAFQAZDA SÜLH SİYASƏTİ

İradə HÜSEYNOVA

*Azərbaycan Respublikası Təhsil Nazirinin müavini, tarix elmləri namizədi, dosent*

**«Qafqaz indi bütün dünyanın diqqət mərkəzindədir. Ona görə də Qafqazda gedən prosesləri düzgün istiqamətə, sülh istiqamətinə yönəldib Qafqazda sülhə, əmin-amanlığa nail olmaq çox böyük, müqəddəs məqsəddir, ali məqsəddir və biz bu məqsəd uğrunda bundan sonra da əzmlə çalışacağıq».**

**Heydər ƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti (Gürcüstanda yaşayan azərbaycanlılarla görüşdəki nitqin-dən, Tbilisi şəhəri, 9 mart 1996-cı il).

Yeni minilliyin, yeni XXI əsrin başlanğıcında bütün dünyanı ilk növbədə qloballaşma və inteqrasiya prosesləri, eləcə də hər iki müasir inkişaf tendensiyasının normal getməsini təmin

edən, əslində onlar üçün əsas amil olan sülh, əmin-amanlıq, təhlükəsizlik problemləri narahat edir. Yeni əsri «İntellekt əsri»nə çevirməyi qarşısına məqsəd qoyan çağdaş dünya 11 sentyabr 2001-ci ildə ABŞ-da baş verən dəhşətli terror aktından sonra sülhə, əmin-amanlığa, təhlükəsizliyə qarşı yönələn hər cür təhdidlərə qarşı beynəlxalq mübarizəyə qalxmışdır. Bu gün bütün bəşəriyyəti, hər şeydən öncə, xalqların xoşbəxt gələcəyi naminə sülh, əmin-amanlıq, qarşılıqlı əməkdaşlıq məsələləri düşündürür. Təsadüfi deyildir ki, BMT həm ötən əsrin son ilini «Sülh mədə-niyyəti ili» elan etməklə, həm də üçüncü minilliyin ilk on ilini «Sülh mədəniyyəti on illiyi» adlandırmaqla tərəqqipərvər dünyanın sülhə, əmin-amanlığa bu gün həmişəkindən daha çox ehtiyacı olduğunu etiraf etdi. «Sülh mədəniyyəti» mahiyyətcə sülh prosesinin mürəkkəb daxili quruluşunu, inkişaf dinamikasını, dramatizmini dərk etməklə yanaşı, incə yollarla, düşünülmüş daxili və xarici siyasət yeritməklə, qansız-qadasız mübarizə üsullarına yiyələnmək vasitələri ilə ölkədə, bölgədə və bütün dünyada sülh proseslərinə yardım etməkdən ibarətdir. Bu baxımdan tarixşünaslıq və geopolitikada geosiyasi-iqtisadi siyasət də, coğrafi transsiyasət də, azad ticarət və iqtisadi məkan uğrunda mübarizə də, xalqların, dövlətlərin mədəni və iqtisadi inteqrasiyası da sözün geniş mənasında haqlı olaraq «sülh mədəniyyəti»nin tərkib hissələri, onun komponentləri hesab olunur.

Hazırda qloballaşan və qloballaşdıqca terrordan əziyyət çəkən narahat dünyamızın ən qaynar nöqtələrindən və strateji baxımdan ən əhəmiyyətli geosiyasi məkanlarından sayılan Qafqazda «sülh mədəniyyəti»nin qorunması, sülh prosesinin hər vasitə ilə inkişaf



etdirilməsi nəticə etibarı ilə «Ümumi dünya evi»nin təhlükəsizliyi, ölkələrin və dövlətlərin birgəyaşayışı, əmin-amanlığı, əməkdaşlığı üçün böyük imkanlar açır.

Bu baxımdan əski və çağdaş dünyanın etnodil, etnik baxımdan özünəməxsus bölgələrindən sayılan Qafqaz dövlətləri və xalqları bir tərəfdən qloballaşan dünyanın iqtisadi yüksəlişinə öz töhfələrini verir, digər tərəfdən isə, hazırda regionda mövcud olan münaqişə ocaqları həm Qafqaz dövlətləri, həm də Qafqazla əlaqədə olan dünya ölkələri üçün ciddi təhlükə törədir, sabit, davamlı sülhə, milli təhlükəsizliyə maneçilik törədir.

Bütün bu tarixi reallıqlarını, zəmanəmizin gerçəkliklərini, çağdaş dünyada baş verən qlobal və regional hadisələri düzgün qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici siyasət kursunda **«Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!»** konsepsiyası mühüm yer tutur. Həmin konsepsiya əsasında həyata keçirdiyi qlobal tədbirlər sayəsində Heydər Əli-yev «Ümumi Qafqaz evi» ideyasının əsas müəlliflərindən biri, «Ümumqafqaz evinin ağsaqqalı» kimi nəinki Qafqazda, eləcə də bütün dünyada tanınmış və şöhrət qazanmışdır. Bu tarixi reallıqdır ki, hazırda Qafqazda sülh, əmin-amanlıq təkcə region ölkələri üçün deyil, bütün dünya dövlətləri üçün də iqtisadi və mədəni inteqrasiyanın əsas şərtlərindən biridir.

Bu nöqteyi-nəzərdən istər coğrafi və geostrateji mövqeyinə, istər etnodemoqrafik, etnodil, etnososial mənzərəsinə görə müasir dünyanın ən unikal məkanlarından sayılan Qafqazda ölkələr və xalqlar arasında sülh, inteqrasiya və əməkdaşlıq spesifik xüsusiyyətləri ilə səciyyələnir. 200 ilə yaxın müddətdə əvvəl çar

Rusiyası zamanında, sonralar Sovetlər Birliyi formasında zühur etmiş qırmızı «Şər imperiyası» dövründə rusların Qafqaz siyasətinin əsasında həmişə etnik parçalama, «ayır-buyur», «parçala-hökm sür» prinsipi durmuşdur. XX əsrin sonunda müstəqilliyə qovuşmuş üç cənubi Qafqaz ölkəsi – Gürcüstan (aprel, 1991), Ermənistan (sentyabr, 1991), Azərbaycan (oktyabr, 1991), eləcə də hazırda Rusiya Federasiyası tərkibində qalmış Şimali Qafqaz xalqları keçmiş çar və sovet Rusiyasından miras qalmış etnik separatizmdən (Azərbaycanda Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya və Cənubi Osetiya, Şimali Qafqazda Çeçenistan və b.) xilas ola bilmir, Qafqaz bölgəsi hazırda etnik münaqişələrin ən qaynar nöqtələrindən, sülh və təhlükəsizlik üçün narahat regionlardan biri olaraq qalır. Bu amil Qafqaz dövlətləri və xalqları arasında, eləcə də Qafqaz və digər dünya dövlətləri arasında iqtisadi və mədəni inteqrasiya prosesinə maneçilik törədir.

Qafqaz geostrateji mövqeyinə, iqtisadi potensialına görə Şərqlə Qərb, Cənubla Şimal arasında körpü rolu oynayır. Bu amil Qafqaz xalqları və dövlətlərinə bölgədə və dünyada sülh və inteqrasiya prosesində dominantlıq, aparıcılıq, liderlik mövqeyi qazandırır. Bu mövqedən səmərəli və beynəlxalq hüquq normalarına uyğun şəkildə istifadə edən Azərbaycan rəhbərliyi bilirlər ki, «Sülh mədəniyyəti»nin tərkib hissəsinə təkcə sülh uğrunda deklarativ mübarizə, bəyanatlar, bəyannamələr səviyyəsində siyasi gedişlər deyil, həm də geosiyasi-iqtisadi siyasət, coğrafi transsiyasət, azad ticarət və iqtisadi məkan uğrunda mübarizə də daxildir.



Bu baxımdan Qafqazda və dünyada sülhün alovlu təbliğatçısı olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin **«Biz istəyirik həqiqətən Avropada təhlükəsizlik, sülh, əmin-amanlıq olsun, eyni zamanda öz problemimizin həllini, yəni Qafqazda əmin-amanlıq, sülhün olmasını istəyirik»** və ya **«...Azərbaycanda, bütün Qafqaz regionunda və bütün dünyaya sülhün bərqərar olması bizim ən ümdə arzumuzdur. Azərbaycan sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqlarla, ələlxüsus öz qonşuları ilə qarşılıqlı anlaşma mehriban qonşuluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir»** (Bax. Heydər Əliyev işığı-İpək yolu. Bakı, 2001, s.106) müdrik çağırışının reallaşması üçün, sülh və inteqrasiya prosesinin sürətlənməsi məqsədilə hazırlanmış və hazırda reallaşmaqda olan bir sıra beynəlxalq layihələr Azərbaycan, Gürcüstan və digər Qafqaz dövlətləri, eləcə də regionun digər ölkələri, Şərq və Qərb dövlətləri arasında əməkdaşlığa, böyük gələcəyi olan perspektivlərə hesablanmışdır. Belə ki, **«Böyük İpək Yolu»nun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin – «TRASEKA» proqramının həyata keçirilməsi, Xəzərin enerji ehtiyatlarından birgə istifadəyə dair «Əsrin müqaviləsi» (24 sentyabr 1994) ünvanı almış neft kontraktlarının, «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac neft kəməri, «Bakı-Tbilisi-Ərzurum» Qaz kəməri layihələrinin əsas məqsədi Qafqazın, o cümlədən Azərbaycanın, Gürcüstanın milli təhlükəsizliyi, xalqlarımızın rifahı ilə yanaşı, region ölkələrinin, ilk növbədə Qafqaz ölkələrinin iqtisadi və mədəni inteqrasiyası, regional əməkdaşlığı sürətləndirməklə, sülhün, əmin-amanlığın, sabitliyin möhkəmlənməsinə birbaşa xidmət edir. XXI əsrdə dünyanın bir çox dövlətlərinin,**

**o sıradan Qafqazı vahid iqtisadi məkanda birləşdirmək, Qafqazın Asiya ilə Avropa arasında iqtisadi və mədəni körpü rolunu həyata keçirmək bu proqramların ana xəttini, leytmotivini təşkil edir.**

Bu ümumbəşəri strategiyanın və ona uyğun taktikanın işlənib hazırlanması, həyata keçirilməsinin əsas təşəbbüskarları, Qafqazda və dünyada sülhün böyük tərəfdarları Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Gürcüstanın Prezidenti Eduard Şevardnadzenin müstəsna xidmətləri vardır.

Tarixdən məlumdur ki, 1996-cı il martın 8-10-da Gürcüstana rəsmi səfər edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze tərəfindən martın 8-də artıq elmi-siyasi ədəbiyyatda – tarixşünaslıqda «Tbilisi bəyannaməsi» adlandırılan **«Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında» Azərbaycan-Gürcüstan birgə bəyannaməsi** imzalandı. Bəyannaməyə görə, irəli sürülən və reallaşdırılması nəzərdə tutulan «Ümumi Qafqaz evi» insan hüquq və azadlıqlarına, dini və etnik mənsubiyyətindən asılı olmayaraq, milli azlıqlara hörmət əsasında yaradılmalı, etnik və dini dözümlülük hər zaman gözlənilməli, dünyanın zəngin mədəniyyət beşiyi olan Qafqaz xalqlarının və dövlətlərinin mədəni irsi və dövlətçilik ənənələri qorunmalı, inkişaf etdirilməli, Qafqaz dövlətlərinin beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri hamı tərəfindən tanınmalı, ərazi toxunulmazlığı təmin edilməli, xalqların və dövlətlərin iqtisadi-mədəni əlaqələrinin formalaşmasına şərait yaradılmalıdır (Bax: «Kavkaz», 1996, №2, s. 4-5). Bu sənədi tarixçilər haqlı olaraq «Ümumi Qafqaz evi»nin özülünü,



təməlini qoyan mühüm tarixi bir sənəd kimi dəyərləndirirlər (Bax: «Kavkaz», 1996, №2, s. 6-7).

«Tbilisi bəyannaməsi» kimi tarixə imzasını qoymuş «Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında» bəyannamənin tarixi rolundan, regionda sülhün təmin olunması yolundakı əhəmiyyətindən danışarkən Heydər Əliyev Tbilisidə keçirilən mətbuat konfransında demişdir: **««Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında» imzaladığımız bə-yannamə çox mühümdür. Mən deyərdim ki, bu, həmin qəbildən olan ilk belə ciddi mühüm siyasi sənəddir. Onun mühümlüyü və böyük əhəmiyyəti bundadır ki, Qafqaz qeyri-sabitliikdən, münaqişələrdən əziyyət çəkir, bir çox millətlərarası toqquşmalardan və proseslərdən əziyyət çəkir. Ona görə də hər birimizin, xüsusən də, Gürcüstan və Azərbaycan dövlət başçılarının vəzifəsi Qafqazda sülhə, təhlükəsizliyə, əməkdaşlığa yol açmaqdır. İmzaladığımız sənəd məzmüununa və xarakterinə görə belə bir əməkdaşlığa yol açır. O, başqalarının qoşulması üçün açıqdır. Ona görə də ümidvar olduğumu bildirmək istəyirəm ki, regionumuzun digər dövlətləri, eləcə də başqa dövlətlər bu sənədə qoşulacaqlar...»** (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1988, V cild, s.404-405).

Həmin bəyannamənin Qafqazın gələcək taleyində mühüm amil olan sülh proseslərinin təmin edilməsi və regional əməkdaşlıqdakı rolundan bəhs edən Heydər Əlyiev bu sənəddə irəli sürülən ideyaların həyata keçirilməsinin perspektivlərini bu cür ümumiləşdirir: **«Bu bəyannamə göstərir ki, həm cənab Eduard Şeverdnadze, həm də mən Qafqazda sülhü həqiqətən möhkəmləndirməyə, sülhü bərqərar etməyə çalışırıq. Nəinki öz ölkələrimiz, öz**

**xalqlarımız haqqında düşünürük. Bütün Qafqaz haqqında, Qaqazın bu günü, gələcəyi haqqında düşünürük. Bu bəyannamə açıq bir sənəddir və mən ümidvar olduğumu bildirmək istəyirəm ki, Qafqazın bütün respublikaları, dövlətləri də və başqa dövlətlər də bu bəyannaməyə qoşulacaqlar. Çünki Qafqazda sülhü, əmin-amanlığı bərqərar etmək təkcə Gürcüstan, Azərbaycan üçün deyil, Qafqazda yaşayn bütün xalqlar üçündür. Bu təkcə Qafqaz üçün yox, Qafqazla əlaqəsi olan bütün ölkələr, xalqlar üçündür, bütün dünya üçündür. Qafqaz indi bütün dünyanın diqqət mərkəzindədir. Ona görə də Qafqazda gedən prosesləri düzgün istiqamətə, sülh istiqamətinə yönəldib Qafqazda sülhə, əmin-amanlığa nail olmaq çox böyük, müqəddəs məqsəddir, ali məqsəddir və biz bu məqsəd uğrunda bundan sonra da əzmlə çalışacağıq»** (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998, V cild, s.435).

Bu tarixi bəyannamənin imzalanması ilə Qafqazda sülh prosesinə region ölkələrinin, Qafqazla əlaqələri olan dövlətlərin maraqları artmağa başladı. Çox keçmədi ki, «Qafqaz dördlüyü» adlandırılan Rusiya Federasiyası, Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin prezidentləri Qafqazda sülh, əmin-amanlıq, təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə etmək məqsədilə 1996-cı ilin iyunun 3-də Şimali Qafqazda görüş keçirdilər. «Qafqaz dördlüyü»nün Kislovodsk görüşündə «Qafqazda əmin-amanlıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda bəyannamə» qəbul edilmişdir. Həmin bəyannamədə Qafqazın sülh, əmin-amanlıq, təhlükəsizlik regionuna çevrilməsi, Qafqazda millətlərarası həmrəyliyin yaradılması, Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar olmasına hərtərəfli kömək



göstərilməsi, bölgədəki münaqişələrin beynəlxalq hüquq normaları əsasında yalnız sülh yolu ilə həll edilməsinin vacibliyi, Qafqazda tarazlaşdırılmış iqtisadi siyasətin həyata keçirilməsi, Qafqazın nadir təbiətinin qorunması və s. bu kimi qlobal məsələlərin birgə reallaşdırılması öz əksini tapmışdır. Bəyannamə qoca Qafqazın, eləcə də bəşər sivilizasiyasının zəngin mədəniyyətləri ilə seçilən Qafqaz xalqlarının, XX əsrin sonunda müstəqilliyə qovuşmuş Cənubi Qafqaz dövlətlərinin taleyi üçün belə bir ümidverici notlarla bitir: **«Biz, Azərbaycanın, Ermənistanın, Gürcüstanın, Rusiyanın dövlət başçıları, xalqlarımızın gələcəyi üçün tarixi məsuliyyət daşıdığımızı dərk edərək, milyonlarla insanın iradəsini ifadə edərək millətlərarası həmrəyliyi, sülhü, iqtisadi tərəqqini təmin etmək, Qafqaz xalqlarının mədəni-tarixi irsini birlikdə artırmaq üçün özümüzdən asılı olan hər şeyi etməyə hazır olduğumuzu bəyan edirik: Qafqaz bizim ümumi evimizdir. Onu öz tarixləri ilə fəxr edən və gələcəyə inamla baxan insanların yaşadıqları dinc, tərəqqi edən regiona çevirmək bizim borcumuzdur»** (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998, VI cild, s.402-405).

Qeyd etməliyik ki, **tarixşünaslıq ədəbiyyatında «Kislovodsk bəyannaməsi» kimi tanınan sənəd mahiyyət və məzmunu etibarı ilə Heydər Əliyev və Eduard Şeverdnadze təfəkkürünün, zəngin dövlətçilik təcrübəsinin məhsulu olan «Tbilisi bəyannaməsi»nin məntiqi və siyasi davamıdır, əslində həmin ideyaların daha geniş tərkibdə və kontekstdə bir daha təsdiqidir, müdafiə olunmasıdır, dəstəklənməsidir.**

Həmin bəyannamənin imzalanmasından sonra Heydər Əliyev demişdir: **«Ümumiyyətlə, mən bu günkü görüşdən çox**

**məmnun qaldığımı bir daha bildirmək istəyirəm. Mən istəyirəm ki, Qafqazda sülh olsun, Qafqazda sabilik olsun, axı Qafqazda müxtəlif millətlərin nümayəndələri, müxtəlif dinlərə etiqad bəsləyən adamlar yaşayırlar, onların çoxu müsəlman dininə mənsubdur... Odur ki, bizim borcumuz, bizim hər birimizin borcu – mən öz borcumdan danışıram, - bu məsələlərə maksimum diqqətlə yanaşmaqdan, bütün dinlərə, bütün əqidələrə, milliyyətindən asılı olmayaraq, bütün adamlara hörmət etməkdən ibarətdir. Təkrar edirəm, bununla əlaqədar Qafqaz xalqlarını sıx birləşdirməyə və Qafqazı dinc bir regiona çevirməyə imkan var...»** (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1988, VI cild, s.400).

«Qafqaz dördlüyü»nün «Kislovodsk bəyannaməsi»ni «Tbilisi bəyannaməsi»nin məntiqi və siyasi davamı, böyük əks-sədası kimi dəyərləndirən Heydər Əliyev demişdir: **«Məmnüniyyət hissi ilə demək olar ki, «Tbilisi bəyannaməsi» böyük əks-səda doğurmuş, dünyada böyük hörmətlə qəbul edilmiş, inkişaf etmişdir.**

**Həmin bəyannaəmnin davamı olaraq keçən ilin iyun ayında (3 iyun 1996-cı il nəzərdə tutulur – İ.H.) Kislovodskda dörd dövlətin – Rusiya, Gürcüstan, Ermənistan və Azərbaycanın başçıları Qafşazda sülhün, əmin-amanlığın təmin edilməsinə aid yeni bir bəyannamə imzalamışlar».** (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998, VIII cild, s.438).

Belə bir faktı da nəzərə almalıyıq ki, Kislovodsk görüşündə razılaşdırıldığı kimi ötən müddətdə «Qafqaz dördlüyü» müxtəlif formatlarda Qafqazda sülh və inteqraysiya məsələləri ilə bağlı görüşlərini bu gün də davam etdirməkdədirlər.

Bu görüşlərin ardınca Heydər Əlyievin bilavasitə təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq



təşkilatın nümayəndələrinin iştirakı ilə Azərbaycanın paytaxtı Bakıda keçirilən tarixi Böyük İpək Yolunun bərpası üzrə beynəlxalq konfransda imzalanan «Bakı bəyannaməsi» və «Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin yaradılmasına dair Saziş»də Qafqazda sülh prosesinin möhkəmləndirməyə, Qafqaz dövlətlərinin Avropa və Asiya ölkələri ilə, eləcə də region ölkələrinin bir-birilə inteqrasiyasına, qarşılıqlı anlaşma və etimadın inkişafına birbaşa xidmət edir. (Bax: «Azərbaycan» qəzeti, 09.09.1998).

Bunlarla yanaşı, Qafqazda sülh prosesinin inkişafına yönəlmiş daha bir tarixi faktı da xatırlatmağı vacib hesab edirik. Bəllidir ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev «Tbilisi bəyannaməsi»ndə irəli sürülən «Ümumi Qafqaz evi» ideyasının reallaşmasına kömək məqsədilə ATƏT-in İstanbul sammitində (dekabr 1999) **«Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı»**nın yaradılması təklifi ilə çıxış etmiş. Qafqazda sülhün təminatının çağdaş dünyanın iqtisadi və mədəni inteqrasiyasında, regionda sülhün, təhlükəsizliyin təminatında mühüm amil olduğu xüsusi vurğulanmış, sammit iştirakçısı olan dövlət başçıları (Türkiyə Cümhuriyyəti və b.) tərəfindən geniş müdafiə olunmuşdur.

Bu ideyanın davamı olaraq Tbilisidə Türkiyə Cümhuriyyətinin sabiq prezidenti Süleyman Dəmirəl tərəfindən (15 yanvar 2000-ci il) «Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı»nın təşkili üzrə ATƏT-in İstanbul zirvə görüşündə (dekabr 1999) Heydər Əliyev tərəfindən irəli sürülən ideyanın geniş və ətraflı müzakirəsi razılaşdırılmışdır. Əlbəttə, bütün bunlar

Qafqazda, xüsusən də cənubi Qafqazda sülhün möhkəmlənməsinə birbaşa xidmət edir». (Бах: С.Чернявский. Кавказский вектор Российкой дипломатии. – Журн. «Центральная Азия и Кавказ» 2000, № 5, с.108)

Qafqaz bu gün tarixinin ən gərgin, mürəkkəb və məsuliyyətli dövrünü yaşayır. Qafqazda baş verən etnik münaqişələr totalitar rejimdən miras qalmaqla Qafqaz xalqlarının çar Rusiyası tərəfindən zaman-zaman zorla həyata keçirilən köçürmə, deportasiya və soyqırımı siyasətinin acı nəticələridir. Ümumiyyətlə, Qafqaz tarixin bütün dönəmlərində böyük dövlətlərin mənafe, mövqe uğrunda mübarizə meydanı olmuşdur. Bu gün beynəlxalq aləmi narahat edən əsas problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, abxaz-gürcü, osetin-gürcü, inquş-şimali osetiya münaqişələrinin, rus-çeçen müharibəsinin aradan qaldırılması yolu ilə bölgədə sülhü, iqtisadi inteqrasiyanı təmin etməkdən ibarətdir.

Qafqazda, xüsusən də, Cənubi Qafqaz dövlətlərində sülh və inteqrasiya proseslərinin normal inkişafı, xalqlar, dövlətlər arasında sosial-siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın stabilləşməsi, tarixən mövcud olmuş, lakin müxtəlif etnik münaqişələr, separatçılıq meylləri, ərazi iddiaları və digər səbəblərdən pozulmuş əlaqələrin bərpasına nail olunması və möhkəm, uzunmüddətli sabit yaxınlaşma məsələləri bu gün Qərb dövlətlərinin, xüsusən, bu gün dünyada fövqəldövlət missiyasını yerinə yetirən ABŞ-ın dövlət siyasətində prioritet istiqamətlərdən sayılır. Qafqazın istər Qərb, istər Şərq, istər Cənub, istərsə də Şimal arasında strateji mövqeyi, sivilizasiyalar qovuşuğunda



yerləşməsi, əlverişli nəqliyyat qovşağında olması dünya siyasətində bu qədim, zəngin diyara marağı artırır. Ümumiyyətlə, Qafqaz, xüsusən də, Cənubi Qafqaz ərazisi tarixən də böyük imperiyaların (Midiya, Əhəminilər, Sasanilər, Ərəb Xilafəti, Səlcuqlar, Monqollar, İran, Osmanlı, Rusiya, Sovetlər Birliyi) mənafe və mövqe mübarizəsi meydanına çevrilib. Lap qədim dövrlərdən Qafqaz polietnik regionlarından biri kimi, Şərqlə Qərb, Cənubla Şimal arasında «qızıl körpü» hesab olunub (Бах: Р.Гусейнов. Азербайджанская Республика в зеркало полиэтничности: история, современное состояние, прогноз, рекомендации. – Журн. «Центральная Азия и Кавказ»; 2000, №2, с.186-187).

XX əsrin sonunda Cənubi Qafqazda müstəqil dövlətlərin yaranması Qərbin Qafqaz siyasətində müəyyən dəyişikliklər etmək zərurətini doğurdu. Cənubi Qafqaz regionuna, xüsusən, Xəzərin zəngin karbohidrogen ehtiyatlarından birgə istifadəyə, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasına, tarixi Böyük İpək Yolunun bərpasına Qərbin böyük dövlətlərinin marağının artması mövcud reallıqdan və tarixi zərurətdən irəli gəldi.

Müasir dövrdə Qafqazda sülh, təhlükəsizlik və inteqrasiya proseslərinin sürətləndirilməsi, regional əməkdaşlığın inkişafı baxımından yuxarıda xatırladığımız bir çox beynəlxalq layihələr – «Əsrin müqaviləsi» əsasında yaranmış neft strategiyası və onun davamı olan «Bakı-Tbilisi-Ceyhan» (BTC) əsas ixrac neft kəməri, «Bakı-Tbilisi-Ərzrum» (BTƏ) əsas ixrac qaz kəməri layihələri, Böyük İpək Yolunun bərpası, «TRASEKA»-Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması proqramı, həmçinin bir sıra beynəlxalq və regional iqtisadi əməkdaşlığa əsaslanan GUÖAM,

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlarda, region ölkələrində sülh, milli təhlükəsizlik və inteqrasiya proseslərinə kömək etməli, bütövlükdə Cənubi Qafqaz dövlətlərinin Asiya və Avropaya yaxınlaşmasına yardım etməlidir.

Qafqazın həm Asiya, həm də Avropa ölkələri ilə iqtisadi və mədəni əməkdaşlığının artmasında Heydər Əliyevin böyük önəm verdiyi və hər zaman dəstəklədiyi TRASEKA proqramı əhəmiyyətli rol oynayır. Xüsusən də, həmin yolun üstündə yerləşən, Böyük İpək Yolunun qapısı adlandırılan Azərbaycan və Gürcüstan dövlətlərinin iqtisadi yüksəlişi üçün böyük əhəmiyyəti olan TRASEKA Proqramının başlıca strateji məqsədləri, əsasən, aşağıdakılardan ibarətdir: Asiya-Avropa arasında alternativ nəqliyyat dəhlizləri vasitəsilə yeni yaranmış müstəqil Orta Asiya və Cənubi Qafqaz dövlətlərinin Qərb bazarlarına çıxışını təmin etmək və bu yolla onların iqtisadi, siyasi, mədəni inkişafına dəstək vermək, müdafiə etmək; müstəqil Cənubi Qafqaz və Orta Asiya dövlətləri arasında regional əməkdaşlığa təkan vermək; Beynəlxalq maliyyə qurumlarının həmin müstəqil dövlətlərə maliyyə yardımına cəlb etmək; Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Trans - Avropa nəqliyyat şəbəkəsi ilə birləşdirilməsi və s.

Bu layihənin reallaşmasının, heç şübhəsiz, Qafqazda milli təhlükəsizliyin qorunması Azərbaycan və Gürcüstanın Avropaya inteqrasiyasında, iqtisadi yüksəlişində müstəsna rolu vardır. Bu mənada belə bir fikirlə tam razıyıq ki, «XXI əsrdə dünyanın bir çox dövlətlərinin vahid iqtisadi məkanda birləşdirmək bu proqramın baş xəttini təşkil edir» (Bax: S.Xəlilov. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, s.302).



Artıq reallığa çevrilməkdə olan proqramın həyata keçirilməsi region ölkələrinin iqtisadi və mədəni inteqrasiyasında müstəsna rola malikdir. Qərb-Şərq nəqliyyat dəhlizinin yaradılması çərçivəsində qoyulan beynəlxalq investisiyalar, beynəlxalq tranzit yüklərinin artması Qafqazda siyasi, iqtisadi, geosiyasi şəraitin yaxşılaşmasına, Qafqazda möhkəm və davamlı sülhün yaranmasına təsir edir. Bütün bunlar isə nəticə etibarı ilə Heydər Əliyevin Qafqazda, regionda sülh siyasətinə birbaşa xidmət edir.

Azərbaycanın XXI əsr neft strategiyasının memarı olan Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən Transqafqaz nəqliyyat qovşağında Xəzərin enerji ehtiyatlarının Qərbə nəqlini əsas tutan «BTC» və «BTƏ» neft və qaz kəmərləri layihələrinin reallaşması Cənubi Qafqaz dövlətlərinin, ilk növbədə Azərbaycan və Gürcüstanın dövlət və milli təhlükəsizliyi, iqtisadi yüksəlişi, bütövlükdə regional və beynəlxalq inteqrasiya üçün çox böyük əhəmiyyəti olduğunu bu gün bütün dünya etiraf edir.

Tarixi reallıqdır ki, bu gün həmin kəmərlər və nəqliyyat dəhlizi XXI əsrin əvvəllərində Cənubi Qafqaz dövlətlərinin mövcudluğunun arteriya damarlarına çevrilməkdədir.

Bu layihələrin reallaşması yolunda ən uğurlu addım 2002-ci il sentyabrın 18-də məhz Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşkilatçılığı və böyük siyasi iradəsi nəticəsində Bakıda atıldı. Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət başçılarının, ABŞ-ın energetika nazirinin iştirakı ilə «BTC» əsas ixrac neft kəmərinin tikintisinin təməlatma mərasimi keçirildi və bu layihənin tikintisinə start verildi (Bax: «Azərbaycan» qəzeti, 19 sentyabr, 2002-ci il). Bununla da, Qafqazda gələcək sabitliyin,

iqtisadi yüksəlişin, möhkəm və davamlı sülhün təməli qoyulmuş oldu.

Qafqazda sülh və inteqrasiya proseslərində, heç şübhəsiz, 1997-ci ildə Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova dövlətləri tərəfindən təsis edilən, 1999-cu ildə Özbəkistanın da qoşulduğu və bu gün dünya sivilizasiyasında GUÖAM kimi tanınan regional iqtisadi təşkilatının da müəyyən rolu vardır. (Bu haqda ətraflı bax: Ö.Koçubey. ГУУАМ и равноправное региональное сотрудничество – Журнал «Центральная Азия и Кавказ», 2002, №2, с.118-125).

Qafqazda, xüsusən də cənubi Qafqaz dövlətlərində sülh, əmin-amanlıq, təhlükəsizlik və inteqrasiya proseslərinin intensivləşməsində maraqlı olan Qərb dövlətləri, o cümlədən də, ABŞ-ın bu regiona münasibətindəki bəzi inteqrativ məqamları xatırlamaq yerinə düşərdi. ABŞ-ın xarici siyasətində Qafqaz xüsusi önəm kəsb edir, burada mövcud olan üç postsovet cənubi Qafqaz respublikalarının – hazırkı müstəqil dövlətlərin müstəqilliyinin, demokratiyasının möhkəmlənməsində, iqtisadi qüdrətinin yüksəldilməsində, regionda möhkəm və uzunmüddətli sülhün yaranmasında maraqlıdır. ABŞ-ın ümumən Qafqazda, xüsusən də Cənubi Qafqazda əsas maraqları, əsasən, bunlardan ibarətdir: Azərbaycanın, Gürcüstanın və Ermənistanın ərazi bütövlüyü və dövlət müstəqilliyinin təmin edilməsi; Qafqaz regionunda, xüsusən də Şimali Qafqazda (rus-çeçen müharibəsi) qeyri-sabitliyin qarşısının alınmasına kömək göstərilməsi; nəhayət, Xəzərin enerji ehtiyatlarından səmərəli istifadəyə şərait yaratmaqla regionda



möhkəm və davamlı sülhə, xalqların və dövlətlərin təhlükəsizliyinə hər vasitə ilə yardım göstərilməsi və s.

ABŞ və digər Qərb dövlətləri Qafqazda göstərilən beynəlxalq maraqlarını təmin etmək məqsədilə region üçün aşağıdakı konsentual və strateji məsələlərin perspektivdə həllinə üstünlük verir, bunları Qafqaz siyasətinin prioriteti hesab edirlər: Xəzərin karbohidrogen ehtiyatlarının «Bakı–Tbilisi–Ceyhan» əsas ixrac neft kəməri ilə və «Bakı–Tbilisi–Ərzurum» qaz kəməri ilə Qərbə nəql edilməsinin təhlükəsizliyinə yönələn siyasi, iqtisadi dəstəyin saxlanması; bu halda Azərbaycan, Gürcüstan və Türkiyənin milli təhlükəsizliyinin qorunması; ABŞ-ın əsas strateji müttəfiqlərindən biri kimi Gürcüstanın təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, Abxaziya, Cənubi Osetiyadakı münaqişə ocaqlarının Gürcüstanın ərazi bütövlüyü və sərhəd toxunulmazlığı, dövlət müstəqilliyi prinsipləri əsasında diplomatik yolla həll edilməsi; Azərbaycan Respublikası ilə Cənubi Azərbaycanın azərbaycanlı əhalisi arasında mədəni əməkdaşlığın inkişaf etdirilməsinin dəstəklənməsi; Azərbaycanın iqtisadi inkişafına ABŞ-ın yardımına əngəl törədən və ABŞ-ın Senatı tərəfindən 1992-ci ildə qəbul edilmiş «Azadlığı dəstəkləmə Aktı»na 907-ci düzəlişin icrasının tamam dayandırılması, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ konfliktinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə həlli istiqamətində siyasətinin davam etdirilməsi; Rusiya Federasiyasının rəhbərliyinə Cənubi Qafqazda separatizmi müdafiə etməyin (Azərbaycanda Qarabağ, Gürcüstanda abxaz və Cənubi Osetiya) perspektivsizliyinin başa salınması; əgər bu siyasət davam etdirilərsə, ABŞ tərəfindən müəyyən sanksiyaların

tətbiq ediləcəyinin qaçılmaz olması; ABŞ hökuməti hesab edir ki, Rusiya tərəfindən Ermənistana bu yaxınlarda 1 milyard dollar dəyərində hərbi texnika verilməsi, Abxaziyadakı separatçılara hərbi yardım göstərilməsi Azərbaycan və Gürcüstanın dövlət təhlükəsizliyi, xalqların əmin-amanlığı üçün narahatlıq doğurur; nəhayət, Şimali Qafqazda hərbi münaqişələrin dayandırılması, xüsusən də çeçen-rus müharibəsinin danışıqlar yolu ilə həlli məqsədilə Rusiya Federasi-yası ilə diplomatik əlaqələri gücləndirilməsi və s.

Bütövlükdə Qafqazda sülh və inteqrasiya proseslərinin normallaşdırılması və bu ölkələrin sabit inkişaf yoluna çıxarılması Qərb dövlətlərinin, o cümlədən ABŞ-ın Qafqaz siyasətinin aparıcı istiqamətini təşkil edir. Qərb yaxşı bilir ki, müstəqil Azərbaycanın dövlət başçısı Heydər Əliyevin böyük inamla yürütdüyü Qafqazda sülh, milli təhlükəsizlik və iqtisadi inteqrasiya siyasəti nəticə etibarı ilə Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında əməkdaşlığa güclü təkan verəcək, Şərqlə Qərb arasında sosial-siyasi, iqtisadi və mədəni inteqrasiyanın üstün inkişafında müstəsna rol oynayacaqdır. (Bax: А.Коэн. США, страны Центральной Азии и Кавказа: проблемы и перспективы взаимоотношений. Журн. «Центральная Азия и Кавказ» 2000, №2, с.29-37; Л.Меликишвили. Грузия: Районы возможных этиоконфликтов. - Журн. «Центральная Азия и Кавказ», 2002, №2, с.54-58)

Ən çox narahatçılıq doğuran məsələ Rusiyanın Ermənistanı birtərəfli qaydada silahlandırması, Ermənistanın bölgədə militarist siyasət yeritməsidir ki, bu amillər Qafqazda sülh, təhlükəsizlik prosesinə ciddi əngəl törədir.



Ermənistanın Azərbaycan ərazisinin 20%-ni işğal etməsi nəticəsində ilk növbədə onun özü bütün Qafqazda həyata keçirilən beynəlxalq iqtisadi layihələrdən kənarda qalır. Ermənistan əvvəl-axır anlamalıdır ki, beynəlxalq və regional layihələrindən kənarda qalmaq sonda onun iqtisadi tənəzzülünü qaçılmaz edəcəkdir. Bu yaxınlarda Azərbaycanın NATO-ya assosiativ üzv seçilməsi, Gürcüstanın NATO-ya qəbulla bağlı rəsmi müraciəti də Qafqazda, bölgədə sabit sülhə, milli təhlükəsizliyə, iqtisadi və mədəni əməkdaşlığa beynəlxalq təminatın verilməsinə xidmət etməlidir. İnanırıq ki, Qafqazda əvvəl-axır regional və etnik münaqişələrə də son qoyulacaq, Qafqaz dünyanın inkişaf etmiş, iqtisadi cəhətdən dünya ilə inteqrasiya olunmuş sabit bölgəsinə çevriləcəkdir. Tarixi keçmişin təhlili və ibrət dərsləri, yeni əsrin inkişaf tendensiyası, zəmanəmizin siyasi, iqtisadi və mədəni inkişafının məntiqi bu həqiqətin yaxın zamanlarda gerçəkliyə çevriləcəyini sübut edir.

XXI əsrin əvvəllərində Qafqazda sülh prosesinin dönməzliyinin təmin olunması, iqtisadi inteqrasiya bəşəriyyətin mədəni yaxınlaşmasına təkan verməklə yanaşı, Qərblə Şərq, Avropa ilə Asiya arasında sivilizasiyaların qovuşmasına imkan və şərait yaradır. Qafqazda sülhün alovlu təbliğatçısı, Qafqaz evinin ağsaqqalı, **«Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısı» (Eduard Şevardnadze)** sayılan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin aşağıdakı müdrik kəlamı Avropa və onun bir hissəsi olan Qafqazda möhkəm sülhün, əmin-amanlığın təminatına, inteqrasiyanın inkişafına və sürətlənməsinə dövlətimizin münasibətini aydın şəkildə əks etdirir: **«...Avropa qarşısında**

**həqiqi sülh və sabitlik yolu açılmışdır. Biz istəyirik həqiqətən Avropada təhlükəsizlik, sülh, əmin-amanlıq olsun, eyni zamanda öz problemimizin həllini, yəni Qafqazda əmin-amanlıq, sülh olmasını istəyirik».**

Azərbaycan Prezidenti Heydər Əliyevin Qafqazda və dünyada sülh, əmin-amanlıq, təhlükəsizlik iqtisadi və mədəni inteqrasiya sahəsində böyük fəaliyyətinə görə Türkiyə Cümhuriyyətinin Beynəlxalq Atatürk Sülh Mükafatına (1 noyabr 1999,. Ankara) layiq görülmüşdür. Bu günlərdə isə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev regional təhlükəsizlik problemlərinin həllində müstəsna xidmətlərinə görə Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının professoru və həqiqi üzvü seçilmiş, Yuri Andropov adına mükafata layiq görülmüşdür. («Azərbaycan» qəzeti, 05.04.2003)

Azərbaycan Prezidenti bu mötəbər mükafata ölkənin müdafiə qabiliyyətinin, təhlükəsizliyinin və hüquq qaydasının təmin olunması, bölgədə sülh, əmin-amanlıq və milli təhlükəsizlik istiqamətində həyata keçirdiyi xidmətlərə görə layiq görülmüşdür. İftixar etməli məqamlardan biri də budur ki, Türkiyənin nüfuzlu «Siyasət» jurnalında dərc olunmuş məqalədə Heydər Əliyev haqqında **«Qafqazın lideri, müasir Azərbaycanın öndəri, Türkiyənin dostu»** sərlövhəli analitik məqalədə möhtərəm Prezidentimizin **«Qafqazın lideri»** adlandırılması məhz onun regionda apardığı sülh, əmin-amanlıq, milli təhlükəsizlik və inteqrasiya siyasətinin parlaq nəticəsidir («Azərbaycan» qəzeti, 17.04.2003).



Bütün bunlar Heydər Əliyevin «Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!» ideyasına sədaqətinin, bu istiqamətdə müstəsna xidmətlərinin beynəlxalq səviyyədə etiraf olunması, müstəqil Azərbaycanın sülh siyasətinin real və parlaq nəticəsi kimi yüksək dəyərləndirilməlidir.

## AZƏRBAYCANÇILIQ – MİLLİ İDEOLOGİYAMIZIN ƏSAS İSTİQAMƏTİ KİMİ

S.VƏLİYEVA
*MEA-nın Ədəbiyyat İnstitutu*

Azərbaycançılığın bütöv bir xalqın – bütün dünyada yaşayan azərbaycanlıların, Ana Vətənlə əlaqəsi olan bütün soydaşlarımızın və həmvətənlərimizin milli birlik simvoluna, milli ideologiyasına çevrilməsi və Azərbaycan Respublikasında rəsmi dövlət quruculuğu praktikasında həyata keçirilməsi 1993-cü ildən başlanır və Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu dövrdən başlayaraq azərbaycançılıq etnolinqvistik, etnoqrafik, ədəbi, mədəni-estetik, fəlsəfi və mənəvi dəyərlərlə yanaşı, sosial-siyasi məzmun kəsb edərək ümumi ideyalar sistemi kimi milli dövlət quruculuğunun ayrılmaz komponentinə çevrilir.

Azərbaycan dilinin rəsmi dövlət dilinə çevrilməsi, azərbaycançılıq ideyalarının, milli-mənəvi dəyərlərin bütün dünyada yaşayan həmvətənlərimiz arasında yayılması, hər il 31 dekabrın Dünya Azərbaycanlılarının birlik və həmrəylik Günü

kimi qeyd edilməsi və bu münasibətlə bütün dünyada yaşayan azərbaycanlıların iştirakı ilə keçirilən mərasimlər, xarici səfərləri zamanı Azərbaycan diasporası ilə keçirdiyi görüşlər, Dünya Azərbaycanlılarının Bakıda keçirilən birinci qurultayı və bu səpkili yüzlərlə mühüm işlər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-cü ildən sonra həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir. Bütün bu işlər dünyada yaşayan azərbay-canlıların milli şüurunun, milli özünüdərkinin güclənməsinə, onların Azərbaycan dilinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə, dövlətçiliyinə münasibətinin daha da doğmalaşmasına öz müsbət təsirini göstərmişdir.

Beləliklə, biz 1993-cü ildən başlayaraq milli ideologiyanın – azərbaycançılıq ideologiyasının müasir elmi-nəzəri standartlar səviyyəsində formalaşmasının və tətbiq olunmasının şahidləriyik. Keçən illərdə azərbaycançılıq ideologiyası həm milli dövlət quruculuğu strategiyasının ideya-siyasi əsası kimi praktikada tətbiq olunur, həm elm adamlarının, ziyalıların, milli elitanın düşüncələrinə hakim kəsilib, həm də bütün dövlət hüdudunda kütləvi milli məfkurəyə çevrilib.

Azərbaycançılıq idyealarının yayılması və bütün dünyada yaşayan azərbaycanlıların birləşdirici bir amalına çevrilməsi yolunda Heydər Əliyevin təşəbbüsü ilə 9-10 noyabr 2001-ci ildə Bakı şəhərində keçirilmiş Dünya azərbaycanlılarının birinci qurultayının xüsusi rolu olmuşdur. Bu qurultayda Azərbaycan Respublikası vətəndaşlarını və dünyanın 36 ölkəsində yaşayan azərbaycanlıları təmsil edən, azərbaycanlıların milli elitasını təşkil edən 702 nümayəndə və 844 qonaq iki gün azərbaycançılığın



bütün aspektlərini müzakirə etmiş, dünya azərbaycanlılarının birliyinin nəzəri və praktiki məsələlərini təhlil etmişlər.

Dünya azərbaycanlılarının I qurultayı bütün azərbaycanlıların ana vətəni Azərbaycana, ana dilinə, milli mənsubiyyət hissinə bağlılığını əyani şəkildə sübut etməklə yanaşı əyani şəkildə sübut etməklə yanaşı, eyni zamanda onların milli şüurunun, özünüdərkinin güclənməsində mühüm rol oynadı. Xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması və azərbaycançılıq ideyalarının onların düşüncələrinə hakim kəsilməsi işində bu qurultayın rolu sözün həqiqi mənasında tarixi idi.

Beləliklə, biz 1993-cü ilin sonlarından etibarən milli ideologiyanın, azərbaycançılq ideologiyasının müasir elmi-nəzəri standartlar səviyyəsində formalaşmasının şahidləriyik. Azərbaycançılıq təlimi bu gün milli ənənələrin və cərəyanların, dini və praqmatik nəzəriyyələrin keçid dövrünə məxsus müxtəlif iqtisadi prosesləri, cəmiyyətin industrial və postindustrial inkişafının bütün çalarlarını özündə cəmləşdirir. ("Dirçəliş" jurnalı, 2002-ci il, N 4)

Azərbaycançılıq ideologiyası bu gün Heydər Əliyev kimi müdrik bir siyasi liderin şəxsində özünü qüdrətli qarantını tapmışdır. Digər tərəfdən azərbaycançılıq ideologiyasının öz inkişafındakı üçüncü səviyyəyə keçiməsi başqa bir cəhətlə də əlamətdardır. Bu da ondan ibarətdir ki, bu ideologiya artıq müasir elmin nailiyyətlərinə əsaslanaraq, özünün elmi-nəzəri əsaslarını da

təklif edir, nəzəriyyə və təcrübənin vəhdətini də təcəssüm etdirir. Bu mənada Yaşar Qarayevin, Səlahəddin Xəlilovun, Ramiz Mehdiyevin, Nizami Cəfərovun, Yaqub Mahmudovun, Anarın, Azad Nəbiyevin, onlarla filoloq, filosof, sosioloq, psixoloq və politoloqun azərbaycançılığa dair tədqiqat işləri təqdirəlayiqdir.

Bilavasitə bu mövzuya həsr olunmuş monoqrafiyalardan biri S.Xəlilovun geniş və əhatəli tutumu ilə fərqlənən əsərlərindən biri "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" kitabıdır. (S.Xəlilov. "Heydər Əliyev və azərbaycançılıq məfkurəsim". Bakı, 2002)

Kitab Heydər Əliyevin ideyaları əsasında formalaşan müasir azərbaycançılıq təliminin elmi-nəzəri və ideoloji bir sistem kimi şərhinə həsr olunmuşdur.

Müəllif Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda formalaşmağa başlayan milli inkişaf strategiyasının ideya-siyasi əsaslarını təhlil edir, azərbaycançılıq ideyasının birləşdirici rolunu elmi cəhətdən araşdırır.

Əsərin başlıca ideyası bundan ibarətdir ki, bəşəri dəyərlərin qiymətləndirmə meyarlarının milli sədləri aşdığı qloballaşma şəraitində bir millətin məfkurəsi olmaq etibarilə yalnız Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan dövlətinin deyil, bütün dünyada yaşayan azərbaycanlıların, habelə bir neçə nəsil Azərbaycanda yaşamış və buranı öz Vətəni sayan digər etnik və milli azlıqların maraqlarını ifadə edən müasir azərbaycançılıq konsepsiyasını müstəqil dövlətimizin strateji inkişaf xətti kimi ilk dəfə Heydər Əliyev irəli sürmüşdür.



Əsərdə azərbaycançılığın əsasları kimi söhbət təkcə milli dildən, dindən, adət-ənənədən, mədəni-mənəvi dəyərlərdən, habelə bu dəyərlərin rəsmi dövlət fərmanları ilə təsbit olunmasından getmir. Müəllifin mövqeyi belədir ki, bu milli sərvətlərin ayrı-ayrılıqda öyrənilməsi, dəyərləndirilməsi, sadəcə qorunub-saxlanması azdır, bu dəyərlər ictimai miqyasda, Vətən miqyasında məhz dinamik bir proses kimi, ictimai varlığımızın ayrılmaz tərkib hissəsi kimi saxlanılmalı və inkişaf etdirilməlidir.

Kitabda Prezident Heydər Əliyevin ana dili, milli-mənəvi dəyərlərimiz və mədəniyyətimizlə bağlı fikirləri əsasında dünya azərbaycanlıları və azərbaycançılıq ideyası, vahid milli-mənəvi məkan, milli-etnik və milli-siyasi özünüdərk, azərbaycançılıq və milli ziyalılıq, azərbaycançılıq və millifəlsəfi fikir, milli mənəviyyat və dövlətçilik, milli-mənəvi dəyərlər və müasirlik kimi aktual problemlər üzrə geniş fəlsəfi təhlil aparılmışdır.

Müəllif azərbaycançılığın elmi aparatının özünəməxsus strukturunu açmış, milli məndəricədən çıxaraq, millilik və ümumbəşəriliyin vəhdətindən çıxış edən bir məfkurə kimi onu formalaşdıran amilləri göstərimişdir. Həmin komponentlər bunlardır: 1) Azərbaycanın milli-etnik gerçəkliyi; 2) dilimiz; 3) islam dini; 4) milli mənşəyin həyat tərzində, məişətdə, mərasimlərdə saxlanılan ümumi əlaməti olan etnoqrafiya; 5) toponimika; 6) arxeologiya və maddi mədəniyyət nümunələri; 7) milli-mənəvi mədəniyyət.

Azərbaycançılıq ideyasının praktiki mənası Azərbaycan dövlətçiliyinin, Azərbaycan dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərin, mütərəqqi adət-ənənələrin qorunub-saxlanılmasını, əbədi

yanşamasını özünün milli və vətəndaş borcu hesab edən insanların yetişdirilməsidir. Elə insanların tərbiyə edilməsidir ki, bu insanlar sadaladığımız dəyərlərlə fəxr edərək, onların qorunması missiyasını nəsildən-nəslə ötürsün. Bu mənada Ramiz Mehdiyevin "Azərbaycanda siyasət: dünən, bu gün və sabah" adlı əsəri xüsusi diqqət cəlb edir. (Bax: Ramiz Mehdiyev. "Azərbaycan" qəzeti, 9-10 yanvar 2002-ci il).

Müəllif son 9 ildə (1993-2002) Azərbaycanda həyata keçirilən dövlət siyasətini məhz bu kontekstdə təhlil edərək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il noyabrın 21-də Yeni Azərbaycan partiyasının ikinci qurultayında ölkənin XXI əsrdə inkişaf ideologiyasından danışarkən gəldiyi fikri xatırladır: "...biz elə nəsil yetişdirməliyik ki, təkcə bizim vaxtımızda yox, bizdən sonra da onlar Azərbaycanın xətalara düşməsinə imkan verməsinlər. Onlar düz yolla, doğru yolla, milli hissiyatlar yolu ilə getməlidirlər". Daha onra bu fikri ətraflı şərh edən R.Mehdiyev yazır: "Məhz milli hisslərə, milli ənənələrə dərin sədaqət-milli eyniyyəti, özgürlüyü bərqərar etmək və qoruyub saxlamaq niyyəti, qərb və şərqin tarixi nailiyyətləri ilə zənginləşmə əsasında cəmiyyətin modernləşdirilməsi, güclü və müstəqil Azərbaycan qurmağa qadir milli çoxluğun formalaşdırılması son 8 ildə həyata keçirilən möhkəm və uğurlu dövlət quruculuğunun rəhnidir". (Yenə orada).

"Bütün korporasiyaları birləşdirən ali qüvvə, hətta demək olar, müqəddəs qüvvə dövlətdir. Mühafizəkarlıq bərabərliyə deyil, cəmiyyətin elə bir vəhdətinə çalışır ki, orada hər bir şəxsiyyət



müəyyən nizamın iştiarkçısı olsun. Çünki güclü dövlət olmasa, cəmiyyət anarxiyanın hökmü altında qala bilər". (Yenə orada).

"Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" kitabına yazdığı ön sözdə bu ideyanı daha da genişləndirən R.Mehdiyev azərbaycançılığın mövcudluğunun iki mühüm şərtini və çərçivəsini göstərir və etiraf edir ki, bu ideologiyanın ayrı-ayrı elementlər ailələrdə, müxtəlif insan və toplumların mənəvi aləmində yaşaya bilir. Lakin əlbəttə ki, azərbaycançılığın inkişafı onun yalnız bir milli-etnik dəyər kimi dar müstəvidə, bir etnosun izində deyil, müstəqil dövlətin xüsusi himayəsi altında ictimai-siyasi və mədəni həyatın bütün sahələrində tətbiq olunmasını tələb edir. Beləliklə, R.Mehdiyev azərbaycançılığın yeni dövrdə daha böyük inkişaf yoluna keçəcəyini proqnozlaşdırır və bunu dünya xəritəsində müstəqil və suveren Azərbaycan dövlətinin mövcudluğu ilə bağlayır. Bu nöqteyi-nəzərdən azərbaycançılığa vahid, bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə kimi baxan R.Mehdiyev yazır: "Bu gün "azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir". (Bax: "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" kitabına Ramiz Mehdiyevin ön sözü).

R.Mehdiyevin "Azərbaycanda siyasət: dünən, bu gün və sabah" məqaləsində hazırda dünyaya hökm edən qloballaşma ilə milli ideologiyanın qarşılıqlı münasibətlərindən də hərtərəfli bəhs olunmuşdur. Müəllif yazır ki, qloballaşma şəraitində formalaşan

hər hansı ideologiya özündə həm cəmiyyətin modernləşdirilməsini, həm də vahid ümumbəşəri dəyərlərin və əxlaq prinsiplərinin yayılmasından doğan qütbləşməni təcəssüm etdirir. Mövcud vəziyyətdə azərbaycançılıq milli ideyanın əsas forması kimi təsəvvür edilir və ona inteqrativ ideya kimi yanaşmaq lazımdır. Bu ideyanın əsasında sivil Avrasiya birliyinin bir hissəsi – özünəməxsus milli özgürlüyə, ənənəyə, milli eyniyyətə və mentalitetə malik Azərbaycan haqqında təsəvvür dayanır.

## HEYDƏR ƏLİYEV VƏ MİLLİ KONSTİTUTSİYAMIZ

**B.ƏKBƏROV**
*Milli Aviasiya Akademiyası*

Məlumdur ki, bu günlərdə xalqımızın böyük oğlu, xalqımızın bənzərsiz və əvəzsiz lideri, dünya şöhrətli siyasətçi, görkəmli ictimai-siyasi və dövlət xadimi, əziz və hörmətli prezidentimiz cənab Heydər Əliyevin yubiley günləridir.

Bu günlər ölkəmizin hər yerində, damarlarında azərbaycanlı qanı axan hər bir kəs, bu əlamətdar bayramla əlaqədar sevinir və bu bayrama öz sevinc payını bildirməyə çalışır.

Cənab Heydər Əliyev mahir bir memar kimi Azərbaycanı – yer üzünə şəfəq saçan möhtəşəm bir saray kimi yenidən qurmuş, ucaltmış və indi günbəgün daha da gözəlləşən doğma paytaxtımız Bakı şəhəri bu saraya yaraşıq verən gözəllik parçasıdır.



Cənab Heydər Əliyev Azərbaycanı dünya dövlətləri birliyində müstəqil bir dövlət kimi tanıdan, saydıran, bir görkəmli dövlət və ictimai xadim kimi ölkəmizin siyasi və rəsmi rəmzi olan əsas qanunun – ilk Milli Konstitusiyamızın yaradılması üçün həlledici və qətiyyətli addım atmışdır.

Ölkəmizin ilk Milli Konstitusiyasının yaranması zərurəti, SSRİ-nin dağılması nəticəsində doğma Azərbaycanımızın müstəqillik qazanması ilə sıx surətdə bağlıdır.

Azərbaycanda dövlət müstəqilliyi haqqında Bəyannamə və dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edildikdən sonra yeni Konstitusiyanın hazırlanması ilə bağlı iki dəfə komissiya yaradılmasına baxmayaraq, keçmiş iqtidarlar dövründə bu məsələyə laziim səviyyədə diqqət verilmədiyindən həmin təşəbbüslər elə təşəbbüs olaraq da qalmışdır.

Müstəqil Azərbaycanın – ilk Milli Konstitusiyasının yaranması prosisi yalnız cənab Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtması və ölkə prezidenti seçilməsinidən sonra başlanmışdır.

Bu onu göstərir ki, lap qədim dövrlərdən başlayaraq, nizam-intizamlı dövlət quruculuğunu həyata keçirmiş əfsanəvi türk qəhrəmanı Atilla, müstəqil Azərbaycan dövləti yaratmış Şah İsmayıl Xətai dövründən bu yana, müasir Türkiyyə Respublikasının yaradıcı böyük Atatürkdən sonra, müstəqil Azərbaycan dövlətinin yaradılması, tək Azərbaycan xalqının deyil, bütün türk dünyasının görkəmli dövlət xadimi, zəmanəmizin canlı Atatürkü Heydər Əliyev tərəfindən həyata keçirilmişdir.

Bu barədə cənab Heydər Əliyev özü deyir: «Keçdiyim həyat yolunu təhlil edərkən, əsas hadisəni onda görürəm ki, mənə Azərbaycanın müstəqilliyini təimn etmək müyəssər olmuşdur».20

Məhz onun sədrliyi ilə 35 nəfərdən ibarət yeni Konstitusiya layihəsini hazırlayan Komissiya yaradıldıqdan sonra əsl yaradıcılıq işi, mən deyərdim ki, insanı heyrətə gətirən fövqəladə gərgin bir fəaliyyət başlanmış, çox nəhəng iş aparılmışdır.

Cəmi 6 ay ərzində Konstitusiya layihəsi hazırlanmış və xalqın müzakirəsinə verilmişdir.

Bu işin, bu prosesin nə qədər fövqəladə və gərgin proses olduğunu belə bir müqayisə ilə nəzərinizə çatdırmaq istəyirəm.

Cəmi 7 maddə və 26 düzəlişdən ibarət olan Amerika Birləşmiş ştatlarının Konstitusiyasının ilkin variantını Konstitusiya kimi təsbit olunması prosesi 10 ilə başa çatmış dır. Amerikada yaşayan bütün insanların vətəndaş hesab olunması üçün 144 il və həmin vətəndaşların qanun qarşısında bərabər hüquqlu olmasının təsbit olunması üçün 149 il lazım olmuşdur.

Tarix üçün cəmi 6 ay bir məqamdır, bu məqam ərzində cənab Heydər Əliyev təkcə bir müdirik dövlət başçısı kimi deyil, həm də komissiyanın sıravi bir üzvü kimi, onun iştirakı ilə Konstitusiyanın hər bir maddəsi diqqətlə araşdırılmış, buraxılmış nöqsanlar aradan qaldırılmış, ən demokratik prinsiplərə əsaslanan sanballı bir siyasi sənəd hazırlanmışdır.

Mən xatırlayıram ki, Konstitusiyanın ilkin layihəsi qəzetlərdə çap edilərkən orada Azərbaycanın hüquqi dövlət olması göstərilməmişdir. Ali Arbitrac Məhkəməsi unudulmuşdur. Dil, sərhəd, müharibə və sülh məsələlərində dəqiqsizliyə yol verilmişdir.



Bir ço x maddələrdə təkrarçılığa yol verilmişdir. Konstitusiyanın ilkin layihəsi 199 maddədən ibarət olmuşdur. Lakin müdrik rəhbərimiz Konstitusiya layihəsini müzakirə edərkən elmin bütün sahələrində, o cümlədən hüquq, tarix və fəlsəfə sahələrində tanınmış elm xadimlərinin qibtə edəcəyi, dərs alacağı ensiklopik biliyə malik siyasi bir xadim kimi özünü nümayiş etdirməklə Konstitutsiya layihəsində yol verilmiş bu çatışmamazlıqlar tamamilə aradan qaldırılmışdır. Məhz bunun nəticəsidir ki, konstitusiyamızda bu nöqsanları aradan qaldırılmış, konstitusiyadan artıq maddələr çıxarılmış və 158 maddə saxlanılmışdır.

Səciyyəvi haldır ki, Hörmətli Prezidentimiz bu prossesə sadəcə rəhbərlik etməmiş, özü də komissiyanın bir üzvü kimi hər kəlmənin, hər maddənin üstündə diqqətlə çalışaraq işə son dərəcə vicdanlı və məsuliyyətli münasibətin, özünə və işçilərə son dərəcə tələbkarlığın və qayğıkeşliyin bariz nümunəsini göstərmişdir.

Həmin dövrədə komissiyanın səkkiz dəfə iclası keçirilmişdir. Bu iclaslarda hər dəfə hörmətli prezidentimiz öz proqram çıxışları ilə komissiyanın işini daha da yüksək səviyyəyə qaldırılmasına çalışmış və hazırlıq prossesinə istiqamət vermişdir.

Odur ki, xalqımız cənab Heydər Əliyevi milli Konstitutiyamızın yaradıcısı və banisi hesab edir, onu Heudər Əliyev Konstitusiyası adlandırır.

Gərgin iş prossesi haqqında cənab Heydər Əliyev özü belə deyir: «Komissiya altı aydan çoxdur ki, fəaliyyət göstərir ki, bu altı ay müddətində biz addımbaaddım, günbəgün çalışıb müstəqil Azərbaycan Respublikasının Konstituisya layihəsini hazırlayıb xalqa təqdim edə bilmişik». Prezident daha sonra deyir:

«Komissiyanın sədri kimi şəxsən mən bu böyük tarixi sənədin hazırlanmasına xeylı vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm ki, biz Azərbaycanın bu gününü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi-hüquqi sənəd yaratmışıq»

Məhz cənab Heydər Əliyevin müdrikliyi sayəsində Müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası kimi əsl demokrotik prinsiplsər və dərin milli zəmin üzərində qurulmuş sanballı siyasi sənədin qısa müddət ərzində hazırlanaraq referendumda qəbul edilməsi mümkün olmuşdur.

Yeni Konstitusiya Azərbaycan tarixində ilk dəfə olaraq, Azərbaycan dövlətinin müsətəqilliyi, suverenliyi və ərazi bütövlüyünü qorumaq əzmini, Azərbaycan xalqının öz müqəddaratını sərbəst, müsətəqil olaraq həll etmək və öz idarəetmə formasını müəyyən etmək hüququnu təntənəli surətdə bəyan edir. Burada göstərilir ki, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi və unitar respublika olmaqla öz suveren hüquqlarını bilavaistə ümumxalq səsverməsi-referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli, şəxsi səsvermə yolu ilə seiçlmiş nümayəndələri vasitəsilə həyata keçirilir.

Konstitusiyanın 3-cü maddəsində göstərilir ki, Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi, Azərbaycan Respublikasının dövlət sərhədlərinin



dəyişdirilməsi məsələləri yalnız referendum yolu ilə həll oluna bilər.

Beləliklə, həm Konstitusiyanın sabitliyi qorunur, həm də torpaqlarımızın müxtəlif bəhanələrlə paylanması hallarına qarşı sipər çəkilmiş olur.

Yeni Konstitusiyada birbaşa göstərilir ki, «İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir». Bu cür normaya əvvəlki konstitusiyalarda rast gəlmək olmazdı. Konstitusiyada əsas diqqət verilən məsələlərdən birincisi insan və vətəndaşların əsas hüquq və azadlıqlarının hərtərəfli əhatə olunmasıdır.

Yeni Konstituisyada azadlıq hüququ, yaşamaq hüququ, təhlükəsiz yaşamaq, şəxsi toxunulmazlığı, sərbəst surətdə özünə yaşayış yeri seçmək hüququ, xaricə getmiş vətəndaşlara maneəsiz olaraq respublikamıza qayıtmaq hüququ, tutulduğu, həbs alındığı və cinayət törədilməsində idtiham olunduğu andan yüksək keyfiyyətli müdafiə hüququ və sair hüquqlar təsbit edilmişdir.

Yeni Konstituisyanın səciyyəvi cəhətlərindən biri də Azərbaycan dilinin rəsmi dövlət dili kimi təsbit edilməsidir.

Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətlərindən biri və birincisidir.

Heydər Əliyev dövlət idarəçiliyinin ən yüksək pilləsinə qalxdığı ilk gündən böyük diqqət verdiyi, formalaşmasına və daha da zənginləşməsinə, inkişaf etməsinə xüsusi qayğı göstərdiyi məsələ Azərbaycan dilinin rəsmi dövlət dili kimi cəimyyətimizdə və ictimai

həyatımızın bütün sahələrində, sözun həqiqi mənasında layiqli yer tutması məsələsi olmuşdur.

Yadımdadır, cənab Heydər Əliyev respublikamıza yenicə rəhbər seçildiyi dövr idi və indiki Şəhriyar adına klubda Azərbaycan Dövlət Universitetinin yarıməsirlik yubileyi keçirilirdi. Yalnız qonaqlar istisna olmaqla hamı doğma Azərbaycan dilində danışırdı.

Azərbaycan Dövlət Universitetinin o vaxtkı rektoru Mehdi Əliyev Azərbaycan dilində məruzə etməyə başlayanda bütün salon ony hərarətlə alqışladı, çünki həmin vaxtadək heç kim onu rəsmi iclaslarda Azərbyacan dilində danışan görməmişdi.

Bu, yalnız və yalnız respublika rəhbərinin öz doğma, ana dilində danışmasını və başqalarını da bu dildə danışmasını tələb etməsinin nəticəis idi. Bunu heç vaxt unutmaq olmaz.

Maraqlıdır ki, hər dəfə Azərbaycan dili böyük sınaqlar, böyük imtahanlar qarşısında qalanda, dərin sarsıntılar içərisində çırpınanda və özünün xilaskarını axtaranda Ulu Tnarı onun harayına məhz Heydər Əliyevi çatdırmışdır.

Budur, 1978-ci il, hələ SSRİ-nin yer üzündə hökmranlıq himni oxunduğu dövr. Azərbaycanın «böyük Sovetlər İttifaqının kiçik üzvlərindən biri » olduğu həimin dövrdə yeni Konstitusiya qəbul edilməli idi. Hər yerdə «ümumi sovet xalqı», «ümumi ünsiyyət vasitəsi» anlayışları hökm sürdüyü üçün mill i dillərin Konstitusiyada ayrıca ünsiyyət vasitəsi olaraq göstərilməsinə ehtiyac olmadığı haqqında ideoloci təbliğat bütün ölkəni bürümüşdü. Belə bir vaxtda, günəş kimi işıqlı, ay kimi nurlu, varlığımız kimi parlaq, tariximiz qədər qədim olan doğma ana



dilimiz «olum, ya ölüm» dilemması qarşısında son anlarını yaşaayrkən, heç kəsin cınqırını belə çıxartmağa imkanı olmadığı bir vaxtda məhz cənab Heydər Əliyevin qətiyyəti, mətanəti və cəsarəti sayəsində Azərbaycan dili yenidən həyata vəsiqə aldı və Azərbaycan SSR Konstitusiyasında rəsmi dövlət dili kimi öz əksini tapdı. Bu, günün günorta vaxtı aydın səmada şimşək çaxmasını andırırdı. Hətta Ukrayna kimi böyuk bir respublikanın rəhbərliyinin və başqaların buna qəti etirazları səslənsə də Heydər Əliyev buna çox kəskin və qəti olaraq «öz diliniz barədə öznüz bilərsiniz, bizim dilimiz isə yaşayacaqdır, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz Konstitusiyamızda yazdırmalıyıq və yazacağıq» deməklə onları susdurmuş və beləliklə də ana dilimizi məhv olunmaqdan qoruyub saxlaya bilmişdi. Bu danılmaz bir faktdır ki, o vaxtlar Azərbaycan dilini Konstitutsiyada dövlət dili kimi yazdıran, saxlayan yeganə türkdilli müsəlman respublikası Azərbaycan idi.

Hörmətli prezidentimizin 18 iyun 2001-ci il tarixli «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» fərmanı ilə latın qrafikasına keçmək barədə ayrıca maddə göstərilmsi bütün xalqın ürəyindən oldu və bütün idarə, müəssisələr, bütün vətəndaşlar latın qrafikasını işlətməyə başladı.

Yeni Konstitusiyada hakimiyyət bölgüsü prinsiplərinə əsaslanaraq, qanunvericiliyin Milli Məclisə, icra hakimiyyətinin respublika Prezidentinə məxsus olması, məhkəmə hakimiyyətinin məhkəmələr tərəfindən həyata keçirilməsi geniş təsbit olunmuş və beləliklə də, respublikamızda digər məhkəmələrlə yanaşı, Konstitytsiya məhkəməsinin təşkil edilməsi üçün qanuni zəmin

yaradılmışdır. Hazırda Konstitusiya məhkəməsi yaradılmış və bir neçə ildir ki, uğurla fəaliyyət göstərir.

Diqqətəlayiq haldır ki, Konstitutsiyada fəlakətlərə səbəb olan müharibə başqa dövlətlərin müstəqilliyinə qəsd kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi qətiyyətlə rədd olunur.

Prezidentiimz Heydər Əliyev hələ müstəqilliyimizin ilk illərində YUNESKO -nun BAŞ KATİBİNƏ yazdığı məktubda müharibəyə dair öz mövqeyini açıq surətdə bildirərək, yazırdı: «İnsan hüquqlarını kütləvi surətdə pozan başlıca amil müharibədir. Müharibələr nəticəmində insanların ən əsas hüquqları-yaşamaq hüquqları pozulur, onların yaşadıqları yerlər dağılır, mədəni sərvətlər məhv edilir, insanlar öz yurdlarından didərgin düşür və böyük faciələrə düçar olurlar».

Konstitutsiyada bu məsələdən başqa, həmçinin Azərbaycanın dövlətçiliyinə dair müddəaların, ölkəmizdə yaşayan bütün xalqların, millətlərin, etnik qrupların tam bərabər hüquqlu olması, insan və vətəndaşların hüquqlarının ən demokratik prinsiplər əsasında əks olunması və nəhayət, ətrafa ölüm saçan işğalçı müharibələrin insanın həyatından birdəfəlik yox olması kimi hümanist ideyaların təsbit edilməsi də möhtərəm prezidentimizin adı ilə bağlıdır.

Səciyyəvi bir haldır ki, Hörmətli Prezidentimiz cənab Heydər Əliyev Milli Konstitutsiyamıza heç də doqmatik, dəyişilməz və toxunulmaz bir sənəd kimi baxmayaraq, ölkəmizin məhz keçid dövrünü özündə əks etdirən, qəbul etdirildikdən sonrakı dövrdə müstəqillik yolu ilə əzmlə addımlayan ölkəmizin ictimai-siyasi, sosial və mənəvi aləmində baş verən köklü



dəyişikliklərin, demokratik proseslərin sürətlə inkişafı nəticəsində meydana çıxan bir çox aktual məsələlərin, həmin Əsas Qanunda əks etdirilməsi zərurəti yarandığını vacib hesab edərək, «Azərbaycan Respublikası Konstitutsiyasında dəyişiklik edilməsi məqsədilə ümumxalqsəsverməsi (referendum) keçirilməsi haqqında» 22 iyun 2002-ci il tarixli, çox dəyərli bir fərman imzalamışdır. Belə bir fərmana imza etməklə cənab Heydər Əliyev özünün dövlət quruculuğu sahəsində bir nəzəriyyəçi və həm də həmin nəzəri fikirlərin təcrübi surətdə həyata keçirilməsini reallaşdıran böyük və fenomenal bir şəxsiyyət olduğunu bir daha nümayiş etdirmişdir.

Digər bir cəhəti də qeyd etmək istərdim ki, möhtərəm Prezidentimiz tərəfindən deyilən sözlər, göstərilən hallar əsas məsələlər olmaqla başlıca istiqamətlərdir. Lakin bu göstərişlərdən sonra bu məsələlər üzərində iş aparmaq, dəqiq və hərtərəfli işləmək, artıq bu sahədə işləyən məsul şəxslərin, ardıcıl surətdə bu sahədə tədqiqatla məşğul olan elm adamlarının, tədqiqatçıların işidir. Ona görə də mən də böyük məmnuniyyət hissi ilə bu sahənin tədqiqatçılarından biri kimi hesab edirəm ki, referendum aktı ictimai həyatımızda baş verən ciddi dəyişiklikləri özündə əks etdirən aktual və çox mühüm bir sənəddir və ona görə də təsadüfi deyildir ki, və heç də təsadüfi deyildir ki, ümumxalq səsverməsinə çıxarılmış bütün məsələlər xalq tərəfindən yekdilliklə səs verilərək qəbul edilmişdir.

Qeyd etmək lazımdır ki, Milli Konstitutsiyamızın qəbul edilməsi həm də ölkəmizin xarici və daxili siyasətinin daha fəal və uğurlu həyata keçirilməsinə böyük təkan vermişdir.

Bütün bunlar hörmətli Prezidentimiz cənab Heydər Əliyevin yorulmadan həyata keçirdiyi nəhəng fəaliyyətin nəticəsidir.

Hazırda Respublikamızda növbəti prezident seçkilərinə böyuk hazırlıq işləri aparılır. Hesab edirəm ki, Azərbaycan xalqı öz seçimini artıq etmişdir və xalqımızın yekdilliklə irəli sürdüyü yeganə namizəd xalqımızın böyük oğlu, müdrik rəhbərimiz cənab Heydər Əliyevdir. Söz yox ki, bütün xalqımız ona səs verəcəkdir.

Çox tez-tez düşünürəm , nə yaxşı ki, Tanrı xalqımıza qüdrətli, müdrik, böyüklərdən-böyük, ucalardan-uca olan dahi rəhbərimiz Heydər Əliyev kimi bir şəxsiyyəti bəxş etmişdir.

O, xalqımızı bəşər övladına od bəxş etmiş Prometey, öz ürəyini məşəl edərək, insanları zülmətdən işığa çıxaran qəhrəman Danko kimi irəli aparır və bizi də onun bayrağı altında inamla addımlayırıq.

## YENİ AZƏRBAYCANCILIQ İDEYASI HEYDƏR ƏLİYEV SİYASƏTİNİN ƏSAS PRİNSİPLƏRİNDƏNDİR

M.ƏLİZADƏ

*Azərbaycan Kənd Təsərrüfatı Akademiyası*

Dövlət də insan kimidir. Doğulur, böyüyür, inkişaf edir, bəzən də güclü əllərdə olmadığı üçün məhv olur. XX əsrin əvvəllərində yaranmış geosiyasi vəziyyətdən istifadə edən Azərbaycan xalqı öz dövlət müstəqilliyini elan etsə də ömrü uzun olmadı. Daxili çəkişmələr və xarici təzyiqlər nəticəsində məhv oldu.



XX əsrin sonlarında Azərbaycan itirilmiş dövlət müstəqilliyini yenidən bərpa etsə də, hakimiyyət uğrunda başlayan mübarizə daxili və xarici siyasətdə müstəqillik əldə etməyə ancaq mane oldu. Bu mənasız mübarizənin mənfi təzahürü tarixi torpaqlarımızın 20%-nin Ermənistan tərəfindən işğal edilməsi oldu və Azərbaycan dövlətçiliyi üçün ciddi təhlükə yarandı.

Belə bir ağır şəraitdə xalqın təkidi ilə 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdan Heydər Əliyev cox qısa müddətdə ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsinə nail oldu.

Tarixi yazmırlar, yaradırlar. Sonra isə salnaməyə alırlar. Cağdaş Azərbaycan tarixini yaradanlardan biri də məhz Heydər Əliyevdir. O tarix tərəfindən onun üzərinə qoyulan missiyanı şərəflə yerinə yetirir. 1969-cu ildən hakimiyyətə gələn, siyasi fəaliyyətinin əsas məqsədi Azərbaycan xalqının rifahı, Azərbaycan dövlətciliyinin inkişaf etdirilməsi olan Heydər Əliyev, dövləti siyasətində tarixyüklü məsələləri daim diqqət mərkəzində saxlayaraq onların inkişaf etdirilməsinə calışır.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri ondan ibarətdir ki, o dünya azərbaycanlılarını öz ətrafında toplayaraq yeni bir təlimin – azərbaycancılıq təliminin əsasını qoydu və inkişaf etdirdi.

2001-ci il 9-10 noyabrında Bakıda kecirilən Dünya azərbaycanlılarının I qurultayında cıxış edən Heydər Əliyev demişdir: «...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi kecirməlidir və biz azərbaycancılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq». Azərbaycancılıq ideyaları dünyanın 70 ölkəsində

yaşayan 50 milyondan artıq azərbaycanlının mütəşəkiliyi, vəhdəti və birliyidir.

Azərbaycancılıq xalqın və millətin ideoloji bazasını təşkil edən bütöv bir sistemdir. Xalq öz milli mənliyini bu ideologiyanın mənimsənilməsində tapır.

Heydər Əliyevin təməlini qoyduğu azərbaycancılıq ideyası Azərbaycanın Beynəlxalq təşkilatlarda təmsil olunmasına, dünyaya inteqrasiya etməsinə yardımcı oldu. Cənab Prezident həmçinin milli ideologiyamızın formalaşmasında azərbaycançılıq ideyalarına yiyələnməyi vacib sayır.

Gəlin görək azərbaycançılığın prinsipləri hansılır sayılır: dövlətçilik, ana dili, din, milli mədəniyyət, milli-mənəvi dəyərlər və s.

Bütövlükdə götürdükdə isə azərbaycançılıq geniş bir anlayış olmaqla dövlətçiliyin sabitləşməsinə, möhkəmlənməsinə, inkişafına; dilimizin qorunub saxlanmasına və zənginləşməsinə; milli-mənəvi dəyərlərimizin mənimsənilməsinə və dünya sivilizasiyası ilə inteqrasiyasına, eləcə də insanlarda milli vətənpərvərlik hisslərinin formalaşmasına xidmət edən zəruri şərtlər kompleksidir.

Heydər Əliyevin 16 dekabr 1991-ci ildə Naxçıvanda təməlini qoyduğu azərbaycançılıq ideyası Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulmasına və dövlətçiliyimizin sonrakı inkişafına yol açdı. Azərbaycan tarixdə ilk dəfə milli Konstitusiyasını qəbul etdi, demokratik seçkilər yolu ilə parlamentini, ölkə prezidentini seçdi. Azərbaycançılıq ölkədə bütün sahələrdə əsaslı islahatlar kursunun keçirilməsinə kömək etdi. Dövlətçilik ənənələrini pozmadan Azərbaycan milli mənafelərinə uyğun olan müstəqil xarici siyasət aparır. Bu onun müstəqilliyinin əsas göstəricisidir. Azərbaycan dünyəvi dövlət kimi dünyada öz yerini tutaraq bütün beynəlxalq təşkilatların üzvüdür. Bu gün dünyada Azərbaycan diasporunun formalaşması ən böyük nailiyyətlərdəndir.



Azərbaycan dili azərbaycançılıq ideyasının əsasını təşkil edən amillərdən biridir. Azərbaycanın görkəmli maarifçilərindən biri Həsən bəy Zərdabi qeyd etmişdir ki, millətin millət olması üçün dili və dini olmalıdır. Öz ana dilinə hörmət və məhəbbətlə yanaşan, xalqın dilində onunla mükəmməl danışan, gözəl nitq mədəniyyətinə malik olan Heydər Əliyev hakimiyyətdə olduğu ilk gündən ana dilinin inkişafı uğrunda mübarizəyə başladı.

Azərbaycan dili tarixən dövlət dili olub-olmamasından asılı olmayaraq Azərbaycanda ünsiyyət və informasiya vasitəsi kimi işlənmişdir. Dilimiz müxtəlif imperiyalar dövründə təzyiq və təsirlərə məruz qalsa da dəyişməmiş, daxili quruluşunu qoruyub saxlaya bilmişdir. Bu dildə Azərbaycanın milli mədəniyyətinin qızıl fonduna daxil olan dəyərli bədii sənət nümunələri yaradılmışdır. Hələ sovet dövründə Azərbaycan müstəqilliyinin xülya olduğu bir vaxtda Heydər Əliyev ana dili uğrunda mübarizə apararaq 1978-ci ildə qəbul edilmiş Azərbaycan SSR Konstitusiyasının 73-cü maddəsinin – yəni Azərbaycan dlinin dövlət dili elan edilməsi – daxil edilməsinə nail oldu. Həmin maddə digər sovet respublikalarında olmadığı üçün Moskvada narazılığa səbəb olsa da Heydər Əliyev qələbə caldı.

Müstəqillik qazandıqdan sonra Azərbaycan dilinin imkanları daha da genişləndi. Təəssüflər olsun ki, respublikanın o

zamankı rəhbərliyinin səriştəsizliyi nəticəsində, xalqın iradəsinə zidd olaraq, dövlət dilinin adı qeyri-qanuni şəkildə dəyişdirildi. Yalnız 12 noyabr 1995-ci ildə ilk Milli Konstitusiyamız qəbul edildikdə bu ədalətsizliyə son qoyuldu. Konstitusiyanın 21-ci maddəsinə əsasən: «Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir».

Nəhayət, Heydər Əliyev Ana dilimizi inkişaf etdirmək üçün mühüm əhəmiyyət kəsb edən, milli ruhu gücləndirən qərar - 18 iyun 2001-ci il «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» və 9 avqust 2001-ci il tarixli «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında» fərmanları imzaladı. Bu qərarlar dövlətin simasını müəyyən etdi. İndi Azərbaycanda hamı, bütün dövlət orqanları yalnız latın əlifbasından istifadə edir. Bu da azərbaycançılığı göstərən çox mühüm amildir.

Azərbaycancılığın əsas amillərindən biri də islam dinidir. Əsl milli lider olan Heydər Əliyevin müqəddəs islam dininə bağlılığı onun bu sahədəki gələcək fəaliyyətinə təsirini göstərmişdir. Müstəqillik əldə etdikdən sonra islam dini inkişaf etdi, vicdan və dini etiqad azadlığı beynəlxalq standartlara uyğun bərpa edildi. Müxtəlif dini təşkilatların, xristian missionerlərinin, emissarların respublikamızda islam əleyhinə fəaliyyətlərini gücləndirdikləri bir vaxtda bu çox vacibdir.

Cənab Heydər Əliyev respublikamızda, habelə xarici ölkələrdə dini mövzuda keçirilən tədbirlərə qatılır, şəxsiyyət azadlığının ən mühüm fazası olan dinlə bağlı məzmunlu, aktuallıq kəsb



edən çıxışlar edir. Belə çıxışlarından birində Heydər Əliyev xüsusi qeyd etmişdir: «İslam dini dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə və dünyada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir».

İslam dininə verilən bu yüksək qiymət əsl azərbaycançılıqdan irəli gəlir.

Azərbaycançılığın əsas amillərindən biri də milli mədəniyyətimizdir. Milli mədəniyyətimiz yad təsirlərə məruz qalsa da inkişafdan qalmamış, lakin mövcud sovet rejiminə xidmət etmişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra milli mədəniyyətimizin müxtəlif qolları olan musiqi, incəsənət, milli adətlər və ənənələr, milli mərasimlər və bayramlar, folklor nümunələri, elmi nümunələr və s. baxımdan, milli ruhda inkişaf edərək azərbaycançılığa xidmət edir. Müasir dövrdə milli ruhun formalaşıb inkişaf etməsində milli mədəniyyət nümunələrinin rolu böyükdür. Azərbaycanın dünyaya inteqrasiyası onun milli mədəniyyətinin dünya mədəniyyəti ilə çulğalaşmasına səbəb oldu.

Son illərdə cənab Heydər Əliyevin imzaladığı bir sıra fərmanlar da azərbaycançılığa xidmət etmişdir. Ən qiymətli dəyərlərimizdən olan, əsrlərin sınağından çıxan, təqiblərə və represiyalara məruz qalan, oğuz türklərinin ilk yazılı abidəsi olan «Kitabi-Dədə Qorqud» eposu dövlət başçısının təşəbbüsü ilə Azərbaycanda və dünya miqyasında layiqli yerini tutdu. «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyi haqqında 20 aprel 1997-ci il fərmanına əsasən, YUNESKO-nun xətti ilə dastanın 1300 illiyi qeyd edildi.

Azərbaycanlıların öz tarixi torpaqlarından – Qərbi Azərbaycandan deportasiya edilməsi kimi bir tarixi ədalətsizliyə möhtərəm prezidentimizin «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlardan kütləvi surətdə deportasiya haqqında» 18 dekabr 1997-ci il fərmanı ilə siyasi qiymət verildi. Bu fərmanla azərbaycanlılara qarşı daim düşmənçilik mövqeyində olan ermənilərin əsl siması açıldı.

«Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinin keçirilməsi haqqında» 30 yanvar 1998-ci il fərmanı ilə AXC-nin Azərbaycan tarixində özünəməxsus yer tutduğu bir daha göründü.

Azərbaycançılığın inkişafında dövlət atributlarıbayraq, himn, gerb mühüm rol oynayır. Məhz bu məqsədlə cənab Heydər Əliyev «Azərbaycan Respublikasının Dövlət atributlarının təbliğinin gücləndirilməsi haqqında» 13 mart 1998-ci il fərmanını imzalayaraq bu sahədə işi daha da gücləndirdi.

Azərbaycan xalqı bir neçə dəfə ermənilər tərəfindən soyqırıma məruz qalmışdır. Onların içərisində 1918-ci il soyqırımı xüsusilə seçilir. Heydər Əliyevin «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il fərmanı bu hadisələrə ilk dəfə olaraq siyasi qiymət verdi.

Heydər Əliyevin qeyd etdiyinə görə, milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Məhz buna görə də hörmətli prezidentimizin milli mənəviyyatımızla bağlı 13 avqust 2001-ci il tarixli bəyanatı xüsusi diqqətə layiqdir.

Bu bəyanatda o rəsmi prezident kimi deyil, milli lider, ağsaqqal, müdrik insan kimi çıxış edərək göstərdi ki, vəzifəsindən



və yaşından asılı olmayaraq hər bir azərbaycanlı milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşmalı, onları qorumalıdır. Əsrlərdən bizə miras qalmış milli-mənəvi dəyərlər nəinki müasir milli mövcudluğumuzun, həm də siyasi mövcudluğumuzun, dövlətçiliyimizin qarantına çevrilməlidir. Bütün bunları bizə müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev sözləri və əməlləri ilə öyrətmişdir. Məhz buna görə də azərbaycançılıq ideyalarının bütünlüklə həyata keçirilməsində Heydər Əliyev kursunun öyrənilməsi və dərk olunması mühüm əhəmiyyət kəsb edir. Bu həm də ona görə vacibdir ki, burada nəzəri ideyalar praktik cəhətdən həyata tətbiq olunur və cəmiyyətə müsbət təsir göstərməklə özünü doğruldur.

Gəlin Heydər Əliyevin azərbaycançılıq xəttini qoruyub saxlayaq və inkişaf etdirək. Çünki bu hər bir azərbaycanlının borcudur.

## QAYIDIŞDAN YÜKSƏLİŞƏ GEDƏN YOL

N.QOCATÜRK
*Dövlət Televiziya və Radio Verilişləri Şirkəti*

İkinci dəfə xalqın iradəsilə hakimiyyətə qayıdan Heydər Əliyev bu gəlişilə özünün xilaskarlıq missiyasına başladı. Yolu heç də hamar olmayan bu tarixi qayıdış müdrik bir şəxsiyyətin xalqına inamını ifadə edirdi. Hələ 70-ci illərdə xalqın əzmkarlığına, mənəvi gücünə arxalanan Heydər Əliyev yenidən onun əlindən alınmış qüdrətini özünə qaytarmaq istəyirdi.

1993-cü ilin 15 iyununa təsadüf edən bu Milli Qurtuluş günü çağdaş Azərbaycan dövlətinin inamına açılan pəncərə oldu. XX yüzildə ikinci dəfə əldə etdiyimiz müstəqillik təhlükə altında olduğu bir vaxtda Heydər Əliyev dövləti və müstəqillik məfkurəsini xilas etmək üçün sinəsini daxili və xarici düşmənlərimizə sipər etdi. Ölkədə anarxiyanın, hərc-mərcliyin baş alıb getdiyi bir vaxtda sağlam məntiqə, müdrik siyasətə arxalanan bir quruluşa ehtiyac duyulurdu. Dövlətin məhvolma təhlükəsi qarşısında qaldığı günlərdə, 1993-cü ilin iyununda Gəncədə baş verən vətəndaş qarşıdurması, qardaş qanının tökülməsi Azərbaycanın parçalanmasını reallaşdırırdı. Əslində, bu faciənin kökü 1991-1992-ci illər hakimiyyətinin naşı siyasətilə birbaşa bağlı idi. Bu illərdə insanlar öz doğma ocaqlarında dinc otura bilmir, küçəyə çıxmağa belə cəsarət etmirdilər. Elm-təhsil ocaqlarında, istehsal obyektlərində fəaliyyət rejimi, demək olar ki, pozulmuşdu. Ordu qanunlarından xəbəri olmayan çağırış yaşlı oğullarımızın səfərbər olunaraq təlim keçmədən birbaşa səngərlərə göndərilməsi Azərbaycanın hər guşəsində «Şəhidlər xiyabanı»nın yaranmasına səbəb oldu. Bütün bunlar olduqca dözülməz hallar idi. Xalqın isə artıq qələbə inamı sarsılmışdı. Bu sarsıntıların, faciələrin içərisində yeganə ümid yeri Heydər Əliyev olduğundan o xalqın ümid işığını kəsmədi.

Cəmiyyətin özünün yeni demokratik quruluşa, həqiqi demokratik proseslərə hazır olmadığı bir dövrdə Heydər Əliyev xalqı demokratik dəyərlərə söykənən yeni quruluşa doğru apardı. Bu quruluş xalqın tamamilə alışmadığı bir quruluş olduğundan, heç şübhəsiz, onun problemləri də mövcud idi. Böyük bir imperiyadan mərkəzin idarəçilik sistemindən qoparılıb tam müstəqil dövlət siyasətinə arxalanan Azərbaycanda bu dövrdə həm də yeni ictimai-iqtisadi sistem yaradıldı.



**Dövlət mülkiyyətindən xüsusi mülkiyyətə, bazar iqtisadiyyatına qədəm qoyan Azərbaycan xalqı kommunist ideologiyasından ayrılıb milli-mənəvi dəyərlərə söykənən milli dövlətçilik prinsiplərinə, vicdan və söz azadlığına qovuşurdu. Totalitar dövlət quruluşundan demokratik dəyərlərə söykənən, yeni quruluşa qədəm qoyan xalq vahid partiyalı sistemdən çoxpartiyalı sistemə keçildi. Ümumbəşəri dəyərlərə söykənən yeni quruluşa daxil olmaq əslində xalqın yaddaşa, milli köklərə, adət-ənənələrə qayıdışı demək idi.**

Dövlətin inkişafı dövlətçilik məfkurəsinin formalaşması ilə yanaşı, həm də azad cəmiyyətin, demokratik ruhun mövcudluğu ilə bağlıdır. Cəmiyyəti inkişaf etdirməklə xalqın dövlətçilik əzmini, iradəsini möhkəmləndirən Heydər Əliyev xalqı dövlətin, dövləti xalqın bölgəsi hesab etdiyindən öncə xalqı, onun hüquq və azadlıqlarını qorumağı qarşısına məqsəd qoydu. Bu cəhdlərini əməli işlərində, imzaladığı sərəncam və fərmanlar ilə həyata keçirdi. O, müstəqil Azərbaycanın hər bir vətəndaşının hüquq bərabərliyini təsbit edən qərar və qanunların reallaşması üçün ciddi addımlar atdı. Müstəqillik illərində, əslində isə, milli müstəqilliyin təhlükə ilə üz-üzə dayandığı illərdə yenidən hakimiyyətə qayıdan və bu böyük qayıdışı ilə dövləti məhv olmaq təhlükəsindən xilas edən Heydər Əliyev xalqın üzünü Avropa dəyərlərinə tutmaqla, yeni dünyanın sakinləri olan çağdaş Azərbaycan vətəndaşlarının istək və arzularını gerçəkləşdirdi.

Demokratik dəyərlərə söykənən dövləti qurmaq üçün söz, fikir, vicdan, əqidə azadlığına xüsusi şərait yaradan Heydər Əliyev cəmiyyətin, dövlətin inkişafında da haqlı olaraq ayrı-ayrı fərdlərin hüquq bərabərliyinə, fikir azadlığına əsas verir: «İnsan azadlığ, söz, vicdan azadlığı, insan hüquqlarının qorunması, bütün vətəndaşların eyni hüquqa malik olması, siyasi plüralizm Azərbaycanda demokratik cəmiyyətin əsas atributları kimi bərqərar olmalıdır», – deyən Heydər Əliyev «Hər bir cəmiyyətdə, şübhəsiz ki, müxalifət olmalıdır» fikrində bulunmaqla iqtidar-müxalifət münasibətlərinin fövqündə belə millətə sevginin, dövlətə məhəbbətin dayandığın sübut etdi. Bu cəmiyyətdə baş verən proseslərin birmənalı olmaması, 600-dən çox mətbu orqanın, ona yaxın radio və televiziyaların, müxtəlif ictimai-siyasi qurum və cəmiyyətlərin, siyasi partiyalarn fəaliyyət göstərməsi, onlarn iradəsini təmsil edən millət vəkillərinin parlamentdə birgə fəaliyyəti hələ əski çağlardan azad yaşamağa üstünlük vermiş türkün dövlətçilik ənənələrinə arxalanan Azərbaycanda demokratik dəyərlərin inkişaf səviyyəsinin göstəricisidir».

Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdanda onun hələ kommunizm qılıncı altında milləti, dövləti naminə atdığı addıma dumanlı pərdələrdən boylananlar, onu kommunistliyində, hətta 20 Yanvardan sonra millət yolunda imtina etdiyi kommunizmdə ittiham edənlər sonralar yanıldıqlarını gördülər.

Heydər Əliyevin 70-ci illərdə başladığı böyük quruculuq işləri isə 1993-cü ildən, Bakı və Gəncə səfərlərindən sonra başladı. Dövlətin daxili və xarici düşmənləri ilə mübarizəsinin fövqündə insan haqlarını, azadlıqlarını gördü. Həyata keçirilən gənclər və



qadın siyasəti iki böyük qurumun – Gənclər, İdman və Turizm Nazirliyinin, Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaranmasına səbəb oldu. İnsan haqlarının, demokratik dəyərlərin qorunması istiqamətində görülən işlər, həyata keçirilən əməli tədbirlər də bilavasitə Heydər Əliyevin nəzarətində saxlanıldı.

Hüquq mühafizə orqanlarında, məhkəmə, proku-rorluq və ədliyyə sistemlərində islahatlar həyata keçirildi və qanunvericilik aktları qəbul olundu.

Ölüm hökmünün ləğv olunmas, Dini İşlər üzrə Dövlət Komitəsinin yaradılması insanın iman azadlığına təkan verməklə yanaşı, 70 illik zaman kəsiyində qapılarına qıfıl vurulmuş, ambarlara, klublara çevrilmiş Tanrı evlərini də bəndələrin ixtiyarına verdi.

Azərbaycanın inkişafının, maddi-mənəvi yüksəlişinin güclü iqtisadiyyatla bağlı olduğuna inanan Heydər Əliyev maddi nemətlərə sahib olan Azərbaycanın haqlarını hələ 70-ci illər hakimiyyəti zamanı qorumuşdu. Məhz onun xidmətləri sayəsində Azərbaycan qüdrətli dövlətə çevrilmişdi. İri sənaye obyektlərinin tikilməsi, kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı, elmi-texniki tərəqqinin yeni metodlarının tətbiq olunması insan əməyinin istismarına son qoymuşdu. O illərdə inkişafının qüdrətli dövrünü yaşayan Azərbaycan iqtisadiyyatı Heydər Əliyev hakimiyyətinin Moskva dövrü başlayandan 1993-cü ilə qədər öncə geriləmə, sonra isə dövrünü yaşamağa başlamışdır. Təəssüflər olsun ki, o dövrlərdə Heydər Əliyevin qürub formalaşdırdığı iqtisadi bazanı qorumaq əvəzinə, səriştəsiz rəhbərlər onu dağıtmağı özlərinə «şərəf işi» hesab etmişdilər. Halbuki dağıdılan

kommunizmin deyil, Azərbaycan dövlətinin, Azərbaycan xalqının sərvətləri idi. Bir quruluşun digərini əvəz etməsi, yeni siyasi, mədəni və iqtisadi münasibətlərin qurulması prosesi də bu işin sürətlənməsinə təkan vermişdi. Yüz minlərlə insanın çörək ağacı olan zavod, fabriklər, kolxoz və sovxozlar bir göz qırpımında yanı üstə qoyulmuşdu.

Əldə olunan müstəqilliyi siyasi sabitliyə, iqtisadi inkişafa sərf etmək əvəzinə onlardan imtina edənlər millətə, dövləti çıxılmaz vəziyyətə salanlar bir də onda ayıldılar ki, artıq azərbaycanlılar azadlıq hayqırtılarını çörək növbələri ilə əvəz etməyə məcbur olublar. «Azadlıq aşiqlərinin» boş vədləri artıq insanları aclığın ağuşuna atıb.

Heydər Əliyev çörəyin qeybə çəkildiyi, sükunətin, ətalətin insan mənəviyyatını alçaltdığı bir məqamda yenidən hakimiyyətə qayıtdı. Qayıdışı ilə də demokratik dəyərlərə söykənən iqtisadi islahatlarını, kadr siyasətini həyata keçirməyə başladı. «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir» deyən prezident Azərbaycanın məxsus olduğu iqtisadi qüdrətin qapısını Avropaya və Şərqə açdı.

Azərbaycan iqtisadiyyatının elmi potensialının bəşəriyyət üçün gərəkli olduğuna inanan prezident mədəniyyətimizin, elmimizin, təhsilimizin, intellekt sahibi olan alimlərimizin hələ bundan sonra da dünya mədəniyyətinə yeniliklər bəxş edəcəyinə əmin olduğunu bütün görüşlərində diqqətə çatdırmaqla təkcə dövlət başçısı, siyasi xadim deyil, həm də Elçi, El atası rolunu oynadı. Bununla o, dünya dövlətlərini Azərbaycanla iqtisadi-siyasi, elmi-texniki əməkdaşlığa dəvət etdi.



Mühüm hadisələrlə zəngin olan XX yüzili texniki tərəqqi əsri adlandıran Heydər Əliyev hakimiyyətinin bu mərhələsində məhz son 50 ildə yetişən intellektual potensiala arxalandı. Elmi-texniki tərəqqinin son nailiyyətlərini çox böyük istedadla mənimsəmiş həmin kadrların içərisində özünəməxsus yer tutan gənclərin xeyli hissəsinin də müəllimi məhz Heydər Əliyev olmuşdur. 70-80-ci illər hakimiyyəti dövründə Azərbaycandan kənarda təhsil almağa göndərilən həmin gənclər indi mütəxəssis kimi öz sözlərini deyirdilər. 70-80-ci illərdə elmi-texniki tərəqqinin, avtomatlaşdırmanın iqtisadiyyata tətbiqi 90-cı illərdən sonra kompüter texnologiyası ilə əvəz olunmağa başladı. Kompüterləşmənin sürətli inkişafı, iqtisadi, mədəni həyatın bütün sahələrinə nüfuz etməsi, internet şəbəkələrinin, elektron poçtların səmərəli təşkili kommunikasiya sistemlərinin yeniləşməsinə, iqtisadi-siyasi əlaqələrin yeni müstəviyə keçməsinə səbəb oldu. Qloballaşma siyasətinin gerçəkləşməsini sübut edən bu amillər yeni maarifçilik metodlarının, ideoloji mübarizə mexanizmlərinin yaranmasını diqqət mərkəzinə çəkdi.

Belə bir məqamda Heydər Əliyev qüdrətli iqtisadi siyasətini həyata keçirdi. Öncə «Əsrin müqaviləsi»ni gerçəkləşdirdi. «Əsrin müqaviləsi» əslində əsrin sonunda yenidən özünə dönmüş, müstəqillik əldə etmiş, Tanrının ona bəxş etdiyi maddi-mənəvi nemətlərə sahib çıxmış Azərbaycan xalqının qloballaşmaqda olan dünyada idarə edənlərdən olmağa layiq olduğunu sübut üçün ən real imkan idi. Bu imkanı gerçəkləşdirən, dünyanın inkişaf etmiş dövlətlərinin bazar sahiblərini Azərbaycanla əməkdaşlığa dəvət edən də əsrin ən böyük siyasət adamı Heydər Əliyev idi.

«Azərbaycanın iqtisadi potensialı, yeraltı və yerüstü sərvətləri elmi, intellektual potensialı ilə yanaşı, onun digər dövlətlərlə iqtisadiyyat sahəsində əməkdaşlığı üçün daha əlverişli şərait yaradan cəhətlərindən biri də ölkəmizin coğrafi mövqeyidir» deyən prezident Azərbaycanın təkcə sərvətlər ölkəsi deyil, əski dövlətçilik ənənələrinə malik olan qüdrətli bir dövlət olduğuna inam yaradırdı. Onunla hesablaşmağın vacibliyi isə sonralar «Əsrin müqaviləsi»ndə pay bölgülərinə malik olan dövlətlərlə müqavilələr imzalanarkən bir daha üzə çıxdı.

1994-cü ilin sentyabrın 20-də Bakıda «Gülüstan» sarayında Xəzərin Azərbaycan sektorunda olan «Azəri», «Çıraq», «Günəşli» yataqlarının müştərək işlənməsi üçün Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında müqavilə imzalandı. Bu Azərbaycan iqtisadiyyatının neft strategiyasının həyata keçirilməsinin başlanğıcı idi. «Əsrin müqaviləsi»nin imzalanması ilə müstəqil Azərbaycanın yeni neft strategiyasının və doktrinasının əsası qoyuldu.

«Əsrin müqaviləsi» Azərbaycan xalqına iqtisadi müstəqillik, dünya birliyində hörmət qazandırdı və sonrakı bir çox beynəlxalq neft sazişlərinin bağlanmasının əsasını qoydu. Həmin tarixi gündən sonra neft şirkətləri ilə 60 milyard dollar sərmayə qoyuluşu tələb edən 21 saziş imzalandı. Bu Azərbaycan prezidenti Heydər Əliyevin neft strategiyasının tərkib hissəsi idi. Azərbaycan neftçilərinin fədakar əməyi nəticəsində qısa müddətdə «Çıraq – 1» ilk hasilat platforması istismara verildi. Bakı-Novorossiysk neft boru kəməri bərpa edildi. «Bakı – Supsa» yeni neft boru kəməri tikildi. «Dədə Qorqud», «İstiqlal», «Qurtuluş» kimi nəhəng üzən



qazma qurğuları istifadəyə verildi. Bir sıra nəhəng texnoloji gəmilər modernləşdirildi. «Çıraq» yatağında ilkin neftin hasilatına başlanıldı.

2002-ci ilin sentyabrın 20-də isə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu. Bu münasibətlə keçirilən mərasimdə çıxış edən prezident Əliyev «Bakı-Tbilisi-Ceyhan boru xəttinin əleyhinə çıxanlar çox vaxt belə söyləyirdilər ki, bu xəyaldır. Mümkün deyil, Azərbaycanda o qədər neft yoxdur, olmayacaq. Amma mən Sizə demək istəyirəm ki, bu xəyal deyil, əfsanə deyil. Biz indi xəyaldan gerçəkliyə gəlib çatmışıq» dedi. Təməlqoyma mərasimində Azərbaycan prezidenti Heydər Əliyevlə yanaşı, Gürcüstanın dövlət başçısı Eduard Şevarnadze, Türkiyə prezidenti Əhməd Necdət Sezər, Amerika Birləşmiş Ştatlarının energetika naziri Spenser Abraham, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, xarici ölkələrin səfirliklərinin rəhbərləri, dövlət və hökumət nümayəndələri də iştirak etdilər. Çıxışçıların hər biri isə Bakı-Ceyhan boru kəmərinin regionun iqtisadi inkişafında mühüm rol oynamaqla yanaşı, həm də siyasi, mədəni və humanitar sahələrin inkişafına da əhəmiyyətli təsir göstərəcəyinə əmin olduqlarını dilə gətirdilər.

2004-cü ildən fəaliyyətə başlayacaq kəmər Azərbaycan neftinin hasilat dinamikasının gerçəkləşməsində öz sözünü deyəcəkdir. İri neft şirkətlərinin, Azərbaycan Dövlət Neft Şirkəti ilə apardıqları müştərək tədqiqatlar, axtarışlar nəticəsində yeni qaz yataqları üzə çıxdı. Təbii qazın Avropaya nəqlində də, Azərbaycan üzünü türk dünyasına tutdu. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin

çəkilməsi məsələsi reallaşdı. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum marşrutlarının seçilməsi bir sıra dövlətlər, xüsusən də Rusiya və İran tərəfindən birmənalı qarşılanmadı. Amma türkün böyük oğlu Heydər Əliyev öz fikrində qaldı. İndiki maddi gəliri deyil, sabah türk dünyası üçün əhəmiyyətli olan mənəvi qazancı düşündü. Onu tarix üçün gərəkli hesab edən İlham Əliyev də bu fikirləri yaddaşlara köçürdü: «İndi bütün dünya üçün aydındır və hamı bunu etiraf edir ki, Bakı-Ceyhanın əsas Memarı Azərbaycandır. Daha doğrusu, Heydər Əliyevdir. Onun neft strategiyasıdır».

Tarixi faktlar sübut edir ki, Heydər Əliyev ancaq düşünülmüş siyasi addımlar atır və o addımlar ancaq Azərbaycan dövlətinin və xalqının taleyi ilə bağlı olur. Dünyanın qlobal problemlərinin həll yollarını düşünən, onun gələcək taleyindən narahat olan Heydər Əliyev həm də dünyanın, bəşəri dəyərlərin taleyüklü məqamlarını düşünür. «İpək Yolu» layihəsinin bərpası təkcə Azərbaycanın, Şərqin inkişafı deyildi. Bu layihənin ən uğurlu cəhətlərindən biri də böyük ticarət yolunda dünya mədəniyyətlərinin qovuşmasına göstəriləcək yardımlarla bağlı idi.

Tarixi keçmişi, qüdrətli fikir adamları ilə bir zamanlar Avropanın ustadına çevrilmiş, Avropada texnologiyalar tərəqqi etdikcə ustad zirvəsindən endirilib şagirdə çevrilən Şərq öz mənəvi gücünü yenidən nümayiş etdirməli idi. Avropanın Şərq dəyərlərinə, Şərq incəsənətinə, istedadına, ilahi eşqinə ehtiyacını duyan Heydər Əliyev «İpək Yolu» layihəsini 400 ildən sonra bərpa etməklə üz-üzə dayanan Şərqlə Qərbin yeni mənəvi-iqtisadi birliyə səsləməklə, həm də dünyanın Xilaskarı rolunu oynadı. O, sübut



etdi ki, Avropanın da Şərqə ehtiyacı var. O ehtiyacın ödənilməsi bəşər mədəniyyəti üçün gərəklidir.

Bu böyük ideyaları reallaşdıracaq İpək Yoluna dəvə ləngəri, dəvə zınqırovları ilə qədəm qoyanlar ipək, qumaş, xara, xalça, palaz, zərgərlik nümunələri daşıyanlar bu arzu gerçəkləşəndən sonra həmin Yolu ağ qızılın, qara qızılın, mavi qızılın nuruna qərq etdilər. Yeni yollar, körpülər çəkilməyə, bərələr, limanlar tikilməyə başladı. Bir-birinə qənim kəsilmiş, tarixin müxtəlif dönəmlərindən qan tökmüş dövlətlər belə yeni iqtisadi-siyasət yürütməklə «İpək Yolu» layihəsinə qoşulmaqla, tarixin yaddaşında qanın, qılıncın deyil, sənət, mədəniyyət, qüdrətli iqtisadiyyat sahibi olan dövlətlərin qaldığına inandılar. Bəşəriyyətin siyasi sabitliyi istiqamətində atılan bu addım Heydər Əliyev dühasının sivilizasiyalı cəmiyyətə bəxş etdiyi ən layiqli töhfələrdən idi. Çünki o, sülhü, sabitliyi təmin etməklə dünyanı qandan xilas etmək istəyirdi. Heydər Əliyev haqlı olaraq məsələyə münasibətini belə ifadə etmişdi: «Dövlətlərarası, ölkələrarası nə qədər belə kommunikasiyalar yaransa və bu Avropa ilə Mərkəzi Asiyanı birləşdirən Kommunikasiyalar olsa, həm Qafqazda, həm də Mərkəzi Asiyada sülhün yaranmasına, təhlükəsizliyin təmin olunmasına o qədər təminat yaradacaqdır. Bizim üçün isə bu, hər şeydən əhəmiyyətlidir, hər şeydən önəmlidir».

Bununla da, Heydər Əliyev sübut edirdi ki, iqtisadiyyat, ticarət dünyanın birliyinə, siyasi sabitliyinə təkan verən ən böyük qüvvədir. Çünki hər bir dövlət siyasi inkişafını, gələcək perspektivlərini təmin etmək üçün mütləq iqtisadiyyatını inkişaf etdirməlidir. Bu iqtisadi siyasət regional əməkdaşlıq, Avropanın Şərqə,

Şərqin Avropaya inteqrasiyası baxımından çox böyük əhəmiyyətə malik idi. SSRİ-nin dağılması, Türküstanın müstəqil türk dövlətlərində təmsil olunması, Şərq-Qərb dəhlizinin bərpa olunması, yeni layihələrin, proqramların həyata keçirilməsinə zəmin yaratdı. Heydər Əliyevin böyüklüyü onda oldu ki, o bu məsələdə nəinki seyrçi oldu, əksinə həmin layihə və proqramların ideya müəllifi kimi tanındı.

Avropa Birliyinin təşəbbüsü ilə TRACEKA proqramı qəbul olunanda «Avropa-Asiya dəhlizi» boyunda yerləşən ölkələrdən biri kimi Azərbaycana da maliyyə payının ayrılması «İpək Yolu» layihəsini gerçəkləşdirən yolların bərpasına sərf olunmuşdusa, məhz Heydər Əliyevin təşəbbüsü ilə sonralar Azərbaycana əlavə maliyyə dəstəyi verilmişdi.

Bu iri həcmli layihələrin gerçəkləşməsi üçün bir çox dövlət başçılarının gözləmə mövqeyi tutduğu halda Heydər Əliyev düşünülmüş xarici siyasətini davam etdirdi. «Əsrin müqaviləsi» ilə başlayan bu siyasi gedişlər 70-ci illərdə dünyadan təcrid olunmuş Azərbaycanı, Xəzər hövzəsini, onun çevrəsinə daxil olan müstəqil dövlətləri dünyanın maraq dairəsinə çevirdi. Avropa-Asiya nəqliyyat dəhlizinin inkişafı nəqliyyat sisteminin yeniləşməsi, dünya standartları səviyyəsinə qaldırılması, TRACEKA proqramı çərçivəsində yaranan əməkdaşlıq Azərbaycanın, bütövlükdə Qafqazın, Mərkəzi Asiyanın inkişafına, maliyyə imkanlarının genişlənməsinə təkan verdi. Beynəlxalq Maliyyə Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi iri maliyyə qurumlarının TRACEKA proqramına qoşulan dövlətlərə dəstək verməsi yeni avtomobil və dəmir yollarının çəkilməsinə, dəniz limanlarının



gücləndirilməsinə şərait yaratdı. İpək Yolu və Trans Avropa Şəbəkəsinin beynəlxalq əhəmiyyət kəsb etməsi TRACEKA proqramının Şərqlə Qərb dövlətlərinin inteqrasiyasında mühüm yer tutduğunu sübut edir.

Yeni iqtisadi siyasətin həyata keçirilməsi təkcə neft sənayesində iqtisadi strukturlarda öz sözünü demir, Azərbaycanın kompleks şəkildə inkişaını nəzərdə tutan Heydər Əliyev təsərrüfatın bütün sahələrində islahatlar proqramını tətbiq edir. Özəl sektorun yaranması, torpaq islahatlarının həyata keçirilməsi, kiçik və orta sahibkarlığın yaranması, əhalinin torpağa sahiblik hissinin formalaşmasına səbəb olur.

Fermer təsərrüfatlarının yaranması, kəndlinin güzəranının yaxşılaşmasına təkan verməklə yanaşı, yeni kənd və qəsəbələrin salınmasına, tikinti işlərinin sürətlənməsinə, bol nemətlər ehtiyatının yaranması ilə müşaiyət olunur.

Xarici investisiyaların cəlb olunması ilə kənd təsərrüfatında, sənayedə müştərək müəssisələr yaradılır. Yeni texnika və texnologiyalar alınaraq iqtisadi dirçəlişə nail olunur. Yeni iqtisadi, sosial islahatların həyata keçirilməsi nəticəsində yeni idarəçilik qurumları, təşkilatlar yaradılır. Yerli özünü idarə təşkilatlarının – bələdiyyələrin yaradılması, onların işinin qanunla tənzimlənməsi kənd və qəsəbələrdə, şəhərlərdə yeni idarə formasının yaradıldığını təsdiq edir. Torpağın, əmlakın sahibi olan əhali dövlətin qayğısından əlavə öz maddi imkanları hesabına yaşadığı ərazilərdə abadlıq və quruculuq işləri həyata keçirir.

Dünyanın bir sıra iri maliyyə qurumları ilə əlaqədar yaradan Azərbaycan dövləti Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, İslam

İnkişaf Bankı ilə əməkdaşlıq etməklə iqtisadiyyatın bütün sahələrində inkişafa nail olur. Bakıda, Sumqayıtda, Gəncədə, Mingəçevirdə fəaliyyəti dayanmış zavod və fabriklər xarici investorların müxtəlif qatlarını özündə yaşadan abidələr, heykəllər ucaldıldı. Bakıda və digər şəhərlərdə, qəsəbə və kəndlərdə Heydər Əliyevin şərəfinə salınan parklar yeni yaşıllıq zolaqlarının yaranmasına səbəb oldu.

Çəmbərəkənddə «Şəhidlər Xiyabanı»nda şəhidlərin xatirəsinə ucaldılan «Şəhidlər» kompleksi, suyu qurumuş fəvvarələrin işə düşməsi, onların sırasına yenilərin qoşulması, Bakının çiçəklər, yaşıllıqlar şəhərinə çevrilməsi, yolların bərpası, şəhər rəhbərliyinin, millətin Torpaq, Daş, Su, Yol yaddaşına ehtiramından irəli gəlirdi.

Qorqud Ata yaddaşından cücərən abidələrin ucaldılması, əski türklərin yaşayış məskəni olan Azərbaycanımızı şəhərə qədəm qoyan qonaqlara, dövlət və hökumət rəhbərlərinə yeni biçimdə tanıtdı. Bakının milli və Avropa memarlığının qovuşması nəticəsində inkişafı Azərbaycanı Şərq və Qərb dövləti kimi tanıtmağa başladı. Təkcə sərvətləri ilə deyil, tarixi keçmişi, intellekt sahibi olan insanları, qurucu şəxsiyyətləri ilə tanınan Azərbaycan müstəqilliyinin 10-cu ilində min illərin uğurlarına bərabər olan yenilikləri ilə dünyanı heyrətə qoydu.

Bu heyrətdən dilə gələn ABŞ-ın keçmiş prezidenti Bill Klinton: «Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan firavan gələcəyin bünövrəsini qoymaqdadır», Qazaxıstan prezidenti Nursultan Nazarbayev: «Heydər Əliyevin coşğun fəaliyyəti sayəsində Azərbaycan siyasi və iqtisadi dəyişikliklər, bazar münasibətinə keçid yolu ilə inamla irəliləyir, öz müstəqilliyini və suverenliyini möhkəmləndirir» kimi qiymətli fikirləri söylədilər.



Bu gün Azərbaycan inkişaf edir. İri sosial obyektləri, zavod, fabrikləri, təhsil ocaqları, yaşayış məskənləri, iri göydələnləri ilə. Müstəqilliyin və sabitliyin aynası olan bu abadlıq, quruculuq işləri isə dünya mədəniyyətinin ən müasir yeniliklərini Azərbaycana gətirir. İnkişaf etmiş şəhərlər sırasına qədəm qoymuş qədim Bakı yeni dirçəliş və inkişaf dövrünü yaşayır. Çiçəyə, gülə qərq olunmuş küçə və meydanlardan, parklardan dirilik suyu süzülür.

## ТЕОРИЯ И ПРАКТИКА ПЕРЕХОДНОГО ПЕРИОДА В АЗЕРБАЙДЖАНЕ

Н.Р.САЛМАНОВА
*Западный Университет*

Каждая трансформация предварительно обусловлена новыми идеями и новой идеологией, которые становятся системоформирующей сущностью нового перехода.

В процессе такого перехода Азербайджан обрел уникальную возможность сосредоточить силы на развитии внутреннего потенциала азербайджанского народа.

Режим А.Везирова и последовавшая за ним смена власти привели к обвалу старого социального порядка и "легитимировавших" его представлений. Поэтому общество испытывало все более острую потребность в альтернативной системе знаний, которая позволила бы осмыслить пути дальнейшего развития, выработать новые ориентиры и "правила" политической, эконо-

мической и общественной жизни Азербайджана. Антикоммунистические настроения, сформировавшиеся у населения в результате несправедливой, антиазербайджанской политики руководства ЦК КПСС, воплощением которой стали кровавые события в Баку в январе 1990 года, побуждали народ голосовать на выборах за тех, кто выступал против власти коммунистической номенклатуры. Однако этот антикоммунизм не содержал еще рационально-функциональных моделей сознания и поведения, пригодных для организации повседневной политической, экономической и социальной жизни.

Так, в политическом дискурсе начала 90-х годов рынок и демократия оставались скорее ценностными, идеологическими абстракциями. Какие пути и перспективы развития предлагалось избрать стране и какие проблемы ее ожидали впереди – эти важные вопросы власть и поддерживающая ее "демократическая элита" не осознавали, и фактически проблемы формирования новой общественно-политической системы в стране решались на основе политических амбиций различных внутривластных групп. Реформы изображались и, к сожалению, сегодня изображаются оппозиционными политическими силами неким магическим средством, позволяющим одним махом перенестись в общество "всеобщего благосостояния" и социальной гармонии.

Таким образом, хаотичность в политике властей, начиная с 1988 года вплоть до середины 1993 года, увлечение решениями сиюминутных задач в ущерб реализации взвешенного политического курса привели страну к тяжелым социально-политическим потрясениям. Кризис охватил все основные сферы жизни



азербайджанского общества: – политическую, где произошла потеря управляемости на всех уровнях и во всех звеньях функционирования государства. Острые политические конфликты и вооруженные столкновения, основанные на корпоративных интересах, стали повседневным элементом жизни общества.

Тотальный кризис, в свою очередь, препятствовал формированию реальной национальной политики и модернизации общества и государства. Поэтому одной из сложнейших проблем, с которыми Азербайджан столкнулся на пути демократической трансформации, стала неадекватность политики режимов А.Везирова и А.Муталибова требованиям обстановки в стране и противоречивая реакция общества на происходящие перемены.

В итоге модернизация общества, реализуемая с 70-х годов XX столетия, была не только грубо пресечена в конце 80-х - начале 90-х годов, но и сама возможность нового витка перехода к новой модели поведения, к модернизированному обществу, где действуют механизмы социального регулирования, основанные на индивидуальном выборе и индивидуальной ответственности, ценностях личности и предпочтениях, была поставлена под вопрос.

Характеризуя модернизацию традиционного общества, произошедшую в Азербайджане за последние 30 лет XX века, можно выделить четыре этапа.

Первый этап, охватывавший 70-е – начало 80-х годов XX века, был связан с возрождением национальных ценностей, ростом благосостояния населения и повышением уровня

образования. В совокупности все эти обстоятельства повлияли на перемены в моделях поведения людей. Однако изменения распространялись неравномерно, модернизация шла "послойно": латентное разрушение традиционного общества затрагивало прежде всего жителей промышленных центров страны, а затем, видоизменяясь, распространялось от центра к периферии.

Второй этап трансформации относится ко второй половине 80-х годов, когда – в "эпоху перестройки и гласности" – были подвергнут резкой критике идеологические устои советского общества.

Третий этап трансформации был связан с обретением независимости в 1991г., с "проектом" развития азербайджанского общества, которому не дано было осуществиться. Началу перемен сопутствовала уверенность в том, что рынок явится универсальным механизмом, обеспечивающим эффективность экономики и, как следствие, рост благосостояния населения. На этом этапе трансформации практически не осознавалось, что позитивные изменения в сфере политики и экономики теснейшим образом связаны с изменениями в способах политического и социально-экономического поведения людей. Государство, а не личность, не ее индивидуальные усилия по-прежнему рассматривались как главный фактор жизни общества. К тому же некомпетентность "власть предержащих" вкупе с усилением тенденций к анархии в стране и активизацией сепаратистского движения в ряде регионов, война, навязанная Арменией, и оккупация Нагорного Карабаха настолько обострили ситуацию, что практически полностью исключили возможность



эффективного развития государственности и модернизации общества в 1992-1993 гг.

С середины 1993 года, после возвращения к руководству страной Гейдара Алиева, начался четвертый этап трансформации: переход Азербайджана к регулируемой рыночной экономике и подлинные демократические преобразования, повлекшие за собой международное признание страны как субъекта мировой политики.

Политические детерминанты оказывали существенное влияние на индивидуальное и общественное сознание, на мотивы поведения людей, их поступки, что в свою очередь стимулировало совершенствование модели развития государства. В итоге в Азербайджане начала формироваться идеология развития – синтетическая, открытая новациям, выполняющая конструктивную роль. Если анализировать ее с точки зрения идеологической конструкции, то, на мой взгляд, эту идеологию можно отнести к неоконсерватизму. Как современное идеологическое течение, неоконсерватизм обществу духовные приоритеты семьи и религии, социальной стабильности, базирующейся на моральной взаимоответственности гражданина и государства и их взаимопомощи, на уважении права, крепком государственном порядке.

Неоконсерватизм отнюдь не означает, что отвергаются такие понятия, как личные свободы, права человека, либеральная экономика и политическая демократия, право народов на сохранение своей культуры и социальные права нетрудоспособных членов общества. Известно, что неоконсерватизм признал универсальность этих понятий, и в этом отношении он сомкнулся

с либерализмом и социализмом. Хотя отличие неоконсерватора от либерала состоит в том, что первый признает значение традиционных ценностей для общественного развития, тогда как второй их игнорирует или, в лучшем случае, придает им второстепенное значение.

Как более приемлемая идеологическая конструкция, для Азербайджана стал удачный синтез либерализма и неоконсерватизма, дополняемый реальными социалистическими и демократическими элементами в качестве подпитывающих идеологий.

В Азербайджане консервативно-либеральная система оказалась вполне сбалансирована, поддерживая, с одной стороны, сильную государственную власть и правопорядок, а с другой — свободу в экономической деятельности. В ней был достигнут симбиоз прогосударственных и государственных начал. Либерализм внес некий динамичный дух, консерватизм удержал этот дух от радикальных поползновений. А социал-демократизм позаботился о том, чтобы не произошло забвения эгалитарных принципов, то есть принципов равноправия. Уникальная способность государственного управления Гейдара Алиева заключается в том, что он виртуозно использовал этот идеологический симбиоз (сочетание и отчасти взаимное погашение) в деле построения независимого, демократического Азербайджана.

Именно национальные чувства, глубокая приверженность к национальным традициям – стремление к воссозданию и сохранению национальной идентичности, самобытности, модернизация общества на основе обогащения историческими достижениями Запада и Востока, формирования национального



большинства, способного построить сильный и независимый Азербайджан, – являются залогом прочного и успешного государственного строительства, реализуемого на протяжении последних восьми лет. Все это и есть неоконсерватизм.

Независимо от того, признаемся мы в этом или нет, в Азербайджане идея неоконсерватизма, пронизывающая как политику, так и экономику, стала системой устройства, где место гражданина или группы лиц определено их принадлежностью к конкретной корпорации, то есть к замкнутой организации иерархического типа, будь то современная производственно-коммерческая организация или политическая партия. А наивысшей, можно сказать, даже "священной" силой, объединяющей все корпорации, является государство. Консерватизм стремится не к равенству, а к единству общества, в котором каждая личность оказывается сопричастной некоему высшему порядку. Личность здесь не автономна и в определенном смысле относительно "не свободна", ибо ее свобода сопряжена с налагаемой на нее ответственностью перед государством. И эта идеология как нельзя лучше соответствует обществам, переживающим трансформационный период, ибо без сильного государства общество может оказаться во власти анархии. Наряду с этим известно, что мировой порядок и потребности общества сегодня приоритетным образом базируются на основах либерализма.

Как нет "чистого" либерализма, так и не существует "чистого" консерватизма. Все зависит от перевеса составляющих их элементов. Поэтому совсем не случайно другой приоритетной

составляющей политики Президента Гейдара Алиева за время его государственного управления стала либеральная идеология.

В нашем понимании либерализм, так же как и консерватизм, является идеологией и философией вестернизации, где политика превращается в составную часть общественной жизни. В истории политической философии они неразрывно связаны между собой.

Конечно же, определение сущности идеологической конструкции современного Азербайджана – проблема весьма актуальная. Но не менее, а, может, более важен другой ее аспект, а именно, — каковы взаимосвязывающие и взаимодополняющие элементы консерватизма и либерализма, демократизма и социализма в национальной жизни. Очевидным, не требующим особых доказательств, является то, что все эти четыре идеологических течения практически в равной степени играют важную роль в становлении независимого Азербайджана.

Сегодня Азербайджан находится в принципиально новой мировой ситуации. Его внутренний и внешний контекст практически сбалансирован. И, казалось, такое положение должно было привести к формированию системы мироориентированных политических сил, которая смогла бы развиваться до нормальной партийной системы в европейском, западном понимании. Но, к сожалению, этого не произошло. С самого начала у нас сложилась структура внутренне ориентированных партий с элементами большевизма. Поэтому вопрос взаимодействия власти и оппозиции в Азербайджане сохраняет свою актуальность.



Но при всем этом, как ни парадоксально, широкое развитие демократических ценностей, политический плюрализм не стали факторами консолидации общества, формирования политических партий западного типа, гарантами гражданского консенсуса. Отсутствие политической культуры, реализма, конструктивных подходов в решении жизненно важных для республики проблем, способности идти на созидательный диалог с властями стали неразрешимой проблемой "национальной оппозиции".

Борьба за власть и личные амбиции лидеров партий, региональный и клановый эгоизм заслонили содержание и характер цивильной политической конкуренции. В яростной схватке за личную власть и влияние забыты общенациональные интересы, собственные декларации и, как ни удивительно, даже уроки истории. "Национальная оппозиция" слишком увязла в межфракционной борьбе, эволюция ее взглядов, идей ее лидеров резко отстает от реалий динамично меняющейся жизни, от позитивных изменений, достигнутых властями во внутренней и внешней политике.

Неадекватная реакция оппозиционной изменчивости среды, смена друзей на противников и обратный процесс примирения противников являются свидетельством сущности "национальной оппозиции", ее незрелости, а также растерянности ввиду отсутствия перспективы.

Приходится констатировать, что эта обстановка внутриоппозиционной нестабильности в любое время может превратиться

в неуправляемую реакцию для самой оппозиции и общества в целом.

Власть и оппозиция во многих государствах – это принципиальные идеологические противники. Казалось бы, Азербайджан не должен составлять исключения. Но, в отличие, например, от России, где позиции власти и оппозиции различны как в теории, так и на практике, в Азербайджане взгляды власти и оппозиции на проблему развития общества в коренных, онтологических вопросах общественно-политического и экономического устройства страны во многих аспектах совпадают.

Некомпетентность в оценках политических явлений, незрелость, отсутствие политической культуры, которая характеризует уровень освоения определенной партией и ее членами политических идей, взглядов, концепций, программ, и низкая степень востребованности подобной оппозиции обществом свидетельствуют о скором начале процесса формирования исключительно новой, конструктивной оппозиционной среды в недрах самой же оппозиции.

Сегодня мы размышляем о политике нового времени, политике-технократе. Наше общество становится свидетелем зарождения новой социальной силы, способной продолжить стратегию развития Азербайджана, существенно преобразить политику и экономику страны в русле требований времени. И мы должны осознать, что в Азербайджане происходит некая “тихая революция”, возможно, незаметная на первый взгляд, – “революция менеджеров и политиков-технократов”.



Одной из важнейших задач социально-политических наук настоящего времени является разработка моделей переходных политических процессов страны на основе анализа и критического переосмысления имеющегося в мире опыта реформирования государств транзитного типа. Важно глубоко осмыслить ситуацию, проанализировать развитие страны с точки зрения мирового опыта и сравнить степень реализации наших реформ и формирования новых институтов с лучшим мировым опытом.

Следовательно, комплексно исследовать эти процессы – значит реально откликнуться на конкретные потребности азербайджанской политической практики.

Несмотря на имеющиеся труды по политической трансформации и проблемам транзитного общества, принято считать, что разработка теории общества переходного периода является принципиально новой проблемой в социогуманитарных науках.

В этой связи возникает вопрос: какой смысл заключает понятие "переходный период"? Можно и уместно ли говорить о каких-либо его временных рамках?

На мой взгляд, переходный период есть состояние относительной устойчивости политической системы, которая претерпевает за короткий исторический срок динамичные радикальные изменения. Эти радикальные изменения характеризуются острыми столкновениями старого и нового, разрывом социальных связей, перераспределением функций, перестройкой структуры и формированием новых границ социальных слоев и групп.

Во-первых, переходный процесс – это исторический временной отрезок, где происходят радикальные изменения общественных условий, старый общественный порядок меняется на новый. В связи с этим, принципиально важно заранее знать от чего к чему происходит общественный переход, каковы качественные и количественные характеристики этих общественных альтернатив, каков примерный срок, временная протяженность этапа переходного процесса. И, во-вторых, уже из самой сути переходности ясно, что это этап развития общества, в котором с необходимостью сочетаются, сосуществуют старое и новое. Поэтому нужно гипотетически представлять подвижную динамику соотношения старого и нового во времени и пространстве.

Можно уже констатировать, что переходный период в Азербайджане составит достаточно большой временной отрезок, в ходе которого будут осуществляться фазы демократической социализации, включая экономические и политические преобразования.

Вполне закономерен и следующий вопрос: в чем заключаются особенности переходного периода, который переживает сегодня наше общество?

Исходным основанием для общей оценки ситуации выступает то, что азербайджанское общество переживает переходный период – скорее, неравномерный исторический процесс, в ходе которого происходит его трансформация из тоталитарного состояния в демократическое.

Многие страны планеты уже прошли этот весьма непростой путь. Поэтому можно и нужно отметить, что азербайджанский опыт не является каким-то сверхновым или резко отличается от опыта других стран мира, в том числе и постсоветского пространства. Здесь с той или иной спецификой, в той или иной форме имеют место общие тенденции развития социально-политической ситуации, главной чертой эволюции которой является направляемость "сверху" идущих экономических и политических преобразований.



Так, можно отметить, что развитие, трансформация, модернизация и ход осуществления реформ в стране требуют учета двух базовых составляющих кардинального реформирования общественной системы: тенденций общеисторического развития и азербайджанской политической традиции. В этой связи одной из важных задач, стоящих перед реформаторскими силами, выступает создание механизма тесной связи между программами и реалиями, обусловленными социокультурным основанием, в том числе менталитетом населения. Для ускорения хода реформ необходимы также существенные коррективы стратегии развития. Это должно проявиться, в частности, в учете таких базовых для Азербайджана традиций, коими являются значительная роль государственного начала в поиске более широкой социальной и политической базы осуществляемой модернизации на основе разработки системы национально-государстве нных приоритетов и интересов и др.

По моему мнению, специфика трансформационного процесса в Азербайджане заключается в том, что, во-первых, он представляет собой трансформацию посткоммунистического режима, не имевшего ранее аналогов в истории, если его брать в

комплексе общих перемен, характерных для конца 80-х начала 90-х годов; во-вторых, модернизация носит, образно говоря, догоняющий характер, решая одновременно задачи, относящиеся по своему происхождению к различным этапам технологического и экономического развития.

Переходному периоду развития азербайджанского общества присуща неопределенность. Совмещение разнородных укладов и элементов многих формаций вполне позволяет обозначить его как своеобразный конгломератный строй, в котором эклектически соединены противоположности. В частности, еще нередки имеющие место административно-бюрократические методы руководства, определенный формализм в осуществлении демократических процессов и подлинное самоуправление народа, патернализм, проявляющийся в мышлении инерции, выжидания и уже новое мышление эффективного действия, подлинного творчества граждан страны. Все это, естественно, породило неустойчивое состояние общества, углубило в нем кризисные явления. Названные стороны симбиоза, как правило, несовместимы в нормально функционирующей, достигшей целостности системе. Поэтому необходимо избавление от эклектизма, "квазисостояния", конгломератности и приобретение социумом органической целостности для того, чтобы элементы общественной жизни не просто механически соединялись и противостояли один другому, дестабилизируя систему, а органически взаимодополняли бы друг друга, укрепляя и динамически развивая ее.



Неопределенность положения стала постоянным атрибутом жизни. Она продолжает еще восприниматься многими людьми, которые вышли из прежней общественно-политической системы, где все было расписано, а каждый конкретный человек занимал отведенную ему нишу и в соответствии с этим строил свои планы, как огромная потеря, утрата привычных социальных гарантий.

Думается, что пройдет еще немало времени, пока неопределенность станет восприниматься не столько как бедствие, сколько как шанс для собственного выбора. Сейчас же вполне естественен для общества стихийный поиск новых идеалов, который с неизбежностью воспроизводит порой и архаику, и анахронизм.

Следовательно, для установления подлинной демократии и достижения заявленных ориентиров и целей необходима эффективная трансформация не только экономики, но и идеологического климата, способного изменить сознание людей.

Каким же видится путь трансформации менталитета азербайджанцев? Азербайджанская действительность настойчиво ставит перед гражданами республики задачу овладения основами современной политической культуры, требует ее коренных изменений, формирования менталитета, масс адекватного рыночной экономике и истинному плюрализму, отказа от обветшавших идеологических стереотипов, так как без глубоких изменений в общественном сознании невозможны никакие перемены. Сегодня, когда в жизни азербайджанского общества особую значимость приобретают индивидуальные проявления человечес-

кого сознания и поведения, сами социально-политические структуры зависят от состояния духовного мира, от процессов, идущих в сознании масс. Насущные проблемы формирования новой политической культуры, соответствующей требованиям времени и выражающей как отношение личности к политике вообще, так и ее отношение к содержанию вполне конкретных политических ценностей, норм и программ в частности, требуют дальнейшего осмысления.

В настоящее время одновременно меняются политическая и экономическая системы страны, отвергаются бывшие ранее незыблемыми базовые ценности. Азербайджанское общество становится плюралистическим, развивается многопартийность, предпринимаются усилия для возрастания роли политических партий, выступающих в качестве промежуточного звена во взаимоотношениях между гражданами и государством, сосуществуют и активно дополняют друг друга различные модели политической культуры. Без успешного решения задачи формирования политической культуры народа Азербайджану будет весьма непросто стать экономически сильной и процветающей страной, гарантирующей своим гражданам соблюдение прав и свобод.

Основная гипотеза состоит в том, что в условиях трансформации азербайджанского общества формирование новой системы политических отношений может с наибольшей полнотой идти через совокупную деятельность политических институтов, прежде всего института политических партий, направленную на сплочение масс, развитие гражданского общества, обеспечение единства и сплоченности основных общественно-политических



структур, истеблишмента и правящей элиты, осуществляемую с использованием современных эффективных политических технологий. Тем самым создаются условия для устойчивого развития современного Азербайджана.

Думается, есть все предпосылки того, чтобы азербайджанское общество в связи с реализацией экономических и политических реформ стало по настоящему современным, а политическая система страны - более сложной и дифференцированной, где будет обеспечено сосуществование различных идей, концепций развития, политических партий и общественно-политических движений. Сможет ли наше общество реализовать эту возможность и тем самым вписаться в сложную парадигму общественного развития, эволюции, характеризующуюся сочетанием тенденции нового и прогрессивного, зависит, по существу, от осовременивания его социальной структуры, а также политической зрелости граждан страны, их политической культуры.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA FƏLSƏFƏ TARİXİ NİN TƏDQİQİ VƏ TƏDRİSİNİN ZƏRURİLİYİ HAQQINDA

M.B. ZEYNALOV

*Bakı Dövlət Universiteti,*
*fəlsəfə elmləri doktoru*

**Əgər biz bir azərbaycanlı kimi öz müstəqilliyimizi, milli azadlığımızı yüksək qiymətləndiririksə, xalqımızın tarixini, adət-ənənələrini, xalqımıza məxsus milliliyi həmişə yaşatmalıyıq və onları hər yerdə təbliğ etməliyik**

**Heydər ƏLİYEV**

Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin inkişafı həmişə H.Ə.Əliyev cənablarının diqqət mərkəzində olmuşdur. O, istər fəlsəfi, humanitar və istərsə də təbiət elmlərinin inkişafına daima böyük qayğı göstərmişdir. Xatırlatmaq istərdik ki, Heydər Əliyevin Çağdaş Azərbaycanda fəlsəfi elmlərin, o cümlədən fəlsəfə tarixinin tədrisi və tədqiqi ilə əlaqədar verdiyi tövsiyyələr ali məktəblərimizdə tələbələrin yeni dünyagörüşünün forma-laşması üçün xüsusi əhəmiyyət kəsb etmişdir.

Prezidentimizin fikrincə öz müstəqilliyini əldə etmiş respublikamızın iqtisadi və siyasi həyatında baş vermiş əhəmiyyətli dəyişikliklərlə əlaqədar olaraq biz mənəvi dünyamızın bütün sahələrinə yenidən baxmalıyıq. Bu məqsədlə birinci növbədə itirilmiş mənəvi varlığımızın mənbəyini axtarıb tapmalı, xalqımızın fəlsəfi fikir tarixini, adət-ənənələrini dərindən öyrənməli, ona xas olan milliliyi yüksək qiymətləndirməliyik. Bununla əlaqədar olaraq o



demişdir: «Əgər biz bir azərbaycanlı kimi öz müstəqilliyimizi, milli azadlığımızı yüksək qiymətləndiririksə, xalqımızın tarixini, adət-ənənələrini, xalqımıza məxsus milliliyi həmişə yaşatmalıyıq və onları hər yerdə təbliğ etməliyik».[1]

Geniş dünyagörüşünə, zəngin fəlsəfi və məntiqi təfəkkürə malik prezidentimiz fəlsəfi elmlərin keçmişi, bu günü və gələcəyi haqqında dərin elmi nəzəri, əməli əhəmiyyət kəsb edən fikirlər söyləmiş və onların gələcək inkişaf perspektivlərini müəyyən etmişdir. O, keçmiş fəlsəfi ictimai-siyasi və dini baxışlarımıza, Azərbaycan, Şərq və Qərb xalqlarının fəlsəfi fikir tarixinə yenidən nəzər salmağı, hər şeyi saf-çürük etməyi, dövlətçiliyimizin inkişafına maneçilik törədən ideyaları rədd etməyi, onun tərəqqisini təmin edən nə varsa hamısını qoruyub saxlamağı tövsiyə etmişdir.

Heydər Əliyev cənabları hələ 1993-cü ilin sentyabr ayında ziyalılar və gənclərin nümayəndələri ilə görüşlərində, bir sıra digər çıxışlarında və nitqlərində gənc nəslin tərbiyəsində humanitar, fəlsəfi və ictimai-siyasi elmlərin əhəmiyyətindən ətraflı danışmış, təhsil sistemimizin bütün sahələrinə, o cümlədən ali məktəblərimizdə fəlsəfi elmlərin tədrisi və tədqiqi məsələlərinə yenidən baxmağı məqsədə müvafiq bilmişdir.

Bununla birlikdə Prezidentimiz həm də dünya xalqlarının, o cümlədən Azərbaycan xalqının yaratdığı ümumbəşəri mənəvi dəyərləri yüksək qiymətləndirmiş və onların ali məktəb tələbələrinə öyrədilməsinə xüsusi əhəmiyyət verərək demişdir ki, «Təhsil haqqında danışarkən istərdim ki, həm orta məktəbdə, həm də ali

[1] «Azərbaycan» qəzeti, 31 avqust, 1997-ci il.

məktəbdə təhsil alan gənclər dünya elminin, dünya mədəniyyətinin əldə etdiyi dəyərlərlə nəinki tanış olsunlar, habelə onu mənimsəməyə şərait yaradılsın».[1] Daha sonra o göstərmişdir ki, biz gənc nəslə xalqımızın fəlsəfi, ictimai-siyasi, etik-estetik və dini fikir tarixini ətraflı öyrətməli, «Həm elm sahəsində, həm təhsil sahəsində, ədəbiyyat, mədəniyyət sahəsində və bizim mənəvi mənbəyimiz olan din sahəsində, islam dini sahəsində tarixi ənənələrimizdən istifadə edərək gənclərimiz üçün bütün dünyaya yol açmalıyıq».[2]

Bütün bunlarla birlikdə Heydər Əliyev həm də keçmişin həyatda özünü doğrultmayan, bu gün inkişafımıza maneçilik törədən ideyalarına tənqidi münasibət bəsləmiş, mənəvi dünyamızı yeni mütərəqqi ideyalarla zənginləşdirməyi vacib bilmişdir. Bununla əlaqədar olaraq o, marksizm-leninizim ideyalarından imtina edilməsinin zəruriliyindən danışmış və ümumbəşəri əhəmiyyət kəsb edən yeni fəlsəfi ideyaların yaradılmasının vacibliyinə xüsusi diqqət yetirmişdir. Məlum olduğu kimi, sovet hakimiyyəti illərində ali məktəblərimizdə marksizm fəlsəfəsi – dialektik və tarixi materializm, fəlsəfə tarixi, elmi kommunizm, dinin və ateizmin tarixi, və nəzəriyyəsi, etika və estetika fənləri öyrənilirdi. İnkar etmək olmaz ki, fəlsəfi elmlərin tədrisi və tədqiqi sahəsində bir sıra müsbət nəticələr əldə edilmişdir. Bu uğurlar bəşəriyyətin fəlsəfi, dini, etik və estetik fikrinin öyrənilməsində, ali məktəb tələbələrinin fəlsəfi təfəkkürünün inkişafında və dünyagörüşünün formalaşmasında müəyyən rol oynamışdır.

[1] Heydər Əliyev. «Müstəqilliyimiz əbədidir». Birinci kitab. B., Azərnəşr, 1997, s.169.
[2] Yenə orada. s.70.



Bununla birlikdə təəssüflə qeyd etməliyik ki, sovet hakimiyyəti illərində fəlsəfi elmlərin tədrisi və tədqiqində bir sıra nöqsanlar və təhriflərə yol verilmişdir. Belə ki, fəlsəfi elmlərin öyrənilməsinə yalnız sinfilik, partiyalılıq baxımından yanaşılmış, idealizm mövqelərindən çıxış edən filosoflar kəskin tənqid atəşinə tutulmuş, materialistlər isə tərif edilib göylərə qaldırılmışdı. Fəlsəfi fikrin inkişafı tarixində Qərbin Platon, Akvinalı Foma, Berkli, Yum, Kant, Hegel kimi, Şərqin Əl-Fərabi, Əl-Biruni, İbn-Sina, Bəhmənyar, Şəbüstəri kimi filosoflarının xidmətlərindən danışılan zaman, bir qayda olaraq onların idealizmi tənqid edilmiş, Rusiyanın Solovyov, Berdyayev, Bulqakov, Losyev kimi görkəmli filosofları idealist baxışlarına görə təqib olunmuş, gözümçıxdıya salınmışdı. Bunların müqabilində keçmiş ittifaq respublikalarının bütün ali məktəblərində eyni qaydada tədris olunan marksizm fəlsəfəsi həddindən artıq dərəcədə şişirdilir, ideolociləşdirilir, onun ehkam kimi qəbul edilmiş ayrı-ayrı müddəalarının həyata tətbiqi yol verilməz dərəcədə bayağılaşdırılırdı. Dialektik materializm bəşəriyyətin fəlsəfi təfəkkürünün ən yüksək zirvəsi hesab edilir, onun meydana gəlməsi isə fəlsəfi fikrin inkişafı tarixində bir inqilab kimi qiymətləndirilirdi. Belə bir yanlış fikir yürüdülürdü ki, guya dünya fəlsəfəsinin problemlərinin düzgün elmi həlli yalnız marksizm fəlsəfəsində verilə bilər. Heç bir vəchlə bu fikirlərlə razılaşmaq olmaz. Hamımıza yaxşı məlumdur ki, marksizmin dialektik materializm fəlsəfəsi Qərbi Avropa ölkəsində – Almaniyada doğulmuşdur, onun mahiyyətində Şərqin fəlsəfi, ictimai-siyasi fikrindən əsər-əlamət belə yoxdur. Açığını deyək ki,

dialektik materializm fəlsəfəsində Şərq metafizikcəsinə inkar edilmişdir.

Marksizm fəlsəfəsi öz mahiyyəti etibarilə sonradan rus gerçəkliyinə tətbiq edilmiş alman fəlsəfəsidir. O, əsasən Kantın, Hegelin dialektikası ilə Feyerbaxın materializminin birləşdirilməsi və Marks, Engels tərəfindən yenidən işlənməsi nəticəsində yaradılmışdır. Heç təsadüfi deyildir ki, Karl Marks alman klassik fəlsəfəsinin banisi Kant haqqında danışanda onun təlimini alman nəzəriyyəsi adlandırmışdı. Özünəməxsus səciyyəvi xüsusiyyətləri olan bu fəlsəfənin milli alman xarakteri daşıdığını inkar etmək olmaz. Hegelin «Almaniya dövləti ən yüksək səviyyədə təkmilləşmiş siyasi idarə formasıdır. Almaniya cəmiyyəti isə tarixi inkişafın elə bir zirvəsidir ki, ondan yüksəyə qalxmaq əsla mümkün deyildir» fikri onun fəlsəfi sisteminin milli alman xarakteri daşıdığını tam aydınlığı ilə açıb göstərir.

Dialektik materializm fəlsəfəsi Demokritin, Heraklitin, Aristotelin, ingilis, fransız materialistləri və digər Qərbi Avropa fəlsəfi təlimləri ilə varislik əlaqələri ilə bağlı olmuşdur. Zənnimizcə, Şərqin fəlsəfi fikir tarixindən tamamilə təcrid edilmiş, mahiyyətində azacıq da olsa islam dünyasının ruhu hiss olunmayan ideyaların yeni demokratik respublikamızın ali məktəblərində tədrisi məqbul sayıla bilməz.

Marksizm fəlsəfəsində sinfi cəmiyyət kəskin tənqid atəşinə tutulmuş, imperializm kapitalizmin son mərhələsi, çürüyən kapitalizm adlandırılmışdı. Ali məktəblərimizdə real həyatdan uzaq olan, elmi kommunizm nəzəriyyəsi tədris olunurdu. İddia edilirdi ki, Marksın sosialist inqilabi nəzəriyyəsini V.İ.Lenin



«inkişaf etdirmiş», bir ölkədə sosializmin tam və qəti qələbəsinin «mümkünlüyünü» «sübut etmişdir». Sov.İ.K.P. qurultaylarında Sosializmin qələbə çaldığı elan olunmuşdu. «İnkişaf etmiş sosializm cəmiyyəti nəzəriyyəsi» «kəşv edilmişdi». Real həyatda isə geniş xalq kütlələri sosializmin bəhrəsini görə bilmirdilər. Bax, bütün bunlara görə də Sovet hakimiyyəti illərində marksizm fəlsəfəsinin bir sıra nəzəri müddəaları deformasiyaya uğradı, həyatda özünü doğrultmadı və ona görə də müasir gənclərin dünyagörüşünün formalaşmasında öz əhəmiyyətini itirdi. Son nəticədə marksizm-leninizm fəlsəfəsindən imtina etmək məcburiyyəti qarşısında qaldıq. Bununla əlaqədar olaraq Heydər Əliyev tamamilə haqlı olaraq demişdir ki, «biz 70 il marksizm-leninizm ideyalarının təsiri altında yaşamışıq... İndi bunlardan imtina etmişik, bu isə tamamilə təbiidir. Hesab edirəm ki, müstəqil Azərbaycan Resbublikası marksizm-leninizm ideyasına bir daha qayıtmamalıdır»[1]. Ölkə Prezidentinin bu fikirləri ilə razılaşmamaq olmaz. Heç kəs üçün sir deyildir ki, Marks və Engelsin yaratdığı bu fəlsəfənin müddəaları, reallığa çevrilməsi mümkün olmayan kommunizm cəmiyyətinin nəzəri cəhətdən əsaslandırılmasına yönəldilmişdir.

Sovet hakimiyyəti illərində marksizm fəlsəfəsi burcua fəlsəfəsi adlandırılan fəlsəfi təlimlərə qarşı qoyulurdu. Qeyri marksist nəzəriyyələr tənqid atəşinə tutulur, dünya fəlsəfi fikrinin inkişafında onların rolu demək olar heçə endirilirdi. Nəticədə marksizm fəlsəfəsi müasir dünyanın qeyri-marksist fəlsəfi fikrin-

[1] H.Ə.Əliyev «Müstəqilliyimiz əbədidir» Birinci kitab. Azərnəşr, B.,1997, s. 174.

dən təcrid edildi, onun nailiyyətlərindən bəhrələnə bilmədi, ondan xeyli dərəcədə geri qaldı. Ona görə də uğursuzluğa düçar oldu, onun bəzi nəzəri müddəaları deformasiyaya uğradı, həyatda özünü doğrultmadı, elmin inkişafına, xalq kütlələrinin arzu və istəklərinin, mənəvi tələblərinin həyata keçirilməsinə müsbət təsir göstərə bilmədi, bu səbəbdən də müasir gənclərin dünyagörüşünün formalaşmasında öz əhəmiyyətini itirdi. Bax bütün bunlara görə Prezidentimiz Heydər Əliyevin sözləri ilə demiş olsaq, keçmişdə ictimai-siyasi elmlərə dair yazılmış «o kitablardan, o ehkamlardan, o qanunlardan, o ideyalardan, o ideologiyadan imtina etmişik»[1]

Əlbəttə, bu heç də o demək deyildir ki, biz dialektik və tarixi materializm fəlsəfəsini metafizikcəsinə inkar etməli, onu fəlsəfi dünyamızdan qoparıb bir kənara atmalıyıq. Əlbəttə, yox. XIX əsrin 40-cı illərində, Qərbin materialist fəlsəfəsinin varisi kimi meydana gəlmiş bu təlim bəşəriyyətin fəlsəfi fikir tarixinin inkişafında müəyyən rol oynamışdır. Ali məktəblərin fəlsəfə kurslarında öyrənilən «varlıq», «materiya», «təbiət», «insan», praktika», «şüur», «idrak», «elm», «cəmiyyət», «tərəqqi», «mədəniyyət», «şəxsiyyət» haqqında təlimlərdən tamamilə imtina etmək olmaz. Onlar marksizm fəlsəfəsinin kəşfləri deyil, bəşəriyyətin fəlsəfi fikrinin süzgəcindən keçmiş, dünya fəlsəfəsinin problemləridir. Zənnimizcə fəlsəfə kursunda öyrənilən həmin problemlər doqmatik fikirlərdən, həyat reallıqlarna uyğun gəlməyən nəzəri müddəalardan, dialektik materializm metodologiyasından azad

[1] Heydər Əliyev. «Müstəqilliyimiz əbədidir». Birinci kitab. B., Azərnəşr, 1997, s.167



edilsə, onun metodoloci prinsiplərinə və dünyagörüşü funksiyasına yenidən baxılsa faydasız olmaz, dövrümüzün yeni fəlsəfi təliminin yaradılmasında müəyyən əhəmiyyət kəsb edə bilər.

Həyat marksizm-leninizm ideyalarından imtina olunmasının, milli ənənəlrimizə əsaslanan ümumbəşəri dəyərlərə malik, insan səadətinə qulluq edən, onun arzu və istəklərinə cavab verə bilən yeni fəlsəfi ideyaları yaratmağı tələb edir. Tamamilə haqlı olaraq Heydər Əliyev demişdir ki, biz köhnə ideyalardan, köhnə qanunlardan və ehkamlardan imtina etsək də hələlik «yenilərini yaratmamışıq».[2] Bax buna görə də filosof-həmkarlarımız yeni dövrün fəlsəfi təliminin yaradılması istiqamətində dərindən düşünməli, dünya təcrübəsindən, prezidentimizin tövsiyələrindən bacarıqla istifadə edib dialektik materializm təlimindən yüksəkdə duran, zamanın tələblərinə lazımınca cavab verə bilən, tarixi ənənələrimizə əsaslanan yeni ideyalar yaratmalıdırlar. Heydər Əliyev demişdir ki, «biz mənəviyyatsız, ideyasız yaşaya bilmərik. İndiki ideyamız isə milli tarixi ənənələrimiz, millətimizin keçdiyi tarixi yol, ulu babalarımızın yaratdığı ümumbəşəri dəyərlər əsasında, Nizami Gəncəvinin, Xaqaninin, Fələkinin, Bəhmənyarın, Nəsirəddin Tusinin, Nəsiminin, Füzulinin, Vaqifin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Səməd Vurğunun, Mirəsdulla Mirqasımovun, Yusif Məmmədəliyevin, Mustafa bəy Topçubaşovun və tarix boyu bir çox digər alimlərimizin, ədəbiyyatçılarımızın, filosoflarımızın yaratdıqları mənəvi dəyərlər əsasında formalaşdırılmalı və inkişaf etdirilməli-

[2] Yenə orada. s.167.

dir. Əgər biz bu tarixi yaxşı təhlil edə bilsək, gənclərimiz onunla yaxşı tanış olsalar, adlarını çəkdiyimiz şəxslərin və yüzlərlə başqalarının əsərlərindən mənəviyyata dair fikirləri mənimsəsələr, həyatlarında rəhbər tutsalar, Azərbaycan xalqı düz yolla gedəcəkdir.»[1]

Cənab Prezident milli tarixi ənənələrimizin, ədəbiyyatımızın, fəlsəfi fikrimizin inkişafı tarixindən danışan zaman, həm də milli məhdudluq çərçivəsindən kənara çıxmağın, dünya təcrübəsindən istifadə etməyin, ümumbəşəri dəyərlərə yiyələnməyin zəruriliyinə xüsusi diqqət yetirmişdir. O demişdir: «Həqiqət, gerçəklik ondan ibarətdir ki, milli ənənələrimizi əsas götürərək, ümumbəşəri dəyərləri gənclərimizə çatdırmalıyıq». Daha sonra Şərq fəlsəfi fikri ilə Qərb fəlsəfi fikri arasındakı varislik əlaqələrini konkret misallarla nümayiş etdirən prezidentimiz göstərmişdir ki, «...milli məhdudluq çərçivəsində yaşamaq olmaz. Azərbaycanın dahi şəxsiyyətləri bu (yüksək – M.Z.) zirvəyə qalxmaq üçün bəşəri dəyərlərdən istifadə etmişlər. Əgər belə olmasaydı Nizami Gəncəvi «İskəndərnamə» kimi böyük bir poema yazmazdı. Bu poema Homerin «İlliada» poemasından heç də geri qalmır. «İskəndərnamə» bir tərəfdən tarixi əsərdir, digər tərəfdən dərin fəlsəfi fikirlərlə zəngindir. Ancaq gənclərimiz bunları bilirlərmi, oxuyurlarmı, bunlardan bəhrələnirlərmi?»[2]

Prezidentimizin fəlsəfi fikirlərlə zəngin olan bu məntiqi mühakimələri ilə razılaşmamaq olmaz. Bu bir həqiqətdir ki, tarixən həmişə Şərq və Qərb filosofları bir-birindən bəhrələnmiş,

---

[1] H.Ə.Əliyev. «Müstəqilliyimiz əbədidir». Birinci kitab, B., Azərnəşr. 1997, s.175.

[2] Yenə orada. s.170, 175



elə bunun da nəticəsində ümumbəşəri dəyərlərin inkişafı üçün geniş imkanlar yaradılmışdır. Məsələn, akademik Aleksandr Osipoviç Makovelski müəyyən etmişdir ki, «Midiya maqlarının təlimi Demokritə müəyyən təsir göstərmişdir.[3]

Təfəkkür tarixi sübut edir ki, əksər hallarda Şərqin və Qərbin filosofları bir-birinin yaradıcılığına müraciət etmiş, onların biri-digərinə öz münasibətini bildirmişdir. Qərb dünyasının bir sıra filosofları – italyan mütəfəkkirləri Piko Della Mirandola (1463-1485), Cordano Bruno (1548-1608), XYIII əsr fransız maarifçisi Antuan Kondorse (1743-1794), alman klassik fəlsəfəsinin görkəmli nümayəndələri İohann Qotfrid Herder (1744-1803), İohann Qotlib Fixte (1762-1814), Fridrix Vilhelm Yozef Şellinq (1775-1854) Şərq fəlsəfəsi ilə yaxından tanış olmuş, onu dünya sivilizasiyasının başlanğıcı hesab etmişlər. Görkəmli alman filosofu Hegel «Avesta»dan bəhrələnmişdir.

XIX əsrin ortalarında alman alimi Qladiş «Dünya fikir tarixinin inkişafında din və fəlsəfə» adlı kitabında yunan fəlsəfəsinin birbaşa Şərq elmi ilə əlaqədar olduğundan danışaraq deyirdi ki, yunanlar Şərqin və dünyanın bir sıra digər mədəni xalqlarının yaratdıqları yetgin mənəvi dəyərləri ardıcıl surətdə mənimsəmişlər. Bu fikirlərin doğru olduğunu Qladisin özünün yazdığı əsərlər də təsdiq edir. Məsələn, o bir sıra əsərlərini belə adlandırmışdı: «Pifaqorçular və çinlilər» (1841), «Eleylilər və Hindlilər» (1844), «Empedokl və misirlilər» (1858), «Heraklit və Zərdüşt» (1859), «Anaksaqor və yəhudilər» (1864). Şübhə etmirəm ki, o zamanda olduğu kimi bu gün də Qərbin çox böyük adamları

---

[3] A.O.Makovelski «Qədim yunan atomistləri.Bakı.1946.s.190-191.

Şərqin müdrük oğlu Heydər Əliyev cənablarının əqlindən, zəkasından bəhrələnirlər.

Əvvəldə dediyimiz kimi, bu əlaqələr qarşılıqlı olmuşdur. Şərq Qərbə təsir göstərdiyi kimi Qərb də Şərqə təsir göstərmişdir. Qədim, zəngin və hər tərəfli elm olan fəlsəfə Avropada böyük inkişaf yolu keçmişdir. Dünya fəlsəfi fikrini Avropasız təsəvvür etmək mümkün deyildir. Avropa Şərqsiz, Şərq də Avropasız dünya fəlsəfi fikrinin inkişafına güclü təsir göstərə bilməz. Ona görə də bunun biri digərinə qarşı qoyula bilməz. Qərb Şərqdən bəhrələndiyi kimi, öz növbəsində Şərq də Qərbdən bəhrələnmişdir. Məsələn, Aristotel Əl Kindiyə, Əl Əşariyə, İbn Rüşdə, Bəhmənyara, Nizamiyə, Füzuliyə, Əl Fərabiyə, Əl Biruniyə, İbn Sinaya və başqalarına güclü təsir göstərmiş və bunun nəticəsində Şərq ölkələrində peripatetizm məktəbləri yaranmış və min illik tarixi yol keçmişdir.

Biz bu gün dünya birliyinə, sivil ölkələr sisteminə qovuşmaq, onların arasında layiqli yer tutmaq istəyiriksə, Avropanın ictimai-siyasi, fəlsəfi fikir tarixini dərindən öyrənməliyik. Xüsusilə Avropa Şurasına daxil olduğumuz indiki şəraitdə, dünya iqtisadiyyatı, mədəniyyəti və fəlsəfəsinin inteqrasiyası, qədim «İpək yolu»nun bərpası, Bakı-Ceyhan neft kəmərinin çəkilməsi ilə əlaqədar olaraq birgə tədqiqatlar aparmalıyıq, Şərq-Qərb münasibətlərinin daha da yaxşılaşması üçün əlimizdən gələni etməliyik, Avropa, Rus mədəniyyətindən istifadə edib son məqsədimizə çatmalıyıq. Bütün bunları nəzərə alaraq möhtərəm prezidentimiz Heydər Əliyev demişdir: «Biz həm milli tariximizdən aldığımız mənəvi sərvətlərdən istifadə etməli, həm də bəşəriyyətin yaratdığı mənəvi dəyərlərə yiyələnməliyik, o cümlədən Avropa mədəniyyətindən, Rusiya mədəniyyətindən istifadə etməliyik»[1]



Prezidentimizin bu tövsiyələrindən istifadə edib biz ali məktəblərimizdə klassik fəlsəfənin, fəlsəfə tarixinin, dinin elmi tarixi və fəlsəfəsinin öyrənilməsinə xüsusi diqqət yetirməliyik. Fəlsəfi elmlər sistemində Azərbaycanın, bütövlükdə türk dünyası fəlsəfi fikir tarixinin tədrisinə xüsusi əhəmiyyət verməliyik. Bu bir həqiqətdir ki, bəşəriyyətin fəlsəfi, ictimai-siyasi, dini fikir tarixini öyrənmədən və bunu ali məktəb tələbələrinə öyrətmədən geniş dünyagörüşünə malik kadrlar hazırlamaq əsla mümkün deyildir. Ona görə də Şərq və Qərb fəlsəfi fikrinin tədrisinin səmərəliliyini artırmaq lazımdır. Bu məqsədlə gələcək illərdə fəlsəfə tarixinin müstəqil bir fənn kimi ali məktəblərin humanitar fakultələrində tədrisi məqsədə müvafiq olardı.

Heç təsadüfi deyildir ki, dünyanın ən müdrik adamları, böyük alimləri, mütəfəkkir filosofları bəşəriyyətin fəlsəfi fikir tarixinin, o cümlədən Şərq və Qərb fəlsəfəsinin öyrənilməsinə həmişə xüsusi əhəmiyyət vermişlər. Şərqin ən görkəmli fəlsəfə tarixçisi, 1962-67-ci illərdə Hindistanın prezidenti olmuş S.Radxakrişnan vaxtı ilə bu barədə belə demişdir: «Hindistanla ABŞ arasında xeyirxah münasibətlər yaratmaq üçün hər iki xalqın fəlsəfi fikir tarixini öyrənmək lazımdır. Bu, Hindistana daxil olan Uol Strid dollarından daha faydalı olar». Hələ 60-cı illərdə Harvard Universitetinin (ABŞ) professoru U.E.Xokinq yazırdı ki, «Şərqin həyata münasibəti onun dini və fəlsəfi fikrində ifadə

[1] Əliyev H.Ə. «Müstəqilliyimiz əbədidir.». Birinci kitab, B; Azərnəşr, 1997, səh 174-175.

olunur. Ona görə də bizim mənafeyimiz tələb edir ki, Şərqin dünyanıduyma üsullarının tarixi mənbələri ilə daha yaxından tanış olaq».

Sovet hakimiyyəti illərində milli respublikaların, o cümlədən Azərbaycanın fəlsəfi fikir tarixini öyrənməyə lazımi diqqət verilməmişdir. Tədris planlarında marksizm fəlsəfəsinin tədrisinə 120-140 saat vaxt ayrıldığı zaman, 2500 illik tarixi olan dünya xalqlarının, o cümlədən Şərqin, Milli Respublikaların fəlsəfi fikir tarixinin öyrənilməsinə humanitar fakultələrdə 46-50, təbiət fakultələrində isə 10-12 saat vaxt verilirdi. Moskvada tərtib edilmiş fəlsəfə tarixi proqramında İslam dünyasının, o cümlədən Şərq xalqlarının fəlsəfi fikir tarixinin tədrisinə cəmi 10-12 saat vaxt ayrılırdı. Fəlsəfə tarixi dərsliklərində, «SSRİ-də fəlsəfə tarixi» adlanan 5 cildlik kitabda Şərq fəlsəfəsinə, milli respublikaların fəlsəfi fikir tarixinə son dərəcə az yer verilmiş, materialların 70-80 faizi Qərb fəlsəfəsinin tarixinə həsr olunmuşdur. Moskvada yazılmış kitablarda daha çox Azərbaycan xalqının fəlsəfi və ictimai-siyasi fikir tarixinin öyrənilməsinə biganəlik göstərilmişdir. Qədim Azərbaycanın Zərdüştlük, Avesta və Kitabi-Dədə Qorqud fəlsəfəsi tamamilə nəzərdən qaçırılmışdır. Dərsliklərdə orta əsr Azərbaycan fəlsəfəsinin görkəmli nümayəndələri Zəncaninin, Bakuvinin, Bəhmənyarın, Nizaminin, Sührəvərdinin, Tusinin, Şəbüstərinin, Nəiminin, Nəsiminin, Füzulinin, Təbrizinin, Şirvaninin və s. fəlsəfəsi nəinki özünün layiqli yerini tuta bilməmiş, hətta onların bəzilərinin adı belə çəkilməmişdir. Məlum səbəblərdən Hüseyn Cavid, Əhməd bəy Ağayev, Məmməd Əmin Rəsulzadə, Əli bəy



Hüseynzadə tənqid hədəfinə çevrilmiş, onların fəlsəfəsi, ictimai-siyasi görüşlərinin öyrənilməsi qadağan olunmuşdu. Bir sözlə, milli respublikalar, o cümlədən Azərbaycan xalqı öz tarixinin mühüm tərkib hissəsi olan fəlsəfi və ictimai-siyasi fikir tarixinin hərtərəfli öyrənilməsindən, demək olar ki, məhrum edilmişdi. Bunların hamısında əsas, başlıca məqsəd dünya fəlsəfəsinin, birinci növbədə Şərq fəlsəfəsinin, milli respublikaların fəlsəfi fikir tarixinin üzərinə pərdə çəkmək, marksizm-leninizm fəlsəfəsinin meydana gəlməsini bəşər fikrinin inkişafı tarixində ən böyük inqilab kimi qələmə verməkdən ibarət idi. Tarix bu cəhdlərin tamamilə əsassız olduğunu tam aydınlığı ilə sübut etdi.

Bu gün müstəqilliyini əldə etmiş xalqımızın öz keçmişini dərindən öyrənməyin və onları ali məktəb tələbələrinə mükəmməl öyrətməyin vaxtı gəlib çatmışdır. Lakin təəssüflə qeyd etməliyik ki, bu günün özündə də Şərq fəlsəfəsinin, o cümlədən Azərbaycan fəlsəfi və dini fikir tarixinin ali məktəb tələbələrinə öyrədilməsinin əhəmiyyətini başa düşməyənlər də az deyildir. Belələrinə ən azı təəssüf etmək olar.

Bütün bunları nəzərə alaraq Heydər Əliyev cənabları göstərmişdir ki, biz Şərq xalqlarının, o cümlədən bütün türk dünyasının, Azərbaycan xalqının fəlsəfi və dini fikir tarixinin öyrənilməsinə xüsusi diqqət yetirməli, onları geniş təbliğ etməli, müstəqilliyimizin möhkəmləndirilməsində, azadlığımızın təmin olunmasında onlardan geniş istifadə etməliyik. Daha sonra Heydər Əliyev Bəhmənyarın, Nizaminin, Nəsiminin, Füzulinin, Xaqaninin, Fələkinin ədəbi irsinin öyrənilməsinin zəruriliyini xüsusi vurğulamış, onları dünya mədəniyyətində, bəşəriyyətin

fəlsəfi fikrinin inkişafı tarixində böyük bir iz qoyub getmiş şəxsiyyətlər kimi tanıtmağı məqsədə müvafiq bilmişdir. Prezidentimiz 1994-cü ildə ziyalıların nümayəndələri ilə görüşündə dünya mədəniyyətinin, ədəbiyyatının və fəlsəfəsinin inkişafında onların rolunu belə qiymətləndirmişdir: «Nizami Gəncəvinin əsərləri təkcə ədəbi cəhətdən deyil, fəlsəfi baxımdan da əvəzsizdir. Lakin 1948-ci ildən ötən 50 ilə yaxın vaxtda biz onların istənilən səviyyədə tədqiq edilib yayılmasına nail ola bilməmişik... Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töfhələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq... Biz Füzulini təkcə «Leyli və Məcnun» poemasının müəllifi kimi yox, dünya miqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq. Təkcə ədəbiyyatçılar və yaxud yazıçılar birliyi deyil, bütün elm xadimlərimiz bu sahədə işləməlidirlər».

Heydər Əliyev bununla kifayətlənməmiş, orta əsrlərdə yazıb yaratmış mütəfəkkir, şair və yazıçılarımızın fəlsəfi yaradıcılığından, onların ədəbi irsinin hərtərəfli öyrənilməsi və bütün dünyaya yayılmasının zəruriliyindən ətraflı danışmışdır. Yeni cəmiyyət quruculuğunda, insanların dünyagörüşünün formalaşmasında Bəhmənyarın, Nəsirəddin Tusinin, Nəsiminin yaratdıqları ümumbəşəri dəyərlərin əhəmiyyətini xüsusi vurğulamış və bu zəngin irsi xalqa çatdırmağı tövsiyə etmişdir. Heydər Əliyev demişdir: «Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir. Mən təkcə şairlər haqqında danışmaq istəmirəm. Nəsimi də yalnız şair deyil,



həm də alim-filosofdur. Eyni zamanda, böyük alimlərimiz – Bəhmənyar, Nəsirəddin Tusi və başqalarını qeyd etmək istəyirəm».[2]

Heydər Əliyev həm də XIX-XX əsrlərdə yazıb yaratmış alimlərimizin, yazıçılarımızın, şairlərimizin, filosoflarımızın yaratdıqları ümumbəşəri dəyərlərə diqqət yetirmiş, onların əsasında humanitar, fəlsəfi elmlərimizin inkişaf etdirilməsini lazım bilmişdir. O, bu mənada Mirzə Fətəli Axundovun, Əhməd bəy Ağayevin, Məmməd Əmin Rəsulzadənin, Nəriman Nərimanovun adlarını ehtiramla yad etmiş, Hüseyn Cavidin ədəbi irsini son dərəcə yüksək qiymətləndirərək demişdir: «İndi Hüseyn Cavidin əsərləri xalqa hava, su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır... Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırdılar. Ancaq onu bəlkə də Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin ki, Cavid Şekspirdən daha yüksək səviyyəyə qalxmış bir adamdır».[3]

Kommunist recimi dövründə Azərbaycan xalqının görkəmli mütəfəkkirlərinin, şairlərinin, yazıçılarının yaradıcılığı nəinki lazımınca qiymətləndirilməmiş və bəzən də onlar təhrif edilib ideoloci məqsədlər üçün istifadə edilmişdir. Heydər Əliyev haqlı olaraq göstərmişdir ki, bəşəriyyətin fəlsəfi fikrinin inkişafı tarixində mütəfəkkir filosoflarımızın həqiqi rolu və yeri düzgün müəyyənləşdirilməmiş, onların yaradıcılığına qeyri-obyektiv münasibət bəslənilmişdir. Hətta yeri gəldi-gəlmədi onlar tənqidə məruz qalmış, idealizm mövqelərindən çıxış etdikləri üçün

[2] Yenə orada, s. 157-158.
[3] Yenə orada, s.160.

günahlandırılmışlar. Prezidentimiz filosoflarımızı bu noqsanların aradan qaldırılması üçün bütün səylərini birləşdirməyə, onların yaradıcılığına düzgün, obyektiv qiymət verməyə çağırmışdır. O bu barədə demişdir: «O zaman tarixçilər bir şəxsin fəlsəfi görüşlərini araşdırarkən, bir əsər yazarkən çalışırdılar ki, bunu marksizm-leninizm ideologiyasına uyğunlaşdırsınlar. Çalışırdılar bir sənəd tapsınlar ki, guya Nizami Gəncəvi də marksist-leninçi olmaq istəyirmiş...».[1] Bunların müqabilində «əgər axtarıb tapsaydılar və lazımınca göstərə bilsəydilər ki, dünyanın böyük filosofu Höte özünün bəzi fəlsəfi müddəalarını Nizami Gəncəvinin fəlsəfi fikirləri əsasında izah etmişdir – bu isə tarixi həqiqətdir – əgər bunu sübut etsəydilər, əlbəttə ki, obyektivlik olardı».[2]

Çağdaş Azərbaycanda fəlsəfə tarixinin tədqiqi və tədrisi sahəsində ölkə prezidenti H.Ə.Əliyev cənablarının mövqeyi və tövsiyələri belədir.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, ali təhsil müəssisələri Heydər Əliyevin tövsiyələrinə əsaslanaraq fəlsəfə tarixinin tədrisi və tədqiqini müasir dövrün tələbləri səviyyəsinə yüksəltmək üçün xeyli təqdirəlayiq iş görmüşlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu 2 cilddə Azərbaycan fəlsəfə tarixi (rus dilində) kitabını hazırlamışdır. Kitabın birinci cildi 2002-ci ildə çapdan çıxmışdır. Həmin institutun direktoru professor Yusif Rüstəmov keçən il Şərq fəlsəfi fikrinin görkəmli nümayəndələrindən biri olan «Mövlana Cəlaləddin Ruminin Sufilik fəlsəfəsi» adlı yüksək səviyyəli monoqrafiya nəşr etdirmişdir.

[1] Heydər Əliyev «Müstəqilliyimiz əbədidir». Birinji kitab. B., Azərnəşr, 1997, s.160
[2] Yenə orada. s.95.



BDU-nun Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri bu məqalənin müəllifi professor Məmmədəli Zeynalov 2000-2001-ci illərdə Azərbaycan fəlsəfi fikir tarixində birinci dəfə milli dildə iri həcmli Qərb fəlsəfəsi tarixi dərsliyini yazıb ali məktəb tələbələrinin istifadəsinə vermişdir. 2001-ci ildə professor Y.Ə.Rüstəmov «Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri» mövzusunda maraqlı bir monaqrafiya yazmışdır.

BDU-da, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunda fəlsəfə tarixi üzrə kadr hazırlığına xeyli diqqət yetirilmişdir. Universitetin Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun aspirant və dissertantları Azərbaycan, Şərq və Qərb fəlsəfəsi tarixinə dair namizədlik və doktorluq dissertasiyaları müdafiə etmişlər. 1994-cü ildə «N.Nərimanovun nəzəri-fəlsəfi irsində dinə münasibət», 2000-2002-ci illər ərzində «Avestanın dini-fəlsəfi mahiyyəti», «XX əsr Azərbaycan romantizminin fəlsəfəsi (Məhəmməd Hadi irsinin tədqiqi əsasında)», «Sərrac Tusinin «Əl-Lümə» əsərində sufi-fəlsəfi məsələlər» və s. mövzularda namizədlik dissertasiyaları müdafiə olunmuşdur.

1998-ci ildən başlayaraq BDU-nun fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasında Qərb-Şərq ölkələri, Azərbaycan fəlsəfəsi tarixi, Ümumi fəlsəfə tarixi, Din fəlsəfəsi, mədəniyyətşünaslıq kursları üzrə, geniş proqramlar, qiyabiçi tələbələr üçün fəlsəfə tarixindən metodik vəsait hazırlanıb çap etdirilmişdir.

Tədris proqramlarına uyğun olaraq Sosial elmlər və Psixologiya fakultəsinin fəlsəfə ixtisasında təhsil alan tələbələrə fəlsəfə tarixindən 400 saat, o cümlədən 200 saat Qərb, 200 saat da Şərq fəlsəfəsindən Azərbaycan fəlsəfəsi tarixindən 100 saat, Universitetin əsas Humanitar fakultələrinin tələbələrinə 54 saat mühazirə oxunur, seminar məşğələsi keçilir.

Bütün bunlara baxmayaraq fəlsəfə tarixinin tədrisi və tədqiqi sahəsində aparılan işləri zamanın tələbləri baxımından hələlik tam qənaətbəxş hesab etmək olmaz. Lakin inanıram ki, gələcəkdə respublikamızın fəlsəfə ictimaiyyəti möhtərəm Prezidentimiz H.Ə.Əliyev cənablarının tövsiyələrinə əməl edib məktəblərimizdə dünya fəlsəfəsinin, o cümlədən Şərqin, Qərbin və Azərbaycanın fəlsəfi fikir tarixinin ali məktəblərimizdə hərtərəfli və dərindən öyrənilməsinə nail olacaq və onlara dair tədqiqatları daha da genişləndirəcəklər.

BDU-nun çox minlik kollektivi həmişə olduğu kimi bu gün də H.Ə.Əliyev cənablarına dərin hörmət və məhəbbət bəsləyir, anadan olmasının 80 illiyi ilə əlaqədar olaraq onu ürəkdən təbrik edir, qarşıdan gələn prezident seçkilərində ona böyük uğurlar arzulayır.



# SİYASİ MƏDƏNİYYƏTİN TOTALİTAR VƏ PLÜRALİST TİPLƏRİ

Ə.ƏHMƏDOV
*İnşaat mühəndisləri universiteti*
*fəlsəfə elmləri doktoru*

Ölkəmizdə milli dövlətçiliyin inkişafı, müstəqil dövlət quruculuğu prosesi uğurla davam etməkdədir. Bu nəhəng quruculuq işinin memarı, müstəqilliyimizin qarantı isə prezident H.Ə.Əliyevdir. Onun çoxcəhətli fəaliyyəti, xüsusən cəmiyyətin iqtisadi, siyasi, mənəvi-mədəni sahələrində həyata keçirilən ardıcıl, məqsədyönlü tədbirlər sabaha inamla vaxmaq üçün bizə əsas verir. H.Ə.Əliyev ölkəmizin öz inkişafında əsas tutduğu prinsipləri səciyyələndirərkən demişdir: "Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir" (Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997, s. 8).

Prezident H.Ə.Əliyev qarşıda duran əzəmətli vəzifələrin həllində insan amilinin rolunu həmişə yüksək qiymətləndirir. Məhz buna görə də o, cəmiyyət üzvlərinin, xüsusən gənclərin ən yaxşı milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasına, onların yetkin siyasi şüura və siyasi mədəniyyətə yiyələnməsinə ciddi diqqət yetirir. Dövlətimizin başçısı bu məsələnin əhəmiyyətini xüsusi vurğulamaqla, vəzifələr müəyyənləşdirməklə kifayətlənmir, həm də özü bilavasitə nümunə göstərir. Onun istər beynəlxalq səviyyəli məclislərdə, istərsə də respublika əhəmiyyətli yığıncaq-

lardakı nitq və çıxışları, istər müxtəlif ölkələrin dövlət başçıları ilə görüş və söhbətləri, istərsə də jurnalistlər üçün keçirdiyi mətbuat konfransları ən yüksək siyasi mədəniyyət nümayişidir, ibrət götürməli siyasi mədəniyyət məktəbidir.

Mənəvi potensial kimi fəaliyyət göstərən siyasi mədəniyyət bütövlükdə bir növ xidməti rol oynayır, çünki kütlələrin siyasi fəaliyyətində istiqamətləndirici qüvvə funksiyasını yerinə yetirən özü-özlüyündə siyasi mədəniyyət deyil, dövlət miqyasında həyata keçirilən hakim ideologiyadır, daxili və xarici siyasətdir, bütün sosial, humanist, əxlaqi və mənəvi dəyərlər cəbbəxanasıdır. Əslində siyasi mədəniyyət məhz ondan ötrü lazımdır ki, hər hansı bir məsələ hüquq bərabərliyi əsasında, əxlaq və hüquq normalarına, qanuna müvafiq şəkildə həll edilsin. Əgər biz siyasi mədəniyyətin totalitar tipini nəzərdən keçirsək, bu prinsipin nə dərəcədə pozulduğunun, siyasi mədəniyyətlə əxlaq normaları, hüquq qaydaları arasında nə qədər dərin ziddiyyət yarandığının şahidi olarıq.

Siyasi mədəniyyətin totalitar tipi cəmiyyətin sosial, iqtisadi və mənəvi həyatının prinsipial birölçülüyü və hər cür rəngarəngliyin, fərqin silinməsinə onun meylli olması ideyalarına əsaslanır. Bu ideyalar keçmiş SSRİ-də müxtəlif sosial qrupların spesifik məqsəd və mənafelərinin aşkar təzahürünə yol verilməməsinin, seçim imkanının, hər cür alternativliyin siyasi həyatdan sıxışdırılıb çıxarılmasının (bir "tarixi çıxış yolu", bir mülkiyyət tipi, bir partiya, bir yerə bir namizəd və s.) əməli istiqamətlərini müəyyənləşdirirdi. İdeologiya da bir idi – "yeganə düzgün" ideologiya. Belə istiqamətlərin reallaşdırılmasının faktik nəticəsi



aydın və mübahisə doğurmayan haldır – totalitar tənəzzül. Başqa cür ola da bilməz, çünki seçim imkanı və çoxölçülük sosial tərəqqinin atributiv komponentləridir. Axı, sosial tərəqqi fərqlərin güclənməsi və sosium ünsürlərinin mürəkkəblik dərəcəsinin yüksəlməsi ilə labüd olaraq bağlıdır.

Totalitarizmin inkişaf vektoru demokratik sistemin inkişaf vektoruna əksdir (birincidə: daha mürəkkəb cəmiyyətdən onun sadələşdirilməsinə doğru; ikincidə: daha sadə cəmiyyətdən onun mürəkkəbləşdirilməsinə doğru). Totalitarizm dağıdıcı vəzifələri daha uğurla həll edir (qadağan etmək, ləğv etmək, "hədləri silmək" və s.) Problemlərin həllinin universal mexanizmi onların struktursuzlaşdırılmasıdır; bu cür struktursuzlaşdırma həm də məhvetmə mənasında başa düşülür (Stalinin ən çox sevdiyi ifadələrdən biri belədir: "Adam yoxdur – problem də yoxdur"). İctimai struktur sinkretikləşdirilir, sosial toxumanın əlvanlığı yox olub gedir. Totalitar sistemin idealı – cəmiyyətin son həddə qədər unifikasiyasıdır, onun tam milliləşdirilməsidir, hər şeyə, hər yerə nüfuz edən nəzarətdir. Sosial və iqtisadi proseslərin spontan (öz-özünə) tənzimlənməsi mexanizmi ləğv edilir. İstisnasız olaraq cəmiyyət həyatının bütün sahələrində inhisarçılıq hökm sürür.

Təbiidir ki, totalitarizmin ilk qurbanları vətəndaş cəmiyyətinin ünsürləri (yaxud strukturları) olur. Sosial sistem dövlət və vətəndaş cəmiyyəti arasındakı mürəkkəb, ziddiyyətli və daimi qarşılıqlı təsirdən irəli gələn daxili gərginlikdən məhrum olur. Bu cür vəziyyətlə üzləşən hər bir sosial sistem labüd olaraq durğunluğa, deməli, çürüməyə və tənəzzülə məhkumdur. Fikrimizcə, 1983-cü ildə keçmiş SSRİ-nin o zamankı rəhbəri Andropov tərəfindən

verilmiş "biz hansı cəmiyyəti qurmuşuq?" suallına indi tam qəti cavab verə bilərik: biz *inkişaf etmiş totalitar cəmiyyət* qurmuşduq.

Totalitar strukturlar məqsədyönlü şəkildə birölçülü sosiallaşma, kütləvi şüur, xarici aləmi yalnız qara və ağ rənglərdə qavrayan şəxsiyyət tipi formalaşdırır. Öz növbəsində, siyasi şüura ən sadə qoşa stereotiplər sırınır ("bizimkilər -yadlar", "kim bizimlə deyilsə, o, bizim əleyhimizədir", "düşmən üçün pis olan bizim üçün yaxşıdır" və s.). Bunun nəticəsi olaraq müvafiq davranış, rəftar münasibətləri meydana gəlir (tərifləmək - pisləmək, qəbul etmək - rədd etmək, sevmək - nifrət etmək).

Totalitar şüurun özünəməxsus ikiliyi mütləq şər əlamətləri isnad edilmiş və hər cür insani xüsusiyyətlərdən məhrum olunmuş "düşmən obrazının" dəb salınması ilə möhkəmləndirilir. Bu zaman düşmən anlayışı mühüm gizli "qapazaltı" funksiyasını nəzərdə tuturdu; elan olunan məqsədlərlə əldə edilən nəticələr arasındakı uyğunsuzluğun məsuliyyəti bu "qapazaltının" üzərinə qoyulurdu. "Xaricəistiqamətli" şəxsiyyət tipi formalaşmışdı. Bu cür şəxsiyyət çətinliklərin və uğursuzluqların səbəbini öz nöqsanlarında deyil, özündən kənarda, "düşmən" əhatədə axtarmağa meyllidir. Hakim nomenklatura cəmiyyətdə permanent "fövqəladəçilik" mühitini süni surətdə qoruyub saxlayırdı. Belə bir mühit bütün hüquqların dövlət rəhbərliyinin ən yüksək eşelonlarında cəmlənməsi üçün lazım idi. Məşhur ifadəni bir qədər dəyişərək belə demək olar: "səltənət zülməti" əsasən "zülmət səltənətinin" genişləndirilməsinə və möhkəmləndirilməsinə yönəldilmişdi.

Hər cür kult, xüsusən mübarizə kultu totalitar siyasi mədəniyyətin mühüm xüsusiyyətidir. Bundan həm yaradıcı, həm



də dağıdıcı vəzifələrin ("yerinə yetirək!" - "rədd olsun!") həllinin universal metodu kimi istifadə olunurdu. Qarşıdurma meyli, mürəkkəb problemlərin güc mövqeyindən, təzyiq yolu ilə həll edilməsi, başqa cür düşünmək hallarına qarşı dözümsüzlük və barışmazlıq keyfiyyətləri tərbiyə edilməsi buradan irəli gəlir. Əksinə, qarşılıqlı razılaşmaya və konsensusa cəhd göstərilməsi, qarşı tərəflərdən hər birinin mövqelərinin və mənafelərinin nəzərə alınması meyli təhlil olunan mədəniyyət tipi çərçivəsində zəiflik əlaməti sayılır. Belə mübarizə, adətən, heç bir itkiyə məhəl qoymadan "axıra qədər" aparılır. Sosial, siyasi və iqtisadi nailiyyətlərin dəyəri və səmərəliliyi məsələsi hətta irəli də sürülmür, çünki bu, hörmətsizlik hesab olunur. Başlıcası – "prinsiplərdən əl çəkməməkdir".

Gələcək kultu və sosial möcüzə ümidi totalitarizm mədəniyyətinin ayrılmaz ünsürləridir. Bu iki ünsür fələn bölünməz tam vəziyyətindədir, çünki onların hər biri - yanında digəri olduqda mövcuddur. Daha doğrusu, "gələcəyin hüdudlarına soxulmaq" yalnız "nağılı həqiqət etmək" sayəsində mümkündür.

Sübut etməyə lüzum varmıdır ki, totalitarzmin futuroloji istiqaməti onun hazırkı dövrə, insan və cəmiyyət həyatının bugünkü məqamının bənzərsizliyinə və nadirliyinə tam etinasızlığını əks etdirir. "İşıqlı sabah" naminə qurban verməyin zəruriliyini xüsusi olaraq nəzərə çarpdırmaq meyli də buradan irəli gəlir. Futuroloji istiqamətin şüurlu surətdə həyata keçirilməsi xeyli dərəcədə hakim nomenklaturanın ən mühüm sosial problemləri mümkün qədər daha uzaq gələcəyə "tullamaq" ("Ərzaq proqramı", "Mənzil - 2000" proqramı və s.) və bununla da onların həlli üçün məsuliyyətdən yaxa qurtarmaq cəhdi ilə bağlı olmuşdur.

Totalitar mədəniyyətə belə bir cəhət də xasdır: əgər siyasətçi "yuxarıda" qərar tutubsa, deməli, o, cəmiyyətin ən çoxbilən, ən qabiliyyətli, ən ləyaqətli üzvüdür. Beləliklə, həqiqət siyasi xadimin hakimiyyət piramidasında tutduğu yerdən törəmiş bir hadisə olur. Bununla bərabər, onun siyasətin işlənib hazırlanması və icra edilməsi ilə bağlı fəaliyyəti, bir qayda olaraq, qalın sirr pərdəsi (total məxfiləşmə) ilə örtulmüşdür. Zahirən isə ("kütlə üçün") siyasət dəbdəbəli mərasim və gülünc ovsun xarakteri alır.

Son həddə çatdırılmış *etatizm* (fr. etat - dövlət deməkdir) cəmiyyətin hərbiləşdirilməsi ilə, düşünmədən, "yuxarıların" komandası üzrə hərəkət etmək vərdişinin yayılması ilə müşayiət olunur. Dövlət əsasının qüdrəti, qüsursuzluğu və qüdsiyyəti haqqında təsəvvürlər cəmiyyət həyatının bütün sahələrinin, əslində isə elə vətəndaşların şəxsi həyatının da siyasi hakimiyyət tərəfindən müfəssəl nizamlanması şəklini alır. Siyasi və qeyri-siyasi sahələr arasında hədlər silinir. Həyatın istənilən məsələsinə dair insanın mövqeyi avtomatik olaraq sistemə münasibətdə onun etibarlılığı, loyallığı göstəricisinə çevrilir, daha doğrusu, siyasi müstəvi üzərinə köçürülür.

Nəhayət, totalitar mədəniyyətin messianizmdən (məsihalıqdan) ibarət immanent keyfiyyətini qeyd etməmək olmaz. Bu cür messianizmin mahiyyəti ölkənin xalqlarını, sonra isə bütün bəşəriyyəti "yuxarıdan" səadətə qovuşduran layihələrdədir. Bircə şey qalır ki, hakimiyyətə etiraz etməyəsən, çünki o, "sadə adamların" mənafe və arzularına cavab verdiyini hamıdan yaxşı bilir.

Əlbəttə, totalitar siyasi mədəniyyətin mühüm əlamətləri yalnız yuxarıda sadalananlarla məhdudlaşmır. Məsələn, bu



mədəniyyətin millətlərə, tarixi ənənələrə, dinə münasibəti problemi xüsusi təhlil tələb edir. Lakin bizcə, totalitar mədəniyyətin tarixi hüdudlarını, onun demokratik dəyərlərə, azadlıq və sosial ədalət ideallarına düşmən olduğunu göstərmək üçün deyilənlər də kifayətdir.

Bir məsələ də tam aydındır ki, totalitar siyasi mədəniyyət həm ümumbəşəri əxlaq normalarına, həm də müstəqil demokratik cəmiyyət üzvlərinin davranış və rəftarını müəyyən edən əxlaqın prinsiplərinə ziddir. Axı, şəxsiyyətin, kollektivin, müxtəlif təsisatların necə düşünməli, necə hərəkət etməli olduqlarını onların özünün deyil, "yuxarıların" müəyyənləşdirdiyi bir şəraitdə cəmiyyətdə əxlaqi tərəqqidən, adamların ali əxlaq normalarına əməl etməsindən necə danışmaq olar? Totalitarizm qanunları ilə yaşayan cəmiyyətdə insanların əxlaqında ikiləşmə baş verir ki, bu da şəxsiyyət üçün böyük faciədir.

***

Son dövrün politoloji ədəbiyyatında öz əksini tapmış ümumi fikrə görə, demokratik dəyərlərə, azadlıq və sosial ədalət ideallarına, ümumbəşəri əxlaq normalarına uyğun gələn siyasi mədəniyyət şəxsiyyətin siyasi cəhətdən yetkinləşməsində daha mühüm rol oynaya bilər. *Siyasi mədəniyyətin plüralist tipi* məhz belə bir mədəniyyətdir.

Plüralist siyasi mədəniyyət yalnız aşağıdakı şərtlər daxilində normal inkişaf edə, fəaliyyət göstərə və hakim siyasi mədəniyyət ola bilər:

– İqtisadi və sosial həyatın plüralizmi. Siyasi plüralizm yalnız digər amillərlə birlikdə müxtəlif mülkiyyət növlərinin, hər şeydən əvvəl isə xüsusi mülkiyyətin, cürbəcür təsərrüfatçılıq

formalarının və iqtisadi həyat fəaliyyətinin müstəqil subyektlərinin mövcud olması nəticəsində özünə yer tapır.Məhz spesifik sosial mənafelərin uyğun gəlməməsi, çox vaxt isə toqquşması plüralizm üçün münbit zəmin yaradır. Cəmiyyət sosial struktur və mənafe baxımından nə qədər çox rəngarəng olursa, siyasi plüralizm rejiminin və plüralist siyasi mədəniyyətin formalaşması üçün bir o qədər çox ilkin şərtlər mövcud olur.

– Vətəndaş cəmiyyətinin üstün rolu. Bu cəmiyyət siyasi təsisatları formalaşdırır, dövlətə lazım bildiyi qədər səlahiyyət verir. Bununla belə, dövlət hakimiyyətini bölüşdürməyin başlıca vasitəsi seçkilərdir. Heç kəs nə faktik, nə də hüquqi cəhətdən dövlət hakimiyyətinə yiyələnə bilməz.

– İctimai inkişafın başlıca dəyərlərinə, ideal və məqsədlərinə münasibətdə *əsas qruplar*, onları təmsil edən partiya və hərəkatlar *arasında müəyyən konsensus.*

– Şəxsiyyətin hüquqi və faktik cəhətdən təmin olunmuş suverenliyi.

Plüralist siyasi mədəniyyətin səviyyəsi ən çox bu və ya digər məsələ ilə bağlı siyasi diskussiya zamanı aşkarlanır. Siyasi mədəniyyəti yüksək olan adam öz mövqeyini şərh edərkən başqalarını da dinləməyi və onların fikrinə, mövqeyinə hörmətlə yanaşmağı bacarır. Əksinə, plüralist siyasi mədəniyyətin tələblərindən uzaq olan şəxs bütün hallarda özünü haqlı bilir, öz nöqteyi-nəzərini yeganə düzgün nöqteyi-nəzər sayır və onunla razılaşmayan adamları rəqib gözündə görür. Prezident Heydər Əliyev bu münasibətlə demişdir: "Hamı bir boyda ola bilməz, hamının eyni fikri ola bilməz. Fikir müxtəlifliyi təbii hadisədir.



Bunu qəbul etmək lazımdır. Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır. Amma bu fikir müxtəlifliyini, bu fikir ayrılığını münaqişəyə çevirmək, küsmək, çəkişmək lazım deyil" (Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997, s. 90).

Plüralist tipli siyasi mədəniyyətin keyfiyyəti konkret olaraq ümummilli həmrəylikdə təzahür edir. Bununla yanaşı, cəmiyyətdə belə bir yəqinlik hökm sürür ki, lazımi və arzu olunan bütün dəyişikliklər mövcud siyasi sistemdə reallaşa bilər.

Partiyaların və vəzifəli şəxslərin hakimiyyətdə bir-birini əvəz etməsi, hakim siyasi təşkilatların müxalifətçi siyasi təşkilatlara (və əksinə) çevrilməsi imkanı plüralist mədəniyyət çərçivəsində tamamilə normal və zəruri hal sayılır.

Həyatın demokratik prinsip və normalar əsasında qurulmasına yönəlmiş aydın məqsədin, formalaşmış əməli demokratik vərdiş və ənənələrin olması da plüralist mədəniyyətin fərqləndirici əlamətləridir. Mədəniyyətin bu tipi baxışların plüralizmini, başqa cür düşünənlərə qarşı dözümlü olmağın zəruriliyini qəbul edir.

İctimai rəy sosial münaqişələrin labüdlüyünü müxtəlif sosial qrupların məqsədlərinin, maddi və mənəvi mənafelərinin, tələbatlarının uyğunsuzluğu nəticəsi sayır. Lakin belə bir istiqamət üstün yer tutur ki, demokratik məqsədlərə yalnız demokratik vasitələr, mexanizmlər və üsullarla nail olunmalıdır. Bu istiqamət siyasi zorakılığın səviyyəsinin xeyli azalmasına və münaqişələrin qaydaya salınmasında mülki üsulların üstünlük təşkil etməsinə yardım göstərir. Nəticədə müxtəlif sosial qruplar arasındakı qarşılıqlı

siyasi münasibətlərdə inam möhkəmlənir. Cəmiyyətdə siniflərin, qrupların, təbəqələrin siyasi əməkdaşlıq üslubu işlənib hazırlanır.

***

Deyilənlərdən belə bir nəticə də çıxarmaq mümkündür ki, plüralist siyasi mədəniyyətin qərarlaşdığı cəmiyyətdə ümumbəşəri əxlaq normalarının da meydanı geniş olacaqdır. Bu cür siyasi mədəniyyətə yiyələnmiş şəxs öz davranış və rəftarında, başqalarına qarşı münasibətdə mütərəqqi əxlaq prinsiplərini pozmağı böyük qəbahət sayacaqdır. Bir cür düşünüb başqa cür danışmaq, başqalarını bir cür hərəkət etməyə çağırıb, özü başqa cür hərəkət etmək, ayrı sözlə, ikili əxlaq sahibi olmaq plüralist siyasi mədəniyyət daşıyıcısı üçün yolverilməzdir. Ümumiyyətlə, siyasi mədəniyyətlə insanın əxlaqi inkişafı arasında sıx qarşılıqlı əlaqə addımbaşı hiss olunur. Şəxsiyyətin siyasət meydanında atdığı hər bir addım, siyasi münasibətlərdə nümayiş etdirdiyi erudisiya eyni zamanda onun əxlaqi inkişaf səviyyəsindən xəbər verir. Bu da təbiidir. Axı, nəinki siyasi mədəniyyət insanın mənəviyyatı ilə bağlıdır, həm də politologiyanın özü əxlaqi elmdir.

Siyasi elm insan məqsədlərinin başa düşülməsi və şərh edilməsi ilə məşğuldur, məqsədlərdən söhbət gedən yerdə isə mütləq dəyərlər, sərvətlər iştirak edir və siyasətin öyrənilməsi əxlaqi ölçüyə malik olmaya bilməz. Sauthempton universitetinin (ABŞ) müəllimi R.Bayner yazır: "Siyasi elm özlüyündə etikanın bir şöbəsi və ya əxlaqi biliyin bir sahəsidir" ("Polis", 1992, № 1-2, s. 155). Politoloq müəyyən məqamda öz diqqətini hər şeydən əvvəl ən aktual siyasi problemlər üzərində cəmləşdirir. Bu zaman o, öz rəğbətini və nifrətini gizlətmir, belə bir mövqedən çıxış edir ki,



onun elmi dəyər baxımından bitərəf ola bilməz, faktı dəyərdən ayırmaq olmaz, sərvət mülahizələri biliklə tutuşdurulmalıdır.

Siyasət müəyyən qərara gəlinmədiyi təqdirdə mənasızdır, hər cür qərar isə iki və ya daha çox alternativdən birinin seçilməsi ilə əlaqədardır. Siyasi mədəniyyət formalarından hansı daha yaxşıdır? Kim daha yaxşı idarə edə bilər? Hökumət hansı siyasəti həyata keçirməlidir? Siyasi seçimə aid suallardan ən azı bu üçünün adını çəkmək olar. Həmin suallara iki səviyyədə cavab tapmaq mümkündür: daha yüksək abstrakt, yaxud fəlsəfi səviyyədə və daha əməli səviyyədə. Qərar qəbul edilməsinə belə bir hal bilavasitə təsir göstərəcəkdir ki, qərar qəbul edən adam dünyanı, onda öz yerini və baş verən hadisələri necə qiymətləndirir.

Qərarların mahiyyəti və məzmunu, onların keyfiyyəti və qəbulolunma metodu ona görə cürbəcürdür ki, bu qərarların əsasında dərk edilmiş və ya dərk edilməmiş, sadə və ya mürəkkəb, ölçülüb-biçilmiş və ya tələsik, mötəbər informasiyaya söykənmiş və ya belə informasiya olmadan verilmiş qiymətlər dayana bilər. Hər halda, insan fəaliyyəti nəticələrinin və predmetlərin bütün rəngarəngliyi, habelə insanlar arasındakı münasibətlərin özü xeyir və şər, həqiqət və yalan, ədalət və haqsızlıq, gözəllik və eybəcərlik və s. kimi kateqoriyaların köməyi ilə qiymətləndirilir. Deməli, həm politologiya elminin özü, həm də onun mühüm anlayışlarından biri olan siyasi mədəniyyət əxlaq və mənəviyyat qanunlarından kənarda tam dolğunluğu ilə izah edilə bilməz.

# Г.АЛИЕВ И ЖЕНСКОЕ ДВИЖЕНИЕ В АЗЕРБАЙДЖАНЕ

Т.А.СЕИДОВА
*Бакинский Государственный Университет, доцент*

В условиях независимого, демократического развития Азербайджанской Республики роль женских общественных организаций неуклонно возрастает. Деятельность этих женских формирований связана со стремлением усовершенствования общественно-политической структуры и социально – экономических отношений в стране на основе функционирования социальных, экономических и политических институтов. Содержанием программ многочисленных женских обществ является нравственные и эстетические основы культуры, проблемы народного образования, развития народнохозяйственного комплекса, сельскохозяйственного производства, индустриального развития промышленности. Одним из главных в числе женских обьединений является Комитет Женщин Азербайджана, Программа которого имеет чётко разграниченные принципы политических, социальных, юридических, идеологических, культурных, религиозных задач.

Большой политический вес Комитета Женщин Азербайджана подверждается уставами, программами, инструкциями и другими нормативными документами, в которых вместе с основными направлениями работы Комитета и других женских



формирований чётко определена роль лидеров женского движения Азербайджана.

Труды, речи и выступления великого политика, государственного деятеля, Первого Секретаря ЦК КП Азербайджана, Президента Республики Гейдара Алиева, находящиеся в центре внимания исследователей - историков, обществоведов, философов, законоведов раскрывают многочисленные аспекты решения женского вопроса в стране, показывая пути преодоления социального неравенства, вовлечения женщин в движение за национальное освобождение на основе новой идеологии. Особое значение приобретают выступления Гейдара Алиева на собраниях партийных активов, посвящённых проблемам женщин, подготовки женских кадров руководителей, деятельности партийной организации Азербайджана по усилению идеологической работы среди женщин в области повышения роли женских кадров в общественно-политическом, социально-экономическом и культурном строительстве государства.

Документы и материалы Комитета Женщин Азербайджана, женских обществ и общественных формирований, архивы политических обьединений и политических движений свидетельствуют о разносторонних и многочисленных мероприятиях, проводимых в следующих направлениях; разработка программных документов женских общественных организаций; выработка основных прав и свобод женщин, закреплённые Конституцией государства; совершенствование условий женского труда во всех отраслях народного хозяйства, в целях более эффективного использования женского труда; определение путей дальщего раз-

вития женского движения в Азербайджане; регулярный созыв районных, городских и областных конференций женщин с определением сроков их проведения; массовое вовлечение женщин во все мероприятия общественно- политического и международного значения с непосредственным их участием; необходимость регулярного проведения и созыва конференций, съездов, конгрессов представительниц азербайджанской и мировой общественности: привлечение деятелей науки и культуры ко всем проводимым мероприятиям и многие другие.

На протяжении исследуемого периода регулярно созывавшиеся конференции, съезды, международные конгрессы женщин Азербайджана принимали, с последующим обязательным претворением их в жизнь, спецальные меры по законодательству о правах женщин, по охране женского труда, материнства и детства. Вместе с этими задачами обсуждались: партийный опыт в решении женского вопроса в республике; работа азербайджанской партийной организации по подготовке женских кадров; активное участие азербайджанки в строительстве новой жизни: роль азербайджанской женщины в борьбе за развитие просвещения и культуры; рост трудовой и творческой активности женщин рабочих, крестьянок; государственная и общественная деятельность женщин кадров-специалистов; женщина в обществе и семье.

Гуманистические основы национальной политики развивающегося демократического государства на современном этапе, составляющие глобальные направления в системе международного сотрудничества, как в работе Комитета Женщин Азербайджана, так и в развитии женского движения ознаменовали новый этап.



Под непосредственным руководством Президента Азербайджана Гейдара Алиева участницы женского движения принимают активное участие в международном сотрудничестве независимых суверенных государств, играя важную роль в воплощении и развитии идей нового политического мышления.

Аграрная сфера страны в условиях глобализации и дальнейшего сокращения ресурсов.

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ПОЛИТИЧЕСКОЙ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА НА СОВРЕМЕННОМ ЭТАПЕ

А.Т.ЗУЛЬФАЛИЕВА
*Университет Азербайджан*

Одной из многочисленных заслуг Президента Азербайджанской Республики Гейдара Алиева является большой вклад в развитие политического сознания и политической культуры Азербайджанского народа. Как выдающийся политический деятель, дипломат Гейдар Алиев способствовал формированию качественно новых в современных условиях образцов политического поведения.

Политическая культура влияет на политическую жизнь общества в целом, на все, что связано с проблемами власти и

управления, участия людей в политике, а также на пограничные зоны взаимодействия политики и права, политики и экономики, политики и нравственности. Политическая культура, функционирующая в обществе в данное время, отражает в определенной мере, историю развития его политической системы с давних времен. Политическая культура, как составной и относительно автономный элемент политической системы общества, является средством, цементирующим взаимосвязь государства (центрального института политической системы) с гражданским обществом, она активно воздействует на политическую систему, способствуя или противодействуя ее прогрессивному развитию. Процессы демократизации общества и его политической системы невозможны без достаточно высокого уровня политической культуры граждан и других субъектов данного общества. Это свойство политической культуры имеет особое значение для преобразования общественной системы в целом и делает исследование данной проблемы необходимым в Азербайджане на современном этапе, когда наша страна стремится ускорить и качественно обновить процесс построения гражданского общества и правового государства.

Однако в силу специфики исторического прошлого Азербайджана и ряда других причин на пути формирования здесь демократического типа политической культуры, отличающегося ориентацией на подлинно демократические ценности и идеалы, политический, экономический, идеологический плюрализм, приоритет прав человека, на данном этапе имеется ряд существенных проблем. В первую очередь, это наследие 70 лет социа-



листической эпохи. Оно имеет несколько негативных аспектов, без разрешения которых в Азербайджане не будет достигнуто значительных результатов в развитии политической культуры общества. Проблема заключается в том, что закрепленная в памяти трех поколений социалистическая ориентация общественного развития, завершившаяся полным крахом, утратив свою убедительность, привела к идейному, духовному вакууму и повышенной восприимчивости современного общества к проблемам справедливости и порядка. Последствия подобных явлений имеют специфический окрас в отношении Азербайджана, который на протяжении длительного времени по большей части играл роль "банановой республики", сырьевой базы Советской империи. В современных условиях в нашем обществе идет полная переоценка ценностей, пересмотр основных принципов мировоззренческих позиций, ренессанс религии и национального самосознания. В таких условиях отголоски недавнего прошлого, характеризовавшегося неимоверным ростом бюрократии и плутократии, приобретают в современном обществе Азербайджана форму правового нигилизма, предрасположенности к политическому конформизму, невысокого уровня правового сознания.

Кроме того, в современных условиях для успешного протекания процесса развития политической культуры азербайджанского общества существенной сложностью является проблема обыденного политического сознания, отличающегося подчас своей иррациональностью и превращающегося в значительный барьер на пути осуществления демократических реформ

во всех сферах общественной жизни. Характерными чертами обыденного политического сознания являются:

Повышенная по сравнению с обычным временем восприимчивость (причем, зачастую неадекватная) к событиям и явлениям политической жизни общества; ярким тому примером служит поведение толпы на митингах в начале 90-х годов в Баку;

Преобладание чувственных эмоциональных элементов над рациональными; данный аспект усугубляется недостатком политических знаний и опыта у большинства населения, неоформленностью политического сознания, являющегося ядром политической культуры.

Подобные отклонения от нормы приводят к искажению соотношения между реально сформировавшимися в сознании людей и декларативными, номинальными ценостями (даже воплощающими самые возвышенные идеи демократиии) и, в результате, формированию псевдо политической культуры, зачастую проявляющейся в виде политического интриганства, использования власти в личных интересах. А это обстоятельство усугубляет и без того сложный процесс демократизации общества Азербайджана на данном этапе. Обнадеживающим является тот факт, что идущая на смену тем поколениям, сознание и мировоззрение которых формировалось в условиях тоталитарно-авторитарного режима, молодежь по психологическому складу (и в силу того, что стереотипы, возникающие на основе не столько личного опыта, сколько различных форм внушения менее устойчивы) наиболее склонна к усваиванию демократических ценностных ориентаций.



Помимо всего вышесказанного, необходимо отметить, что для формирования политической культуры особенное значение имеет фактор исторической преемственности традиций государственности. Исторически Азербайджан был ареной военных действий между могущественными соседями, яблоком раздора, желанным призом. Особо тяжелый удар по политическим традициям Азербайджана был нанесен в начале 20 века – с уничтожением АДР и установлением тоталитарного режима. Сейчас наше общество стоит перед задачей преодоления последствий данного исторического перелома и возврата к достижениям, осуществленным за короткое время существования АДР. Несмотря на длительный период, когда азербайджанское общество искусствено было отклонено от естественного хода исторического развития, формирование демократического государства и гражданского общества в Азербайджане продолжается и на современном этапе. Данные процессы имеют под собой соответствующую правовую базу, Конституция Азербайджанской Республики 1995 г. и многие другие законы, принятые за последнее десятилетие независимости нашей страны, гарантируют благоприятные условия для формирования демократического типа политической культуры в нашем обществе.

В данной статье были рассмотрены лишь некоторые проблемы развития политической культуры азербайджанского общества на современном этапе, преодоление которых возможно путем формирования демократического образа мышления, развития плюрализма мнений, общественного диалога, посредством

последовательного введения убеждения как главного метода формирования отношений между людьми.

## AVROPADA TƏHLÜKƏSİZLİK SİSTEMİNİN FORMALAŞMASINDA AZƏRBAYCANIN İŞTİRAKI

S.ƏSƏDOV
*Azərbaycan Universiteti*

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa qitəsində yerləşən dövlətlər arasında sülhün və təhlükəsizliyin qorunmasına, möhkəmləniəsinə və genişlənməsinə xidmət edir. ATƏT özünün mütəmadi keçirilən zirvə toplantılarında Avropada dövlətlər arası və regional münasibətlərin tənzimlənməsinə dair mühüm qərarlar qəbul etmiş və həyata keçirmişdir.

Məlum olduğu kimi, 1975-ci ildə o dövrün mühüm sənədi olan Helsinki Yekun Aktından sonra, 1990-cı il Paris görüşü və orada qəbul olunan yeni Avropa üçün «Paris xartiyası» rəsmən soyuq müharibəyə son qoydu və ATƏT-in institutlaşma prosesinin əsasını təşkil etdi.

Azərbaysan Respublikasının da iştirak etdiyi 1992-ci il 9-10 iyulda Helsinki görüşü ATƏT-in «Helsinki sənədinin» imzalanması ilə başa çatdı.

1994-cü il Azərbaycanın da iştirak etdiyi Budapeşt Zirvə toplantısında ATƏT tarixində ilk dəfə olaraq regional münaqişələrin həll edilməsinə kömək göstərmək məqsədilə beynəlxalq sülhməramlı qüvvələrin yaradılması haqqında qərar qəbul edildi.



Ümumiyyətlə 1994 - Budapeşt, 1996 - Lissabon və 1999 İstambulda keçirilən Zirvə toplantılarında 90-cı illərdə ümumavropa təhlükəsizlik məsələləri müzakirə olunmuşdur.

İstambul sammiti Avropa təhlükəsizlik xartiyası, İstambul bəyannaməsi, Avropada adi silahların və silahlı qüvvələrin azaldılmasına dair sənədin imzalanması ilə bitdi. Məlumdur ki, ATƏT-in zirvə toplantısında qəbul olunan üç sənədin başlıcası Avropada təhlükəsizlik xartiyasıdır. Xartiya 21-ci əsrdə Ümumavropa təhlükəsizlik sisteminin konseptual əsaslarını əhatə edir və üzv dövlətlərin azad, demokratik və daha çox inteqrasiya olunmuş Avropa yaratmaq əzmini təsdiqləyir. Bu Helsinki yekun aktından (1975) və Paris xartiyasından (1990) sonra, ATƏT-in tarixində üçüncü ən mühüm sənəddir.

İştirakçı dövlətlər ATƏT-in normaları və prinsiplərinin kobud şəkildə pozulmasının davam etməsini və bunun nəticəsində istər öz dövlətləri daxilində, istərsə də dövlətlər arasında münaqişələrin yaranmasını, habelə terrorizmi, mütəşəkkil cinayətkarlığa və narkotiklərin qanunsuz dövriyəsini, ekoloci problemlərin və ekoloci vəziyyətin pisləşməsini başlıca təhlükə kimi xüsusi vurğulamışdır.

Sənədin sonunda deyilir ki, xartiya təhlükəsizlik sahəsində yeganə Panavropa Təşkilatı, öz regionunda sülhün və sabitliyin qorunması üçün məsuliyyət daşıyan təşkilat kimi ATƏT-in rolunu möhkəmləndirəcəkdir. 1992-ci il yanvarın 30-da bu təşkilatla əlaqə quran və onun sənədlərini imzalayan (Helsinki 1975, Paris

Xartiyası 1990) respublikamız Avropada təhlükəsizlik sisteminin yaradılmasında fəal iştirak edir. Beynəlxalq təşkilatlar və Avropa təhlükəsizlik təşkilatları ilə əlaqələrin qurulması və inkişaf etdirilməsi Azərbaycan Respublikası üçün daha vacibdir. Çünki təhlükəsizlik təşkilatları ilə əməkdaşlıq, Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsinə, ölkəmizə qarşı yönəlmiş xarici hərbi təcavüzün qarşısının alınmasına xidmət edir.

Təsadüfü deyil ki, Respublika Prezidenti Heydər Əliyev İstambul sammitində cənubi Qafqazda sülh və təhlükəsizlik paktının hazırlanmiasını təklif etdi. Paktın yaranması üçün şərtlər müəllif tərəfindən təklif olundu. Təklif aşağıdakılardan ibarətdir: Cənubi Qafqazdan bütün silahlı qüvvələr çıxarılmalı, terrorizm, etnik təmizləmə, separatizm aradan qaldırılmalı, ikili standartlara yol verilməməlidir. Sammitdə adi silahlar haqqında müqavilənin Azərbaycan dövləti tərəfindən imzalanması, Azərbaycanın təhlükəsizlik sisteminə sadiqliyini sübut edir.

Azərbaycanın Respublikasının Avropada yeni təhlükəsizlək siteminin formalaşmasında iştirpakının əsasında, onun suverenliyi, beynəlxalq hüquq subyekti olması, mənafeləri və potensialı dayanır. Azərbaycan adı çəkilən yeni sistemin inkişafında özünün xarici siyasət fəaliyyəti vasitəsi ilə iştirak edir. Bununla ölkəmiz əvvəl təhlükəsizlik sistemində öz yerini möhkəmləndirməyə və rolunu artırmağa çalışır. Digər tərəfdən müasir dünyada elə bir təhlükəsizlik sahəsi yoxdur ki, Azərbaycan orada iştirak etməsin. məs: NATO, MDB, və. s. Bu yolla Azərbaycan həm təhlükəsizlik sisteminin formalaşmasında, həm də müasir beynəlxalq münasi-



bətlərin bütün aktual problemlərinin həllinə kömək göstərməyə çalışır. Buraya həm məhhəlli münaqişələri, həmçinin də qlobal problemlər daxildir.

1992-2002-ci illərdə dünya siyasətinin və planetimizin qlobal məsələlərinin həll olunduğu nüfuzlu beynəlxalq və regional təşkilatlarla təhlükəsizlik baxımından bir neçə sahələrdə əlaqələr qurulmuşdur.

## MÜASİR TƏHSİL SİYASƏTİNİN SOSİAL-PSİXOLOJİ PARAMETRLƏRİ

B.HAQVERDİYEV
*Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası, psix. e.n., dosent*

Cəmiyyətin yeni sosial-iqtisadi münasibətlərə keçid şəraitində, ictiami həyatın bütün sahələrində əsaslı dəyişikliklər baş verməkdədir. Cəmiyyətdə baş verən sosial-iqtisadi, ictimai-siyasi dəyişikliklər təhsil sisteminin müasir vəziyyətində və onun fəaliyyətinin xarakterində, ahəngində öz əksini tapır. Cəmiyyətin mühüm strateci sahəsi olan təhsilin istiqamətlənmiş inkişafını təmin etmək üçün yaranmış yeni reallıqlara uyğun təhsil siyasətinin aparılması, təhsil sisteminin fəaliyyətinin yeni prinsiplər əsasında qurulması və beynəlxalq təcrübədən yaradıcılıqla istifadə olunması tələb olunur.

Müasir təhsil siyasətinin formalaşması üçün, ilk növbədə, təhsil sisteminin real vəziyyəti qiymətləndirilməli, onda müşahidə olunan meyllər və qarşısında duran vəzifələr, onların səmərəli həlli yollarının müəyyən olunması tələb olunur.

Milli maraqlarımıza cavab verən təhsil siyasətinin uğurla aparılması üçün onun sosial-iqtisadi, hüquqi ideoloji, mənəvi-psixoloci əsaslarının yaradılması tələb olunur. Müasir milli təhsil siyasətinin formalaşması və onun uğurla həyata keçirilməsi dövlət başçısı Heydər Əliyevin uzaqgörən dövlətçilik fəaliyyəti sayəsində mümkün olmuşdur.

Dövlət başçısının təhsil sisteminə və onun problemlərinə xüsusi diqqəti və qayğısı, müasir milli təhsilimizin vəzifələri haqqında söylədiyi fikirlər və təhsilin təkmilləşdirilməsi istiqamətində atdığı konkret addımlar, təhsil siyasətinin əsas istiqamətlərinin, parametrlərinin müəyyən olunmasına imkan vermişdir. Heydər Əliyev tərəfindən təsdiq olunmuş təhsil islahatları haqqında proqramın, təhsil qanununun yeni layihəsinin ümumxalq müzakirəsinə təqdim olunması, yeni konstitusiyada təhsilin hüquqi statusu və vəzifələrinin əks olunması təhsil siyasətinin formalaşmasının və həyata keçirilməsinin sosial-hüquqi əsaslarını təşkil edir.

Müasir təhsil sistemi qarşısında duran vəzifələrin həyata keçirilməsi bir sıra obyektiv və subyektiv çətinliklərlə qarşılaşır. Bir tərəfdən cəmiyyətdə baş verən əsaslı sosial-iqtisadi dəyişikliklər və ictimai-siyasi sarsıntılar, dövlətimizin müharibə vəziyyətində olması və s. təhsil sisteminin fəaliyyətindəki ahəngi və sistemliliyi pozmuş, digər tərəfdən isə, pedaqoci təfəkkürlə olan köhnə düşüncə



tərzi, stereotiplər, pedaqoji təcrübədə və təhsilin idarə olunmasında köhnə iş üsullarından, inzibati idarəçilik metodlarından istifadə olunması təhsil islahatlarının aparılmasına və yeniliklərin tətbiq olunmasına ciddi manеələr yaradır.

Bazar iqtisadiyyatı qanunlarının cəmiyyətin həyatının bütün sahələrinə daha çox nüfuz etdiyi bir şəraitdə, təhsil sisteminin vəzifələri və onun fəaliyyətinin mahiyyəti bəzən təhrif olunmuş şəkildə qiymətləndirilir və təhsilin daha çox mənəvi qanunlar əsasında fəaliyyət göstərməsi, onun ilk növbədə mənəvi fəaliyyət sferası olması diqqətdən kənarda qalır. Heydər Əliyevin təhsil sistemində baş verən uğurları və yenilikləri yüksək qiymətləndirməklə yanaşı qeyd etmişdir ki, «təhsil biznesə çevrilməməlidir».

Müasir təhsil sistemində müşahidə olunan arzu olunmayan hallardan biri də, təlim-tərbiyənin mühüm prinsiplərindən olan, varislik prinsipinə ardıcıl əməl olunmaması və keçmişdə əldə olunmuş zəngin tarixi təcrübədən lazımınca istifadə olunmaması, bəzi hallarda isə bu zəngin irsə laqeyd münasibət, onun unudulması və ya inkar edilməsi hallarıdır. Təhsil sahəsində əldə olunmuş zəngin irsimizə münasibətini bildirərkən, Heydər Əliyev göstərmişdir: «Azərbaycanda yaranmış təhsil sistemi XX əsrdə yaranmış təhsil sistemi böyük sərvətimizdir və XX əsrə biz müstəqil dövlət olaraq həmin bu sərvətə, həmin bu böyük potensialla başlamışıq».

Yeni təhsil siyasətinin həyata keçirilməsində mühüm vəzifələrdən biri də onun real icra mexanizminin, o cümlədən ideoloji və mənəvi-psixoloci əsaslarının yaradılmasından ibarətdir.

Müasir təhsil siyasətinin ideya əsasları, cəmiyyətdə fəal şəkildə formalaşdırılan milli ideologiyada öz əksini tapır. Milli ideologiya xalqın tarixi təcrübəsini, milli-mənəvi dəyərlərini, cəmiyyətin indiki reallıqlarını və gələcək inkişaf perspektivlərini, xalqın milli hisslərini, ictimai psixologiyasını, həmçinin azərbaycanlıların ümumiləşmiş mənəvi-psixoloji simasını özündə əks etdirən çevik, dinamik baxışlar sistemidir. Milli ideologiyanın formalaşmasında Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, Azərbaycan dilinin inkişaf etdirilməsi haqqında imzaladığı qərarlarının, həmçinin azərbaycanlıları səciyyələndirən «azərbaycançılıq» ideyası haqqında söylədiyi fikirlərin müstəsna əhəmiyyəti vardır. Milli ideologiyaya əsaslanan təhsil sistemi xalqın tarixi təcrübəsini, milli mənəvi dəyərləri və insanların indiki mənəvi-psixoloci durumunu nəzərə almaqla yeni reallıqlara uyğun olan yeni insan şəxsiyyətinin formalaşmasını həyata keçirir.

Milli ideologiyaya əsaslanan müasir milli təhsil siyasəti yeni insan şəxsiyyətinin formalaşmasında insanşünaslıq elmlərinin birgə səyi ilə əldə olunmuş insan haqqında dolğun elmi biliklərə əsaslanır. Təhsil siyasətində insan konsepsiyasından çıxış olunması, insan şəxsiyyətinin formalaşmasını həyata keçirən təhsil sisteminin fəaliyyətinin humanist mahiyyətindən irəli gəlir. Humanizm prinsiplərinə əməl olunması pedaqoji prosesdə və təlim-tərbiyənin gedişinlə insan amilinin yaradıcı potensialının daha dolğun təzahürünün və inkişafının təmin olunmasını, təlim-tərbiyənin reallaşdığı tələbə-müəllim münasibətlərinin bu prinsiplər əsasında qurulmasını və tənzimlənməsini nəzərdə tutur.



Müasir insanşünaslıq konsepsiyası təlim-tərbiyə proseslərində gənclərin fiziki, intellektual və mənəvi tərbiyəsinin kompleks şəkildə aparılması üçün elmi-nəzəri əsas kimi çıxış edir. Bütöv insan haqqında elmi baxışlara əsaslanan təhsil siyasətinin aparılması nəticəsində hərtərəfli inkişaf etmiş yeni insan şəxsiyyətinin formalaşmasında təhsil sisteminin müxtəlif elementlərinin, o cümlədən təhsil müəssisələrinin əlaqələndirilmiş, sistemli fəaliyyətini təmin etməyə imkan verir.

İnsan haqqında bütöv elmi baxışların formalaşmasında insanşünaslıq elmlərinin, o cümlədən psixoloci elmi araşdırmaların əhəmiyyəti böyükdür. İnsanın çoxcəhətli və müxtəlif səviyyəli mürəkkəb mahiyyətinin bir-biri ilə qarşılıqlı təsiri və insanın bütövlüyü onun həyat meyllərində, münasibətlərində və s. bu kimi inteqrativ şəxsi keyfiyyətlərdə ifadə olunur. İnsanın psixoloci aləmi onun çoxcəhətli xüsusiyyətlərinin tamlığını təmin edən sistemləşdirici amil kimi çıxış edir. Məhz, insanın mənəvi-psixoloci aləminə məqsədyönlü şəkildə təsir etməklə, onda gözlənilən dəyişikliyə nail olmaq və beləliklə insana təsir edən tərbiyəvi təsirlərin səmərəsini, xarakterini tənzimləmək mümkün olur. Təlim-tərbiyədə gənclərdə müvafiq psixoloji hazırlığa, əhval-ruhiyyə yaratmadan təlim-tərbiyənin gözlənilən səmərəsinə nail olmaq olmaz. Məhz buna görə də, yüksək psixoloji mədəniyyətə, hazırlığa malik olan müəllim öz işlərini daha səmərəli və təsirli qurur və təlim-tərbiyə işlərinin keyfiyyətinin yüksəldilməsinə və qarşısına qoyduğu məqsədinə nail olur.

Pedaqoji prosesin gedişində gənclərdə yaranmış psixoloci vəziyyət təlim-tərbiyənin xarakterini və keyfiyyətini müəyyən edən

mühüm amil kimi çıxış edir. Gənclərin dərslərə, təhsilə marağı və münasibəti müasir şəraitdə təhsil sistemində tətbiq olunan yeniliklərin, beynəlxalq təcrübənin səmərəliliyini qiymətləndirmək üçün mühüm meyarlar kimi çıxış edirlər. Psixoloci parametrlər həmçinin təhsil sistemində tətbiq olunan yeni iş metodlarının, prinsiplərinin, beynəlxalq təcrübənin milli maraqlarımıza və insanların etnik-psixoloci xüsusiyyətlərinə nə dərəcədə uyğun olmasını müəyyən etməyə imkan verir.

Gənclərdə müvafiq mənəvi-psixoloci hazırlığı, sosial-psixoloci mövqe formalaşdırmaqla, müasir şəraitdə müxtəlif sosial təsirlərə seçici – fəal münasibətin formalaşmasına nail olmaq mümkün olur. Bütün bunlar, gəncləri artmaqda olan informasiya yükünün, onların psixikasına sarsıdıcı təsirindən, həm də müxtəlif xarici mədəniyyətlərdən əxlaqımıza, milli-mənəvi dəyərlərimizə uyğun gəlməyən zərərli təsirlərdən qorumağa imkan verir.

Təhsilin demokratikləşməsi şəraitində, təhsil siyasətinin səmərəliliyini qiymətləndirmək üçün, təhsilin mühüm keyfiyyət göstəricilərindən olan, sosial-psixoloci parametrlərinin nəzərə alınması xüsusilə vacibdir. Müasir şəraitdə artmaqda olan elmi informasiyanın aşılanması ilə yanaşı, gənclərdə müvafiq idraki qabiliyyətlər, o cümlədən informasiya mədəniyyəti, informasiya ilə rəftar etmək bacarığı kimi keyfiyyətlər tərbiyə olunmalıdır. Dərs yükünün müəyyən olunmasında, təlim-tərbiyə işinin qurulmasında yeniyetmələrin, gənclərin yaşının, psixo-fizioloci, tibbi-bioloci xüsusiyyətlərinin nəzərə alınması vacibdir. Müasir təlim-tərbiyə işində yol verilən nöqsanlardan bir qismi də, elmi-pedaqoci ictimaiyyət tərəfindən haqlı olaraq qeyd olunduğu kimi,



təhsilin vəzifəsinin daha çox elmi informasiyanın, elmi dünyagörüşünün formalaşmasında görərək, şəxsiyyətin başqa cəhətlərinin, o cümlədən idraki qabiliyyətin, yaradıcı təfəkkürün formalaşması diqqətdən kənarda qalması ilə bağlıdır. Təlim-tərbiyədə belə bir tərəfli yanaşma, həmçinin pedaqoci prosesdə mühüm mərhələ olan, gəncliyin biliyinin qiymətləndirilməsində də müşahidə olunur.

Gənclərin təhsilə və oxumağa marağının vəziyyəti və dinamikası, gənclərin təhsilinin motivləri, tələb-müəllim münasibətlərinin xarakteri, səmərəliliyi və s. bu kimi sosial-psixoloci göstəricilər müasir təhsil islahatlarının səmərəliliyinin qiymətləndirilməsində mühüm meyarlar kimi çıxış edirlər. Beləliklə, müasir təhsil siyasətinin uğurla həyata keçirilməsi üçün, təhsilin səmərəliliyinin mühüm keyfiyyət göstəricilərindən olan, sosial-psixoloci amillərin öyrənilməsi və onların məqsədyönlü şəkildə tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir.

Gənclərin təhsildə psixoloci vəziyyətinə, əhval-ruhiyyəsinə, təhsilə, oxumağa marağına, münasibətinə təsir edən amillər müxtəlifdir. Bunlardan bir qismi, cəmiyyətdə baş verən sosial-iqtisadi, siyasi proseslərlə, cəmiyyətdə, ictimai fikirdə mənəvi dəyərlərə, o cümlədən təhsilə olan münasibətdən, cəmiyyətdə yüksək ixtisaslı mütəxəssislərə olan tələbatdan, həmçinin təlim-tərbiyə proseslərinin səmərəliliyindən və s. asılı olur.

Müasir təhsil siyasətinin həyata keçirilməsində təhsil sistemində təlim-tərbiyə proseslərinin əsas subyekti olan müəllim

əməyinin əhəmiyyəti xüsusilə artır. Yüksək pedaqoci və psixoloci mədəniyyətə, ustalığa malik olan müəllimlər tələbə gənclərin psixoloci vəziyyətini düzgün qiymətləndirməyi və onu məqsədəuyğun şəkildə tənzimləməklə təlim-tərbiyənin səmərəli aparılmasına nail ola bilirlər.

Müasir təhsil siyasətinin uğurla həyata keçirilməsi üçün, pedaqoci-müəllim kadrlarının, təhsil işçilərinin hazırlanmasında və təhsilində onlarda yüksək peşəkarlığına və mənəvi-psixoloci hazırlığına nail olmaq vacibdir. Predmetindən asılı olmayaraq, hər bir müəllim öz predmetinin yaxşı mütəxəssisi olmaqla yanaşı, təlim-tərbiyə proseslərinin psixoloci qanunauyğunluqlarını bilməli və ondan öz praktik işində istifacə etməyi bacarmalıdır.

Müasir təhsil sistemində müəllimlərin yüksək yaradıcı potensialının formalaşması ilə yanaşı, onların bu potensiallarından daha dolğun şəkildə istifadə etmələri üçün əlverişli şəraitin, təhsil müəssisələrində sağlam, yaradıcı sosial-psixoloci mühitin yaradılması da vacibdir. Cəmiyyətin həyatında çox mühüm funksiyaları həyata keçirən, yaradıcı mənəvi fəaliyyətlə məşğul olan müəllim əməyinin layiqincə qiymətləndirilməsi onun yaradıcı fəaliyyətinə güclü motivləşdirici təsir göstərir. Müasir təhsil siyasəti, müəllim əməyinin səmərəliliyinin və keyfiyyətinin mühüm amili olan, müəllim nüfuzunun və imicinin formalaşmasına şərait yaratmalıdır.

Müasir təhsil sistemində özünü idarəetmənin rolunun artması ilə əlaqədar olaraq, təhsilin sosial-psixoloci əsaslarının öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Sosial-psixoloci araşdırmalar təlim-tərbiyə proseslərinin əsas subyekti olan müəllimin



səmərəli əməliyi şərtləndirən obyektiv və subyektiv amillərin, şəxsi keyfiyyətlərin, pedaqoci ustalığın, peşəkarlığın fərdi-psixoloci ifadəsi olan, müəllimin fərdi iş üslubunun təlim-tərbiyədə rolunu öyrənməyə imkan verir. Müəllimin fərdi iş üslubu, onun yaradıcılığının məhsulu kimi, onun öz funksiyalarını daha səmərli həyata keçirmək üçün istifadə etdiyi optimal iş üsuludur. Müasir şəraitdə təhsil siyasətinin həyata keçirilməsində müəllimlərin fəal iştirakını təmin etmək üçün və onların öz yaradıcı potensialından daha dolğun istifadə edə bilməsi üçün, fərdi iş üslubunun formalaşması mühüm şərtlərdəndir.

Müəllimin fərdi iş üslubu onların həyat mövqelərində, dəyərlər və tələbatlar sistemində, onların reallaşma üsullarında, həyat strategiyasında və s. ifadə olunur. Beləliklə, fərdi iş üslubu müəllimin yaradıcılığının nəticəsi olub, onların fərdi-psixoloci xüsusiyyətlərinin və pedaqoci mühitin qarşılıqlı təsirinin nəticəsində formalaşır. Fərdi iş üslubu, müəllimin öz peşə vəzifəsini yerinə yetirməyə əlverişli imkan yaratmaqla, onun səmərəli, yaradıcı fəaliyyətinin mühüm motivlərindən olan özünü təsdiq etmək, öz yaradıcı potensialını daha dolğun ifadə etmək imkanının reallaşmasına şərait yaradır. Fərdi iş üslubu sosial-psixoloci hadisə olub, pedaqoji-müəllim kadrlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi üçün, mühüm inteqrativ meyar kimi çıxış edir. Öz iş üslubu olan müəllimlər novatorlar kimi yeniliklərə can atır, öz üzərində daima işləyir, bilik və pedaqoji ustalıqlarını təkmilləşdirir, ictimai həyatda fəal iştirak edirlər.

Özünəməxsus iş üslubu və öz dəst-xətti olan müəllimlərin fəaliyyəti mütəşəkkil və məqsədyönlü xarakter daşıyır, onların

davranışı proqnozlaşdırıla bilir. Əsasən bu müəllimlərin kollektivdə və tələbələr arasında yüksək nüfuzu olur, onlarla ünsiyyətdə olan insanlara böyük mənəvi-psixoloji təsir gücünə malik olurlar. Özünəməxsus fərdi iş üslubu olan müəllimlər öz funksiyalarını həyata keçirərkən, təşəbbüskarlığı və işgüzarlığı ilə seçilir, pedaqoji kollektivdə sağlam, işgüzar mənəvi-psixoloci mühitin yaranmasına böyük təsir göstərirlər.

Müəllimin fərdi iş üslubu, təlim-tərbiyənin reallaşdığı tələbə-müəllim münasibətlərinin və ünsiyyətinin xarakterini və səmərəliliyini müəyyən edir. Təhsilin demokratikləşdirilməsi və təhsilin tənzimlənməsində özünü idarəetmənin rolunun artması şəraitində tələbə-müəllim münasibətlərinin xarakteri, daha çox müəllimin şəxsi keyfiyyətlərindən, fərdi-psixoloci keyfiyyətlərindən və onların inteqrativ ifadəsi olan fərdi iş üslubundan asılı olur.

Müasir təlim-tərbiyə proseslərinin demokratikləşməsi, tələbə-müəllim münasibətlərinin qurulmasında tələbələrin fəallığı və təşəbbüskarlığının artmasına səbəb olmuşdur. Tələbə gənclər həmçinin təhsilin idarə olunmasında və təlim-tərbiyə proseslərinin fəal iştirakçısına çevrilirlər. Tələbə gənclərin pedaqoci proseslərin gedişində fəal iştirakı onların keçilən dərslərin və tədris prosesinin özünə marağın, öz bliyinə, qabiliyyətinə inamın güclənməsinə, onlarda yaradıcı potensialın, intellektual mənəvi və sosial yetkinliyin daha sürətlə formalaşmasına zəmin yaradır.

Beləliklə, təhsil siyasətinin həyata keçirilməsində sosial-psixoloji amillərdən və parametrlərdən istifadə olunması, yeni insan şəxsiyyətinin formalaşmasının daha səmərəli mexanizminin, elmi əsaslarının yaradılmasına imkan verir.



# III BÖLMƏ

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA İQTİSADİ İNKİŞAF VƏ EKOLOGİYA PROBLEMLƏRİ

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN SƏNAYESİNİN İNKİŞAFI

Ş.QASIMOV
*Azərbaycan Texniki Universiteti,*
*texniki elmlər namizədi, dosent*

Dünya sivlizasiyasına görkəmli şəxsiyyətlər bəxş etmiş xalqlar böyük xalqlardır. Müdrik insan təkcə öz xalqı üçün deyil, bütün dünya xalqlarının rifahı, xoş gələcəyi naminə tutarlı işlər, misilsiz xidmətlər göstərir. Məhz belə böyük xalqlardan biri Azərbaycan xalqı, qüdrətli şəxsiyyətlərdən biri isə dünyada öz dəstixətti ilə seçilən Azərbaycan Respublikasının Prezdenti möhtərəm Heydər Əliyev cənablarıdır.

XX əsrdə Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi nadir şəxsiyyətlərdən biri, dünya şöhrətli siyasətçi, təcrübəli dövlət başçısı Heydər Əliyevin bənzərsiz ömür yolu, zəngin ictimai və siyasi fəaliyyəti müasir tariximizdə mühüm və şərəfli mərhələ təşkil edir. Təkcə respublikamızın ictimai-siyasi həyatında, bu gün reallıqlara

obyektiv qiymət vermək üçün çevrilmiş o yaxın keçmişimizə nəzər salmaq daha düzgün olardı. Artıq tarixə çevürləri yaddaşımızda bir anlığa yenidən canlandıraq.

Azərbaycan KPMK-nın 1969-ci il avqust plenumunda respublikada prinsipal qərarlar qəbul edildi. Respublika zəhmətkeşlərinə rəhbərlik edən möhtərəm Heydər Əliyevin başçılığı ilə xalqımız qəbul edilmiş prinsipal qərar və tarixi vəzifələri şərəflə yerinə yetirdi. Cənab Heydər Əliyev Sovet inperiyası dövründə sərt totalitar rejimin, az da olsa verdiyi imkanlardan maksimum istifadə edərək, bəzən isə məhdudlaşdırıcı qanunlardan məharətlə yan keçərək Azərbaycanın sosial-iqtisadi, siyasi-mədəni inkişafı üçün, bütövlükdə onun çiçəklənməsi üçün mümkün olan hər şeyi etmişdir.

Möhtərəm Prezidentimizin quruculuq və vətəndaşlıq misiyasını, həyata keçirdiyi siyasətin nəhəngliyini və incəliyini bu gün, 33 ildən sonra bütün dolğunluğu ilə daha dərindən dərk edirik...

Qısa müddətdə mövcud neft maşınqayırması və neft emalı, həmçinin kimya müəssisələrinin yenidən qurulması prosesi başladı. Respublikaya müasir avadanlıq axını vüsət aldı. 70-ci illərdə başdan-başa müasirləşmiş və tamam yenidən qurulmuş müəssisələrdən Bakı Elektikik maşınqayırma, Məişət soyuducuları zavodu, Radio zavod, Robot zavodu, Elektron hesablayıcı maşınları zavodu, Sumqayıt Kompressor zavodu, Gəncə «Billur» zavodu, «Azon», «Alupit» zavodları və digər sənaye obyektlərini nümunə göstərmək olar.

Bu illərdə Bakıda, Naxcıvanda, Gəncədə, Əli Bayramlıda, Lənkəranda, Xankəndində bir-birinin ardınca elektronika,



elektrotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri tikilib istifadəyə verilmişdi. Sərsəng su qovşağı respublikanın ən iri tikintilərindən biri idi. Keçmiş Sovet İttifaqında ən uca bəndlərdən biri sayılan, 120 metr hündürlüyə malik olan bənd Tərtər çayının yolunu kəsib 500 milyon kubmetr su tutan süni dəniz yaratmışdı ki, bu da 130 min hektar torpağı suvarmağa imkan verirdi. Bununla bərabər, 50 min kilovat gücündə Sərsək su elektirik stansiyası da tikilib xalqın istifadəsinə verilmişdi. Ümumiyyətlə, bu 14 il ərzində Azərbaycanda 250-dən çox zavod, fabrik, istehsalat sexləri istifadəyə verildi.

Bakı kondisioner zavodu əvvəlcə Zaporojye şəhərində tikmək qərara alınmışdı. Heydər Əliyev SSRİ nazirləri ilə gərgin danışıqlar apardıqdan sonra, L.İ.Brejnevin yanına getdi: 3 günə Siyasi Büronun qərarı dəyişildi.

1975-ci il dekabırın 25-də Bakı məişət kondisoneri zavodu işə düşdü. Heydər Əliyev Bakı zəhmətkeşləri nümayəndələrinin mitinqində demişdi: «Azərbaycan sənayesinin tarixi fəhlə sinfinin bir çox diqqətəlayiq nailiyyətləri ilə zəngindir. Lakin bu gün cəsarətlə deyə bilərik ki, respublikamızın sənaye tarixində buna bənzər əmək rəşadəti heç bir zaman olmamışdır...». Əslində, bu, hörmətli Heydər Əliyevin öz rəşadətinin nəticəsi idi. Respublikada tikilən nəhəng müəssisələr sırasında «Ulduz» Elektirik cihazları zavodu, Bakı Şanpan şərabları zavodu, Bakı Dərin Özülləri zavodu (əvvəllər bu zavodun inşaası Həşdərxanda nəzərdə tutulmuşdu. Heydər Əliyev onun Bakıda tikilməsinə çox çətinliklə nail olmuşdu, avadanlığı 500 milyon dollar dəyərində xaricdən gətirilmişdi), «Elektroterm» zavodu, ayaqqabı fabrikləri, Sumqayıt İplik

Əyrici Fabriki, Yevlax Yunun İlkin Emalı Fabriki, Lənkəran konserv zavodu, Xırdalan Süd və Ət emalı kombinatı, «Sirab» mədən suları zavodu, Bakı Zərgərlik zavodunun Futlyar sexi məhz cənab Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Heydər Əliyev gəncliyində obyektiv səbəblərdən memarlıq təhsilini yarımçıq qoymağa məcbur olmuşdu. Görünür, sonradan Azərbaycanı daha gözəlləşdirmək eşqi onun vaxtı ilə qəlbində olan arzularının güclü təsirindən doğmuşdu. Cənab Heydər Əliyevin xidmətləri sayəsində 70-ci ildən ta üzübəri Bakının genişlənməsi – 8-ci kilometr, Musabəyov, Bakıxanov, Əhmədli, Günəşli, Mərdəkan, Hövsan, Xırdalan kimi iri qəsəbələr 4,6,7,8,9-cu mikrorayonlar salınmışdı. Əgər vu mikrorayonlar olmasaydı, 1 milyondan çox əhali mənzil növbəsinə duracaqdı. Azərbaycanda 10 ildə 22 milyon kvadratmetr yaşayış sahəsi tikilib istifadəyə verilmişdi. 1970-1980-ci illərdə Bakıda bir sıra memarlıq ansanbılları öz əksini tapdı. Onların arasında Azərbaycan Respublikası Ali Sovetinin binası, «Moskva» mehmanxanası, Teleqüllə, müasir Azərbaycan memarlarının qələbəsi sayılan «Gülüstan» sarayı, Prezident Aparatı, DTK», İttifaq-neftmaş», Azərbaycan Ensiklopediyası, Kosmik Tədqiqatlar İnistitutu, Şüvəlanda «Yaradıcılıq evi»,Dəmir yolu idarəsi, Bakı Dəmir yolu vağzalı, Dəniz vağzalı, «Apşeron», «Gənclik», «Qarabağ» mehmanxanaları və s. tiklilər şəhərimizi canlandırmaqla göstərir ki, bunlar mənz Heydər Əliyevin böyuk quruculuq tövsiyələrinin, əməllərinin, enerjisinin, bir sözlə, Vətən sevgisinin bəhrəsidir.

Möhtərəm Prezidentimiz fəaliyyətinin bütün illərində Bakını inkişafda və yaşıllıqda görmək istəmiş və buna çalışmışdı.



«Qur'ani Kərimdə»də ağac kəlməsi 26 dəfə işlənmişdir. Peyğənbərimiz buyurur: «Əlinizdə bir ağac körpəsi varsa, qiyamət qopmağa başlasa belə, əgər onu əkməyə qədər vaxtınız varsa, mütləq əkin». Prezidentimiz isə deyir: «Bir ağac kəsən mənim qolumu kəsmiş kimidir». Gördüyünüz kimi bu fikir təbiətə, insanlığa, qurub yaratmağa olan sevgidən, istəkdən gəlir.

«Moskva» univermağı, Sirk, Əl oyunları və böyük idman sarayı kompleksləri, Gəncə Avtomobil zavodunun təməllərinin qoyulması, bütün avtomobil yollarının tikintisi Heydər Əliyevin böyük zəhmətinin və xalqının inkişafı yolunda xeyirxah əməllərinin nümunəsidir.

1970-ci il aprelin 17-də «Ulduz», 1972-ci il noyabrın 6-da Bakı metropolitenin 5 illiyi günündə «Əzizbəyov», «Avrora» (indiki «Qara Qarayev»), «Neftçilər» stansiyaları işə salındı, 1976-cı ilin sonlarında «Nizami» stansiyası açıldı. 1979-cu ildə «Depo» fəaliyyətə başladı. Tezliklə ikinci növbənin stansiyaları (Elimlər Akademiyası-Memar Əcəmi) sərnişinləri qəbul etdilər.

Heydər Əliyev 1970-80-cı illərdə Bakının Lelin rayonu (indiki Sabunçu) ərazisindən Azərbaycan Respublikası və SSRİ Ali Sovetinə deputat seçilmiş, 19 il öz seçicilərinin etimadını doğrultmağa çalışmışdı. Neftmaşınqayırma sahəsi üzrə məhsulların 70-80 faizini Sabunçu rayonunun müəssisələri istehsal edirdi. Heydər Əliyev cənablarının qayğısı və diqqəti sayəsində 5 zavodda köhnə avadanlıq yenisi ilə əvəz olundu. «Bakı Fəhləsi» zavodu yenidən quruldu. Bakı, Sabunçu və Zabrat maşınqayırma zavodları, «Balaxanıneft» Neft və Qazçıxarma idarəsi yenidən təkmilləşdirilirdi. Heydər Əliyevin təşəbbüsü ilə iki monumental

körpü tikildi. 70-ci illərdə neft sənayesinin inkişafında yeni bir dövür başlandı. Heydər Əliyevin şəxsi təşəbbüsünə əsasən, qarşıya Bakı neft-ayırma zavodlarının köklü surətdə yenidən qurulması vəzifəsi qoyuldu.

1976-cı il dekabrın 25-də Azərbaycanda ən iri neftayırma qurğusu (ELOV-AVT) işə salındı. Onun təşəbbusunə əsasən 70-80-ci illərdə Azərbaycanda iri dəniz neft donanması yaradıldı. Dənizin 200 metr dərinliyində 6000 metirlik quyu qazmağa qabil olan «Şelf-2» qurğusunun istismara buraxılmasında şəxsən cənab Heydər Əliyev iştirak edib, vaxtaşırı olaraq onun işi ilə maraqlanırdı.

Möştərəm Prezidentimiz yenidən hakimiyyətə gəldiyi ilk günlərdən neft sənayesinin inkişafına xüsusi diqqət yetirir. Onun gecəli-gündüzlü çalışması, siyasi və iqtisadi fəaliyyəti nəticəsində 1994-cü il sentyabrın 20-də Bakıda «Əsrin müqaviləsi» adlanan neft müqaviləsi imzalanmışdır.

Azərbaycan Prezidenti Heydər Əliyev Müqavilənin imzalanması mərasimindəki çıxışında demişdir: müqavilənin imzalanması Azərbaycan Respublikasının həyatında, iqtisadiyyatında və xüsusən neft sənayesində yeni bir mərhələ açır. Müqavilə 30 il müddətinə bağlanmış, burada 540 milyon ton neft istehsalı nəzərdə tutulmuşdu. İlk neft fontanı «Çıraq» yatağında 1997-ci il noyobrın 12-də vurdu.

1970-ci illərdən başlayaraq Azərbaycanda qaz sənayesinin inkişafı ilə əlaqədər mühüm işlər həyata keçirildi. 1975-ci ildə 300 km uzunluğunda Yevlax-Naxçıvan magistiral qaz kəmərinin



tikintisinə başlandı. 1979-cu ildə kəmərin Xankəndi hissəsi, 1980-ci ilin sonunda isə Xankəndi-Naxçıvan hissəsi istismara verildi.

1977-ci ildə Bərdədə ən güclü qazdoldurma məntəqəsi tikilib istismara verildi. 1982-ci ildə isə Mingəçevir şəhərində istilik elektirik stansiyasının işə başlanması ilə əlaqədər 20 km uzunluğunda qaz kəməri istifadəyə verildi. 1970-1982-ci illərdə respublikanın başdan-başa qazlaşdırılması işləri həyata keçirilmişdi. Azərbaycan Respublikasında kimya və neft kimyası sənayesi Heydər Əliyevin rəhbərliyi altında sürətli inkişaf yolu keçmişdir. 1971-ci ildə Bakı Şin zavodunu xammal ilə tə»min etmək məqsədi ilə Butilkauçuk sexi tikilib istifadəyə verildi. 1978-1979-cu ildə Mingəçevir «Şüşə lif» zavodunda 300 min metr məişət şüşə, setkalar buraxan sexlər tikilib istifadəyə verildi. «Üzvi sintez» zavodu 70- ci illərdə tam inkişaf mərhələsi keçdi.

«Məişət kimyası» zavodunda buraxılan yuyucu tozların miqdarını artırmaq üçün 1987-ci ildə «İkinci yuyucu tozlar» istehsalata istifadəyə verildi.

Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə qayıtdıqdan sonra kimya sənayesinin inkişafına xüsusi diqqət yetirir. Xarici firmalarla danışıqlar aparır.

Xalq təsərüfatının ən mühüm sahələrindən biri olan yüngül sənaye Heydər Əliyevin respublikada rəhbərliyinin ilk mərhələsində böyük inkişaf yolu keçmişdir. 1987-ci ildə Göyçay toxuculuq kombinatı, Naxcıvan Xalça Kombinatı, Bakı 3№-li ayaqqabı fabriki, 1995-ci ildə Bakı pambıq əyirmə fabriki tikilib istifadəyə verildi.

Heydər Əliyevin qurub-yaratmaq eşqi, Azərbaycan sənayesini həmişə inkişafda görmək istəyi nəinki Bakıda, eyni zamanda Azərbaycanımızın bütün bölgələrində tikinti-abadlıq işləri ilə təzahür edib. O, yaratdığı hər şeyin qədrini bilib, xalqının, torpağının vurğunu olub.

Heydər Əliyev cənabları çıxışlarının birində demişdi: «...Mənim yaratdığım hər bir şey mənim üçün əzizdir. Zavod da, fabrik də, elektirik stansiyaları da, yol da, körpü də, ev də, bina da, saray da - hər bir şey. Amma mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim vətənimdir, mənim torpağımdır».

XX əsrdə Ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi Heydər Əliyev kimi bir şəxsiyyətin nəhəng siyasət meydanında atdığı qətiyyətli və inamlı addımlar, onun əsrimizin tarixində danılmaz mövqeyini dəfələrlə sübut etmişdir.

Möhtərəm Prezidentimizi anadan olmasının 80 illiyi münasibəti ilə təbrik edir, ona can sağlığı arzu edirəm. Bildirirəm ki, hazırladığımız mühəndis kadrlar onun yaratdığı sənayeni qoruyub saxlayacaq və inkişaf etdirəcəklər.



## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏBİƏTİNİN MÜHAFİZƏSİ

F.F.RAMAZANOV
*Azərbaycan Texniki Universiteti, professor*

Möhtərəm prezidentimiz Heydər Əliyev otuz ildən artıqdır ki, Azərbaycana rəhbərlik edir. Bu 30 il, sözün həqiqi mənasında bir əsrə bərabərdir. Bu müddət ərzində Heydər Əliyevin Azərbaycan üçün, xalqımız üçün gördüyü nəhəng işləri bir əsrdə də etmək mümkün deyil. Bu illərdə Respublikamızda istər iqtisadiyyatın, tikintinin, mədəniyyətin, təhsilin, istərsə də beynəlxalq əlaqələrin inkişafında olduqca böyük nailiyyətlər əldə edilmişdir. Xalqımız dünya şöhrətli bu siyasətçinin və böyük şəxsiyyətin xidmətlərini yüksək qiymətləndirir. Heydər Əliyevin çoxcəhətli fəaliyyəti, Respublikamız üçün gördüyü böyük işlər istər Azərbaycanda, istərsə də xarici ölkələrdə çap edilmiş kitablarda, yazılmış məqalələrdə, kütləvi informasiya vasitələrində bu və ya digər dərəcədə öz əksini tapmışdır. Lakin, fikrimizcə, onun çoxcəhətli fəaliyyətinin mühüm sahələrindən biri – Azərbaycan təbiətinin qorunması, burada yaranmış ekoloji problemlərin həlli sahəsindəki fəaliyyəti hələ də lazımınca işıqlandırılmamışdır. Məhz bunu nəzərə alaraq biz, hörmətli Prezidentimizin anadan olduğu günün ərəfəsində «Heydər Əliyev və Azərbaycan təbiətinin mühafizəsi» adlı məqaləni çap etdirməyi lazım bildik.

XX əsrin ortalarından başlayaraq elmin və texnikanın tərəqqisi, istehsalın, xüsusilə də sənayenin sürətli inkişafı ilə əlaqədar olaraq insanların yaşayışı və sağlamlığı üçün son dərəcə vacib olan ətraf mühitin çirklənməsi tədricən təhlükəli xarakter kəsb etməyə başladı. Nəticədə, bir sıra sənaye ölkələrində ekoloji böhran baş verdi.

Bu ölkələri bürümüş ekoloji böhran böyük neft və kimya ölkəsi olan, yüz minlərlə hektar sahələrdə pambıq becərən Azərbaycandan da yan keçmədi. Burada da atmosfer havasının, torpaqların, meşələrin, su hövzələrinin mühafizə edilməsi, təmizlənməsi, ölkəmizin zəngin təbii sərvətlərindən səmərəli istifadə edilməsi zərurəti yarandı.

70-ci illərin əvvəllərindən başlayaraq respublikamızda bu sahədə də olduqca böyük işlər görülmüşdür.

Dövlət səviyyəsində həyata keçirilən bu işlər uzun illər respublikaya rəhbərlik etmiş, ümummilli liderimiz möhtərəm Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrü və bu zaman görülmüş işləri iki mərhələyə bölmək olar:

1-ci mərhələ 1969-1982-ci illəri, 2-ci mərhələ isə 1993-cü ildən sonrakı dövrü əhatə edir.

Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi birinci mərhələdə bütün sahələrdə olduğu kimi tikinti və abadlıq işlərində də böyük dirçəliş baş vermiş, şəhərsalma xeyli genişləndirilmiş, təbiətin mühafizəsinə və yaşıllaşdırma məsələlərinə ciddi fikir verilmişdir. Həmin illərdə təkcə Abşeronda Əhmədli, Günəşli, Yeni Günəşli, Yeni Yasamal, 7, 8, 9-cu mikrorayonlar kimi iri



yaşayış sahələri tikilib istifadəyə verilmiş, xeyli qəsəbə və kəndlərimiz abadlaşdırılmışdır. Eyni zamanda yeni tikilmiş yaşayış massivləri geniş yaşıllıqlarla əhatə olunmuş, yeni-yeni park və xiyabanlar salınmışdır. Bakı şəhərinin və bütövlükdə yarımadadakı qəsəbələrin yaşıllaşdırılmasında Azərbaycan KPMK və Nazirlər Sovetinin 7 sentyabr 1971-ci ildə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə qəbul edilmiş «Bakı və Abşeron yarımadasının yaşıllaşdırılması tədbirləri barədə» qərarının mühüm əhəmiyyəti olmuşdur. Yaşıllaşdırma və təbiətin mühafizəsi ilə bağlı qəbul edilmiş bu qərarların icrasına Heydər Əliyev şəxsən özü nəzarət edirdi.

70-ci illərdə bu tədbirlərin həyata keçirilməsi məqsədi ilə təşkil olunmuş çoxsaylı iməciliklər də az rol oynamamışlar.

Həmin illərdə görülən işləri nəzərdən keçirərkən Azərbaycanın böyük oğlu Heydər Əliyevin respublikamızın iqtisadi inkişafı sahəsində həyata keçirdiyi möhtəşəm tədbirlərlə yanaşı, həm də onun şəhər, qəsəbə və kəndlərimizin estetik gözəlliyinə göstərdiyi qayğının şahidi oluruq.

Möhtərəm prezidentimiz 11 may 1997-ci ildə Nizami rayonunda 8-ci kilometr yaşayış sahəsində C. Naxçıvanski küçəsindəki yeni salınmış parkın açılışında 70-ci illərdə Bakı şəhərinin yaşıllaşdırılması ilə bağlı o vaxtkı fəaliyyətindən bəhs edərək demişdir: «Bakıda şəhərin yaşıllaşdırılma problemi, burada ağac əkilməsi problemi, mənim üçün ən əsas problemlərdən biri olubdur. Çünki bildiyiniz kimi keçmiş zamanlarda Bakıda su çatışmadığına görə şəhərin sərt iqlimi və xüsusən xəzri küləyi ağacların inkişaf etməsi üçün çətinliklər yaratdığına görə Bakıda

ağac, yaşıllıq çox az idi. 1970-ci ildə mən ilk dəfə Bakıda yaşıllıq işləri aparılması təklifini irəli sürdüm, böyük bir proqram hazırladıq və Bakını sürətlə, ilbail yaşıllaşdırmağa başladıq».

Həmin dövrdə təkcə 1971-1973-cü illərdə Bakı şəhəri ərazisinin 1321 hektarı yaşıllaşdırılmış, 1 milyondan çox ağac, 2 milyondan çox kol əkilmişdir. Kütləvi yaşıllaşdırma hərəkatı nəticəsində adambaşına düşən yaşıllıq sahəsi 1973-cü ildə 13,9 kv metrə, 1975-ci ilin axırında isə 21 kv. metrə çatmışdır.

Bakı və Abşeronun coğrafi mühiti, ekoloji vəziyyəti, iqlim şəraiti nəzərə alınaraq burada əsasən quraqlığa və küləyə davamlı ağac növləri əkilmişdir. Bakı kimi küləkli şəhərdə quraqlığa davamlı çoxillik ağac və kolların əkilməsi şəhərin yaşıllaşdırılmasına, estetik gözəlliyinin yaxşılaşdırılmasına xidmət etməklə yanaşı, həm də buradakı müəssisələrdən atmosferə buraxılan zərərli qazlardan şəhərin havasının qorunmasında əhəmiyyətli rol oynayır. O zaman 8-ci Kilometr və Əhmədli kimi ərazilərdə sənaye müəssisələri ilə yaşayış massivləri arasında salınmış yaşıl sanitar qoruyucu zolaqlar indi də ekoloji cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Təəssüflə qeyd etməliyik ki, Heydər Əliyevin şəxsi təşəbbüsü və böyük təşkilatçılığı ilə 70-ci illərdə Bakı şəhərində əkilmiş ağaclar 80-cı illərin sonu, 90-cı illərin əvvəllərində şəhərin gözəlliyinə, yaşıllığına biganə olan şəxslər tərəfindən məhv edilərək, onların yerində mağaza, kafe, çayxana və digər iaşə obyektləri tikilməyə başlandı. Bu, təbiətimizə olan laqeydliyin əsasını qoydu.



Ağacları kəsən yaşıllıqları məhv edən, ətraf mühiti korlayan adamları xəyanətkar adlandıran Möhtərəm Prezidentimiz Heydər Əliyev bu məsələ ilə bağlı öz çıxışlarının birində demişdir: «Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsildiyini görərkən elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm – kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir. Bundan artıq cinayət olmaz. İnsan qurmalıdır, yaratmalıdır. Bakı kimi bir şəhərdə hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-öüznə xəyanət edir».

Belə müdrik və ibrətamiz sözləri ancaq öz vətənini, onun təbii gözəlliklərini dərin məhəbbətlə sevən, onun təbiətini qorumaq üçün əlindən gələni edən, əhalinin sağlamlığının qayğısına qalan bir dövlət rəhbəri deyə bilər.

70-ci illərdə ətraf mühitin qorunması və təbii sərvətlərdən səmərəli istifadə edilməsi ilə bağlı Heydər Əliyevin səyi nəticəsində bir çoxu qanun və qərarlar qəbul edilmişdir. Bu, respublika rəhbərliyinin ekoloji siyasətini istiqamətləndirən hüququ bazanın təyin edilməsinə xidmət etmişdir.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə meşəçilik təsərrüfatı da geniş inkişaf etdirilmişdir. Bu müddətdə respublikada 150 min hektardan artıq meşə salınmış, onların qorunması üçün lazımi tədbirlər görülmüş və 140 nadir ağac növü «Qırmızı kitiaba» daxil edilmişdir. Eyni zamanda bu illərdə 45 min hektar ərazini əhatə edən Şirvan, Bəstiçay, Qarayazı,

Ağgöl, İsmayıllı, İlisu, Altıağac dövlət qoruqları, Abşeron, Ordubad, Zuvand və s. yasaqlıqlar yaradılmışdır.

O zamanlar Heydər Əliyev bəzən Azərbaycanın ekoloji vəziyyətinə zərər vura bilən İttifaq səviyyəli tədbirlərlə üz-üzə gəlməli olurdu. Belə hallarda o, böyük cəsarət göstərərək həmişə Azərbaycanın milli mənafeini müdafiə edirdi. O vaxtlar Moskvanın planı və göstərişi ilə Ələt yaxınlığında atom elektrik stansiyası tikilməli idi. Azərbaycanın ekoloji vəziyyətinə gələcəkdə bu obyektin böyük mənfi təsirini uzaqgörənliklə dərk edən Heydər Əliyevin ciddi səyi nəticəsində stansiyanın inşası ləğv edildi.

Məlumdur ki, ekoloji problemlər içərisində əhalinin təmiz su ilə təmin edilməsi, su hövzələrinin çirklənməsinin qarşısının alınması, kanalizasiya sistemlərinin sanitar tələblərə uyğun şəkildə qurulması mühüm yer tutur. Bu işlərin həyata keçirilməsi sahəsində Heydər Əliyevin xidmətləri əvəzsizdir. Bakıya Kür su kəmərinin çəkilməsi, su hövzələrinin çirklənməsinin qarşısının alınması üçün respublikamızın şəhər və rayonlarında bir çox sutəmizləyici qurğuların tikilməsi, yeni kanalizasiya sistemlərinin inşa edilməsi onun ciddi səyi nəticəsində həyata keçirilmişdir. 1973-cü ildə Zığ qəsəbəsindəki təmizləyici qurğunun, 1975-ci ildə Bakı və Gəncə şəhərlərindəki təmizləyici qurğuların inşası onun fəaliyyətinin nəticəsidir. 1976-1977-ci illərdə Hacıhəsən və Mərdəkandakı mexaniki təmizləyici qurğuların tikintisi, 1972-1982-ci illərdə Əli-Bayramlı, Naxçıvan, Kürdəmir, Naftalan şəhərlərinin kanalizasiya xətlərinin istifadəyə verilməsi, bir çox sənaye müəssisələrində təmizləyici qurğuların inşa edilməsi də Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsində mümkün olmuşdur.



Bütün bunlar Azərbaycanda ekoloji şəraitin sağlamlaşmasına müsbət təsir göstərmişdir.

Heydər Əliyevin qayğısı nəticəsində Respublikada nəzəri və tətbiqi ekologiya hələ 70-ci illərdən inkişaf etməyə başlamışdır. Respublika Elmlər Akademiyasının ayrı-ayrı institutlarında ekologiya ilə bağlı elmi-tədqiqat işlərinin miqyası xeyli genişləndirildi. Botanika, Zoologiya, Torpaqşünaslıq və Biologiya institutlarında ekoloji problemlərə diqqət artırıldı. EA-nın Coğrafiya institutunda «Təbiətin mühafizəsi» şöbəsinin açılması, Bakı Dövlət Universitetində «Ətraf mühitin mühafizəsi», Texniki Universitetdə «Sənaye ekologiyası» kafedralarının açılması ekologiya üzrə müxtəlif tədbirlərin həyata keçirilməsinə və ekoloji təhsilin inkişafına təkan verdi.

Bu illərdə mərhum akademik Həsən Əliyevin respublikamızın təbiətinin, onun flora və faunasının qorunması, su hövzələrinin çirklənməsinin qarşısının alınması, Kür, Araz çayları və Xəzər dənizinin ekoloji problemlərinin araşdırılması, torpaqlarımızın eroziyadan xilas edilməsi sahəsində böyük işlər görmüşdür. Akademik Həsən Əliyev həqiqi təbiət vurğunu idi. Elə bil meşədəki ağaclar onun doğma övladları idi, o hər bir ağacın üstündə əsirdi, millət üçün onu böyük sərvət hesab edirdi. Ağacları qırmağı insan üçün o, böyük qəbahət sayırdı. Tuqay meşələrindəki ağacların azalması ilə Həsən Əliyev böyük həyəcan hissi keçirirdi. Akademik Həsən Əliyevin «Həyəcan təbili» adlı əsəri məhz bu məsələlərə həsr edilmişdir. Bu əsər respublikamızın həyatında böyük bir hadisə idi. İnsanlarda ekoloji mədəniyyətin formalaşdırılmasında, təbiətin qorunub saxlanması üçün onlarda mənəvi məsu-

liyyət hissinin oyadılmasında və inkişaf etdirilməsində çox böyük rol oynamışdır.

Akademik Həsən Əliyevin təşəbbüsü ilə nəşr olunan «Azərbaycan təbiəti» jurnalı uzun illər respublikamızda təbiətin mühafizəsinə və insanların ekoloji tərbiyəsinə xidmət etmiş, indi də xidmət etməkdədir.

1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması, ölkədə siyasi və iqtisadi sabitliyi təmin etməsi ilə respublikamızda həm də ekoloji problemlərin həlli üçün şərait yaradıldı.

Bununla da respublikada təbiəti mühafizə problemlərinin həlli ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlərin yeni mərhələsi başlandı. Bu mərhələdə möhtərəm prezidentimiz Heydər Əliyevin müdrik siyasəti nəticəsində ekoloji problemlərin həllinə münasibət köklü sürətdə dəyişdi, Azərbaycanın beynəlxalq əlaqələri genişləndikcə, ətraf mühitin mühafizəsi istiqamətində xarici şirkətlərin respublikamıza diqqəti və marağı artdı.

Möhtərəm Heydər Əliyevin rəhbərliyi və gərgin əməyi nəticəsində Azərbaycanla dünyanın aparıcı neft şirkətləri arasında bağlanmış «əsrin müqaviləsi» həyata keçirilməyə başlandıqdan sonra respublikamızın xarici ölkələrlə ekologiya sahəsindəki əməkdaşlığı daha da genişlənmişdir. Xüsusən Xəzərdə neft çıxaran xarici ölkə şirkətləri Azərbaycan hökuməti ilə birlikdə Xəzərin ekoloji problemlərinin öyrənilməsinə və həllinə yönəldilmiş müxtəlif proqramlar hazırlamışlar.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) Şotlandiyanın ERT firması və Ekoenergetika Akademiyası ilə birlikdə Beynəlxalq Xəzər Ekoloji Laboratoriyası yaratmışdır.



Müasir avadanlıqla təchiz edilmiş bu laboratoriyanın əsas məqsədi atmosfer havası, içməli su, torpaq və qida məhsullarının ekoloji vəziyyətini araşdırmaqdan və ətraf mühitin qorunması ilə bağlı bəzi normativ sənədləri hazırlamaqdan ibarətdir. Laboratoriyanın mütəxəssisləri qısa müddətdə Abşeronun neftlə çirklənmiş torpaqlarının rekultivasiyası və buradakı neft mədənlərində radioloji vəziyyət haqqında proqramlar tərtib etmişlər. Bunlar Azərbaycanda ekoloji problemlərin həllində mühüm əhəmiyyət kəsb edir.

Möhtərəm Prezidentimizin həyata keçirdiyi müdrik xarici siyasəti sayəsində ölkəmizin beynəlxalq nüfuzu durmadan artmaqdadır. Azərbaycanın nüfuzu yüksəldikcə onun beynəlxalq konvensiyalara qoşulmaq şansı da artır. Azərbaycan artıq Ozondağıdıcı maddələr üzrə, İqlimin dəyişməsi üzrə və Dənizlərin çirklənməsi üzrə Beynəlxalq Konvensiyalara qoşulmuşdur.

Azərbaycanda ekoloji problemlərə xüsusi diqqət verməsi nəticəsində BMT missiyası və BMT inkişaf proqramı ilə respublikada həyata keçirilən əməkdaşlıq əlaqələri bir sıra beynəlxalq təşkilatları ekologiya sahəsində birgə işləməyə cəlb etmişdir. Hazırda ekoloji problemlərlə bağlı TACİS proqramı çərçivəsində respublikamızda müəyyən işlər görülür. 1988-ci ilin əvvəlində Zaqafqaziya ekoloqlarının Tbilisi görüşündə Kür suyunun təmizlənməsi ilə bağlı bəzi məsləhətləşmələr aparılmış və həmin proqram çərçivəsində bu problemin həll olunması üçün müəyyən tədbirlərin həyata keçirilməsi qərara alınmışdır.

Möhtərəm prezidentimizin apardığı məqsədyönlü daxili və xarici siyasət son zamanlar xarici iş adamlarının Azərbaycana olan

marağının daha da artmasına səbəb olmuşdur. Azərbaycanın beynəlxalq əlaqələri genişləndikcə xarici dövlətlər ekoloji problemlərin həll edilməsi istiqamətində respublikamıza yardım etmək üçün təşəbbüs göstərirlər. 1998-ci ilin yanvar ayında Azərbaycan hökumət nümayəndələrinin iştirakı ilə Tokioda keçirilmiş beynəlxalq konfransda respublikamızda ekoloji problemlərin həlli diqqəti cəlb etmiş, bizə maliyyə yardımı edilməsi təklif edilmişdir. Beynəlxalq maliyyə Korporasiyası ilə Yaponiyanın «Eksimbankı»-nın birgə keçirdikləri bu konfransda respublikamızda həyata keçiriləcək bəzi ekoloji layihələrin maliyyələşdirilməsi üçün vəsait ayrılması məsələsi müzakirə olunmuşdur.

Ekoloji məsələlər və ətraf mühitin qorunması problemləri ilə əlaqədar beynəlxalq tədbirlərdə iştirak edən rəsmi nümayəndələrimiz Möhtərəm Prezidentimizin tövsiyyələrini rəhbər tutaraq xarici investisiyaların ölkəmizə cəlb olunmasına çalışırlar. 1999-cu ilin mart ayında Cenevrədə Ümumdünya Ticarət Təşkilatının «Ticarət və ətraf mühit» mövzusunda keçirdiyi beynəlxalq simpoziumda Azərbaycanın nümayəndə heyəti də iştirak etmişdir. Azərbaycanda keçirilən islahatların gedişi, xarici investisiyaların cəlb edilməsi üçün burada yaradılmış şərait müsbət qarşılanmışdır.

Möhtərəm Prezidentimizin ətraf mühitin qorunmasına göstərdiyi ciddi qayğı və diqqət nəticəsində 1996-cı ildən Azərbaycanda Ətraf Mühitin Mühafizəsi üzrə Milli Fəaliyyət Planı (ƏMMMFP) hazırlanmağa başlanmış 1998-ci ilin payızında başa çatdırılmışdır. Bu proqram milli iqtisadiyyat və sosial inkişaf



strategiyasının ayrılmaz tərkib hissəsi kimi həyata keçirilməkdədir. Ətraf Mühitin Mühafizəsi üzrə Milli Fəaliyyət Planına 44 ekoloji layihə daxil edilmişdir. Dünya Bankı bu layihələrdən 4-nü artıq qəbul etmişdir:

Bunlar aşağıdakılardır:

1.Sumqayıtda sənaye tullantılarından civənin ayrılması, digər toksiki tullantıların xüsusi sahədə basdırılması üçün poliqonun tikilməsi.

2.Neftçala rayonunda ildə 15 milyon körpə balıq yetişdirən zavodun tikilməsi ilə Xəzərin Nərə balığının populyasiyasının bərpa edilməsi.

3.Ətraf mühitin mühafizəsinin idarəolunma sisteminin və monitorinqinin təkmilləşdirilməsi.

4.Abşeronda neftlə çirklənmiş torpaqların rekultivasiyası.

Bu layihələrin həyata keçirilməsi üçün Dünya Bankı tərəfindən respublikaya 20 mln. ABŞ dolları məbləğində güzəştli kredit ayrılmışdır. Yaponiya və Böyük Britaniya hökumətləri bu layihələrin reallaşdırılması üçün müəyyən məbləğdə qrant ayırmışlar.

Son illər Bakıda, respublikanın digər şəhər və rayonlarında abadlıq işləri, yaşıllaşdırma tədbirləri xüsusi ilə geniş vüsət almışdır. Son iki ildə Bakıda, bütövlükdə Abşeron yarımadasında milyonlarla ağac və yaşıl kollar əkilərək becərilməyə başlanmışdır. Respublikanın bütün şəhər və qəsəbələri abadlaşdırılır, yeni-yeni parklar, istirahət güşələri yaradılır. Bu sahədə 70-ci illərin ənənələrindən geniş istifadə edilərək iməcliklər təşkil edilir, idarə

və müəssisələrin əməkdaşları, ali məktəb tələbələri bu işlərə cəlb edilir.

Bakı şəhərinin, Abşeronun qəsəbə və kəndlərinin abadlaşdırılması və yaşıllaşdırılması, əhali üçün istirahət zonalarının yaradılması haqqında dövlət başçısının sərəncam və tövsiyyələrini yüksək səviyyədə, böyük həvəslə, səliqə-səhmanla yerinə yetirən Bakı şəhərinin meri hörmətli Hacıbala Abutalıbovun bu sahədəki xidmətlərini qeyd etmək çox yerinə düşərdi. Hörmətli Hacıbala müəllim xüsusi sərəncamla 2003-cü ili Bakı üçün «Abadlıq və yaşıllıq» ili elan etmişdir. Bu, bakılılarda doğma şəhərimizi abadlaşdırmaq və yaşıllaşdırmaq işlərində yaxından iştirak etmək üsün böyük ruh yüksəkliyi yaratmışdır. Son vaxtlar Bakıda və Abşeronda böyük abadlaşdırma və yaşıllaşdırma işləri həyata keçirilmiş, milyonlarla ağac və yaşıl kollar əkilmiş və onların becərilməsi üçün lazımi şərait yaradılmışdır. Şübhəsiz ki, bu əsl vətənpərvərlik nümunəsidir.

İdarə və müəssisələrin həndəvərindəki sahələrin abadlaşdırılması və yaşıllaşdırılması üçün kollektiv rəhbərlərinin məsuliyyəti xeyli artırılmışdır.

Bu gün biz şəhərimizin abadlığı və gözəlliyi ilə fəxr edə bilərik. Bakının estetik görünüşü vaxtı ilə Bakıda olmuş, indi yenidən buraya gəlmiş xarici ölkələrin dövlət, mədəniyyət və incəsənət xadimlərinin və vətəndaşlarının diqqətindən yayınmır. Onlar öz çıxışlarında bunu dəfələrlə qeyd etmişlər.

İndiki şəraitdə biz, əhali arasında, o cümlədən də gənclər içərisində ekoloji tərbiyəni gücləndirməli, onların ekoloji mədəniyyətini yüksəltməliyik.



Bu məqsədə nail olmaq üçün ən gözəl və təsirli vasitə abadlaşdırma və yaşıllaşdırma sahəsində Prezidentimizin 30 ildən artıq bir müddət ərzində Azərbaycanda apardığı işləri geniş təbliğ etməkdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ NEFT STRATEGİYASI

Ə.V.KOSAYEV
*Azərbaycan Memarlıq və İnşaat Universiteti*

Azərbaycanın müasir dövlətçilik mərhələsinin tarixi, həm də Heydər Əliyevin əməli, çoxsahəli məhsuldar fəaliyyətinin tarixidir.

Heydər Əliyevin fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai sistemin qovuşuğundan keçmiş və bunların hər ikisindən o, bacarıqla istifadə edib respublikamızın tərəqqisini təmin etmişdir.

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyasının MK plenimu yekdillikdə Heydər Əliyevə səs vermiş və o, AKP MK-nın birinci katibi vəzifəsinə seçilmişdir.

1969-1982-ci illərdə respublikamızın sənayesi nəinki keçmiş ittifaqın bütün respublikalarına, hətta bir sıra inkişaf etmiş xarici ölkələrə nisbətən də daha yüksək sürətlə inkişaf edirdi. Sənayenin orta illik artımı 7,9 faizə yüksəlmişdi.

Əgər ötən əsrdən 1969-cu ilədək (yəni əvvəlki, təxminən 100 il ərzində) Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə,

Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə (yəni, cəmi 14 ildə) onların sayı 1048-ə çatmışdı.

Müasir Azərbaycan dövlətinin inkişafı məhz həmin illərdə yaradılmış bünövrə üzərində qurulub və bu gün də uğurla davam edir.

İlk baxışdan çıxılmaz görünən bu şəraitdə taleyin rəhmi, xalqın tələbi ilə respublika rəhbərliyinə gələn Heydər Əliyevin cəsarətli və qətiyyətli iradəsilə ölkəni xilas etmək işində mühüm addımlar atıldı. Onun Azərbaycanda dünyəvi, hüquqi, demokratik dövlət qurmaq və bazar iqtisadiyyatı inkişaf yolunun seçilməsi barədə etdiyi bəyanatlar, bu istiqamətdə atdığı addımlar tezliklə Azərbaycan haqqında beynəlxalq aləmdə əsl həqiqətləri aşkarladı.

Heydər Əliyev müstəqil dövlətin xarici və daxili durumunda bütün hadisələri böyük müdrikliklə təhlil edib çox düzgün qiymətləndirərək, hər çür çətinliklərə və maneələrə baxmayaraq, 1994-cü ilin sentiyabrında ilk beynəlxalq neft sazişinin baş tutmasına nail oldu. Hal-hazırda 21 belə müqavilə bağlanmışdır, onlar Azərbaycana 50 milyard dollar xeyir verəcəkdir.

Azərbaycan öz neft strategiyasının gercəkləşdirməklə malik olduğu təbii sərvətlərindən səmərəli istifadə edilməsi hesabına ölkənin güclü sosial-iqtisadi inkişafında xalqın rifahının əsaslı yüksəldilməsini qarşıya məqsəd qoyub, eyni zamanda Avropanın bir çox ölkələrində məhsuldar qüvvələrin güclü artımına, yəni ümümibəşəri tərəqqinin sürətləndirilməsinə öz töhfəsini vermək yolunu seçdi».

Artıq 1997-ci ildən Azərbaycan ilk mənfəət neftindən gəlir əldə etməyə başladı. Keçən müddət ərzində bonus və xam neftin



satışından Azərbaycan 2,3 milyard ABŞ dolları həcmində gəlir əldə etmişdir.

Hazırda beynəlxalq müqavilələr üzrə həyata keçirilən iş yerlərində 30 min nəfər Azərbaycan vətəndaşı işləyir. Son 9 ildə Bakıda keçirilən neft-qaz ənənəvi konfransları ölkəmizə 40 milyon ABŞ dolları həcmində əlavə mənfəət gətirmişdir.

Tarixdə ilk dəfə öz sərvətlərinin əsl sahibi olan Azərbaycan onlardan milli tərəqqi və yüksəliş naminə istifadə etmək imkanı qazandı. Hazırda Azərbaycanın ümumi sənaye məhsulu istehsalında neft-qaz sektorunun xüsusi çəkisi 60 faiz, ölkənin ixraçının quruluşunda payı 80 faizdən çox olsa da, bu mənzərə respublika iqtisadiyyatının getdikcə daha çox hərtərəfli inkişafı nəticəsində neft-qaz sektorunun rolunun artması hesabına inamla və ardıcıl olaraq dəyişilir.

Neft strategiyasının məqsədlərinin gercəkləşdirilməsindən keçən qısa dövrdə Azərbaycan iqtisadiyyatına 9 milyard dollar investisiya yatırılmışdır ki, onun da əsas hissəsi neft-qaz sənayesinin inkişafına yönəldilmişdir.

Azərbaycanın heç bir istehsal sahəsi yeni neft strategiyası qədər böyük üstünlüklərə malik ola bilməzdi.

Məhz «Əsrin müqaviləsi»nin təsiri ilə «TRACEKA proqramının nəzərdə tutduğu Böyük İpək yolunun bərpası ilə əlaqədar Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi fəaliyyətinin gercəkləşdirilməsi ilə Azərbaycanın coğrafi-siyasi mövqe və son dərəcə əlverişli nəqliyyat-coğrafi şəraiti onun artımının əhəmiyyətli və etibarlı inkişaf amillərindən birinə çevrildi. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz

kəmərinin çəkilməsinin başa çatdırılmasından sonra ölkənin əksər regionlarının iqtisadi dircəlişinin zəruri istehsal şəraiti xeyli yaxşılaşacaqdır.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev ABŞ prezidentiinin Xəzər hövzəsinin enerji ehtiyyatlarının inkişafı üzrə xüsusi müsaviri səfir Stiven Mənni qəbul edərkən demişdir: «Biz Xəzər dənizinin neft-qaz imkanlarından istifadə olunmasının yeni tarixini yaradırıq. Mən çox məmnunam ki, biz bu tarixi yaradanlardanıq. Bizim bu işlərin böyük gələcəyi var».

Biz hamımız Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməlinin qoyulması mərasiminin şahidi olduq. Bu layihədən əldə edilən fayda digər layihələrin də reallaşacağına yaxşı zəmin yaradır. Regionda sülh və firavanlığın yeni üfüqləri açılır.

«Bu günki Azərbaycanın ümidləri neftə bağlıdır. Bu da sadəcə olaraq reallıqdır. Dövlətin bütün səyləri Xəzərin təbii ehtiyyatlarının işlənməsinə yönəldilmişdir. Elə bu da reallıq və həyati zəruriətdir. İqtisadiyyatımızın postsovet transformasiyası şəraitində digər sənaye sahələrini dirçəltmək üçün hələlik ölkənin bundan daha real, daha etibarlı vasitəsi yoxdur».



# ÖLKƏDƏ APARILAN VERGİ SİYASƏTİNİN NƏTİCƏLƏRİ

A.F.MUSAYEV
*MEA-nın müxbir üzvü, professor*

1 fevral 2000-ci ildə «European Tobakko» şirkətinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti Möhtərəm Heydər Əliyevin nitqindən: «Biz buradan vergi almalıyıq. Təbiidir, bu cür təcrübəli şirkətlər çalışacaqlar ki, həm istehsalı artırsınlar, həm də itkiyə yol verməsinlər, həm də keyfiyyəti yüksəltsinlər. Çünki bu şirkət buraya özü üçün gəlir götürməyə gəlibdir. Şirkət öz istehsalını inkişaf etdirməlidir, gəlirini artırmalıdır, vergini vaxtlı-vaxtında verməlidir».

İqtisadçılar tərəfindən əhalinin həyat səviyyəsi vergilər çıxıldıqdan sonra onların malik olduqları gəlirin səviyyəsilə qiymətləndirilir. Bu o deməkdir ki, gəlir (hasilat) hələ təminat demək deyil və bu təminatda həmin hasilatın hansı vergilərə və hansı vergi dərəcələri ilə vergitutmaya məruz qalması daha çox əhəmiyyət daşıyır.

Göründüyü kimi, əlverişli vergi mühiti bazar iqtisadiyyatının hərəkətverici qüvvəsi olub ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Dövlət müstəqilliyi əldə etdikdən sonra müstəqil iqtisadi siyasət aparmaq imkanı əldə edən Azərbaycan Respublikası müxtəlif mülkiyyət formalarına və beynəlxalq təsərrüfat sisteminə inteqrasiyaya əsaslanan bazar iqtisadiyyatının formalaşdırılması yolunu seçmişdir.

Keçid dövrünün ilk illərində bazar münasibətlərinin tam həcmdə tətbiqində obyektiv və subyektiv çətinliklər və problemlər var idi. -

1993-1994-cü illərdə baş verən siyasi dəyişikliklər həddindən artıq ağır sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmağa baza yaratdı. Bu vaxtdan başlayaraq bir çox iqtisadi problemlərin həlli üçün məqsədyönlü proqramlar həyata keçirilməyə başlandı. Nəticədə ümumi daxili məhsulun illik artımı, büdcə daxilolmalarının artımı, o cümlədən vergi daxilolmalarının artımı təmin olundu.

ÜDM-un və büdcə daxilolmalarının dinamikası
(1998-2002-ci illər)

| | GÖSTƏRİCİLƏR | İLLƏR | | | | | 2002-ci il 1998-ci illə müqayisədə %-lə |
|---|---|---|---|---|---|---|---|
| | | 1998 | 1999 | 2000 | 2001 | 2002 | |
| 1. | ÜDM (mlrd.man.) | 15929,7 | 18926,9 | 23566,2 | 26619,8 | 29600 | 185,8 |
| 2. | Büdcə daxilolmaları (mlrd. man.) | 2327,3 | 2748,9 | 3561,7 | 3924,0 | 4551,0 | 195,5 |
| | O cümlədən vergi nəzərə alınmaqla | 1707,9 | 1938,4 | 2552,0 | 2898,0 | 3400,0 | 199,8 |
| 3. | ÜDM-da vergi daxilolmalarının xüsusi çəkisi, % | 10,7 | 10,2 | 10,8 | 10,9 | 11,5 | +0,8 |
| 4. | Ümumi büdcə daxilolmalarında vergi daxilolmalarının çəkisi, % | 73,1 | 70,5 | 71,7 | 73,9 | 74,7 | +1,6 |



Cədvəldən göründüyü kimi ÜDM 1998-ci ilə nisbətən 2002-ci ildə 13670,3 mlrd. manat, yəni 82,8 % artmışdır.

Eyni zamanda ÜDM-da vergi daxilolmalarının xüsusi çəkisi 1998-ci ildəki 10,7%-dən artaraq 2002-ci ildə 11,5% təşkil etmişdir, yəni artım 0,8% olmuşdur.

Qeyd etmək lazımdır ki, ümumi daxili məhsulda vergi daxilolmalarının xüsusi çəkisinin müəyyən edilməsi zamanı təkcə mütləq rəqəmlərə əsaslanmaq düz deyil. Belə ki, məlumdur ki, kənd təsərrüfatı sektoru torpaq vergisi istisna olmaqla bütün vergilərdən azaddır və ÜDM-da kənd təsərrüfatının xüsusi çəkisi kifayət qədər böyük olub təxminən 22 % təşkil etdiyi halda vergi daxilolmalarında cəmisi 52,1 mlrd. manat təşkil edir. Eyni zamanda 2001-ci il yanvarın 1-dən qüvvədə olan Vergi Məcəlləsində bir çox güzəşt və imtiyazlar nəzərdə tutulub ki, onlar da vergi daxilolmalarında öz əksini tapmır və s. Deyilənləri də nəzərə almış olsaq vergi daxilolmalarının ÜDM-la nisbəti təxminən 20 % təşkil edir ki, iqtisadiyyatın vergi yükü adlanan bu göstərici həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan, o cümlədən MDB ölkələri də daxil olmaqla dünyanın 19 ölkəsi ilə müqayisədə ən aşağı göstəricidir.

İqtisadiyyata investisiyaların cəlb olunması üçün əlverişli vergi mühitinin yaradılması respublikada aparılan vergi siyasətinin prioritet istiqamətlərindən biridir.

Əlverişli vergi mühitinin yaradılması məsələsi xarici investorları narahat edən başlıca problemlərdəndir. Xarici investorları vergi güzəşt və imtiyazlarından daha çox öz fəaliyyətlərini uzun müddətə proqnozlaşdırmağa imkan verən vergi stisteminin

sabitliyi tvə evolyusiyasının müəyyənliyi maraqlandırır. Odur ki, Azərbaycan Respublikası tərəfindən bir sıra beynəlxalq müqavilələr bağlanmışdır. Bu müqavilələr əsasən investisiyaların təşviqi və qorunmasını, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılmasını, nəqliyyat daşımalarını və kredit sazişlərini əhatə edir.

İkiqat vergiqoymanın aradan qaldırılması haqqında sazişlərdə əsas güzəştlər, yəni aşağı vergi dərəcələri mənbədə tutulan vergilərə (məsələn, dividendlərdən, faizlərdən, royaltilərdən) verilir. Belə ki, bir çox sazişlərdə qoyulan investisiyaların həcmindən asılı olaraq vergilərin dərəcəsi dəyişir. Hazırda 10 ölkə ilə Saziş qüvvəyə minmiş, 4 ölkə ilə təsdiq edilmiş, 2 ölkə ilə razılaşdırılmış, 11 ölkə ilə isə danışıqlar gedir.

Nəqliyyat daşımaları haqqında sazişlər əsasında digər tərəfin dövlətinin ərazisində həyata keçirilən sərnişin və yük daşımaları, həmçinin bu daşımaları yerinə yetirən avtonəqliyyat vasitələri avtomobil yollarının istifadəsi ilə bağlə ödəniş və vergilərdən qarşılıqlı əsasda azad olunurlar.

Bu müddəalar avtomobil yollarının ayrı-ayrı pullu sahələrindən, tunellərdən, körpülərdən və sair kommunikasiyalardan keçid üçün ödənişlərə şamil olunmur.

Kredit sazişlərinə əsasən kreditlər, o cümlədən Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər bunlar kimi təşkilatlar tərəfindən verilən kreditlər vergilərdən azad edilir (qeyd etmək lazımdır ki, vergilərdən azad edilmə haqqında müddəalar bu təşkilatların



əsasnamələrində öz əksini tapmışdır və Azərbaycan Respublikası bu təşkilatların əsasnamələrini rəsmən tanımışdır).

Hasilatın pay bölgüsü üzrə qanun qüvvəsinə malik olan sazişlər çərçivəsində karbozidrogen sahəsində fəaliyyət göstərən şirkətlər üçün «Mənfəət vergisi haqqında», «Xarici subpodratçıların vergiyə cəlb olunması haqqında», «Fiziki şəxslərin vergiyə cəlb olunması haqqında» və «İdxal və ixrac vergiləri haqqında» protokollarla tənzimlənən, Vergi Məcəlləsindən fərqli üstünlüklərə malik olan xüsusi recimi ilə bu gün 120-dən çox müəssisə fəaliyyət göstərir və müqavilələrin tam həcmdə fəaliyyəti zamanı onların sayının 250-300-ə çatacağı gözlənilir.

Axırıncı 8 ildə xarici vergi ödəyicilərinin sayı 3 dəfədən çox artıb. 1 yanvar 2003-cü il tarixə imnvestisiyalı müəssisələrin sayı 2474, o cümlədən tamamilə xarici investisiyalı müəssisələr 719, birgə müəssisələr 966 və daimi nümayəndəliklər 789 olmuşdur. Xarici investisiyalı müəssisələrin yerinə yetirdiyi işlərin və göstərilən xidmətlərin ümumi həcmi 9,0 trilyon manatdan çoxdur. 1996-2002-ci illərdə bu vergi ödəyicilərinin ÜDM-dakı xüsusi çəkisi 9 dəfədən çox artıb.

Təbii ki, həmin dövrdə xarici vergi ödəyicilərindən dövlət büdcəsinə daxil olan vergilərin də xüsusi çəkisi nəzərə çarpacaq dərəcədə artıb və əgər 1996-cı ildə bu göstərici cəmisi 9,3% təşkil etmişdirsə 2001-ci ildə 19,7% qədər artmışdır.

Xarici investisiyalı müəssisələrdə bu gün 31 mindən artıq əməkdaş çalışır ki, onun da əsas hissəsi yerli işçilərdir. Bu da Respublikada işsizliyin aradan qaldırılması üçün böyük əhəmiyyət daşıyır.

Ölkə başçısı möhtərəm Heydər Əliyev cənablarının iqtisadi siyasətinin əsas istiqamətlərindən biri olan neft sektorunun inkişafı ilə paralel olaraq qeyri-neft sektorunun daha yüksək templə inkişaf etdirilməsi artıq özünün əyani təzahürünü tapmaqdadır. 1998-2002-ci illərdə neft və qeyri-neft sektorları üzrə vergi daxilolmalarının dinamikası bunu əyani sübut edir.

mln.man.

| | VERGİ DAXİLOLMALARI | | | | |
|---|---|---|---|---|---|
| | 1998 | 1999 | 2000 | 2001 | 2002 |
| Neft sektoru üzrə | 608831,0 | 724901,0 | 1055776,7 | 1338452,5 | 1660064,0 |
| Qeyri-neft sektoru üzrə | 1093080,7 | 1213534,1 | 1496243,1 | 1559547,5 | 1739968,0 |
| Cəmi daxilolmalar | 1701911,7 | 1938435,1 | 2552019,8 | 2898000,0 | 3400032,0 |

11 fevral 2001-ci ildə Böyük Britaniyanın «Kaspian fiş Ko Azərbaycan» müəssisəsinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev cənabları qeyd etmişdir:

«Özəl sektorun inkişafı ilə korrupsiya, rüşvətxorluq yan-yana ola bilməz. Mən dəfələrlə demişəm, bütün bu məsələləri Vergilər Nazirliyi tənzimləməməlidir.

Amma güman edirəm ki, əgər böyük istehsal varsa, dövlətə verilən vergi də yüksək olacaqdır. Bax, bizə lazım olan əsas fakt budur».

2003-cü il yanvarın 1-dən iki əlamət üzrə, o cümlədən fəaliyyət yerinə və növünə görə mənfəət vergisinin differensiyası tətbiq olunmasıdır.



# AZƏRBAYCANDA KİÇİK SAHİBKARLIĞIN İNKİŞAFININ VERGİ TƏNZİMLƏNMƏSİ

R.B.MƏHƏRRƏMOV
*ADİU, dosent*

2002-ci il aprel ayının 25-də Azərbaycan Respublikasının Prezidenti Heydə Əliyevin yerli sahibkarları təmsil edən 450 nəfər iş adamı ilə görüşünün əsas məqsədi sahibkarların problemlərini öyrənmək, onlara dövlət qayğısını gücləndirmək üçün görüləcək tədbirlərin prioritetlərini və konturlarını müəyyənləşdirməkdən ibarət idi. Dövlət başçısı ölkədə fəaliyyət göstərən xarici iş adamları ilə də görüşdükdən sonra özəl sektorun inkişafına dair geniş miqyaslı tədbirlərin həyata keçirilməsi istiqamətində konkret addımlar atılacağını vurğulamışdı.

Ötən onillikdə ölkə iqtisadiyyatında qeyri-dövlət sektorunun inkişafının nəzərəçarpacaq qədər sürətli olması danılmaz faktdır.

Dövlət mülkiyyətinin özəlləşdirilməsi və yeni özəl təsərrüfat subyektlərinin meydana gəlməsi hesabına mülkiyyət üzərində və istehsal sahəsində dövlətin ötən onilliyinin əvvəlindəki üstün mövqeyi çox sürətlə özəl sektora keçib. Hər halda rəsmi statistikanın makro və mikroiqtisadi məlumatları əsasında aparılan təhlillər də bunu təsdiqləyir.

1996-2001-ci illərdə iqtisadiyyatda məşğul olan ümumi əhalinin özəl sektorda payı 49 %-dən 69 %-ə, ÜDM istehsalında 38 %-dən 71 %-ə yüksəlib. 2002-ci il yanvarın 1-nə olan məlumata

görə iqtisadi fəaliyyətin bütün növləri üzrə faktiki vergi ödəyicisi olan 29 mindən artıq müəssisədən 19,5 mini (65 %) qeyri-dövlət sektorunda fəaliyyət göstərir. Eyni zamanda 2002-ci il aprel ayının əvvəlinə olan məlumata görə, hüquqi şəxs yaratmadan 63,2 min fiziki şəxs vergi ödəyicisi kimi qeydiyyatdadır. Göründüyü kimi, sonuncu ilə birlikdə qeydiyyatda olan özəl sektor subyektlərinin toplam sayı 90 mindən çoxdur. Sahibkarlar konfederasiyasının məlumatına görə, hazırda sənaye istehsalının və xarici iqtisadi fəaliyyətin təxminən 60 %-i, tikinti və xidmətin 40 %-dən çoxu bu sektorun payına düşür.

Hər halda özəl sektorun inkişaf təmayülü və dinamikası ümumiqtisadi islahatların gedişinə qiymət vermək üçün kompleks göstərici kimi kifayət qədər cəlbedici və əhəmiyyətli hesab oluna bilər. Amma, özəl sektorun inkişafına qiymət verərkən bu sferanın ölkənin sosial həyatında oynadığı rola da diqqət yetirmək lazım gəlir. Belə göstəricilərdən biri dövlət büdcəsinə vergi daxilolmalarında özəl sektorun malik olduğu paydır. Onun qiymətləndirici indikator kimi istifadə olunması iki baxımdan vacibdir: birincisi, büdcə iqtisadiyyatın güzgüsüdür və istər müxtəlif sektorların, istərsə də ayrılıqda götürülmüş hər bir sahənin əyər-əskiyi bu güzgüdə öz əksini tapır.

İkincisi, nəzərə alsaq ki, dövlət büdcəsi bütövlükdə ölkə əhalisinin ümummilli sosial və təhlükəsizlik problemlərinin həllinə xidmət edir, deməli, adıçəkilən göstəricinin çəkisi həm də əmlak və mülkiyyətinin əksər hissəsinin mütləq sahibi kimi özəl sektorun vətəndaşlar qarşısında sosial öhdəliyinin səviyyəsini göstərir.



| | GÖSTƏRİCİLƏR | 1996 | 2001 |
|---|---|---|---|
| | ÜDM istehsalı, mlrd. manat | 13669,2 | 26619,8 |
| . | Dövlət sektorunun ÜDM-də payı, mlrd. manat<br>O cümlədən yekuna görə faizlə | 5194,2<br>62 | 7719,7<br>29 |
| . | Dövlət sektorunun vergi daxilolmaları, mlrd. manat<br>O cümlədən yekuna görə faizlə | 1383,4<br>84,1 | 17671<br>61 |
| . | Dövlət sektorundan vergi daxilolmalarının onun ÜDM-dəki payında xüsusi çəkisi, faizlə | 16,3 | 22,8 |
| . | Özəl sektorun ÜDM-də payı, mlrd. manat<br>O cümlədən yekuna görə faizlə | 5194,3<br>38 | 18900,1<br>71 |
| . | Özəl sektorun vergi daxilolmaları, mlrd. manat<br>O cümlədən yekuna görə faizlə | 262<br>15,9 | 1130,9<br>39,0 |
| . | Özəl sektordan vergi daxilolmalarının onun ÜDM-dəki payında xüsusi çəkisi, faizlə | 5,1 | 5,9 |
| . | Özəl sektorun payına düşən ÜDM-nin vergiyə cəlb olunmayan hissəsinin məcmu ÜDM-də xüsusi çəkisi, faizlə | - | 47,0 |
| . | Özəl sektordan vergi daxilolmalarının onun ÜDM-dəki payının vergiyə cəlb olunan hissəsində xüsusi çəkisi, faizlə | - | 11,4 |

Cədvəldən göründüyü kimi, 1996-2001-ci illərdə özəl sektorun vergi daxilolmalarında payı 5,9 %-dən 39 %-ə yüksəlib. Amma bu artım ÜDM istehsalında qeyri-dövlət sektorunun payının artım tempindən əhəmiyyətli dərəcədə geri qalıb. Qeyd olunan göstəricilərin artım tempi arasındakı disproporsiya isə bilavasitə özəl sektorda inkişafa nail olmaq üçün onun vergi yükünün azaldılması istiqamətində aparılan vergi siyasəti ilə əlaqədardır.

Cədvəldən göründüyü kimi, 2001-ci ildə özəl sektorun ÜDM-dəki payının təxminən 46-47 %-i vergiyə cəlb olunmayıb. Bu hissəyə bütövlükdə vergidən azad olunan aqrar sektor və xüsusi vergitutma recimi tətbiq olunan neft sektoru daxildir.

Beləliklə, cədvəldən aydın olur ki, özəl sektorun payına düşən ÜDM-nin vergiyə cəlb olunmayan məbləği nəzərə alınmadığı halda, onun vergi daxilolmalarının ÜDM-də payı 5,9 % deyil, 11,4 % təşkil edib. Əgər sonuncu rəqəm (11,4 %) 2000-ci il üçün normativ şərti göstərici kimi qəbul edilərsə, deməli, özəl sektora 2001-ci ildə təxminən 1 trln. manata yaxın vergi güzəşti verilib. Bu məbləğ göstərilən dövrdə özəl sektorun vergi daxilolmalarının 88,5 %-i, cəmi vergi daxilolmalarının isə 34,5 %-nə bərabərdir.

Amma dövlət sektorunun payına düşən ÜDM-də həmin bölmədən vergi daxilolmalarının özəl sferanın analoci göstəricisindən xeyli yüksək olmasına səbəb olan vergi güzəştlərinin tətbiqinin siyahısı bununla bitmir.

Hazırda xarici iqtisadi fəaliyyətin və nəqliyyat sferasının əhəmiyyətli hissəsi özəl sektorun payına düşür. Vergi Məcəlləsinə görə isə malların ixracı, beynəlxalq yük və sərnişin daşınması əlavə dəyər vergisinə (ƏDV) sıfır dərəcə ilə cəlb olunur. Bu o deməkdir ki, onlar göstərilən fəaliyyətlə əlaqədar büdcəyə ödədikləri ƏDV-ni sonradan geri alırlar və bu kifayət qədər böyük məbləğdir.

Amma təəssüf ki, belə miqyaslı vergi güzəştləri müqabilində özəl sektorda vergi intizamının aşağı olması hələ də problem olaraq qalır. Məsələn, 2000-ci ildə vergi orqanları tərəfindən 441 fiziki şəxsdə aparılan yoxlama nəticəsində 143,2 mln., 2001-ci ildə aparılan 356 yoxlama nəticəsində isə 4,5 mlrd. manat əlavə vəsait



hesablanmışdır. Bu qədər fiziki şəxs isə vergi ödəyicisi olan analoci subyektlərin hes 2 %-ni təşkil etmir. Öz növbəsində 2001-ci il 205 hüquqi şəxsdə aparılan səyyar yoxlama nəticəsində büdcəyə 37,7 mlrd. manat əlavə vəsait hesablanmışdır. Şübhəsiz ki, bu faktlar adıçəkilən sferanın vergi daxilolmalarının aşağı olmasında vergidən yayınmanın da rolunu inkar etmir.

Hər halda, özəl sektorda dinamik inkişaf var və bu nə qədər sevindirici olsa belə, sahibkarlığın daha məhsuldar fəaliyyət göstərməsi üçün həllini gözləyən problemlər də kifayət qədərdir.

Bu problemlərdən başlıcası, heç şübhəsiz milli sahibkarlığın inkişaf tempinin ləng getməsi hesab oluna bilər. Unutmaq olmaz ki, milli sahibkarlar təbəqəsi ölkədə həyata keçirilən iqtisadi islahatların sosial dayağıdır.

Son illərin statistik rəqəmləri isə göstərir ki, həm ÜDM istehsalında, həm də vergi daxilolmalarında özəl sektorun payı sürətlə artsa da, bu artıma milli sahibkarlar təbəqəsinin həlledici töhvə verdiyini söyləmək təəssüf ki, çətindir. Məsələn, 1996-cı ildə vergi daxilolmalarında qeyri-dövlət sektorunun 15,7 %-lik payının cəmi 6,7 %-i, 2001-ci ildə isə 39 faizlik payının 19,3 faizi yerli özəl və fiziki şəxslərə, qalan hissəsi isə xarici investisiyalı müəssisələrə məxsus olub. Bu faktı da xatırlatmaq yerinə düşər ki, hal-hazırda özəl sektorda məşğul olanların 97-98 %-i həmin sferanın milli sahibkarlıq seqmentini təmsil edir.

Qeyd etmək lazımdır ki, sahibkarlığın inkişafı ilə bağlı görülən işlərə baxmayaraq, bu sahədə bir sıra problemlər hələ də tam aradan qaldırılmamışdır. Bu gün sahibkarlığın dövlət tənzimlənməsini həyata keçirən bir sıra mərkəzi, şəhər və rayon

icra hakimiyyəti orqanlarının işi qənaətbəxş sayıla bilməz. Belə ki, ayrı-ayrı mərkəzi və yerli icra hakimiyyəti orqanları, o cümlədən vergi, gömrük, hüquq-mühafizə və sanitar-epidemioloci xidmət orqanları tərəfindən sahibkarların fəaliyyətinə yerli-yersiz müdaxilələr edilir, müxtəlif yoxlamalar aparmaqla onların işinə maneçilik törədir. Məhkəmələr tərəfindən iqtisadi mübahisələrin həllində süründürməçilik və qeyri-obyektiv qərarların qəbul olunması hallarına rast gəlinir. Bütün bunlar sahibkarlıq fəaliyyəti ilə məşğul olan adamların haqlı narazılığına səbəb olur, onların sahibkarlıq təşəbbüsünün reallaşmasına və daxili potensialdan daha dolğun istifadə edilməsinə imkan vermir.

Ölkədə sahibkarlığın inkişafını daha da sürətləndirmək və ona mane olan əsassız müdaxilələrin qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinə aşağıdakı tədbirlərin həyata keçirilməsi tapşırılmışdır:

- vergilərin ödənilməsində yol verilən nöqsanları, o cümlədən vergilərin əvvəlcədən qanunsuz ödənilməsi hallarını aradan qaldırsın;
- vergi yoxlamalarının qanunvericilikdə nəzərdə tutulmuş vaxtdan uzun müddətə aparılmasına və onun səlahiyyətinə aid olmayan yoxlamaların aparılmasına yol verməsin;
- vergi orqanları tərəfindən həyata keçirilənsəyyar vergi yoxlamalarının sayını azaltsın və bir-birini təkrarlayan əsassız yoxlamaların qarşısını alsın;

vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinə əməl etməsinə ciddi nəzarət etsin və vergi ödəyicilərinə xidmət sahəsində süründürməçiliyin aradan qaldırılmasını təmin etsin;



- vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətlərə vaxtında və obyektiv baxılmasını təmin edən müvafiq tədbirlər görsün;
- vergi orqanları tərəfindən təsərrüfat subyektlərinin fəaliyyətinin, o cümlədən bank hesabları üzrə əməliyyatlarının qeyri-qanuni surətdə məhdudlaşdırılması hallarının qarşısını alsın;
- vergi nəzarəti işinin qanunvericiliyə uyğun olaraq aparılmasını təmin etsin.

Beləliklə, fərman pərakəndə nəzarət-yoxlama tədbirlərinin planlı məcraya salınması və mərkəzləşdirilməsini nəzərdə tutur. Bu o deməkdir ki, bundan sonra əsasən sahibkarların fəaliyyətini vergiləri vaxtında və tam həcmdə büdcəyə cəlb etməyə borclu olan vergi orqanlarından başqa heç kim yoxlaya bilməyəcək.

Fərmana əsasən, Nazirlər Kabineti Vergilər Nazirliyinin yoxlama-nəzarət funksiyalarını həyata keçirən və müasir tələblərə cavab verməyən struktur bölmələri işçilərinin sayını 40 faiz ixtisar etməli və Nazirliyin Tədris Mərkəzinin fəaliyyətə başlaması üçün zəruri tədbirlər görməlidir. Nazirlər Kabinetinə həmçinin vergi orqanlarının maddi-texniki təminatının yaxşılaşdırılması, müasir tələblərə cavab verən kompüter şəbəkəsinin yaradılması və vergi orqanları işçilərinin maaşlarının artırılması ilə bağlı göstərişlər verilib.

Fərmana əsasən, vergi cinayətləri ilə əlaqədar cinayət işi başlandıqda Cinayət Məcəlləsinin daha 26 maddəsi üzrə ibtidai istintaq işlərinin Vergilər nazirliyinə – bir orqana həvalə olunması da vergi xidmətinin məsuliyyətini artıran mühüm amillərdəndir. Burada başlıca məqsəd hüquq-mühafizə orqalarının (məhkəmənin

qərarları əsasında hallar istisna olmaqla) sahibkarlıq subyektlərinə müdaxiləsinin, yaxud təkrar yoxlamaların qarşısını almaqdır. Lakin Vergilər Nazirliyi Cinayət Məcəlləsinin yalnız 192-ci (qanunsuz sahibkarlıq), 193-cü (yalançı sahibkarlıq) və 213-cü (vergi ödəməkdən yayınma) maddələri üzrə cinayət işlərinə başladıqda və bu cinayətlərin ibtidai istintaqı zamanı sözügedən 26 maddədə göstərilən cinayətlərin əlamətlərini aşkarladıqda həmin cinayət əlamətləri üzrə də ibtidai istintaqı özü apara bilər.

Azərbaycan Respublikası Prezidentinin «Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında» 2002-ci il 28 sentyabr tarixli 790 saylı fərmanında vergi xidməti qarşısında qoyulmuş əsas vəzifələrdən biri də vergi orqanlarının mövcud strukturunun müasir tələblərə uyğunlaşdırılması, yoxlama-nəzarət funksiyalarını həyata keçirən və müasir tələblərə cavab verməyən struktur bölmələri işçilərinin sayının ixtisar edilməsi və vergi idarəçiliyinin gücləndirilməsilə bağlı tədbirlərin həyata keçirilməsidir.

Həmin tapşırıqların icra edilməsi, vergi administrasiyasının modernləşdirilməsi, vergi orqanlarında yeni idarəetmə modelinin qurulması və funksional strukturun tətbiq edilməsi məqsədilə, habelə Beynəlxalq Valyuta Fondunun tövsiyyələri nəzərə alınmaqla Vergilər Nazirliyinin müvafiq əmrinə uyğun olaraq 13 noyabr 2003-cü il tarixdən etibarən mövcud Ərazi Vergilər İdarələri və onlara təhkim edilmiş şəhər və rayon Vergilər İdarələri (şöbələri) ləğv edilib. Əmrə əsasən ləğv olunmuş 62 yerli vergi orqanlarının əvəzinə respublikanın bütün regionlarını əhatə edən 12 yeni Ərazi Vergilər İdarələri yaradılmışdır.



Vergi idarəçiliyinin gücləndirilməsi, vergi administrasiyasının təkmilləşdirilməsi, Bakı şəhəri üzrə vergi orqanlarında funksional strukturun tətbiq edilməsi və nəzarət funksiyalarının həyata keçirilməsi mexanizminin müasir tələblərə uyğun formalaşdırılması məqsədilə vergilər nazirinin 20 dekabr 2002-ci il tarixli əmrilə Bakı şəhəri Baş Vergilər İdarəsi və Bakı şəhərinin 11 rayon Vergilər İdarələri ləğv edilmiş, əvəzinə Bakı şəhəri Vergilər Departamenti yaradılmış və departamentin tərkibinə paytaxtın rayonlarını əhatə edən üç filial daxil edilmişdir.

## HEYDƏR ƏLİYEV VƏ SOSİAL SIĞORTA SİSTEMİNDƏ İSLAHATLAR

C.N.MƏMMƏDOV
*Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun Maliyyə departamenti*

Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin öncül istiqamətlərindən biri kimi daim dövlətin diqqət mərkəzindədir.

1996-cı ildən başlayaraq ölkə iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meylləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosial yönümlü siyasətinin daha da gücləndirilməsinə şərait yaratmışdır.

Son illər əhalinin həyat səviyyəsinin yüksəldilməsi, əmək haqlarının və aztəminatlı ailələrə verilən müavinətlərin artırılması sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilmiş, vətəndaşların təqaüd təminatının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunların nəticəsində işləyənlərin orta aylıq nominal əmək haqqı və orta aylıq təqaüdün məbləği bir neçəədfə artmışdır.

Əhalinin təqaüd təminatını beynəlxalq standartlara cavab verən, keyfiyyətcə yüksək səviyyəyə çatdırmak məqsədilə işləyən vətəndaşların fərdi uçotu sisteminin yaradılması vacibdir. İqtisadi münasibətlərin bazar iqtisadiyyatı prinsipləri əsasında formalaşmış ölkələr üçün xarakterik olan bu sistemin tətbiqinə əsas məqsəd ödənilən məcburi dövlət sosial sığorta haqqı ilə pensiya məbləği arasında birbaşa qarşılıqlı əlaqənin yaradılmasıdır. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 iyul tarixli 767 saylı Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında təqaüd islahatının konpensiyası»nda əhalinin sosial müdafiəsi və təqaüd təminatı sahəsində aparılacaq islahatların mərhələləri göstərilmişdir.

İlk növbədə qarşıya qoyulmuş əsas vəzifələrdən biri qanunvericilik bazasının yaradılmasıdır. Sonrakı mərhələlərdə fərdi uçot sisteminin yaradılması üçün lazımi avadanlıqların quraşdırılması, proqram təminatı və iş yerlərinin hazırlanması, yeni avtomatlaşdırılmış yığım sisteminin hazırlanması və tətbiqi, işləyənlərin əmək haqları (gəlirləri) barədə məlumatların yığılması, fərdi uçotun məlumatlarına əsaslanan pensiyaların hesablanmasına başlanması və s. məsələlərin həyata keçirilməsi nəzərdə tutulmuşlur.



«Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında» Azərbaycan Respublikasının 2001-ciil 27 noyabr tarixli 221-IIQ saylı Qanunu ilə fərdi uçot sisteminin tətbiqi üçün hüquqi baza yaradılmışdır. Azərbaycanda fərdi uçot sisteminin ilkin elementlərinin tətbiqinə Dövlət Sosial Müdafiə Fondunun 2 şöbəsində (Nərimanov və Əli Bayramlı) başlanmışdır. Məlumatların kompüter vasitəsilə alınması üçün proqram işlənib hazırlanmışdır. Bu sahədə işlərin surətləndirilməsi üçün ciddi tədbirlər görülür.

Yekunda onu qeyd etmək lazımdır ki, işləyən vətəndaşların fərdi uçot sisteminin tətbiqi son nəticədə ölkədə təqaüd təminatı sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, vətəndaşların sosial müdafiəsinin yaxşılaşdırılması işinə xidmət edəcəkdir.

## AZƏRBAYCAN RESPUBLİKASINDA RƏQABƏTİN İNKİŞAFI VƏ BU SAHƏDƏ QANUNVERİCİLİK BAZASI

A.D.VƏLİYEV

*İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar Siyasəti Departamenti*

Azərbaycan Respublikasında rəqabətin qorunması sahəsində dövlət tədbirlərinin həyata keçirilməsinə 90-cı illərdə qanunvericilik bazasının formalaşması ilə başlanmışdır. 1992-ci ildə Azərbaycan Respublikasının "Sahibkarlıq fəaliyyəti haqqında" Qanunu, 1993-cü ildə "Antiinhisar fəaliyyəti haqqında"

Qanunu qəbul edilmişdir. Son illərdə qanunvericilik bazasının genişləndirilməsi və təkmilləş-dirilməsi ilə bağlı bir sıra işlər görülmüşdür. Azərbaycan Respublikasının "Haqsız rəqabət haqqında", "İstehlak-çıların hüquqlarının müdafiəsi haqqında" və "Maliyyə-sənaye qrupları haqqında" Qanunları 1996-cı ildə qüvvəyə minmişlər. 1997-ci və 2002-ci illərdə "Antiinhisar fəaliyyəti haqqında" Qanuna dəyişikliklər və əlavələr edilmişdir. "Reklam haqqında" Qanunun qəbul edilməsi ilə bağlı işlər həyata keçirilmiş, bu qanun qəbul edilmiş və qüvvəyə minmişdir.

Qeyd edilən qanunvericilik aktları qəbul edildikdən sonra onların tətbiqini təmin edəcək normativ-metodiki bazanın formalaşması məqsədilə "Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması qaydaları" hazırlanmış və Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir (29.05.1998). Digər qanunlarla bağlı normativ sənədlərin hazırlanması işləri davam etdirilir.

Rəqabət mühitinin formalaşması istiqamətində Respublikada radikal addımlar atılmışdır. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənablarının Fərmanları ilə yeyinti, yüngül, tikinti və tikinti materialları sənayesində, aqrar-sənaye kompleksində, topdansatış və təchizat kanallarında fəaliyyət göstərən və daxili bazarda hökmran mövqeyə malik çox sayda şirkət və konsernlər ləğv edilmiş və tənzimləmə-təsərrüfat fəaliyyəti səlahiyyətinə malik bir sıra dövlət strukturları yenidən qurulmuşdur. Məhz bunun nəticəsində daxili bazarda yeni təsərrüfat subyektlərinin fəaliyyəti və rəqabət prinsiplərinin reallaşması üçün imkanlar genişlənmişdir.



Təsərrüfat subyektlərinin inhisarçılıq fəaliyyətinin və haqsız rəqabətin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması, istehlakçıların mənafeyinin qorunması sahəsində qanunvericiliklə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinin təmin edilməsi bazar iqtisadiyyatı şəraitində dövlətin əsas vəzifələrindən biridir. Bu sahədə fəaliyyətin başlıca məqsədi bazar münasibətlərinin və iqtisadiyyatın inkişafının sürətləndirilməsinə imkan yaradan sağlam rəqabət mühitinin yaradılmasıdır.

Rəqabətin sivil formada inkişafını təmin etmək və rəqabətin dövlət müdafiəsi sisteminin möhkəmləndirilməsi sahəsində tədbirlərin hazırlanması və həyata keçirilməsi ilə bağlı məsələlərin həlli də prioritet məsələlərdən biridir.

Respublikamızın iqtisadiyyatında bəzi hallarda hökmran mövqedən sui-istifadə müxtəlif formalarda özünü göstərməkdədir. Bu cür formalara bir qayda olaraq inhisar qiymətlərinin tətbiqi və ya qiymətlərlə manipulyasiya, rəqibi əlverişsiz vəziyyətə salan şərtlərin qəbul etdirilməsi, əsassız olaraq (qıtlıq yaratmaq məqsədilə və s.) istehsalın həcminin məhdudlaşdırılması və s. aid edilir. Eyni zamanda bazarda qiymətlərin razılaşdırılmış qaydada yüksəlməsi və aşağı salınması halları da mövcuddur. Belə hallarda bazarda qiymətlərin artması və aşağı düşməsi hökmran mövqe tutan qrup tərəfindən idarə olunur və yüksək inhisar mənfəəti əldə edilməsinə yönəldilir. Ayrı-ayrı sahələrdə monopsonik qiymətlərin tətbiqi meylləri müşahidə olunur.

Hökmran mövqedən sui-istifadənin qarşısının alınması ilə yanaşı əmtəə bazarlarında iqtisadi təmərküzləşməyə nəzarət də gücləndirilir. Bu sahədə fəaliyyətin başlıca istiqamətini qovuşmalara və birləşmələrə,

səhmlərin və payların alınması zamanı antiinhisar qanunvericiliyinə riayət olunmasına nəzarət təşkil edir, eyni zamanda kommersiya müəssisələrinin və təşkilatlarının assosiasiyalarının və ya qeyri kommersiya təşkilatlarının yaradılması zamanı antiinhisar qanunvericiliyinə riayət olunmasına nəzarət genişləndirilir. Həmin assosiasiyaların və birliklərin yaradılması yolu ilə iştirakçılar, professional və ya sahələrin xüsusiyyəti ilə bağlı mənafelərinin qorunmasını həyata keçirirlər. Bu cür assosiasiya və birliklər bütövlükdə kommersiya məqsədləri daşımasa da rəqabətə təsir göstərmək üçün geniş imkanlar açır. Bunların rəqabətin inkişafına maneələr yaradan strukturlara çevrilməsinin (sahəyə əlavə giriş maneələri yaradılması, razılaşdırılmış rəqabətə zidd hərəkətlərə – bazarın bölüşdürülməsi, qiymətlərin səviyyəsinin təsbit edilməsi, istehsal resurslarının bölüşdürülməsi və s.) qarşısının alınması məqsədilə onların fəaliyyətinə daimi antiinhisar nəzarətinin həyata keçirilməsi vacibdir.

Ölkəmizdə rəqabətin qorunması sahəsində fəaliyyətin başlıca istiqamətlərindən birini bazara giriş (çıxış) maneələrinin aradan qaldırılması (zəiflədilməsi) təşkil edir. Bütövlükdə əmtəə və maliyyə bazarlarına girişlə bağlı maneələr müxtəlifdir. Bunlar iqtisadi, texnoloci, təşkilati, inzibati, siyasi və s. amillərlə bağlı yaranırlar. İstənilən formada bunlar rəqabətin inkişafı baxımından aradan qaldırılmalı olan maneələrdir. Bu və ya digər bazara daxil olmağa cəhd göstərən təsərrüfat subyektləri istər-istəməz həmin maneələrlə qarşılaşır və onları dəf etmək məcburiyyətində qalırlar. Yaranma səbəbinə və təsir formasına görə bunların bir çoxu ümumi və obyektiv xarakter daşıyırlar. Lakin bir sıra giriş (çıxış) maneələri subyektiv amillərlə bağlıdır və onlar rəqabət mübarizəsində birtərəfli üstünlüklər yaradan hallar kimi antiinhisar



qanunvericiliyinə ziddirlər. Bir çox hallarda inhisarçılıq fəaliyyətinin təzahür forması kimi, inhisarçı təsərrüfat subyektləri tərəfindən rəqiblərin bazara girməsinə maneələr yaradılmasına təsadüf edilir. Bu maneələr leqal və qeyri-leqal yollarla həyata keçirilir. Əmtəə bazarında hökmran mövqeyə malik olan təsərrüfat subyektləri tərəfindən qiymətlərlə manipulyasiya vasitəsilə rəqibin bazardan sıxışdırılması yollarından da kimi istifadə edilir.

Antiinhisar siyasətini həyata keçirən dövlət orqanı tərəfindən bütün bu məsələlər araşdırılır və sahibkarlığın və rəqabətin inkişafına mənfi təsir göstərən belə halların aradan qaldırılmasına yönələn tədbirlər görülməsi barədə müvafiq dövlət orqanlarına təkliflər hazırlanır. Eyni zamanda daxil olan müraciətlər əsasında rəqabəti məhdudlaşdıran hərəkətlərin aradan qaldırılması və sahibkarların hüquqlarının qorunması ilə bağlı konkret tədbirlər görülməsi də zəruridir.

## ПРОБЛЕМЫ И СОВЕРШЕНСТВОВАНИЕ УЧЕТА В УСЛОВИЯХ РЫНОЧНОЙ ЭКОНОМИКИ

З.НУРАХМЕДОВ
*Счетная Палата АР*

С применением внедрения элементов рыночной экономики в республике появились новые понятия и категории такие как, валютные операции коммерческое кредитование, вексельное обращение, трансфертное ценообразование и тд. Помимо риторического - что это такое, встает и гораздо более сложный и одновременно прозаический вопрос как все это учитывать. Требуется срочно изобретать свои методики, игнорируя отечественный и зарубежный опыт. Текущий опыт зарубежных стран и организация бухгалтерского учета будет очень полезна.

Необходимость и логичность комплексного подхода к реформированию системы бухгалтерского учета диктуется не только причинами методологического характера, но и чисто прикладными аспектами бухгалтерской деятельности.

Можно выделить две первостепенные задачи, к решению которых необходимо приступать немедленно: а) как вести учет в условиях рыночной экономики; б) как разработать в зарубежных принципах и методиках учета и отчетности. Решение этих задач вовсе не предполагает демонтаж существующей системы учета и ее замену западными аналогами.

Бухгалтерский учет есть система, которая осуществляет измерение, обработку и передачу финансовой информации об



определенном хозяйствующем субъекте. Эта информация дает возможность пользователем «принимать обоснованные решения при выборе альтернативных вариантов использования ограниченных ресурсов при управлении хозяйственной деятельностью фирмы». Бухгалтерский учет в условиях рыночной экономики разделен на две подсистемы:

– финансовый учет и отчетность;

– управленческий учет.

В рыночной экономике основной задачей учета является предоставление информации о результатах деятельности предприятия в целом, его финансовом положении и об изменениях этого положения различным пользователям: существующим и потенциальным инвесторам, кредиторам, поставщикам и покупателям, рабочим и служащим, государственным органам.

В Азербайджанской Республике в настоящее время понятие бухгалтерского учета, существенно отличается от принятого в западных странах. В Азербайджане бухгалтерский учет является одним из видов хозяйственного учета, включая помимо бухгалтерского учета статистический и оперативно - технические виды учета. Основной целью оперативного учета является предоставление администрации предприятия информации, необходимой для оперативного управления процессами производства и реализации продукции.

Кроме того, в Азербайджане прогнозирование и формирование финансовой политики предприятия в долгосрочном плане и планирование на короткие сроки осуществляется не бухгалтерией, а другими подразделениями и не являются

задачами бухгалтерского учета. Процедуры периодического анализа финансово-хозяйственной деятельности предприятия и аудита также пока не являются составными частями отечественного бухгалтерского учета. Бухгалтерский учет в Азербайджане пока еще нельзя представить, как совокупность финансового и управленческого учета. По характеру решаемых задач он ближе финансовому учету, хотя и включает в себя учет затрат, калькулирование себестоимости продукции. Существенно отличаются также применяемые бухгалтерские принципы в сравнимых системах учета. Прежде всего следует отметить, что в Азербайджане не принимается само понятие «бухгалтерский принцип». Оно заменяется другими понятиями. Например, вместо понятия «бухгалтерские принципы» используется понятие «правило ведения бухгалтерского учета».

## РОЛЬ ПРЕДПРИНИМАТЕЛЬСТВА В РЕФОРМИРОВАНИИ ПЕРЕХОДНОЙ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

С.Т.АБАСОВА

*Азербайджанский Экономический Университет,*

*Кандидат экономических наук*

Главная цель коренного реформирования экономики республики заключается в создании социально ориентированной рыночной экономики со свободной предпринимательской деятельностью, действием реальных мотивационных начал,



увеличением потребительского сектора, обеспечением функционирования механизма конкуренции для создания конкурентоспособной отечественной продукции и присоединении Азербайджана к международным предпринимательским экономическим структурам. В настоящее время потенциал предпринимательской деятельности в Азербайджанской Республике достаточно велик в связи с развитием не только малого и среднего предпринимательства, но и предстоящей приватизацией крупных предприятий.

В переходный период предпринимательство только формируется и поэтому те модификации, которым подвержены формы предпринимательства, являются результатом малоразвитости, нестабильности зарождающихся предпринимательских структур, их непосредственной зависимости от социально-экономического потенциала страны предперестроечного периода в отличие от классических форм предпринимательства в странах высокоразвитого капитализма. В современный переходный период экономики республики образовался и получил формирование определенного уровня особый вид предпринимательства - малое и среднее, представляющий в потенциале стабильный сектор в его экономической структуре, который в ближайший период времени интегрируется с крупным предпринимательством для создания органически развитой системы рыночных отношений. Хотя предпринимательство уже получило определенное формирование, но в республике основное место занимает торгово-коммерческий, посреднический вид, обусловленный нынешней стадией переходного периода, тогда как возродить экономику мо-

жет лишь производственное, промышленное, инновационное предпринимательство.

Становление предпринимательства в переходный к рыночным отношениям период сопряжено выполнением им такой важной социально-экономической функции, как обеспечение занятости, снижение безработицы, а стало быть, и социальной напряженности в обществе. Возникновение и формирование рыночных отношений сопровождалось в первую очередь изменением в соотношении занятости в народном хозяйстве республики в государственном и негосударственном секторах экономики в сторону значительного увеличения второго.

Направленность на создание социально-экономических отношений в республике предполагает решение столь важных проблем, как снижение безработицы и обеспечение эффективной занятости через развитие предпринимательства в его различных формах, масштабах и сферах деятельности. Становление предпринимательства в Азербайджанской Республике находит выражение, прежде всего в числе, динамике и структуре имеющихся его форм хозяйствования, которые показывают на общее число их роста, в т.ч. по отдельным их формам.

Занятость в рыночных структурах в целом имеет значительно большие темпы, чем динамика общей численности занятых в республике, и соответственно возрастала доля занятых в предпринимательских структурах в общей численности занятых в народном хозяйстве с 2,8% в 1994 г. до 7,6% в 1997 г., и 6,2% в 1999 г., а в 2000 году 6,4%. Доля занятых в предпринимательских структурах в общей численности занятых в Азербайджане



составляет за последние годы 6-7%, это значительно ниже того же показателя по России (10-12%), как страны также с переходной экономикой и в 7-11 раз ниже, чем доля занятых в малых и средних фирмах в общей численности занятых в странах с развитой рыночной экономикой. Потенциальные возможности роста предпринимательства в республике очень мало задействованы, обусловленные организационными, инвестиционными, внешнеэкономическими и другими факторами. В целом, за исследуемый период увеличилась численность занятых в новых хозяйственных структурах рыночной экономики. Динамика числа предприятий и численности, занятых в них работников имеет свои особенности в соответствующих рыночных структурах.

Изменение динамики и структуры занятости в рыночных структурах республики зависит от многих факторов, среди которых основное место занимает степень разрешения противоречия между необходимостью развития новых форм хозяйствования и уровнем их жизнеспособности. Противоречие между объективно высокой социально-экономической значимостью предпринимательских функций и относительно низкой их жизнеспособностью характерно для современного периода рыночных преобразований в республике.

Учитывая незавершенность процесса приватизации, незаконченность периода становления и формирования процесса предпринимательства в Азербайджане, негативная динамика числа предприятий и занятых в них работников в отдельные годы явится неизбежным моментом вплоть до наступления стадии поступательного развития рыночных отношений. Таким образом,

сложности формирования предпринимательской деятельности в процессе становления рыночных отношений обусловили относительно низкий уровень привлечения в нее численности занятого населения в тех или иных формах. Между тем, потенциальные возможности вовлечения населения в предпринимательскую деятельность в республике достаточно велики, имея в виду возможности увеличения занятости за счет использования ресурсов незанятого населения в трудоспособном возрасте. Уровень и структура занятых в предпринимательской деятельности в настоящее время малоэффективны, но в то же время объективно требуют оптимизации в ближайшей перспективе.

## İDXAL VERGİLƏRİNİN İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİNDƏ ROLU

T.Ə.PAŞAYEV
*Azərbaycan MEA İqtisadiyyat İnstitutu*

İdxal gömrük vergiləri ölkəyə gətirilən malların optimal strukturunu formalaşdırır, müəssisələrin təsərrüfat fəaliyyətinin nəticələrinə təsir edir, qiymətqoymanın tərkib hissəsi kimi çıxış edir, milli iqtisadiyyatın ayrı-ayrı sahələri xarici rəqabətdən qorunur, aktiv xarici ticarətin aparılmasına imkan yaradır, gömrük ittifaqı və azad ticarət zonasının formalaşmasına kömək edir, ixrac və idxalın optimal nisbətinə təsir göstərərək valyuta daxil olmalarını və onun xərclənmə-



sini formalaşdırır, səmərəli xarici ticarət balansının formalaşmasına təsir edərək büdcəsinin mədaxil hissəsində də mühüm yer tutur.

Gömrük tarifləri bir qayda olaraq, ölkənin vergi sistemi ilə sıx qarşılıqlı əlaqədədir. Əksər ölkələrdə idxal gömrük vergilərinin səviyyəsi ölkə daxilindəki istehsal olunan əmtəə və xidmətlərə qoyulan əlavə dəyər vergisi səviyyəsinə bərabər olur.

İqtsiadi inkişafı təkanvermə baxımından tarif siyasəti proteksion rüsumlar və rüsumlardan azadolunma, yaxud müəyyən növ maşın və avadanlıqlara, xammal-materiallara güzəştli rüsumlar tətbiq olunma, ya da vergi rüsumlarından müvəqqəti azadolunma yolu ilə həyata keçirilir. Qeyd etmək lazımdır ki, proteksion tariflərin və rüsumlardan müvəqqəti azadolmaların tətbiq olunması ancaq müəyyən şəraitdə, məsələn, yeni yaranmaqda olan bir sahənin müdafiə olunması və s. şərtlərində, həm də müvəqqəti olaraq özünü doğrulda bilər. Bazar ölçülərinin süni olaraq məhdudlaşdırılması çox qısa müddətdə təsirini iqtisadiyyatda da göstərir. Proteksion tariflər daha çox inhisarlara xidmət edir və yüksəkməsrəfli sahələrin yaranmasına gətirib çıxarır. İdxalı əvəz edən sahələrin yaradılması sayəsində, xarici valyutaya qənaət etməyə yönələn siyasətə görə inkişaf etməkdə olan ölkə gələcəkdə daha çox itkilərə məruz qala bilər. Dövlət müəyyən qadağa tarifləri və rüsumlardan azadolma recimləri tətbiq etməklə idxal rüsumlarından itirdiyi vəsaitləri milli istehsalçılara əlavə vergilər qoymaqla bərpa etməyə cəhd edə bilər.

Bazar iqtisadiyyatına keçid mərhələsində və inkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, kapital avadanlıqlara aşağı gömrük rüsumları müəyyən edilməsi və ya belə rüsumlardan azad

olunması kapitaltutumlu məhsullara daha iri həcmdə vəsait qoyuluşuna gətirib çıxarır və bu da öz növbəsində iş qüvvəsinə tələbi azaldır. Belə siyasətin nəticəsi olaraq gəlirlərin bölgüsündə də böyük fərqlər yaranır, çünki kapitaltutumlu istehsal proseslərində ixtisassız əməyin ödənişi çox aşağı, əksinə, ixtisaslı əməyin ödənişi xeyli yüksək olur. Bu səbəbdən dünyanın bir çox ölkələri az əməktutumlu maşın və avadanlıqlarına daha yüksək idxal rüsumları tətbiq edirlər.

Buna görə də ölkə proteksion siyasət aparmaq niyyətində olarsa, ilk növbədə, hazır məhsula və onun istehsalında xammal və materiallar da daxil olmaqla istifadə edilən aralıq ünsürlərə qoyulan rüsumların zəruri (optimal) nisbətini müəyyən etməlidir. Bu onunla izah olunur ki, aralıq ünsürlərə gömrük rüsumları onun qiymətini artırdığından milli istehsalçıların həmin ünsürlərdən istifadə edərək hazırladıqları məhsulların rəqabət qabiliyyəti və müdafiəsi aşağı olur. Bunu nəzərə alaraq, aparılan siyasətdə müdafiənin iki növünü: a) nominal, yəni məhsulun bütün dəyərinin müdafiəsini; və b) səmərəli, yəni əlavə edilmiş dəyərin müdafiəsini fərqləndirmək lazımdır. İqtisadi siyasət üçün ikinci növ müdafiə daha önəmlidir.

İdxal rüsumlarının gətirilən malların qiymətində əks olunduğunu nəzərə alaraq vergi sisteminin özünün mütərəqqiliyini gücləndirmək lazımdır. Yəni ilkin zəruri tələbat mallarından digər mallardan, məsələn, zinyət şeylərindən daha aşağı dərəcə ilə vergi (aksiz) tutulmalıdır. İlkin zəruri tələbat mallarına bir qayda olaraq ərzaq məhsullarını, kitabları, toxumları, tibbi dərmanları, sənaye və kənd təsərrüfatı üçün maşın və avadanlıqları aid edirlər. Qeyri-



zəruri tələbat mallarına – spirtli içkiləri, tütün məhsullarını, benzini, uzun müddətli istifadə üçün istehlak mallarını, çox vaxt da emal olunmuş ərzaq məhsullarını daxil edilir və bu məhsullara daha yüksək vergi qoyulması mütərəqqi hal sayılır.

Aksiz rüsumları mahiyyətcə idxal rüsumları kimi sosial ədalətin təmin olunması aləti kimi istifadə oluna bilər. Lakin aksiz rüsumu daha çox milli istehsalçılara qoyulduğundan, əksər ölkələr sosial ədaləti təmin etmək məqsədilə idxal rüsumlarına müraciət edirlər. Halbuki, aksiz rüsumlarının idxal mallarından da tutulmasını istisna edən heç bir səbəb yoxdur. Buna görə də respublikamızda yuxarıda sadalanan idxal mallarına aksiz rüsumu qoyulmasını məqsədəuyğun hesab etmək olar.

İdxal mallarına aksizlər ölkə daxilində istehsal olunan eyni mallara aksizlərə bərabər tutulmalıdır, çünki daxili istehsalın səmərəli müdafiəsi və həvəsləndirilməsi üçün gömrük rüsumlarından istifadə edilməsi məqsədəuyğundur. Alkoqollu içkilərə və tütün məmulatlarına aksiz vergisi qoyulması yolu ilə ölkədə əhalinin sağlamlığı və ətraf mühitin mühafizəsi üzrə tədbirləri daha da gücləndirməyə şərait yaradılır. Eyni zamanda, həmin məhsullar, nəqliyyat vasitələri, motor yanacağı əsasən daha imkanlı şəxslər tərəfindən istifadə edildiyi üçün vergi sisteminin ədalətliliyi baxımından da bu vergilər məqbul və məqsədəuyğun sayıla bilər.

Yuxarıda qeyd edildiyi kimi, idxal rüsumları bir sıra vəzifələrin həllinə: büdcə kəsirinin qeyri-inflyasion maliyyə mənbələri ilə örtülməsinə; tədiyə balansının tarazlığının qorunmasına; sürətlə sənayeləşməyə yardım etmək, xüsusən, idxalı

əvəz edəcək fəaliyyət sahələrinin inkişafına təkan vermək; «zinyət şeyləri» istehlakına yüksək rüsumlar qoymaqla vergi sisteminin ümumi mütərəqqi yönümünün yüksəldilməsi; nəhayət, energetik resursların saxlanması, sosial cəhətdən məqbul sayılmayan, arzuolunmaz mallar istehlakının qarşısının alınması və s. xidmət edir.

Təbii ki, təkcə hər hansı vergi alətindən istifadə etməklə bütün bu vəzifələrin eyni səmərə ilə həll edilməsi qeyri-mümkündür. Belə alət kimi təkcə idxal rüsumlarından istifadə edilməsi ölkə iqtisadiyyatı üçün ilk vaxtlarda arzuolunmaz nəticələrə gətirib çıxara bilər. İdxal rüsumları vasitəsilə vergi-qoymanın daha ədalətli edilməsi, həm də zəruri ərzaq məhsullarına (məsələn, düyüyə) idxal rüsumlarının ləğv olunmasını, əksinə zinyət şeylərinə (məsələn, kosmetikaya) daha yüksək idxal rüsumları qoyulmasını tələb edir. Bunun nəticəsində ölkə daxilindəki zinyət şeyləri istehsalı daha üstün müdafiə olunacaqdır və əksinə, ərzaq mhsulları istehsalı belə himayədən məhrum olacaqdır. Bu o deməkdir ki, zinyət şeylərinə vergilər onun idxalına rüsumla əvəz olunmamalıdır.



# О ПЕРСПЕКТИВАХ КОНКУРЕНТОСПОСОБНОСТИ МАШИНОСТРОИТЕЛЬНОГО КОМПЛЕКСА АЗЕРБАЙДЖАНА

С.И.НАБИЕВА

*Государственный Экономический Университет*

После достижения независимости машиностроительный комплекс одна из отраслей промышленности республики, которая в полной мере ощутила удар экономического кризиса после развала СССР.

Львиная доля внутренних и иностранных инвестиций (около 80%) направляется на топливно-энергетический сектор. В то время как удельный вес машиностроении в совокупных инвестициях в 1997 г. уменьшился до катастрофического уровня - 0,4% (при 4,4% в 1993 г.)[1]

Существенное сокращение производственного потенциала и уменьшение капитальных вложений на его строительство и модернизацию привели за последнее десятилетия к существенному ухудшению качественных характеристик производственного аппарата. Так, фондоотдача в промышленности в 1996 г. упала до 14,8% по сравнению с 1985 г., а в машиностроении соответственно 19,7%. Производственно-техническая база находится в критическом состоянии.

Подавляющее большинство производственно-технической базы промышленности, особенно в машиностроении достигла

---

[1] Azərbaycanda tikinti: Statistik məcmuə 2000, s. 18.

возраста после которого выбитые основных фондов стало неизбежно. В то время как коофициент обновления фондов в 1999 г. снизился до 2,3 пунктов, против 8,5 пунктов в 1996 году.

В структуре промышленной продукции резко снизился объем производства и реализация наукоемкой продукции. В 1993 г. в республике было 114 машиностроительных предприятий. Объем производства на них исчисляется в 63,4 млрд. ман, что составляет по всей промышленности республики 13,6%. Продукция, выпускаемая машиностроительными предприятиями, в большинстве устарела и коэффициент давности приблизился к 10 годам. Это связано с тем, что сроки освоения новой техники достигают 4-х лет. Только несколько выпускаемых видов машин конкурентоспособно на мировом рынке. Устарело и заводское оборудование. В среднем до 1980-1985 гг. заменялось 3-3,5% оборудования. Да и оно не отвечало современным требованиям интенсификации производства. Поступающая новая техника на две трети направлялась на расширение парка оборудования. Ныне коэффициент замены надо увеличить в 3-5 раз, а на некоторых производствах полностью менять.

Все это неминуемо отразились на состояние конкуренто-способности продукции машиностроительного комплекса.

Для повышения конкурентоспособности продукции нам требуется, опираясь на мировой опыт, переход к новой технологической базе и обновление типажа производимой и импортируемой продукции.



Надо сделать все возможное для продвижения в единый рынок продукции машиностроения.[2] Интеграционные процессы при этом должны идти в направлении придающему машиностроению большую общность и гармонизацию с типажом технических средств развитых стран. Развитые машиностроения при этом будет сопровождаться быстрым ростом зарубежных поставок машин и оборудовании. Таким образом, машиностроение будет превалировать в общем объеме импорта и экспорта нашей страны.

В бывшем СССР производимые машины, по существу, не соответствовали потребностям как страны, так и республик. В структуре производства автомобилей, сельхозмашин, станков и другой техники превалировал выпуск крупных машин из-за направленности всей промышленности на производство техники для военных целей и выполнения валовых показателей, путем увеличения веса машин и механизмов. Продукция не была ориентирована на потребителя, что резко снижало эффективность ее использования. Число автомобилей малой грузоподъемности (до 2-х тонн) в грузовом парке постсоветского пространства не превышало 8-10% (в парке развитых стран - 50-70%). Автотранспортные предприятия вынуждены для перевозки мелких партий грузов использовать автомобили средней, а то и большой грузоподъемности.

[2] Али Ахмедов. Пути интеграции машиностроения Азербайджана в мировую экономику. - Великий Шелковый путь Азербайджана. Вчера, сегодня, завтра. Б., 1998, с. 114-116.

Кстати, в зарубежных странах на фермах и в городских мелкопартионных перевозках и в производственной деятельности широко используют малогабаритные грузовики грузоподъемностью от 300 килограмм до 2-х тонн со множеством разновидностей кузовов для специализированных перевозок.

При имеющемся парке грузовых автомобилей в республике в мелкопартионных перевозках в основном будут использоваться автомобили КАМАЗ, ЗИЛ, ГАЗ и будет теряться громкое количество топливо, резины и др. материалов.

Потребность в автомобилях малой грузоподъемности будет возрастать в связи с увеличением числа малых предприятий и развитием фермерства. Им всем нужны малотоннажные грузовики для доставки в свои хозяйства предметов повседневного производственного и бытового назначения и вывоза готовой продукции. Наладив из выпуск страна сможет удовлетворить не только свои потребности, но и экспортировать продукцию в соседние государства.

Такая же ситуация сложилась и с сельскохозяйственными машинами. Потребность Азербайджана и новых государств, возникших на руинах советской империи в сельскохозяйственных машинах огромная. По данным статистики количество тракторов (без садовоогородных) на 1000 га пашни у нас в республике составляет 27, в Польше - 77, Франции - 85.



Великобритании - 86, Югославии - 96, Италии - 144, Германии - 201, Японии - 476.[3]

Совершенно ясно, что для выхода из тяжелой экономической ситуации и повышения конкурентоспособности отрасли как во внутреннем, так и во внешних рынках необходимо безотлагательно разработать серьезную реформационную стратегию, в которой следует четко определить долгосрочные цели социально-экономического развития отрасли и пути их достижения и учесть требования закономерности развития глобальной экономики, особенности внутреннего экономического потенциала.

Успех экономического прогресса страны в современных условиях во многом зависит от того как страна умело сочетает все эти три структурные источники. Например: использование драгоценных и скудных валютных источников от экспорта топливно-энергетических ресурсов на приобретение из-за рубежа потребительских товаров чревато тяжелыми последствиями. Инвестиционное развитие как правило не приводит к повышению конкурентоспособности, а обеспечивает простое воспроизводство. Более того, в отрасли инвестиционные вложения сегодня крайне нехватает и вследствии этого растет удельный вес изношенных основных фондов, повышается их аварийность.

В современных условиях в стратегии развитии двигателя прогресса в экономике машиностроительного комплекса приори-

---

[3] Али Ахмедов. Пути интеграции машиностроения Азербайджана в мировую экономику. - Великий Шелковый путь Азербайджана. Вчера, сегодня, завтра. Б., 1998, с. 114-116.

тет должен быть отдан не развитию страны на основе факторов производства и инвестиций, а развитию инновационный деятельности. Уже давно доказано, что факторы производства и инвестиции являются средствами научно обоснованной инновационной деятельности, а не ее целью.

Анализ внешнеэкономических связей машиностроительного комплекса показывает, что необходимо прежде всего искать внутренние источники для экономического подъема этой важнейшей отрасли экономики - на основе повышения конкурентоспособности, расширения производства и продаж на внутреннем и внешнем рынках отечественной продукции. Эту стратегически важную задачу можно решать только на основе научно-инновационного обновления. Переход к осуществлению такой стратегии развития реального сектора экономики возможен при активном прямом и косвенном участии государства.



# АНАЛИЗ ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ ЭЛЕКТРОЭНЕРГЕТИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

Г.В.БАБАЕВА

*НАН Институт Экономики*

Динамичность и эффективность развития экономики любой страны во многом зависит от величины инвестиций, направленных на расширение существующих производственных мощностей, их реконструкцию на современном научно-техническом уровне, создание производств, выпускающих продукцию с новыми потребительскими свойствами. Поэтому инвестиционная программа правительства на 1998-2001 гг. и стратегическая промышленная политика страны предусматривает широкое применение иностранных инвестиций в модернизацию конкретных предприятий и объектов имеющих стратегических значение для экономики. Одним из таких стратегических объектов экономики является и электроенергетическая промышленность.

За 1995-2000 гг. произошел довольно значительный рост объема инвестиций в электроэнергетике, особенно за счет иностранных источников. Так общий объем иностранных инвестиций в электроэнергетической промышленности за этот период возрос в 78 раз.

В инвестиционной деятельности Азербайджана задействованы международные организации различных типов, которые

выделяют целевые кредиты под определенные проекты и оказывают техническую помощь. Среди них основными, являются Европейскими Банк Реконструкции и Развития (ЕБРР), Исламский Банк Развития (ИБР), Японский Международный Фонд Экономического Сотрудничества (ОЕСР), Кредитный Банк Реконструкции (KFW), Германский Банк «Байрише Ландесбанк» (BLG). Преобладающию долю кредитов полученные от М.Ф.О. – коммерческие. На 1 января 2000 г. было выделены кредиты на сумму 91,6 млн. доллар США, из которых 76,3 млн. доллар США – коммерческие кредиты. Коммерческий кредит выделил ЕБРР для реконструкции «Еникендской ГЭС» на общию сумму – 53,2 млн. доллар США, и Мингечаурской ГЭС – 21,6 млн. доллар США для реконструкции Бакинской ТЭЦ № 1 – Байраш Ланденсбанк, так же выделил коммерческий кредит на сумму 57,1 млн. доллар США.

Из полученных кредитов 15,9 млн. доллар США т.е. 17% всех полученных кредитов – льготные. Льготные кредиты были выделены со стороны Японского Фонда (ОЕСР) для осуществления проекта ГРЭС «Северная» выделил 223 млн. доллар США сроком на 10 лет. Другим льготным кредитом является кредит выделенный KFW (Германия) для обновления линии – электропередач (ЛЭП) в городе Баку на общую сумму 18 млн. доллар США.

Необходимо отметить, что основной концепции развития электроэнергетики за счет иностранных инвестиций, в конечном счете предусматривает возвраст привлекаемых кредитов и уплаты процентов:



– за счет прибыли от деятельности АО «Азерэнержи»;

– учитываем государственную гарантию по кредитам, путем использования налога на долю прибыли для погашения кредита и процентов;

– путем снижение себестоимости электрбэнергии, за счет применения новой технологии, развития гидроэнергетики;

– путем регулирования стоимости покупаемого топлива, в соответствии с ежегодным ростом возврата кредита и процентов.

## AZƏRBAYCANDA AUDİT VƏ BU SAHƏDƏ OLAN PROBLEMLƏR

T.HÜSEYNLİ
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Respublikamızda audit-təsərrüfat fəaliyyəti üzərində nəzarətin yeni bir istiqamətidir. Qeyd edim ki, mövçud normativ sənədlərdə vaxtaşırı aparılan əlavə və dəyişikliklər bir sıra hallarda vergi ödəyiçisinə müəyyən səbəblərdən vaxtında gəlib çata bilmir. Bu baxımdan da müəssisənin təsərrüfat fəaliyyətinə aid olan bir sıra normativ sənədlərdə olan tələblər pozulur. Müəssisə və təşkilatlarda qanunveriçilik aktlarının düzgün tətbiqinə istiqamət verən və köməklik göstərən müvafiq orqanların isə həm sayının az olması, həm də gərgin iş rejimində işləməsi onların bu işə hazır olmamasına gətirib çıxarır. Bütün bunlarla əlaqədar olaraq müəssisələrin fəaliyyətinə qeyri-dövlət nəzarətinin yeni bir

formasının yaranmasına ehtiyac yarandı. Bu öz növbəsində müəssisələrdə mühasibat uçot və hesabatların təkmilləşdirilməsi, mühasibat uçotunun aparılması zamanı meydana gələn problemlərin aradan qaldırılması, müəssisələrin kommersiya fəaliyyətinin səmərəliliyinin artırılması vəzifəsini həyata keçirməli idi. Bu baxımdan da audit anlayışı təftiş anlayışından genişdir və audit yalnız maliyyə göstəricilərinin düzgünlüyünün yoxlanılması ilə yanaşı müəssisənin xərclərinin azaldılması və vergilərin qanuni əsasda optimallaşdırılması məqsədi ilə müəssisənin təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması üzrə təkliflərin verilməsini işləyib hazırlayır. Belə ki, audit-sahibkarlıq risklərinin aşağı salınmasına istiqamətlənmiş fəaliyyətdir.

Beləliklə, auditor fəaliyyəti müxtəlif iqtisadi subyektlərin maliyyə hesabatlarının, ödəniş-hesablaşma sənədlərinin, vergi bəyannamələrinin və digər maliyyə tələb və öhdəliklərinin yoxlanılması, həmçinin başqa audit xidmətlərinin göstərilməsi üzrə auditor firmaları tərəfindən həyata keçirilən sahibkarlıq fəaliyyətini özündə əks etdirir.

Auditin əsas məqsədi təsərrüfat subyektlərinin maliyyə hesabatlarının düzgünlüyünün təsdiq edilməsi və həyata keçirilən maliyyə və təsərrüfat əməliyyatlarının respublikamızın mövçud qanunvericiliyinə uyğunluğunun müəyyən edilməsidir. Maliyyə hesabatının düzgünlüyü anlayışı altında onun elə bir səviyyədə dəqiqliyi başa düşülür ki, onun əsasında auditor, təsərrüfat subyektinin fəaliyyətinin nəticələri haqqında düzgün qərar qəbul edə bilir.



Bizim respublikamıza gəldikdə isə audit nəzarəti yuxarıda qeyd etdiyimiz kimi yenicə təşəkkül tapmağa başlamışdır. Bu baxımdan da bu sahədə xeyli problemlər mövcuddur. Ümumiyyətlə bir sıra sahibkarlar auditə formal münasibət bəsləyirlər. Hətta son vaxtlar bir sıra müəssisə rəhbərlərində belə bir fikir yaranmışdır ki, auditor yoxlaması müəssisələrdə vergi və digər dövlət nəzarət orqanları tərəfindən həyata keçirilən yoxlamalardan heçnə ilə fərqlənmir. Lakin gerçəklikdə isə vergi yoxlaması ilə auditor yoxlaması təmamiylə ayrı-ayrı anlayışlardır. Əgər birinçi halda, yəni vergi yoxlaması zamanı vergilərin düzgün hesablanması və əgər düzgün hesablanmayıbsa onda maliyyə sanksiyalarının tətbiq edilməsi əsas vəzifə sayılırsa, auditor yoxlamasında isə başqa məqsədlər əsas götürülür.

Auditor müəssisədə uçot və hesabatların vəziyyətini tədqiq edir, səhvləri aşkara çıxarır, düzəlişlər edilməsində müəssisəyə məsləhətlər verir və bəzən də onlara köməklik edir, son olaraq mühasibat uçotunun dürüstlüyü haqqında özünün peşəkar fikrini söyləyir.

Bu baxımdan da auditin əhəmiyyətini ölkəmizdə artırmaq üçün sahibkarlarda auditin mahiyyətinin dərk edilməsi istiqamətində işlər görmək lazımdır. Belə ki, auditə inzibati nəzarət elementi kimi deyil, təkrar istehsal prosesinin səmərəliləşdirilməsi vasitəsi kimi yanaşmaq lazımdır. Çünki dünyanın bütün ölkələrində istənilən kommersiya təşkilatı öz hesabatını auditor rəyi ilə təsdiqləyir. Bunun vasitəsi ilə o, bu hesabatın potensial istifadəçiləri olan investorların, kreditorların, bankların, alıçıların, satıçıların və başqalarının özünə olan etibarını artırmış olur. Bu çür etibarlıq isə müəsssisə üçün xeyli əhəmiyyətlidir. Bunu başqa

çür desək, auditor rəyi-müəssisənin təsərrüfat fəaliyyətinin portretidir.

İstənilən müəssisə və təşkilat auditor firmasının xidmətlərindən istifadə edə bilər və eyni zamanda, istənilən vaxt öz daxilində auditor yoxlamasını keçirdə bilər. Bunun səbəbləri isə müxtəlif ola bilər. Yəni müəssisənin mühasibinin dəyişməsi, qarşıdan gələn vergi yoxlaması, mühasibat uçotunda olan boşluqlar və s. ola bilər. Lakin bütün bunların hamısının məqsədi bir olur: Özünü arxayın hiss etmək. Belə ki, heç kimə sirr deyil ki, vergi orqanlarının müəssisəyə gözlənilmədən gəlməsi istənilən, hətta ən etibarlı kompaniyaların da maliyyə vəziyyətinə təsir göstərə bilər. Bizim respublikamızda da vergi ödəyiçiləri ilə vergi orqanları arasında olan əsas problemlərdən biri müəssisələrdə aparılan yoxlamalar zamanı baş verən anlaşılmazlıqlardır. Bu çür problemlərin isə aradan qaldırılmasının yeganə vasitəsi müəssisədə aparılan vaxtaşırı audit yoxlaması ilə hər şeyin qaydasında olmasına arxayın olmaqdır.

Hal-hazırda respublikamızda audit sahəsində əsas problemlərdən biri auditor xidmətlərinin qiymətidir. Yəni elə müəssisələr var ki, onların maliyyə vəziyyəti bu xidmətlərdən istifadə etməyə imkan vermir. Bu baxımdan da audit xidmətləri bazarından hər kəsin istifadə etməsi üçün burada xidmət təklif edənlərin sayını artırmaq lazımdır. Bu zaman bazarda ayrı-ayrı istehlakçı qruplarına uyğun auditort xidmətləri göstərən müəssisələr formalaşaçaq. Yəni başqa çür desək, kiçik müəssisələrə kiçik auditor müəssisələri, böyük müəssisələrə isə nisbətən iri auditor müəssisələri xidmət göstərəçək. Burada uyğun olaraq qiymətlər də fərqlənəçək. Auditor xidmətləri bazarında



rəqabət mühitinin yaradılması bu sferada keyfiyyətin artırılmasına da təminat verəçəkdir. Bu təimnatın yaradılmasına isə eyni zamanda ayrı-ayrı müəssisələr də təsir göstərə bilər. Bu baxımdan bəzi müəssisələrə məsləhət görərdik ki, auditor firmalarının müəssisəyə çəlb edilməsini ən son vəziyyətdə həyata keçirməsinlər. Yuxarıda qeyd etdiyimiz kimi, bir sıra müəssisələr buna formal baxır və axır anda ilk qarşısına çıxan auditoru bu işə dəvət edir. Burada əsas faktor kimi isə daha çox bu xidmətin qiyməti durur. Bu isə məlumdur ki, nə qədər aşağı qiymətdirsə, o qədər də aşağı keyfiyyət və məsuliyyətdir. Yəni bəzi auditorlar müəssisənin illik maliyyə fəaliyyətinin yoxlanılmasını 1-2 gün ərzində həyata keçirdiklərinə və bununla əlaqəli heç bir maliyyə sanksiyasının olmamasına söz verməklə peşəkar auditorlarda yalnız gülüş yarada bilərlər.

Bəzi peşəkar müəssisələr də vardır ki, onlar auditorlarla işlərini hələ illik hesabatın hazırlanmasından xeyli əvvəl qurmağa başlayırlar. Bu zaman auditor, təkçə mühasibat hesabatlarının düzgünlüyünü yoxlamaqla yanaşı, eyni zamanda onun hazırlanmasında iştrak edir, bu sahədə yaranan bütün suallar üzrə müəssisənin mühasibatına məsləhətlər verir. Bu zaman auditor, müəssisənin bütün əməliyyatlarını təhlil edir, onun vergi sxemini hazırlayır, mühasibat uçotunun aparılması metodikasını seçir. Bu halda artıq müəssisənin illik mühasibat hesabatında heç bir düzəliş edilməsinə ehtiyaç qalmır. Çünki bütün səhvlər və çatışmamazlıqlar onun hazırlanması prosesində meydana çıxır. Bu baxımdan da bizim fikrimizçə ən optimal variant kimi auditor firması ilə daimi əməkdaşlıq edilməsi lazımdır. Bu zaman auditor,

müəssisənin mühasibatına maliyyə ili ərzində meydana çıxan problemlər üzrə məsləhətlər verir, rüblük hesabatların tərtibində iştrak edərək orada meydana çıxa biləçək səhvlərin qarşısını alır ki, sonradan onların düzəldilməsinə ehtiyaç qalmır.



# IV BÖLMƏ

# MÜSTƏQİL AZƏRBAYCAN QLOBAL İQTİSADİ SİSTEMDƏ

## ПЕРСПЕКТИВЫ И ПРЕДЕЛЫ ИСПОЛЬЗОВАНИЯ АЗЕРБАЙДЖАНОМ ЗАЩИТНЫХ МЕР В ГЛОБАЛЬНОЙ ЭКОНОМИЧЕСКОЙ СРЕДЕ

А.Д.МУРАДОВ

*Академия Государственного управления при Президенте Азербайджанской Республики, д.э.н., профессор*

Использование нетарифных ограничений представляет собой обычную мировую практику регулирования внешней торговли, однако соглашение с ВТО требует ввести эту практику в строго определенные рамки.

НТО, которые являются побочным следствием различных экономических, административных и технических мер, не направленных специально на регулирование внешней торговли, должны быть по возможности устранены. НТО, которые имеют своей целью регулирование внешней торговли должны в перспективе применяться в строгом соответствии с ГАТТ-94.

Однако, современная реальная мировая практика не соответствует положениям этого соглашения, и для воплощения их в жизнь потребуется время.

Азербайджан оказался сегодня в трудном положении в связи с тем, что необходимость следовать требованиям ВТО вступает в конфликт с необходимостью структурной перестройки экономики, формирования конкурентоспособной и динамичной основы национального хозяйства. Государства, которые ранее проводили такую перестройку, сталкивались с менее жесткими правилами ГАТТ. Многие методы, которые они использовали, сегодня запрещены.

Создание эффективной и динамичной экономики в Азербайджане требует всемерного содействия развитию «точек роста», в том числе и с помощью таких средств структурного регулирования, которые не одобряются ВТО. Однако, не участвуя в ВТО, Азербайджан не сможет обеспечить беспрепятственный доступ своей продукции высокой степени обработки на мировые рынки. Поэтому внешнеэкономическая и внешнеторговая политика Азербайджана должна представлять собой компромисс между требованиями структурной перестройки и требованиями ВТО.

Этот компромисс может выглядеть следующим образом. Азербайджан, проведя переговоры с ВТО, в то же время рассматривает их не как самоцель, а как составную часть общей программы включения национальной экономики в мировое хозяйство. При этом он принимает меры, необходимые для структурного преобразования экономики, повышения степени



обработки экспорта, сохранения, укрепления и развития научно-технического потенциала. Эти меры должны быть насколько возможно осуществлены в рамках требований ВТО. Там же, где это невозможно, необходимо вводить и меры, противоречащие этим требованиям, имея в виду их постепенную отмену в будущем, когда они выполнят свою роль. Наилучшим вариантом является достижение предварительной договоренности с ВТО о введении таких мер. В исключительных случаях, однако, можно допустить их применение в одностороннем порядке с последующим обсуждением на переговорах, даже если это на какое-то время отсрочит наше вступление в ВТО. Однако, ни в коем случае нельзя использовать такие меры, которые привели бы к «торговой войне» с развитыми странами. Введение любых мер должно быть строго продуманным. Важным предметом переговоров должна быть интерпретация правил ВТО. Необходимо толковать их таким образом, чтобы максимально обеспечить интересы Азербайджана, ссылаясь на имеющиеся международные прецеденты.

На переговорах с ВТО оправданно добиваться признания особого статуса стран с переходной экономикой, который бы позволил им принимать активные меры по структурной трансформации своей экономики с целью повышения уровня развития (повышения уровня экономического развития является официально провозглашенной целью ВТО). В то же время необходимо максимально заключать НТО, необходимые для структурного регулирования экономики, в рамки, предусмотренные

ГАТТ-94, и упразднять НТО, которые не предназначены специально для регулирования внешней торговли.

Количественные ограничения на импорт могут вводиться в отношении аграрной продукции; в отношении новых видов продукции, производство которых в стране еще только развивается; в отношении предметов не первой необходимости в условиях ухудшения платежного баланса. Азербайджану следует стремиться истолковывать ограничения на импорт продукции, производство которой вновь создается в стране, как защитные меры.

Необходимо использовать предоставленное Соглашением о субсидиях и компенсационных мерах право на субсидирование НИОКР, кризисных регионов и производств, нуждающихся в экологической модернизации, в целях развития «точек роста» и приспособления азербайджанской экономики к международным стандартам, повышения ее совместимости с мировым хозяйством.

Необходимо добиваться максимально широкой трактовки ст.29 Соглашения о субсидиях и компенсационных мерах, которая позволяет странам с переходной экономикой осуществлять мероприятия по трансформации, указывая, что государственная поддержка развития «точек роста» есть необходимая мера адаптации национальной экономики к современному мировому хозяйству. При этом можно обменивать уступки в вопросах субсидирования сельского хозяйства на уступки ВТО в вопросах поддержки «точек роста».



Следует зафиксировать максимум возможных прав Азербайджана на структурное регулирование экономики в соглашении о переходном периоде, в течение которого страна должна постепенно приближаться к общепринятому режиму ВТО.

В отношении паратарифных мер необходимо предпринимать следующее:

– установить минимальную и максимальную величину сбора за таможенное оформление, чтобы данный сбор рассматривался как плата за услуги таможни, а не как отчисление от стоимости оформляемого товара (и следовательно – как форма НТО). Пределы должны быть установлены таким образом, чтобы они не затрудняли импорт товаров и в то же время обеспечивали финансовые потребности таможенных органов;

– взять курс на отмену (возможно, постепенную) декретированной таможенной оценки импортных подакцизных товаров. Темпы ее отмены можно поставить в зависимость от уступок партнеров по переговорам в вопросах, интересующих Азербайджан.

Необходимо законодательно зафиксировать исчерпывающий перечень документов, которые может требовать таможня при оформлении товара, причем установить необходимый минимум документов и условия, при которых можно требовать дополнительные документы.

Следует законодательно запретить государственным органам увеличивать таможенные платежи или иным образом затруднять таможенное оформление в отношении уже заявленных к такому оформлению товаров. Все соответствующие

документы должны вступать в силу только после даты их опубликования.

Необходимо внести изменения в Таможенный Кодекс Азербайджана в целях приведения его в соответствие: с Гражданским кодексом Азербайджана (в части обжалования действия таможенных органов); с Конвенцией по упрощению и гармонизации таможенных процедур (Конвенцией Киото).

Необходимо наладить сотрудничество с Всемирной таможенной организацией (Советом таможенного сотрудничества), а также с ВТО и ЮНКТАД в деле совершенствования процедур таможенного контроля. Целью такого совершенствования должно быть упрощение таможенных процедур при сохранении эффективности контроля. Целесообразно, в частности, шире внедрять компьютерные технологии, переходить к выборочному контролю товаров на основе технологий выявления подозрительных товаров. В отношении тех стран, с которыми налажены давние и регулярные торгово-экономические связи, целесообразно развивать сотрудничество таможенных служб и, в частности, практиковать предварительную пересылку документов на товар, подлежащий оформлению, однократный контроль вместо двукратного. В то же время СТС не рекомендует активно использовать услуги служб предотгрузочной инспекции, которые ослабляют контроль страны над своей внешней торговлей.

Следует развивать систему защитных мер, а также ответных мер, которая могла бы применяться в случае дискриминации Азербайджана во внешней торговле, а также механизм защиты азербайджанских интересов в подобных случаях



(как через международные организации, так и в судебном порядке).

## ГЛОБАЛИЗАЦИЯ И НАЦИОНАЛЬНЫЕ ИНТЕРЕСЫ АЗЕРБАЙДЖАНА

Г.З.ЮЗБАШЕВА
*НАН Азербайджана ИЭ,*
*к.э.н.*

Современный мир - это система взаимосвязанных государств, в которой каждая страна играет особую экономическую роль при усиливающейся конкурентоспособности национальных экономик на мировом рынке. Естественно, мировая экономика в условиях глобализации становится более ёмкой вследствии усиления процесса единения. Это влияет на экономическое, политическое и социальное положение страны. Задача адаптации национальных экономик выступает в качестве одного из важнейших условий успешного осуществления интеграционных процессов в рамках мирового сотрудничества.

Еще Н.Туси исходным пунктом, началом своих экономических воззрений ставил тезис об общественном разделении труда как источника богатства. В его сочинениях существует связь между разделением труда в обществе и ростом производства продукции, т.е. возможностью образования избыточного продукта, стало быть и выхода его на рынок. Общественное разделение труда служит основой для обмена результатами трудовой деятельности

между производителями и тем самым способствуют развитию меновых отношений.

Н.Туси доказывает, что труд является важнейшим условием существования человеческого рода, человеческого общества. Он рассматривал труд как смысл человеческого существования:" в жизни ничего не может быть более ценным, чем труд"(Ахлаги Насири"). Источником богатства, по его мнению, является труд и богатство государя должно основываться на богатстве народа. Он мечтал о переустройстве общества на справедливых началах.

Исходя из его учений можно сказать, что проводимая экономическая политика государства должна отвечать интересам общества и имеющимя возможностям развития. Н.Туси обосновал необходимость проведения разумной экономической политики, рассматривал сё в качестве существенного роста народного благосостояния. Поэтому важна специфическая модель развития, сочетающая в себе национальные интересы с процессом глобализации.

Известно, что углубление международного разделения труда является важнейшим элементом материальной базы глобализации, а формирование мирового рынка товаров, услуг, технологий, капиталов и рабочей силы – основой глобализации. Эффективное разделение труда между отдельными государствами служит основой для превращения международное сотрудничество в необходимый элемент социальной действительности. Более отчётливо выявляются взаимосвязь и взаимозависимость национальных экономических систем и



мирового хозяйства, но при этом важно нахождение наиболее рациональных решений, отвечающие интересам не только данной, но и других стран.

Реализация преимуществ глобализационных процессов является важным фактором усиления центрабежных тенденций в мировой системе хозяйства, более активно включающий страны во всестороннее экономическое сотрудничество и расширяет границы процесса международной интеграции. Это создаёт новую ситуацию и решение проблем через интересы, являющиеся основными в деле сближения уровней экономического развития с учётом внутренних (наличие резервов рабочей силы, возможность изменения структуры экономики и широкое вовлечение в хозяйственный оборот ранее не использованных ресурсов) и внешних (сотрудничество, взаимопомошь) факторов. Идёт тесное смыкание научно-технических, производственных, торговых и валютно, финансовых аспектов сотрудничества.

В этих условиях важно очертить глобальные экономические задачи:

– реализация приемлемой внутренней политики, создающей условия для;

– функционирования внутри национальной экономики;

– обеспечение экономической безопасности инвестиционного процесса, путём создания экономических условий для его функционирования внутри национальной экономики;

– реализация политики внешнего спроса на конкурентоспособную продукцию важнейших отраслей.

В итоге, важно гармоничное сочетание национальных и мирохозяйственных процессов. Например, в Азербайджане, с одной стороны, открылись реальные возможности для более эффективного использования новейших научно-технических достижений, создаются условия для эффективного международного разделения труда. С другой, непосредственно перенимая соответствующий опыт других стран, мы оказались в научно-технической зависимости. Сырьевая ориеннтация поставила нашу экономику в жёсткую зависимость от конъюнктуры мирового рынка. В новом тысячелетии Азербайджан может и должен определиться с тем, с чем он вступает в него, найти свой путь политической стабильности, модернизации, религиозной целостности, но не в оторванности от мирового развития, а во взаимосвязи и взаимозависимости. Есть много вариантов развития, но необходим выбор приемлемого, решающий главные проблемы, т.к. Азербайджану всегда приходилось защищать свои национальные интересы.



# QLOBALLAŞMA VƏ AQRAR SAHƏNİN İNKİŞAFI

İ.H.ALIYEV
*AMEA-nın İqtisadiyyat İnstitutu, iqtisad elmləri namizədi*

Hələ 7 sentyabr 2000-ci ildə Nyu-York şəhərində Minilliyin Zirvə görüşündə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev öz çıxışında demişdir: Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də bir mənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrıseçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Belə bir mühütdə respublikamız üçün bu və ya digər idarəetmə modelin götürülməsi aşağıdakı prinsipial cəhətlərin nəzərə alınmasını tələb edəcəkdir.

Bazar iqtisadiyyatına keçid modeli bütün ölkələrdə olduğu kimi aqrar sahənin də idarə olunmasına yeni baxımdan yanaşılmasını tələb edir. İlk növbədə bu baxış mürəkkəbdir və iqtisadçılar arasında fikir ayrılığı və mübahisələr vardır. Bu da sosial-iqtisadi inkişafın ziddiyyətlərindən doğur. Lakin respublikamızda iqtisadiyyatın idarə olunması xüsusiyyətləri kimi aqrar sahə də bu işdən xəli deyildir. Bu xüsusiyyətləri doğuran amillər çoxşaxəlidir. Onları nəzərə almadan gələcək idarəetmənin prinsiplərini də düzgün qavramaq olmaz.

Bunları qavramadan, işlənən hər hansı bir idarəetmə strukturunda və konsepsiyasında nəzərə almadan süni surətdə başqa ölkələrin inkişaf modellərinin ya istifadə olunması lazımı nəticələr verməyəcəkdir. Biz bu əsasda qərb və şərq ölkələrinin, xüsusən də öz təcrübəmizə yiyələnməklə öz müstəqil yolumuzu müəyyənləşdirmiş olacayıq. Çünki, bu inkişaf etmiş ölkələrin indiki vəziyyətinə münasib iqtisadi siyasət qurmaq, milli aqrar bazarı yaratmaq prinsipləri bizim indiki inkişaf səviyyəmizə uyğunluq təşkil etməyə bil ər.

Xüsusi mülkiyyətçiliyə və sahibkarlığa əsaslanan bu konsepsiyalar, iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə, o cümlədən aqrar sahədə idarəçilik prinsipləri, modellər bütünlükdə öz ölkələrinin milli mənafelərinə söykənməklə heç də başqaları üçün yararlı deyildir. Olduğu kimi də tətbiq oluna bilməzlər.

Müstəqil milli iqtisadiyyatımızın quruculuğu prosesində digər mütərəqqi iqtisadi inkişaf modellərindən istifadə cəhətləri respublikamızın xalq təsərrüfatı kompleksliyinin ifadəsi olan daxili və xarici bazarın formalaşması məntqini özündə ifadə edən inkişaf sürəti ilə müəyyənləşdirilməlidir.

Bütün sahələr üzrə tələbata və milli iqtisadi mənafelərin əlaqələndirilməsi məntiqinə uyğun mühüm strateji məhsullar üzrə istehsal texnologiyasının son məhsula qədər texnoloji ardıcıllığı, başqa digər sahələr ilə asılılıq səviyyəsi, maddi-texniki təminatla təmin olunma dərəcəsi də işlənilməlidir.

Azərbaycan hazırda öz müstəqil inkişafının ilkin mərhələsindədir. Bu ilkin inkişaf mərhələsi bir sıra sosial-iqtisadi,



ziddiyyətlər hesabına olduqca gərgin məsuliyyət tələb edən bir dövrünü yaşayır.

Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələri həmçinin müxtəlif xarici ölkələrin Azərbaycana məqsədli münasibətləri respublikanın iqtisadi inkişaf modelində nəzərə alınmalıdır. Azərbaycana xammal bazası və gəlir kimi baxan ölkələrin də maraq dairəsi aydındır. Çünki, hər bir dövlət ilk növbədə iqtisadi-siyasi əlaqələrini öz mənafeləri əsasında qurulmasını istəyir.

Milli iqtisadiyyatımızda aqrar sektorun idarəolunması prosesi də bu baxımdan aparılmalıdır. Beləki, bu sahənin idarə olunması aqrar bazarın sürətli inkişafına, onun infrastrukturasının formalaşmasına, eləcə də ümumi əmtəə bazarının dünya tələblərinə uyğun inkişafına əsas yaratmalıdır.

# AZƏRBAYCAN RESPUBLİKASININ DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYASININ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASINDA ASK-NIN ROLU

Z.ƏHMƏDOV

*MEA-nın İqtisadiyyat İnstitutu*

**Bizim strateji kursumuz dünya iqtisadi birliyi ilə sıx inteqrasiya edən, bazar iqtisadiyyatına əsaslanan müstəqil, demokratik hüquqi dövlət qurmaqdır.**

**Heydər ƏLİYEV**

İqtisadi inteqrasiya ayrı-ayrı ölkələri dünyəvi istehsal və mübadilə prosesinə ya cəlb etməklə, ya da onları oradan kənarlaşdırmaqla, öz sərhədlərini genişləndirir. Azərbaycan da bu prosesdə xarici ticarət və beynəlxalq iqtisadi əməkdaşlığın digər formaları vasitəsilə aktiv iştirak edir.

İqtisadiyyatın sürətli inkişafı üçün ölkəmiz açıq iqtisadi inkişaf modelinə üstünlük vermişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ümumdünya İqtisadi Forumun 1995-ci ildə Londonda (29-30 noyabr) təşkil etdiyi "Azərbaycanın investisiya imkanları" adlı I Beynəlxalq Sərgi və Konfransda bəyan etmişdir: "Bizim strateji kursumuz dünya iqtisadi birliyi ilə sıxı inteqrasiya edən, bazar iqtisadiyyatına əsaslanan müstəqil, demokratik hüquqi dövlət qurmaqdır".[4]

Real sektorun mühüm tərkib hissələrindən biri olan aqrar-sənaye kompleksi ölkə əhalisinin ərzaq məhsulları ilə təmin olunmasında həlledici rol oynayır. Həmin sahə sovet dövründə iqtisadiyyatın intensiv inkişaf edən sahələrindən biri olmuş, istehsalın həcminə görə birinci yeri tuturdu. Eyni zamanda sovet dövründə inzibati-amirlik sistemi şəraitində başlıca olaraq, daxili bazarda, əslində rəqabətsiz fəaliyyət göstərən bu sahə müstəqillik əldə edildikdən dərhal sonra beynəlxalq rəqabətə dözməyərək dünya bazarı ilə ilk təmasdan dərin tənəzzül vəziyyətinə düşdü.

Ölkənin həyati əhəmiyyət kəsb edən valyuta problemində də ASK müstəsna rol oynayır. Həmin sahə 8 milyonluq əhaliyə malik olan daxili bazarın mühüm ərzaq məhsullarına olan tələbatını ödəyə bilərsə, həmin malların xaricdən bahalı idxalını ixtisar etməklə küllü miqdarda valyutaya qənaət etmək imkanı yaranar. 1991-ci ildə yeyinti sənayesi məhsullarının 93,9%-i SSRİ tərkibində olan respublikalara ixrac edilirdi. Həmin respublikalardan idxal isə cəmi idxalın 80,9%-ni təşkil edirdi. Məlum səbəblərə görə sonralar həmin ölkələrdən idxal və ixrac kəskin surətdə azaldı. Azərbaycan yeni ticarət tərəfdaşları ilə xarici ticarət əlaqələrini aparmağa başladı. Yalnız onu göstərmək lazımdır ki, Azərbaycanın xarici ticarət tərəfdaşlarının sayı 1991-ci ildə 18-dən 2002-ci ildə 128 ölkəyə çatmışdır. 2000-ci ildə Azərbaycanın yeyinti sənayesi məhsulları dünyanın 35 ölkəsinə ixrac edilmişdir. Bu

[4] Выступление Президента Азербайджанской Республика Гейдара Алиева на I Международной конференции и выставке "Инвестиционные возможности в Азербайджане". Лондон, 29.30.XI.99. стр.2.

məhsulların 48,6%-i əvvəllər olduğu kimi, yenə də Rusiyaya, 14,64%-i isə Almaniyaya ixrac edilmişdir. Azərbaycan dünyanın 61 ölkəsindən yeyinti sənayesi məhsullarını idxal edir. Ölkə idxalatının böyük bir hissəsi yəni 14,47%-i ərzaq məhsullarından ibarətdir. Bu isə onsuz da məhdud olan valyuta ehtiyatlarının qeyri-səmərəli istifadə olunaraq, xaricə axıdıldığını göstərir.

Aqrar-sənaye kompleksində baş verən inteqrasiya prosesi ərzaq və onun istehsalı ilə bağlı olan məhsulların satış bazarlarında rəqabəti daha da kəskinləşdirərək istehsalın, ilk növbədə iri təsərrüfatlarda inkişafı, kənd təsərrüfatı məhsulları ticarətinin genişlənməsini, əsas ərzaq məhsulları ilə özünü təminetmə dərəcəsinin artmasını təşviq edir.

Azərbaycanda bazar iqtisadiyyatına keçid bu sahədə dünya təcrübəsinin öyrənilməsini, aqrar-sənaye kompleksinin müəssisələrində elmi-texniki tərəqqinin nailiyyətlərinin, təsərrüfatçılıq və istehsalın idarə edilməsinin səmərəli formalarının tətbiq edilməsi, təşəbbüskarlığın aktivləşdirilməsi və s. əsasında istehsalın səmərəliliyinin artırılmasını tələb edir.

Dövlətin həyata keçirdiyi aqrar siyasət nəticəsində bu gün kənd təsərrüfatı istehsalının strukturunda dəyişikliklər baş verir. Xüsusilə heyvandarlıq məhsullarının xüsusi çəkisi bitkiçiliyə nisbətən daha sürətlə artır. Lakin, ərzaq təhlükəsizliyi haqqında proqramda göstərildiyi kimi "ərzaq məhsullarının istehsalı mövcud potensialdan və imkanlardan aşağıdır. Bunun əsas səbəbi istehsalın xarakterində lazımi şəraitin (gübrələrin və maliyyənin) olmaması və ya onlardan səmərəsiz istifadə olunması, suvarma sisteminin köhnəlməsi, istehsalçıların maddi-texniki bazasının zəif



olması, kənddə emal, saxlama və qablaşdırma müəssisələrinin olmaması və mövcud avadanlıqların yararsız hala düşməsi, suvarma suyunun çatışmaması, daxili bazarın qorunmaması, qiymət və kredit siyasətində uyğunsuzluqların olması, və s. problemlərdən irəli gəlir. Bu səbəbdən həmin sahədə məhsuldarlığın və rentabelliyin səviyyəsi aşağıdır".[5]

Məlum olduğu kimi, kənd təsərrüfatının təsirli dövlət tənzimləmələri, aqrar bölmədə istehsal və sosial infrastrukturun yaradılması külli miqdarda büdcə vəsaiti tələb edir. Lakin, nəzərə almaq lazımdır ki, belə məsrəflər özünü tez və bir neçə dəfə artıqlaması ilə doğruldur. Çünki, bu məsrəflər eyni zamanda ölkənin ərzaq təhlükəsizliyinin qorunmasına, işsizliyin azaldılmasına yönəldilir. Onu da nəzərə almaq lazımdır ki, bütün dünya dövlətlərində aqrar bölmənin geniş təkrar istehsalı xərclərin (50% və daha çox hissəsinin) böyük bir hissəsinin büdcə hesabına maliyyələşməsi hesabına təmin edilir.[6]

Qabaqcıl dünya təcrübəsi göstərir ki, yeyinti sənayesinin ayrı-ayrı yarımsahələrində texniki cəhətdən yaxşı təchiz edilmiş kiçik və orta müəssisələr iri müəssisələrə nisbətən bir çox üstünlüklərə malikdirlər. Onlar tələbin dəyişməsinə tez reaksiya verir, istehsalın mövsümi konyukturası problemini daha yaxşı həll edirlər. Lakin o da məlumdur ki, kiçik müəssisələrin təşkilində də kifayət qədər problemlər mövcuddur. Lazımi avadanlıq çatışmadığı üçün onlar təkrar xammaldan səmərəli istifadə edə

---

[5] Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, № 640, 02.03.2001.
[6] М.Л.Лишанский, И.Б.Маслова. Финансы в сельском хозяйстве. М., 1999, с. 13.

bilmirlər, hazırlanan yeyinti məhsulları çox vaxt aşağı keyfiyyətə malik olur, ekoloji və sanitar tələblər bəzən ciddi şəkildə pozulur.

Hazırda ASK-nın dünya təsərrüfatına inteqrasiyası xeyli dərəcədə geniş, lakin birtərəflidir. Dünya bazarı ilə ərzaq sektoru sahəsində əlaqə daha çox ərzaq idxalı ilə bağlıdır. Müstəqil iqtisadi inkişafın daha da möhkəmləndirilməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsi zəruriliyi isə ixracat potensialının artırılması, dünyanın texnologiya və investisiya bazarlarına intensiv inteqrasiyasının sürətləndirilməsi strateji baxımdan prioritet istiqamətə çevrilməlidir.

ASK-nın qlobal iqtisadiyyata səmərəli inteqrasiyasının təmin edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- Dövlətin fəal rolu əsasında bazar münasibətlərinin iqtisadi mexanizminin və bütün təsərrüfat formalarının səmərəli işləyə bilməsi üçün şəraitin yaradılması;

- bazarın işləməsi üçün dövlət tərəfindən hüquqi bazanın təkmilləşdirilməsi;

- ASK-da istehsal-texniki bazanın möhkəmləndirilməsi, texnoloji yeniliklərin tətbiqi, işçi qüvvəsinin müasir biznesin tələblərinə uyğunlaşdırılması, infrastrukturun inkişaf etdirilməsi, mövcud istehsal güclərindən maksimum istifadə edilməsi. Bunlara, maliyyə-investisiya, maddi-texniki təchizat və təşkilati-idarəçilik sahəsində tədbirlər sistemləri də daxil olmalıdır. Bu tədbirlər sistemi elmi cəhətdən əsaslandırılmış şəkildə və bu sahədə mövcud dünya təcrübəsinin Azərbaycan reallıqlarına uyğunlaşdırılması əsasında ardıcıl olaraq işlənib həyata keçirilməlidir.



- kənd təsərrüfatı məhsullarının satışı və qiymətlərinin sabitliyinin təmin edilməsi üçün dövlət tənzimləmələri sistemi işlənib həyata keçirilməli, satış və qiymət sahəsində özünü göstərən inhisarlaşma meyllərinin qarşısı alınmalı, kənd təsərrüfatı məhsullarının satışı və ixracı üzrə ixtisaslaşmış firmaların yaradılması stimullaşdırılmalıdır;

- kənd təsərrüfatının cəlb edilmiş vəsaitə böyük ehtiyacı olduğu üçün güzəştli kreditlərin və ipoteka banklarının təşkili məsələlərinə diqqət artırılmalıdır;

- təbii iqlim şəraitindən ciddi şəkildə asılı olan və bununla əlaqədar olaraq təbii fəlakətlərin riski yüksək olduğu üçün məhsulun, əmlakın və heyvanların sığorta işinin təşkili sürətləndirilməli bu sahədə dövlətin rolu artırılmalıdır.

- Azərbaycanda kənd təsərrüfatı məhsullarını emal edən sənaye sahələrinin intensiv qloballaşma dövrünün tələblərinə uyğunlaşdırılması üçün aktiv sənaye siyasəti yeridilməlidir;

- Qabaqcıl aqrotexniki üsullardan istifadə etməklə ASK-nın ixracı mümkün olan və habelə idxalı əvəz edə bilən sahələrin istehsalının səmərəliliyini artırmaq lazımdır. Ərzaq-tərəvəz məhsullarının emal və saxlanılma bazalarının, kiçik emaledici müəssisələrinin inkişaf etdirilməsinə xüsusi diqqət verməli, bu sahəyə xarici kapitalın geniş cəlb olunmasına nail olmaq lazımdır.

- Azərbaycan hökuməti yanacaq-enerji kompleksinin və onun ixrac potensialının ekstensiv inkişaf imkanlarından istifadə edərək ölkə iqtisadiyyatının dirçəldilməsinin çox mühüm amili olan ixracın struktur cəhətdən təkmilləşdirilməsinə, yəni onun tərkibində hazır məhsulları, ilk növbədə ASK məhsullarının

payının artırılmasına çalışılmalıdır. "İpək yolu" adlanan TRASEKA proqramının həyata keçirilməyə başlaması ilə beynəlxalq nəqliyyat-kommunikasiya sisteminin inkişafı imkanlarından istifadə edərək xammal ixracından emal edilmiş hazır məhsul ixracına keçmək lazımdır.

– daxili bazarda kənd təsərrüfatı məhsulları xammal və ərzaq istehsalçılarına müəyyən mərhələyə qədər əlverişli şərait yaradan himayəçi xarici ticarət siyasəti həyata keçirilməli, beynəlxalq tələblər nəzərə alınmaqla idxalı əvəzetmə siyasətinin üstünlüklərindən istifadə edilməlidir.

Vergi-gömrük mexanizmi və digər qeyri-tarif tənzimləmələri vasitəsilə ixracatla məşğul olan qabaqcıl ASK müəssisələri ciddi himayə olunmalıdırlar. Çünki, ixracat daha böyük risk və xərclərlə əlaqədardır. Bu zaman təşviqedici vergi siyasəti olduqca əhəmiyyətlidir. Mal ixrac olunarkən ölkə daxilində ödənilmiş vergilərin geri qaytarılması praktikasından istifadə olunmalıdır. Bu sahədə kredit və sığorta bazarının da dünya standartı səviyyəsinə yüksəldilməsi ixracatın inkişafı üçün olduqca zəruridir.



# KƏND TƏSSƏRÜFATININ DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYA YOLLARI HAQQINDA

R.MƏMMƏDOV
*Azərbaycan Universiteti*

Azərbaycanın iqtisadi potensialı, coğrafi mövqeyi təbii sərvətləri əksər ölkələri dövlətimizlə iqtisadi əməkdaşlığa sövq edir. Kənd təssərüfatı sahəsində struktur dəyişikliyi, özəl sektorun inkişafı, fermer təsərrüfat formalarının yaradılmasında dünya təcrübəsinə əsaslanması mühüm rol oynayır. Azərbaycanda digər sahələrdə olduğu kimi mühüm problemlər kənd təsərrüfatından da yan qaçmamışdır. Mövcud texnikanın aşınması, yenilərinin alınması, ixtisaslı kadrların və maddi vəsaitin çatışmaması torpaq islahatındakı bəzi neqativ hallar aqrar bölmədə bir sıra problemlər yaratmışdır.

Respublikamızda bir çox kənd təsərrüfatı məhsulları istehsalının azalması xaricdən valyuta ilə ərzaq məhsullarının alınmasına şərait yaratmışdır. Ona görə də, kənd təsərrüfatının inkişafında Azərbaycana kənardan ərzaq idxalının artması perspektivdə digər dövlətlərdən iqtisadi asılılığın bünövrəsini qoyur.

Hesab edirik ki, kənd təsərrüfatı yaranmış mövcud vəziyyətdən çıxış yolu elmi-texniki tərəqqi dövründə texnika və texnologiyanın tətbiqi üçün kompleks tədbirlərin həyata keçirilməsi öz müsbət səmərəsini verəcəkdir. Lakin dünya bazarında müasir texnikanın baha olması aqrar təsərrüfatın inkişafına müəyyən qədər mənfi təsir göstərir. Mövcud maliyyə böhranı şə-

raitində kredit və lizinq xidmətlərindən istifadə etməklə aqrar sahəni inkişaf etdirmək olar.

İkinci təklif keçmiş SSRİ-də olduğu kimi mexanikləşdirmə səviyyəsini orta səviyyədə saxlamaq, işsizliyin aradan qaldırılmasından ötrü daha çox fiziki qüvvəni cəlb etmək lazımdır.

Üçüncü variant isə kənd təsərrüfatını mövcud imkanlar şəraitində inkişaf etdirmək, əldə olunmuş vergiləri faizsiz kredit şəklində kənd təsərrüfatının mexanikləşdirilməsinə yönəltmək lazımdır.

Azərbaycanda mövcud iqtisadi durumu nəzərə alaraq, xarici investisiyaların respublikamıza axınını təşkil etmək, aqrar problemlərin aradan qaldırılması üçün kənd təsərrüfatı texnikalarını istehsal edən müəssisələr açmaq lazımdır. Aqrar sahədə əlverişli və səmərəli sayılan mini traktorların və onların ehtiyyat hissələrinin idxalını artırmaq və satışını təşkil etmək bu sahədə olan çətinliklərin aradan qaldırılmasına təkan ola bilər. Xarici firmalarla birgə müəssisələrin yaradılması, xaricdən ehtiyyat hissələrinin gətirilməsi və quraşdırılması bu sahədə ilk addım ola bilər. Mini traktorların istehsalı respublikamızın tələbatını ödəməklə yanaşı, yaxın qonşu ölkələrə onların ixracını təşkil etmək olar. Sonradan həmin ehtiyyat hissələrini respublikamızda istehsalına şərait yaratmaq olar. Bu işsizliyin aradan qaldırılmasına, kadrların ixtisasının artırılmasına aqrar mədəniyyətin yüksəlməsinə və maya dəyərinin azalmasına gətirib çıxarır.



## QLOBALLAŞMA PROSESİ VƏ AZƏRBAYCAN

K.İ.MUSTAFAYEV
*Bakı Dövlət Universiteti*

Müasir dünyanı səciyyələndirən baş amillərdən biri beynəlxalq münasibətlər sistemində son zamanlar çox sürətlə inkişaf edən qloballaşma prosesidir. Sosialist blokunun süqutu və nəticə etibarı ilə bipolyar düzəmin dəyişməsi bu prosesə xüsusi təkan vermiş, dövlətlərin əməkdaşlığı üçün yeni imkanlar yaratmışdır. Lakin, bu heç də o demək deyil ki, qloballaşma müasir sivilizasiyanın ixtirasıdır. İnsan tarixinin və taleyinin birliyi haqdı ideya tam aydınlığı ilə artıq antik fəlsəfədə səsləndirilmişdir. Dahi mütəfəkkir İmanuil Kant vahid dünya tərəfdarı olmüş və ümüdünya hökümətinin yaradılmasının zəruriliyini bildirmişdir.

Müxtəlif tədqiqatçılar qloballaşma prosesinin başlama tarixi, kəmiyyət və keyfiyyət meyarları, inkişaf perspektivləri haqda bir birindən kifayət qədər fərqlənən mülahizələr irəli sürür. Dünya siyasi fikrində bu cərəyanın tərəfdarları və əlehdarları arasındakı mübahisə müəyyən elmi məktəblərin formalaşması ilə nəticələnmişdir. Bunlar arasında İnqlabi dəyişikliklər, Təkamül yanaşmasının və Skeptisizm istiqamətlərinin tərəfdarlarını göstərmsək olar.

Mübahisələr doğuran başqa bir məsələ qloballaşma prosesinin vesternizasiya ilə nisbətidir. Müasir elmdə bu problem ilə əlaqədər iki yanaşma formalaşmışdır:

1. Qloballaşma vesternizasiyaya nisbətən daha geniş prosesdir. Bütün praktiki mənalarda modernizasiya prosesinə

bərabərdir. Bu cür nöqteyi-nəzəri müdafiə edən alimlər içərisində *A. Giddens, R.Robertson, M.Olbrou, U.Konolli* və başqalarını xüsusi ilə qeyd etmək lazım gəlir. Şərqi Asiya ölkələri inandırıcı şəkildcə sübut emişdir ki, modernizasiya imkanları vesternizasiyaya nisbətən daha güclüdür. Şərqi Avropanın nümunəsi bir daha sübut edir ki, industrializasiya çox halda vesternizasiyasız da mümkündür.

2. Qloballaşma modernizmin qlobal diffuziyasından başqa bir şey deyildir. Eyni zamanda qərb kapitalizmi və qərb institutların yayılması genişləndirilmiş vesternizasiyaya, hər şeydən əvvəl S.Aminin və A.Bentonun nəzəriyyəsinin müddəalarının tətbiqidir. Məsələn, Gilpin dünya beynəlmiləlləşməsini sadəcə olaraq genişlənməkdə olan amerikan dünya qaydalarının əlavəsi hesab edir. Amerikan nəzəriyəçisi N.Qleyzerin fikrincə, qloballaşma - qərb tərəfindən nizamlanan informasiya və əyləncə vasitələrinin ümumdünya miqyasındı yayılmasıdır ki, bu da öz növbəsində həmin informasiyanın daxil olduğu ərazilərin dəyərlərinə mühüm təsir göstərir[2].

Artıq aydın olduğu kimi, qloballaşmanın əlehdarları əsasən bu prosesin vesternizasiya ilə eyniləşdirir və onun qərbin inkişaf etmiş dövlətlərinin dünya üzərində hökmüranlığını təmin etməsi üçün istifadə etdiyini iddia edir. Lakin, biz belə hesab edirik ki, qloballaşma obyektiv tarixi-ictimai və müasir sivilizasiya üçün zəruri proses olduğundan ondan imtina etmək hazırkı dövrdə düzgün olmazdı. Əvəzində dövlətlər arasında ümumi inteqrasiyaya əsaslanmış və tək "qızıl miliardın" deyil bütün dünya inkişafının mövçud olan şəraitdə mümkün qədər bərabərliyini təmin edən



layihələr üzərində çalışmaq ehtiyacı duyulur. Dayanıqlı inkişaf konsepsiyası, U. Qannersin qloballaşmanın gələcək modelləri və Çeşkovun ümümdünya həyatının təşkili layihələri bu istiqamətdə atılmış ilk addımlar kimi səciyyələndirilə bilər. Lakin, tamami ilə aydındır ki, bu qətiyyən kifayət deyil və millətlərin maraqlarını təmin edən variantların tapılması və dünyada optimal birgəyaşayış mexanizmləri təşkil edilməsi üçün elmi araşdırmalar hələ uzun müddət və intensiv şəkildə davam etdirilməlidir.

Azərbaycan Respublikasının Avroasiya məkanının strateji əhəmiyyətə malik olan coğrafi mövqeyi, rasional dəyərlərə əsaslanan xarici siyasəti və demokratik meyarlara sadiqliyi, dövlətin qloballaşma prosesinə cəlb edilməsini təmin edir və onun ölkəmizə verdiyi üstünlüklərdən yararlanmağa geniş imkanlar yaradır. Bizə belə gəlir ki, qloballaşmanın dünyada subyektlər arasında keyfiyyətçə yeni münasibətlərin formalaşdırdığı dövrdə, Azərbaycanın bu proseslərdə iştirakı labüddür və, misal ücün, təklif edilən "Qafqaz evi" və ya MDB çərçivəsində regional inteqrasiya layihələri buna tam alternativ kimi qəbul edilə bilməz.

Eyni zamanda bunu da qeyd etmək lazımdır ki, dünyada geniş vüsət almış proses müsbət cəhətləri ilə yanaşı bir çox hallarda mənfi, milli mentalitetimizə və mədəniyyətimizə yad olan dəyərlər yayır, bu isə Azərbaycan xalqının özünəməxsusluğuna, cəmiyyətdə əsrlərdən bəri formalaşmış davranış modellərinə ağır zərbə vurur. Lakin, bu prosesi tək bu cür səciyyələndirmək onu artıq yuxarıda qeyd etdiyim vesternizasiya ilə eyniləşdirmək orlardı, halbuki qloballaşma anlayışı daha geniş məzmuna malikdir və bu heç də millət məfhumunun sonu demək deyil.

Bu gün Azərbaycanın qlobal dünyanın formalaşmasında və ümüminteqrasiya proseslərdə iştirakına böyük ehtiyacı var. Ancaq dövlətlərin sıx əməkdaşlığı, müxtəlif sivilizasiyaların dialoqu, xalqar arasında qarşılıqlı dözümlülük və anlaşma prinsiplərinə söykənən münasibətlərin inkişaf etməsi müasir zamanın ən boyük problemlərini həll edə bilər. Pozitiv məqam kimi beynəlxalq ictimayyətin diqqətini ətraf mühitin qorunmasına yönəlmiş qlobal ekoloqizasiya proseslərini göstərmək olar.

Sonda qeyd etmək istərdik kı, Azərbaycanın beynəlxalq iqtisadi layihələrdə iştirakı, nüfuzlu təşkilatlarda fəaliyyəti, dövlətin "Vətəndaş cəmiyyəti" formalaşması istiqamətində atdığı addımlar və sairə amillər ölkəmizin qlobal dünyada öznəməxsus yer tutacağına dəlalət edir. Düşünürük ki, yaranmış şərait Miili inkişaf strategiyasına məhz bu prizmadan yanaşılmasını labüdləşdirir.

## ВЛИЯНИЕ ОТРАСЛЕВОЙ СТРУКТУРЫ НА ДИНАМИКУ ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ РЕСПУБЛИКИ

Н.М.МУСТАФАЕВА
*Институт Экономики НАН Азербайджана*
*к.э.н., в.н.с.*

Перестроечные процессы продолжаются. Координаты мирового развития динамично изменяются в соответствии с требованиями современности. Объективно переходным экономикам необходимо ориентироваться на мирохозяйственные



приоритеты. Поскольку ведущим звеном рыночного механизма является конкуренция, открытость национальной экономики по-существу считается ее атрибутом и внешнеэкономические связи занимают все больше место в развитии отдельных стран. Стало быть, критерии конкурентноспособности на мировом рынке служат ориентирами для любой национальной экономики. Современный этап мирового развития характеризируются уселением процесса глобализации хозяйственной жизни, что прежде всего находит выражение в опережающих динамику производства темпах роста международного обмена товарами, услугами, капиталом. Уселение взаимозависимости национальных экономик в итоге приводит к формированию относительно целостной экономической системы, охватывающей множество стран. Однако степень и характер участия каждой страны в мирохозяйственном развитии зависит от ряда важных факторов: величины экономического потенциала, обеспеченности природными, трудовыми, финансовыми ресурсами, стадии технико-экономического развития, оптимальности отраслевой структуры.

За последние годы по Азербайджанской республике наряду с положительной тенденцией поступательных темпов роста основных социально-экономических показателей наблюдается еще большее опережение темпов роста внешнеэкономического оборота, характеризующее активизацию участия республики в мирохозяйственной деятельности. Азербайджан относится к тому числу стран, которые обладают значительным потенциалом природных и трудовых ресурсов, но отстающих от прогрессивных экономик по стадии технологического развития,

эффективности отраслевой структуры и уровню социальной обеспеченности большей части населения. Азербайджанская Республика вступила в трансформационный период с деформированной предшествуюшими десятилетиями структурой народного хозяйства, в которой преобладали отрасли, специализирующиеся на добыче сырья и первичной обработки и значительно меньшей долей отраслей, специализирующихся на выпуске конечной продукции. За годы переходного периода данная тенденция значительно усугубилась. Наличие этих структурных диспропорций и большая востребованность на мировом рынке продукции топливно-сырьевых отраслей значительно сдерживают возможности республики по повышению эффективности общественного, в частности промышленного производства, в котором повысилась доля добывающих отраслей и сократилась доля прогрессивных перерабатывающих отраслей. Однако при всей важности получения доходов от сырьепродажи необходимо уже с ближайшей перспективы ориентировать производство республиканской промышленности на развитие перерабатывающих отраслей с большей долей конечной продукции. Неоптимальная структура и низкоэффективный уровень производства сдерживают рост конкурентноспособности республиканской продукции, между тем как мирохозяйственные позиции любой страны в основном определяются ее конкурентноспособностью. В результате республика интегрируется в мировую экономику в качестве поставщика сырья и потребителя готовой продукции. Эти факторы непосредственно сказываются на характере внешнеэкономической деятельности республики, т.



к. структура и эффективность производства предобусловливают структуру и эффективность внешнеэкономических связей. Если сырьевая специализация является следствием деформированной структуры производства и экспорта, то импортная зависимость является следствием низкой конкурентноспособности отечественной экономики. Во внешнеэкономическом обороте почти за все годы переходного периода в республике импортная величина превышала экспортную, образуя отрицательное сальдо.

Динамика внешнеэкономического сальдо имеет скачкообразный характер, зависимый от уровня, соотношения и темпов роста импортной и экспортной продукции. За последние годы намечается тенденция опережения темпов роста экспортной величины. Так, 1997 г. экспорт на 40 проц. пункта опережал импорт, в 1999 г., соответственно, -на 57 проц. пункта, на 2000 г. -на 74 проц пункта. Особенно увеличилась экспортная продукция 2000 г., почти 2 раза превысив продукцию 1999 г. и образовавшая около 600 млн. долларов положительного сальдо. Однако, только минерально-сырьевая продукция в экспорте 2000г. составиля 85%, характеризуя сырьевывозящую структуру производства, составляя основу продажи за рубеж. Причем в 86% продукции экспорта приходится на дальнее зарубежье и 13%-на ближнее. Структура импорта более разнообразна: 31% занимают машины и оборудовании, 10,2%-продукция раст. происхождения, 10,5%-металлы, 8,5%-транспортные средства, 7,2%-продукции химической промышленности. В настоящее время 68% импорта приходится на страны дальнего зарубежья и 32%-на страны ближнего зарубежья. Экспорт в страны дальнего зарубежья в 6,4

раза больше, чем страны ближнего зарубежья, а импорт, соответственно 2 раза больше.

Требования экономического роста национальной экономики предполагают перераспределение природных, инвестиционных, трудовых, технологических ресурсов для развития отраслей потребительского сектора с конкурентноспособной продукцией. Для изменения роли Азербайджана в мирохозяйственных отношениях необходимы коренные макроструктурные изменения в реальном секторе экономики, активизирование предпринимательских сил, вследствие чего усилится социальная направленность и оптимизируется внешнеэкономическая деятельность в глобализирующемся экономическом пространстве.

## XARİCİ İQTİSADİ FƏALİYYƏTDƏN ƏLDƏ EDİLƏN GƏLİRLƏRİN AZƏRBAYCANDA VERGİYƏ CƏLB EDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

D.Ə.VƏLİYEV

*Azərbaycan Universiteti, iqtisad elmləri namizədi, dosent*

Xarici iqtisadi fəaliyyət aparılan zaman əldə edilən aktiv və passiv gəlirlərin vergiyə cəlb edilməsinin özünəməxsus və bir-birindən fərqli xüsusiyyətləri mövcuddur.

Azərbaycan Respublikasında beynəlxalq vergi münasibətlərində rezidentlik prinsipini həyata keçirmək üçün Vergi



Məcəlləsi ilə «rezident» və «qeyri-rezident» anlayışları 13.2.5. maddəsi ilə aşağıdakı kimi təsbit edilmişdir:

Aşağıda göstərilən tələblərin birinə cavab verən istənilən fiziki şəxs rezident hesab edilir:

– təqvim ilində üst-üstə 182 gündən artıq vaxtda həqiqətən Azərbaycan Respublikasının ərazisində olan;

– təqvim ili içərisində, yaxud bir təqvim ili ərzində xarici ölkədə Azərbaycan Respublikasının dövlət xidmətində olan;

– Azərbaycan Respublikasının ərazisində və xarici ölkədə (hər hansı birində) fiziki şəxsin olma müddəti 182 gündən artıq olmadıqda, həmin fiziki şəxs aşağıdakı ardıcıllıqla göstərilən meyarlarla Azərbaycan Respublikasının rezidenti sayılır:

– daimi yaşayış yeri;

– həyati mənafelərinin mərkəzi;

– adətən yaşadığı yer;

– Azərbaycan Respublikasının vətəndaşlığı;

Fiziki şəxs vergi ilində Azərbaycan Respublikasının ərazisində qaldığı son gündən etibarən bu vergi ilinin sonunadək olan dövr ərzində Azərbaycan Respublikasının qeyri-rezidenti sayılır, bu şərtlə ki, həmin şəxs bilavasitə növbəti vergi ilində Azərbaycan Respublikasının qeyri-rezidenti olsun;

Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq təsis edilən və sahibkarlıq fəaliyyətini həyata keçirən və ya Azərbaycan Respublikasında idarə edilən istənilən hüquqi şəxs.

Qeyri-rezident:

– Azərbaycan Respublikasının ərazisində diplomatik və ya konsulluq statusu olan şəxs və onun ailə üzvləri;

– Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçmiş beynəlxalq təşkilatın əməkdaşı və ya Azərbaycan Respublikasında xarici ölkənin dövlət xidmətini həyata keçirən şəxs və onların ailə üzvləri;

– məqsədi yalnız Azərbaycan Respublikasının ərazisindən keçməklə bir xarici dövlətdən digər xarici dövlətə keçmək olan şəxs;

– Göstərilən müddəalar Azərbaycan Respublikasının ərazisində sahibkarlıq fəaliyyəti göstərən şəxslərə aid edilmir;

– Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik imtiyazları və immunitetləri olan diplomatik nümayəndəliklər, konsulluq idarələri və xarici ölkələrin digər rəsmi nümayəndəlikləri, beynəlxalq təşkilatlar və onların nümayəndəlikləri, habelə sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan xarici təşkilatların və firmaların nümayəndəlikləri;

– rezident anlayışı ilə əhatə edilməyən digər şəxslər.

Mənbə və ya ərazi prinsipi ilə vergitutmanı həyata keçirmək üçün «Azərbaycan mənbəyindən əldə edilən gəlir» anlayışı Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.16 maddəsi ilə müəyyən edilmişdir. Həmin maddəyə görə Azərbaycan mənbəyindən gəlir aşağıdakılardır:

– Azərbaycan Respublikasında muzdlu işdən gəlir;

– Azərbaycan Respublikasında istehsal edilmiş malların istehsalçı tərəfindən təqdim edilməsindən gəlir;

– Azərbaycan Respublikasında malların təqdim edilməsindən, iş görülməsindən və xidmət göstərilməsindən gəlir;



– Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyə aid edilən sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir, o cümlədən belə daimi nümayəndəlik vasitəsilə təqdim edilmiş mallara (işlərə, xidmətlərə) aid edilə bilən eyni cinsli, yaxud bənzər (oxşar) malların (işlərin, xidmətlərin) təqdim edilməsindən, habelə daimi nümayəndəlik vasitəsilə həyata keçirilən fəaliyyətə aid edilə bilən fəaliyyətdən və ya ona oxşar fəaliyyətdən əldə edilmiş gəlir;

– Azərbaycan Respublikasındakı sahibkarlıq fəaliyyəti ilə əlaqədar;

– vergi ödəyicisinin borclarının onun kreditorları tərəfindən silinməsindən;

– Məcəllənin 114.7-ci maddəsinə uyğun olaraq gəlirə daxil edilmiş əsas vəsaitlərin təqdim edilməsindən;

– xərclərin Vergi Məcəlləsinin 141-ci maddəsinə uyğun olaraq kompensasiya edilməsindən və ya ehtiyatların azalmasından gəlir;

– rezident hüquqi şəxsdən dividend şəklində əldə edilən gəlir, həmçinin bu hüquqi şəxsdə iştirak payının satılmasından və ya başqasına verilməsindən əldə edilən gəlir;

– rezidentlərdən alınan faizlər şəklində gəlir;

– rezident tərəfindən ödənilən pensiya;

– Azərbaycan Respublikasının ərazisində daimi nümayəndəliyi və ya əmlakı olan şəxsdən alınan faizlər şəklində gəlir - həmin şəxsin bu faizlər üzrə borcu bu cür daimi nümayəndəlik və ya əmlakla bağlıdırsa;

– Azərbaycan Respublikasında saxlanılan və ya istifadə edilən əmlak üçün alınan royalti şəklində gəlir, yaxud Məcəllənin

13.2.23-cü maddəsində göstərilən və Azərbaycan Respublikasında saxalanılan və ya istifadə edilən əmlakın təqdim edilməsindən gəlir;

– Azərbaycan Respublikasında istifadə edilən daşınan əmlakın icarəyə verilməsindən əldə edilən gəlir;

– Azərbaycan Respublikasındakı daşınmaz əmlakdan əldə edilən gəlir, o cümlədən bu əmlakda iştirak payının təqdim edilməsindən gəlir;

– aktivlərin 50 faizindən çox olan hissəsi birbaşa və ya dolayısı ilə Azərbaycan Respublikasındakı daşınmaz əmlakdan ibarət olan müəssisənin səhmlərin və ya iştirak payının təqdim edilməsindən gəlir;

– rezidentin sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan əmlak təqdim edilməsindən əldə etdiyi digər gəlirlər;

– idarəetmə, maliyyə xidmətləri göstərilməsindən əldə edilən gəlir - bu gəlir rezident hüquqi şəxsin və ya qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisində yerləşən daimi nümayəndəliyi tərəfindən ödənilirsə, yaxud o, həmin müəssisə və ya onun daimi nümayəndəliyi ilə bağlanmış müqaviləyə əsasən əldə edilmişdirsə;

– Azərbaycan Respublikasında risqin sığortası və ya təkrar sığortası haqqında müqavilə üzrə ödənilən gəlir;

– Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya daşınmalar həyata keçirilərkən telekommunikasiya və ya nəqliyyat xidmətlərindən gəlir;

– Azərbaycan Respublikasındakı fəaliyyətlə bağlı meydana çıxan və Məcəllənin əvvəlki maddələrində əhatə edilməyən digər



gəlirlər. Bu maddəyə uyğun olaraq gəlirin mənbəyi müəyyən edilərkən gəlirin ödənildiyi yer, həmçinin onun birbaşa və ya dolayısı ilə ödənilməsi nəzərə alınmır. Passiv gəlirlərdən ödəniş mənbəyində vergi tutulması qaydaları Azərbaycan Respublikası Vergi Məcəlləsinin 122-125-ci maddələri ilə müəyyən edilmişdir:

Ödəmə mənbəyində dividenddən vergi tutulması Məcəllənin 122-ci maddəsi ilə aşağıdakı qaydada həyata keçirilir:

– rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

– dividendin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən həmin qaydaya uyğun olaraq vergi tutulmuşdursa, dividendi alan fiziki və hüquqi şəxslərin həmin gəlirindən bir daha vergi tutulmur.

– həmin gəlir yenidən dividend şəklində verilən zaman vergiyə cəlb olunmur.

Ödəmə mənbəyində faizlərdən vergi tutulması (maddə 123):

– rezident banklarına və ya qeyri-rezident bankların Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə kreditlər (ssudalar), depozitlər (hesablar) üzrə ödənilən faizlər istisna olmaqla, rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, gəlir Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

– Faizlərin faktiki sahibi fiziki şəxsdirsə, Məcəllənin 123.1-ci və 123.4-cü maddələrinə uyğun olaraq vergi tutulmuş faizlər həmin fiziki şəxslərə ödənildikdən sonra onlardan bir daha vergi tutulmur.

– Faizlərin faktii sahibi mənfəəti vergiyə cəlb olunan rezident müəssisədirsə və ya qeyri-rezidentin daimi nümayəndəliyidirsə, bu Məcəllənin 123.1-ci maddəsinə uyğun olaraq vergi tutulmuş faizləri alan həmin müəssisə və ya qeyri-rezidentin daimi nümayəndəliyi hesabladığı verginin məbləğini, ödəmə mənbəyində verginin tutulduğunu təsdiq edən sənədləri vermək şərti ilə bu mənbədə ödənilmiş verginin məbləği qədər azaldır.

– Həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlirdən ödəniş mənbəyindən 10 faiz dərəcəsi ilə vergi tutulur.

Ödəmə mənbəyində icarə haqlarından və royaltidən vergi tutulması (maddə 124).

– daşınan və daşınmaz əmlak üçün icarə haqqından, həmçinin rezidentin və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin ödədiyi və ya onun adından ödənilən royaltidə gəlir Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

– Fiziki şəxs – rezident Məcəllənin 124.1-ci maddəsinə uyğun olaraq vergi tutulan icarə haqqı və ya royalti aldıqda, tutulmuş vergi çıxılmadan icarə haqqının və ya royaltinin tam məbləğini öz gəlirlərinə daxil edir və hesabladığı verginin məbləğini ödəmə mənbəyində verginin tutulduğunu təsdiq edən sənədləri vermək şərti ilə bu mənbədə ödənilmiş verginin məbləği qədər azaldır.



– Rezident müəssisələrə və ya qeyri-rezidentlərin daimi nümayəndəliklərinə Azərbaycan Respublikasında ödənilmiş məbləğlər bu maddə üzrə vergitutma obyekti deyildir.

Qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması aşağıdakı qaydada həyata keçirilir:

– Qeyri-rezidentin Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan ümumi gəlirindən ödəmə mənbəyində xərclər çıxılmadan aşağıdakı dərəcələrlə vergi tutulur:

– dividend – Vergi Məcəlləsinin 122-ci maddəsinə uyğun olaraq;

– faizlər – Vergi Məcəlləsinin 123-cü maddəsinə uyğun olaraq;

– rezident müəssisənin və ya sahibkarın lizinq, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödəmələri, habelə riskin sığortasına və ya təkrar sığortasına dair müqaviləyə uyğun olaraq sığorta ödəmələri - 4 faiz;

– Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya beynəlxalq daşımalar həyata keçirilərkən rabitə və ya nəqliyyat xidmətləri üçün rezident müəssisəsinin və ya sahibkarın ödəmələri – faiz;

– rezident müəssisəsinin və ya sahibkarın aşağıdakı ödəmələrdən;

– muzdlu işlə əlaqədar alınan gəlirlər istisna olmaqla işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən gəlirlər o cümlədən Məcəllənin 13.2.16.2-ci, 13.2.16.10-cu, 13.2.16.11-

ci, 13.2.16.12-ci və 13.2.16.14-cü maddələrinə göstərilən xidmətlərdən alınan gəlir və Azərbaycan mənbəyində əldə edilən digər gəlirlər - 10 faiz;

– rezident müəssisəsinin və ya sahibkarın muzdlu işlə əlaqədar ödədiyi gəlir – Vergi Məcəlləsinin 101-ci maddəsində göstərilən dərəcələrlə;

– icarə haqları və royalti – Vergi Məcəlləsinin 124-cu maddəsinə uyğun olaraq.

– Bu maddənin məqsədləri üçün qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi tərəfindən və ya onun adından aparılan ödəmələr rezident müəssisənin ödəmələrinə bərabər tutulur.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrdə vergilərin aşağı dərəcəsi və ya vergilərdən tam azad olunma nəzərdə tutulduğu halda, ödəmə mənbəyində artıq tutulmuş vergi məbləği bu Məcəllənin 87.4-cü maddəsində müəyyən edilmiş qaydada geri qaytarılır.

Qeyri-rezidentin daimi nümayəndəliyindən mənfəət vergisindən əlavə olaraq bu daimi nümayəndəliyin xalis mənfəətindən həmin qeyri-rezidentin xeyrinə köçürdüyü (verdiyi) hər hansı məbləğdən 10 faiz dərəcə ilə vergi tutulur.

Məcəllənin 127-ci maddəsinə əsasən Rezidentin Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan mənbəyindən olmayan gəlirindən ödənilmiş gəlir vergisinin və ya mənfəət vergisinin məbləğləri Azərbaycanda vergi ödənilərkən nəzərə alınır.



Məcəllənin 127.1-ci maddəsinə uyğun olaraq nəzərə alınan məbləğ Azərbaycan Respublikasında həmin gəlirdən və ya mənfəətdən müəyyən edilmiş dərəcələrlə tutulan verginin məbləğindən çox olmamalıdır.

Vergi Məcəlləsində güzəştli vergi tutulan ölkələrdə əl-də edilən gəlir 128-ci maddə ilə müəyyənləşdirilmişdir.

Rezident güzəştli vergi tutulan ölkədə gəlir əldə edən qeyri-rezidentin nizamnamə fondunun 20 faizindən çoxuna bilavasitə və ya dolayısı ilə sahibdirsə, yaxud öz növbəsində onun səsvermə hüququ verən səhmlərinin 20 faizindən çoxunun sahibidirsə, rezidentin həmin gəliri onun vergi tutulan gəlirinə daxil edilir.

Güzəştli vergi tutulan xarici ölkə dedikdə, vergi dərəcəsi Vergi Məcəlləsində müəyyən edilmiş dərəcədən 2 dəfə və ya daha çox aşağı olan və ya maliyyə məlumatını, yaxud əmlakın faktiki sahibi və ya gəlir (mənfəət) götürən barədə sirri qorumaq imkanı verilmiş şirkətlər haqqında məlumatın məxfiliyinə dair qanunun mövcud olduğu ölkə başa düşülür.

Gəlirlərin qeyri-rezidentlərin xeyrinə bölüşdürülməsi zamanı vergitutmanın digər mühüm xüsusiyyətlərindən biri də odur ki, faiz ödəmələri və royaltiyə nisbətən mənfəətin dividend formasında ixracı daha yüksək vergiyə məruz qalır. Bütün bunlardan əlavə bir çox inkişaf etmiş dövlətlərin vergi qanunvericiliyinə əsasən faiz ödəmələri vergiyə cəlb olunan mənfəət hesablanarkən ümumi mənfəətdən çıxılır, çünki onların ödənilməsi müəssisənin ilkin öhdəliyidir. Belə ki, həmin müəssisənin kapitalına borc formasında investisiyalar qoyulur. Vergitutmanın bu xüsusiyyətindən gəlirlərin (mənfəətin) bölüşdürülməsi zamanı

vergilərin aşağı salınması məqsədilə firmadixili kreditləşmədə geniş istifadə olunur. Vergilərin minimallaşdırılması məqsədilə transmilli qrupun tərkibində passiv gəlirlərin bir formasının digər formaya çevrilməsi mümkündür.

Xarici iqtisadi fəaliyyətlə məşğul olarkən digər mümkün risklərlə (siyasi, kommersiya, valyuta və s.) yanaşı, həm də vergi risklərini də ayırmaq lazımdır. Vergi riski müəyyən ölkədə vergi siyasətinin dəyişməsi ilə, yeni vergitutma formalarının tətbiqi ilə, gəlir (mənfəət) vergisinin dərəcələrinin dəyişilməsi ilə, yeni gömrük rüsumlarının tətbiqi ilə, vergi güzəştlərinin ləğvi ilə və sair bu qəbildən olan hallar ilə əlaqədar ola bilər.

Vergi riskləri sığorta olunmur və tam şərti olaraq onları gözlənilən və gözlənilməyən risklərə bölmək olar. Gözlənilməyən risklər adətən, siyasi məsələlərlə bağlı olur. Gözlənilən riskləri isə ölkənin vergi siyasətindəki meyllərə əsasən qabaqcadan proqnozlaşdırmaq olur.

Ölkəmizin zəngin təbii sərvətləri, əlverişli iqlim şəraiti və yüksək ixtisaslı kadr potensialı xarici investorlara iqtisadiyyatımıza öz sərmayə qoyuluşlarını artırmaq üçün şərait yaratmışdır.

Statistik məlumatlara əsasən son yeddi ildə Azərbaycan iqtisadiyyatına 7,0 milyard ABŞ dollarından artıq xarici sərmayə qoyulmuşdur. Bunun böyük bir hissəsi neft sənayesinə, qalan hissəsi isə iqtisadiyyatın digər sahələrinə qoyulmuşdur.

Bu gün Azərbaycanda 775-dən çox xarici investisiyalı müəssisə fəaliyyət göstərir və ölkə üzrə bütün müəssisələrin ümumi sayında onların xüsusi çəkisi 5 faizdən artıq təşkil edir. 1999-cu ildə bu müəssisələrin istehsal etdikləri məhsulun və xidmətlərin



həcmi 2 trilyon 880 milyard manat (təxminən 720 milyon ABŞ dollarından artıq) olmuşdur.

Ötən illər ərzində dövlət büdcəsinə daxilolmalarda xarici investisiyalı müəssisələrdən ödənilən vergilərin xüsusi çəkisi də xeyli artmışdır. Əgər bu göstərici 1995-ci ildə cəmi vergi daxilolmalarına nisbətən 2,4 faiz olmuşdursa, 1999-cu ildə 23,6 faizə, 2000-ci ildə isə 21,7%-ə qədər yüksəlmişdir.

Təbii ki, xarici investisiyaların iqtisadiyyatımıza cəlb olunmasına təsir edən amillərdən biri də xarici investorlar üçün əlverişli vergi mexanizminin yaradılmasıdır. Dövlətin vergi siyasətinin başlıca istiqamətlərindən biri də məhz, ölkədə xarici investorların və iş adamlarının normal işləməsi üçün əlverişli iqtisadi şəraitin yaradılması, onlar üçün vergiqoymada müəyyən güzəştlərin nəzərdə tutulmasıdır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün vergi ödəyiciləri üçün eyni vergiqoyma şərtləri nəzərdə tutulmuş və ayrı-ayrı vergi ödəyicilərinə münasibətdə diskriminasiya halları yolverilməzdir. Xarici investisiyalı müəssisələr də yerli vergi ödəyiciləri kimi eyni vergilərin ödəyiciləridirlər və vergi qanunvericiliyində nəzərdə tutulmuş imtiyaz və güzəştlər onlara da şamildir. Bundan başqa, xarici hüquqi şəxslərin mənfəətinin investisiyaya yönəldilən hissəsi vergiyə cəlb olunmadan azaddır. Yuxarıda göstərildiyi kimi onların Azərbaycan Respublikasındakı mənbələrdən dividend və faizlər şəklində əldə etdikləri gəlirlər, habelə qeyri-rezidentin xeyrinə köçürülən hər hansı məbləğlər 10 faiz, nümayəndəlik yaratmadan Azərbaycan Respublikası ərazi-

sində iş və xidmətlərin göstərilməsindən əldə etdikləri gəlirlər – 15 faiz, lizinq əməliyyatları üzrə ödəmələr və sığorta ödəmələri – 4 faiz, beynəlxalq rabitə və beynəlxalq daşımalardan əldə etdikləri gəlirlər isə – 6 faiz dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur.

Eyni zamanda, Vergi Məcəlləsində Azərbaycan Respublikası ərazisində neft sazişləri əsasında karbohidrogen fəaliyyətini həyata keçirən xarici şirkətlər üçün xüsusi rejimli vergitutma mexanizmi nəzərdə tutulmuşdur. Bu şirkətlər üçün vergiqoyma məsələləri Azərbaycan Hökuməti ilə podratçı-xarici şirkətlər arasında bağlanmış müvafiq protokollarla tənzimlənir. Bu protokollara əsasən Azərbaycan Respublikası ərazisində karbohidrogen fəaliyyətini həyata keçirən xarici subpodratçı şirkətlər gördükləri iş və xidmətlərə görə əldə etdikləri gəlirlərdən yalnız ödəniş mənbəyində tutulan mənfəət vergisinin ödəyiciləridirlər. Bu verginin dərəcələri neft konsorsiumlarından asılı olaraq müəyyən edilmiş və 5 faiz, 6,25 faiz və ya 8 faiz təşkil edir. Ödəniş mənbəyində tutulan mənfəət vergisindən başqa, bu şirkətlər karbohidrogen fəaliyyətindən əldə etdikləri gəlirlərindən respublika vergi qanunvericiliyində müəyyən edilmiş digər vergiləri ödəməkdən azaddırlar. Neft sazişləri üzrə podratçı tərəf sayılan xarici şirkətlərin karbohidrogen fəaliyyətindən əldə etdikləri gəlirləri isə həmin sazəşlərlə müəyyən olunan dərəcələrlə yalnız mənfəət vergisinə cəlb olunmalıdırlar.

Hazırda Azərbaycan Respublikasının Vergi Məcəlləsində ölkəmizdə xarici investorların və iş adamlarının normal fəaliyyəti



üçün vergiqoymada kifayət qədər imtiyaz və güzəştlər nəzərdə tutulmuşdur.

Beləliklə, yuxarıda göstərildiyi kimi beynəlxalq vergitutma milli vergitutmaya nisbətən daha mürəkkəbdir. Qlobal iqtisadiyyatda vergi ödəyicisinin rezident olduğu ölkə ilə gəlir mənbəyi olan ölkənin maraqları üst-üstə düşür. Bu sahədə müvafiq sazişlər imzalamış bütün tərəflər üçün və ayrı-ayrı vergi ödəyiciləri üçün məcburi olan beynəlxalq hüquq normaları mövcuddur.

Beynəlxalq iqtisadi münasibətlərdə vergilər həm xarici iqtisadi fəaliyyətin tənzimlənməsi vasitəsi kimi, həm də dövlət gəlirlərinin əsas mənbələrindən biri kimi çıxış edərək sahibkarlar üçün əsas xərc amillərindən biridir. Sahibkarlar beynəlxalq vergi planlaşdırmasının əsas mexanizmlərindən istifadə edərək, öz işgüzar fəaliyyətləri zamanı müxtəlif vergi risklərini nəzərə almalıdırlar. Beynəlxalq ikiqat vergitutma fiziki və hüquqi şəxslər üçün əlavə vergi yükü olaraq, yalnız bütün dövlətlərin vergi siyasətlərinin bir-biri ilə uzlaşdırılması yolu ilə tənzimlənə bilər. Müasir dünyada vergi harmonikləşdirməsinə hələ tam nail olmaq mümkün olmadığından, beynəlxalq səviyyədə vergitutma probleminin yeganə həlli yolu ikiqat vergitutmanın aradan qaldırılması sahəsində konvensiyaların bağlanılmasıdır. Eyni zamanda hər bir ölkə birtərəfli qaydada az və ya çox dərəcədə öz rezidentləri üçün ümumi vergi məbləğinin minimallaşdırılmasını təmin edə bilər.

Xarici iqtisadi fəaliyyət zamanı nəzərə alınmalı olan əsas vergi növləri bunlardır: hüquqi şəxslərin mənfəət vergisi, fiziki şəxslərin gəlir vergisi, kapital və əmlak vergisi, əlavə dəyər vergisi,

gömrük rüsumları və gəlirin (mənfəətin) bölüşdürülməsindən vergilər. Digər bərabər şərtlərlə birlikdə vergitutmada daha güzəştli şərtlər təklif edən ölkələr kapital və əmtəə resurslarının öz ərazilərinə axmalarına şərait yaradırlar. Ölkənin vergi iqlimi (vergi sistemi tipi, əsas vergi növləri və onların dərəcələri, vergi güzəştlərinin xarakteri, beynəlxalq vergi sazişlərinin mövcudluğu) hazırda investisiya qərarlarının qəbul olunmasında ən başlıca müəyyənedici amildir. Bu, daha yüksək vergi dərəcələri tətbiq edən ölkələri öz vergi siyasətlərinə müvafiq dəyişikliklər etmək məcburiyyətində qoyur, əks halda bu ölkələr vergi sığınacaqları ilə rəqabət apara bilməzlər.

Sonda onu qeyd etmək lazımdır ki, dövlətlə vergi ödəyicisi arasında davam edən qarşıdurma prosesi indi yeni - beynəlxalq inkişaf mərhələsinə qədəm qoymuşdur.

## AZƏRBAYCANIN BEYNƏLXALQ İQTİSADİ İNTEQRASİYA PROSESİNDƏ DAXİLİ İSTEHSALIN GÜCLƏNDİRİLMƏSİNİN ROLU

Ç.A.İBRAHİMLİ

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

Azərbaycanın xarici iqtisadi əlaqələrinin möhkəmləndirilməsi və inkişafı müasir dövrünün ən aktual məsələlərindən biridir. 1992-ci ildə qəbul edilmiş «Xarici investisiyaların qorunması haqqında» qanun bu istiqamətdə atılan mühüm addımlardan biridir. Siyasi-iqtisadi sabitlik, qanunverici infrastrukturun, beynəlxalq kommunikasiyanın mövcudluğu, xammal ehtiyatları, işçi qüvvəsinin bolluğu sərmayə qoyulması üçün münasib şərait hesab olunur. Bunun nəticəsidir ki, 1995-ci ildə Azərbaycan 67 ölkə ilə iqtisadi əlaqələr qurmuşdusa, 2001-ci il üçün bu göstərici 123-ə çatmışdır. Ümumilikdə 2001-ci il üçün xarici ticarət dövriyyəsi 3,8 milyard ABŞ dolları təşkil etmişdir. Lakin bu da nəzərə alınmalıdır ki, Azərbaycanın hazırda xarici iqtisadi əlaqələrinin inkişafında əsas amil kimi neft sektoru çıxış edir. Respublikaya xarici ölkə şirkətləri tərəfindən qoyulan sərmayə və kreditlərin əksər hissəsinin bu sahəyə yönəldilməsi milli iqtisadiyyatın digər vacib istehsal sahələrinin inkişafını məhdudlaşdırır.

Hazırda bütün dünyada gedən qlobal proseslər müstəqil bir dövlət kimi Azərbaycana təsir etməyə bilməz. Demokratik bir ölkə kimi Azərbaycan üçün bu təbii bir prosesdir. Lakin bu zaman Azərbaycanın spesifik xüsusiyyətləri də nəzərə alınmalı, əsas istiqamət kimi daxili istehsalın gücləndirilməsi təmin olunmalıdır. Xarici ölkələrlə iqtisadi əlaqələrin qurulması və inkişafı ilə yanaşı, yerli və birgə müəssisələrdə ölkə əhalisinin istehlak mallarına olan tələbatını ödəmək üçün yüksək keyfiyyətli məhsul istehsalının artırılması da diqqət mərkəzində olmalıdır. Bunun üçün isə yeni yaradılan və hazırda fəaliyyət göstərən istehsal müəssisələrində müasir texnoloji nailiyyətlərdən istifadə olunması vacibdir. Danılmazdır ki, müasir dövrdə yeni texnologiyaların iştirakı olmadan dünya miqyasında rəqabətə davamlı məhsul istehsalı qeyri-mümkündür. Ona görə də çalışmaq lazımdır ki, istehsal edilən məhsullar mövcud dünya standartlarına uyğun olsun. Bu isə ciddi

maliyyə vəsaitləri olmadan mümkün deyil. Heç kəsə sirr deyil ki, hazırda respublikada iri istehsal obyektlərinin əksəriyyətinin fəaliyyəti qeyri-qənaətbəxş vəziyyətindədir. Vaxtilə böyük istehsal gücünə malik müəssisələrin bir çoxu ya işləmir, ya da cüzi məhsul istehsalı edəcək öz fəaliyyətlərini dayandırmamağa çalışırlar.

Respublikaya daxil olan sərmayələrin əsasən neft-qaz hasilatı sahələrinə yönəldilməsi respublikada istehsalı mümkün olan digər məhsulların xarici ölkələrdən idxalına şərait yaradır. Bu da nəzərə alınmalıdır ki, idxal olunan məhsullar heç də həmişə yüksək keyfiyyətli olmur. Bu cəhətdən belə məhsulların respublikada müasir texnologiya əsasında, dünya standartlarına uyğun istehsalının təşkili daha məqsədəuyğundur. Respublikaya yalnız o mallar kənardan gətirilməlidir ki, onların istehsalı bizdə yoxdur, ya da bir sıra səbəblərdən istehsalı məqsədəuyğun deyil. Azərbaycanda yüksək keyfiyyətli məhsul istehsalının təşkili və bu məhsulların dünya bazarına çıxarılması hazırkı zamanda günün ən aktual məsələlərindən biridir.

1995-2001-ci illər ərzində bir sıra istehsal sahələrində artımın müşahidə olunması müsbət bir hal kimi qiymətləndirilə bilər. Qeyd olunan dövrdə respublikada ət, süd, yağ, yumurta, yun məhsulları istehsalında 30-40% artım müşahidə olunmuşdur ki, bu da son nəticədə respublikaya digər ölkələrdən ərzaq idxalının 42%-dən 16%-ə qədər enməsinə səbəb olmuşdur. Ümumilikdə 2001-ci il üçün əvvəlki ilə nisbətən kənd təsərrüfatı məhsulları istehsalında 11%, sənaye mallarında 5,1%, neft sənayesində 4%, yeyinti sənayesində 7,6%, maşınqayırmada 25%, tikinti materialları istehsalında 85% artım qeyd olunmuşdur.



Hazırda respublikada istehsal sahələrinin bərpası üçün sərmayə yatırımları və uzun müddətli, aşağı faizlə kredit ayırmalarının olması çox vacibdir. Həm də bu məsələyə xüsusi diqqət yetirilməsi çox vacibdir ki, sərmayə qoyulan və kredit alan istehsal müəssisələri tamamilə xarici bank və təşkilatlardan asılı vəziyyətə düşməsinlər, ölkənin daxili potensial imkanları hesabına öz fəaliyyətlərini qursunlar. Çünki dünya təcrübəsindən məlumdur ki, yüksək faizlə kreditlərin qəbulu sonradan xüsusilə yeni inkişaf yoluna düşmüş ölkələrdə bir sıra problemlərin yol açmasına səbəb olur. Bu cəhətdən «Kredit ittifaqları haqqında Azərbaycan Respublikası qanunu»nun qəbulu bu istiqamətdə atılan çox ciddi bir addımdır. Regionlarda artıq yaradılmaqda olan bu ittifaqlar sahibkarlara maliyyə mənbəyi olmaq nöqteyi-nəzərdən çox vacibdir. Çünki respublikaya daxil olan sərmayə və ayrılan kreditlərin əksər hissəsinin Abşeron yarımadasında cəmlənməsi respublikanın digər rayonlarının iqtisadi inkişafını ləngidən əsas amillərdən biridir. Regionlarda yeni istehsal sahələri yaradılarkən çalışmaq lazımdır ki, ölkənin daxili xammal mənbələri və işçi qüvvəsindən istifadə olunsun. Dövlət tərəfindən belə müəssisələrə maliyyə vəsaitlərinin ayrılması daxili istehsalın dirçəldilməsi, bu müəssisələrin fəaliyyətinə dövlət nəzarətinin gücləndirilməsi baxımından diqqətəlayiqdir. Bu cəhətdən «Kredit təminatı fondu»nun yaradılması da vacib addımdır. Bu işi hazırda fəaliyyətdə olan «Sahibkarlığa kömək fondu»nun vasitəsilə həyata keçirmək mümkündür.

Respublikada yerli və ya idxal olunmuş xammal hesabına tam istehsal gücü ilə işləyib, daxili bazarla yanaşı başqa ölkələrə də

məhsul ixrac edən, özünə xarici bazarda dayaq qazana bilən müəssisələrə kredit verilməli, gömrük rüsumunun ödənilməsində güzəştlər edilməlidir. Belə münasibət şübhəsiz ki, müəssisələri istehsal güclərindən səmərəli istifadə etməklə yanaşı, həm də rəqabət qabiliyyətli, yüksək keyfiyyətli məhsul istehsal etməyə sövq edəcəkdir. Respublika iqtisadiyyatındakı əvvəlki əsas istiqamətin- ilkin xammal istehsalçısı olub, hazır məhsulu kənardan almaq meylinin bu gün də saxlanması ölkədə daxili istehsalın inkişafına mane olan əsas səbəblərdəndir.

## BAKI-TBİLİSİ-CEYHAN LAYİHƏSİ RƏQABƏTƏ TAB GƏTİRƏN LAYİHƏDİR

V.A.ƏLİYEV

*Azərbaycan Dövlət İqtisad Universiteti*

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsinin" imzalanması müstəqil Azərbaycanın yeni neft strateqiyasının başlanğıcıdır.

Əgər Azərbaycan Respublikasının Konstitusiyası müqəddəs qanunlarımızı, vətəndaşların hüquq və vəzifələrini təsbit edirsə "Əsrin müqaviləsi", Azərbaycan neftinin dünya bazarına çıxması xalqımızın öz sərvətlərinin sahibi olduğunu, taleyini özü müstəqil həll etdiyini, respublika iqtisadiyyatının dünyaya inteqrasiyasını bir daha təsdiqləyir. Bu gün "Əsrin müqaviləsi" inamla addımlayır. Qarşıya çıxan maneələri inam və iradə ilə dəf edərək, görülən işin xeyirxah və gərəkli olduğunu dərk edərək sabaha gedir. "Əsrin



müqaviləsi" ilə yanaşı uzun müddətdir ki, neft strateqiyasının uğurlarını xarakterizə edən amillər içərisində neftin nəqli məsələsi mühüm yer tutur. Çünki çıxarılan neftin dünya bazarına ixracı üçün neft kəmərlərinin mövcudluğu mühüm şərtlərdən biri kimi qiymətləndirilir. Məlumdur ki, Azərbaycan neftinin dünya bazarına nəqli hal-hazırda iki marşrut 27 oktyabr 1997-ci ildən istifadəyə verilən, uzunluğu 1.411 km, illik gücü 5,75 milyon ton olan Bakı-Novorossiysk neft kəməri (Şimal marşrutu) və 17 aprel 1999-cu ildən istifadəyə verilən, uzunluğu 850 km, illik gücü 5,75 milyon ton olan Bakı-Supsa neft kəməri (Qərb marşrutu) vasitəsilə həyata keçirilir.

XXI əsrdə Azərbaycanda neft hasilatının artan istiqamətdə hərəkət edəcəyini nəzərə alsaq, yuxarıda göstərilən neft kəmərlərinin neftin dünya bazarlarına ixracı üçün kifayət etməyəcəyinin şahidi oluruq. Məhz buna görə də, Əsas İxrac Boru Kəməri probleminin istər siyasi, istərsə də iqtisadi baxımdan Azərbaycanın mənafeyinə tam cavab verən şərtlərlə həlli Azərbaycanın neft diplomatiyasının qələbəsi kimi qiymətləndirilməlidir. Həm nəzarət həm də idarəetmə hüququ Azərbaycanın ixtiyarında olan, 2004-cü ildən fəaliyyətə başlaması planlaşdırılan, ümumi dəyəri 2,4 milyard ABŞ dolları, ümumi uzunluğu 1730 km, Türkiyə ərazisində – 1037, Azərbaycan ərazisində - 463 km və Gürcüstan ərazisində – 230 km olan sutkada 1 milyon barel, illik gücü 50-60 milyon ton olan (1 milyon barel x 159 litr x 366 gün = 58 milyon) Bakı-Tbilisi-Ceyhan Əsas İxrac boru kəməri XXI əsrdə Azərbaycanın müstəqilliyini qoruyub saxlanması və möhkəmlənməsi üçün mühüm vasitələrdən biridir.

Bu strateji boru vasitəsilə dünya bazarına ixrac olunacaq Azərbaycan nefti respublikamıza milyardlarla ABŞ dolları həcmində vəsaitin daxil olması ilə nəticələnəcəkdir ki, bu da qeyri-neft sektorunun inkişafına, işsizlik probleminin həllinə, bir sözlə Azərbaycan iqtisadiyyatının inkişafına və əhalinin sosial vəziyyətinin yaxşılaşmasına zəmin yaradacaqdır.

Qeyd etmək istərdim ki, yaxın gələcəkdə Azərbaycanda neft hasilatının 60 milyon ton, qaz hasilatının 35 milyard kub metr olacağı gözlənilir. Bu göstərici Azərbaycanın OPEK-ə daxil olan ölkələrin alternativinə çevrilməsinə şərait yaradacaqdır. Bu fakta əsaslanaraq XXI əsrdə istər iqtisadi, istərsə də siyasi baxımdan dünya dövlətləri arasında Azərbaycanın mövqeyinin möhkəmlənəcəyini demək mümkündür.

Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri artıq həqiqətə çevrilməyə başlamışdır.

Bakı-Tbilisi-Ceyhan strateji boru kəmərinin tikintisindən sonra Azərbaycan neftinin dünya bazarında daha geniş yer tutacağına və Azərbaycan xalqının yeni-yeni nəsilləri üçün firavan həyat yaradacağına inam daha da artır.

Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin "Bakı-Tbilisi-Ceyhan "strateji boru kəmərinin tikintisinin başlanması Azərbaycan üçün böyük hadisə olcaqdır fikri yuxarıda qeyd olunanları bir daha təstiqləyir və gələcəyə ümidlə baxmağa əsas verir.

Neft bizim üçün məqsəd yox, güclü iqtisadiyyat yaratmağın vasitəsi olmalıdır.



# QLOBALLAŞMA VƏ AZƏRBAYCANDA AZAD İQTİSADİ ZONALAR YARADILMASI MƏSƏLƏLƏRİ

Ə.Z.HƏSƏNOV

*Azərbaycan MEA İqtisadiyyat İnstitutu, iqtisad elmləri namizədi*

XX əsrin axırı XXI əsrin əvvəli dünya iqtisadiyyatında böyük dəyişikliklərlə xarakterizə olunur. Elmi Texniki İnqilabın yeni mərhələsi, kapital axınının beynəlmiləlləşməsi iqtisadi inkişaf modellərin transformasiyasına gətirib çıxarır. Ticarət və maliyyə bazarlarının liberallaşmasının güclənməsi yeni perspektivlər açır və həm də yeni problemlər yaradır.

Bir sıra dünya ölkələrinin təcrübəsi göstərir ki, onların dünya iqtisadiyyatına səmərəli inteqrasiyası, ölkənin və onun qarşısında duran aktual sosial-iqtisadi problemlərin həlli üçün azad iqtisadi zonaların (AİZ) yaradılması mühüm rol oynaya bilər.

Respublikada belə zonaların yaradılması üzrə iş hələ 1994-cü ildə BMT-nin İnkişaf Proqramı ilə başlanmış (Sumqayıt şəhərində) və təəssüf ki, 1999-cu ildə məlum səbəblər üzündən dayandırılmışdır. AİZ-n yaradılması işində ən başlıca məsələ normativ-hüquqi aktlar paketinin, xüsusilə «AİZ-r haqqında» qanunun hazırlanmasıdır. Bu qanun üzrə iş 1997-ci ildə Milli Məclisdə ikinci oxunuşdan sonra dayandırılmışdı. 2001-ci ildə yeni yaranan İqtisadi İnkişaf isə bu qanun üzrə işi bərpa etmişdir.

1994-cü ildən MDB dövlətləri arasında Azad Ticarət Zonası haqqında müqavilənin bağlanması üzrə işlər gedir (1994-cü ildən Saziş imzalanıb).

Neft kontraktlarının imzalanması, Əsas İxrac Kəmərinin tikintisinə hazırlıq, respublikamızın ən iri dövlətlər – ABŞ və RF-ı ilə dəstəklənməsi Azərbaycanın dünya arenasında rolunun və respublikaya inam reytinqinin artmasına gətirib çıxarır. Nəticədə iqtisadiyyatımızda investisiyalar axını artır. Vəzifə ondan ibarətdir ki, onları neft sektorunun dirçəlməsinə, ixracyönümlü istehsalın inkişafına istiqamətləndirmək. Buna isə AİZ-n yaranması ilə nail olmaq olar.

Beş Xəzəryanı dövlətlərin iqtisadi inteqrasiyasının imkanlarından istifadə edib AİZ-n müxtəlif növlərini yaratmaq və inkişaf etdirmək mümkündür.

TRACEKA proqramının işlənməsi, Bakı dəniz limanının yenidən qurulması, Binə hava limanının tikilməsi və orada yük terminalının yaranması, dəmir və avtomobil təsərrüfatında yeniləşmə böyük miqdarda yük axınının imkanlarına təkan verəcək. Bu da AİZ-n normal işləməsinə zəmin yaradacaqdır.

Sahilyanı iqtisadi zonanın yaradılması şəhər və digər yaşayış məntəqələrinin üfüqi inteqrasiyasının inkişafına və ümumi səylərlə elm və texnika, insan və televiziya, elektronika, xarici avadanlıq, yerli istehsal, gəmiqayırma, dənizkənarı zonanın inkişafı, ətraf mühitin qorunması sahəsində əməkdaşlıq şəbəkəsinin yaradılmasına kömək edə bilər.

AİZ-n yaradılması və inkişafı sahəsində nəzərə çarpacaq uğurları olan ölkələrin təcrübəsi göstərir ki, onlara investisiyanın



əhəmiyyətli hissəsini digər ölkələrin vətəndaşı olan yerli millətin nümayəndələri qoymuşlar. Ona görə də, fikrimizcə, azərbaycanlı iş adamları, habelə xaricə axmış kapitalların və başqa ölkələrdə işləyənlərin vəsaitinin cəlb olunması üçün əlavə səmərəli şərait yaradılması zəruridir.

Hesab edirik ki, maliyyə vəsaiti çatışmazlığını nəzərə alaraq, respublikanın ayrı-ayrı regionlarında 1-2 $km^2$ sahəlik meydançalarda nöqtəli istehsallar yaratmaq olar.

## АГРАРНАЯ СФЕРА СТРАНЫ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

Г.Г. ШАРИФОВ
*Бакинский филиал ДГУ*

При разработке и корректировке агропродовольственной политики Азербайджана необходимо учитывать современные тенденции развития мировых продовольственных рынков. Наибольшее влияние на формирование этой оказывать процессы глобализации и либерализации мировой экономики. Процесс отказа от регулирования Агропродовольственных рынков возглавляет Всемирная торговая организация (ВТО). Сейчас полноправными участниками ВТО являются 136 государств, более 30 стран имеют статус наблюдателя на различных стадиях присоединения. На страны - участницы ВТО приходится 92% всей мировой торговли товарами и услугами.

Вступление Азербайджана в ВТО – одна из центральных проблем экономической политики в ходе усиления процессов глобализации. Обсуждение ее в прессе, а часто и профессионалами фокусируется на узком круге вопросов, связанных с выбором конкретных условий вступления, а именно, определения величины тарифов и субсидий по отдельным товарам или группам товаров. Вступление в ВТО приведет к гораздо более глубоким изменениям в экономике, чем открытие конкретных рынков, поэтому требуется более широкий взгляд при анализе его необходимости и последствий.

Укоренилось мнение, что вступление в ВТО откроет рынки дешевым импортным сельскохозяйственным товарам, с которыми отечественные продукты конкурировать не смогут. Нашему сельскому хозяйству будет нанесен огромный урон, что приведет к снижению уровня жизни сельского населения и усилению зависимости страны от импорта продовольствия.

Однако на наш взгляд, для подъема аграрного сектора нужно не защищать его от конкуренции, а проводить серьезные институциональные изменения, в частности, формировать системы кредитования и страхования сельскохозяйственных производств. Средства на развитие села должны вкладываться в первую очередь в инфраструктуру, стоит подумать о поддержке вновь возрождающихся машинно-тракторных станций, создании межхозяйственных семенных фондов, об улучшении транспортной системы.

Вступление страны в ВТО неизбежно – в современном мире невыгодно и бессмысленно сопротивляться глобализации. В



то же время важно понимать, что это означает не только снижение тарифов, речь идет о гораздо более существенных последствиях для экономики и страны в целом. Причем выгоды от вступления в ВТО определяются как условиями, которые Азербайджан сможет согласовать в ходе соответствующих переговоров, так и тем, насколько глубоко она сможет реформировать свою экономику еще до вступления в эту организацию.

## AZƏRBAYCANDA MİQRASİYA PROSESİNİN TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ

R.S.ƏLİYEVA

*Azərbaycan Universiteti*

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra yeni sosial-iqtisadi münasibətlərin formalaşması bir sıra yeni münasibətlərin, o cümlədən əmək miqrasiyası proseslərinin yaranmasına səbəb olmuşdur. Miqrasiya prosesi Respublikanın hazırki vəziyyətində xüsusi rol oynayaraq əhalinin və əmək ehtiyatlarının yerləşdirilməsinə və bölüşdürülməsinə bilavasitə təsir göstərir. Siyasi, iqtisadi və sosial sahələrdə nəzərə çarpan nailiyyətlərə baxmayaraq, Azərbaycan hələ də uzun müddət ərzində davam edən Dağlıq Qarabağ münaqişəsinin, bazar iqtisadiyyatı və demokratiyaya keçidin törətdiyi böyük

problemlərlə üzləşməkdədir. 1996-cı ildən etibarən iqtisadi inkişaf sahəsində müəyyən tərəqqi müşahidə olunsa da, ölkədəki işsizlik səviyyəsi ciddi narazılıq olaraq qalır.

Azərbaycanda iş qüvvəsi miqrasiyası mərhələsi sistemli olaraq 70-80-ci illərdən başlayaraq inkişaf etmişdir. Lakin bu gün miqrasiya prosesinin inkişaf istiqaməti ümumi miqrasiya siyasətinə əsaslanaraq normal tənzimlənməni tələb edir. Dövlət tərəfindən miqrasiya proseslərinin tənzimlənməsi isə Azərbaycan Respublikasının apardığı sıx miqrasiya siyasətindən bilavasitə asılıdır. Miqrasiya siyasətinin geniş ölçüdə götürülərək əsas xətti təşkil edir və dövlətin birbaşa miqrasiyanı tənzimlənmə mexanizmlərinə əsaslanır. Miqrasiya siyasətinin ənənəvi istiqaməti – immiqrasiya nəzarətinə uyğun olaraq əhalinin inteqrasiya (qloballaşma) prosesində iştirakını təmin edir və bütün aktiv vəsaitlərin bu sistemə daxil olunması üçün cəlbedici vasitələrdən birinə çevrilir. Bu vəsaitlər isə xarici yardımdan, birbaşa xarici investisiyaların həcmindən, xarici ticarət siyasətinin ölçüsündən asılı olaraq ölkədən emiqrasiya saldosunun müsbət olması ilə nəticələnir. Eyni zamanda ölkəyə yeni əhali kütləsinin axınına da yol açır.

Miqrasiya siyasətinin tənzimlənməsi istiqamətində Azərbaycan Respublikasında immiqarsiya nəzarəti gücləndirilmiş ölkəyə qeyri-qanuni yollarla miqrasiyasının azaldılması üçün kütləvi tədbirlər görülməlidir. Bu istiqamətdə «immiqrasiya



kvotası haqqında» qəbul olunmuş əsas yardımçı vasitələrdən birinə çevrilməlidir. Son zamanlar arzu olunmayan emiqrantların ölkəyə daxil olması və Azərbaycandan tranzit ölkə kimi istifadə olunması qoyulmuş tələblərə əməl olunmamasının nəticəsi kimi də qiymətləndirilməlidir.

Miqrasiya siyasətinin tənzimlənməsində immiqrasiya nəzarətinin rolu əvəzolunmazdır və bu həm də ölkədə iqtisadi dirçəlişin nəticələrindən asılı olaraq təsiredici amillərdən biri kimi də nəzərə çarpdırılmalıdır.

İmmiqrasiya nəzarəti iqtisadi cəhətdən aşağıdakı göstəricilərin əsasında miqrasiya proseslərinin Azərbaycan Respublikasında tam idarə olunmasına şərait yaradacaqdır. Xarici yardım və xarici investisiyaların respublikaya axını xarici ticarətin liberallaşdırılmasına yol açaraq ixracat gəlirlərini artırılmasına səbəb olacaqdır. Eyni zamanda miqrantların pul köçürmələri ölkə ərazisindəki məcburi köçkünlərə edilən humanitar yardımlar miqrasiya proseslərinin idarə olunmasına kömək edəcəkdir.

Azərbaycan Respublikasında miqrasiya siyasəti beynəlxalq səviyyəyə uyğun olaraq həm milli, həm də ümumdünya standartlarına uyğun həyata keçirilərək inteqrasiya qruplaşması amillərin nəzərə alınmasına diqqət yetirilməlidir. Beynəlxalq qloballaşma şərtlərinə uyğun olaraq kooperasiyalaşma sözsüz olaraq dövlətlərarası əhali köçünün idarə olunmasına təsir göstərir.

Son illərdə Azərbaycan Respublikasına xarici investisiyaların axını xarici ticarətin liberallaşmasına səbəb olaraq iş qüvvəsi miqrasiyasının getdikcə tənzimlənməsinə və müxtəlif məhdudiyyətlərin həyata keçirilməsinə təsir göstərəcəkdir.

Aydındır ki, Respublikada miqrasiyanın əsas səbəbləri – iqtisadi çətinlik, aşağı həyat səviyyəsi, kütləvi işsizlik, müharibə və s.-dir. Respublikada demokratik sivil cəmiyyətin qurulması istiqamətində həyata keçirilən sistemli tədbirlər gələcəkdə miqrasiya saldosunun nizamlanmasına yardım edəcəkdir. Bu isə ölkədə (yaradılan) işgüzar əməkdaşlıq mühitinin yaradılmasına uyğun olaraq iştisadi və sosial infrastrukturun yaxşılaşmasına, müəssisələrin səmərəli işləməsinə, iqtisadi göstəricilərin stimullaşdırılmasına, iş yerlərinin yaradılmasına, gəlirlərin artmasına və s. səbəb olaraq miqrasiya siyasətinin tənzimlənməsi və idarə olunmasına şərait yaradacaqdır. Lakin Azərbaycandan emiqrasiya axınının ölçüsü və dinamikası sübut edir ki, hal-hazırda bu ölkəmiz üçün müsbət prosesdir və işsizlik səviyyəsinin nisbətən aşağı düşməsinə səbəb olaraq disbalansın yaranmasına kömək edən vasitələrdən biridir. Bütün bunlara əsasən müxtəlif tənzimləyici tədbirlərin həyata keçirilməsinə baxmayaraq miqrasiya prosesi çox mürəkkəb bir prosesdir və burada iqtisadi, sosial və s. amillər olsa da daima idarə olunması tələb olunur.

İnkişaf etmiş dövlətlər tərəfindən maliyyə-iqtisadi və texniki formada edilən yardımlar inkişaf etməkdə və Azərbaycan kimi keçid



iqtisadiyyatlı ölkələrdə miqrasiya proseslərinin idarə olunması üçün əsas vasitələrdən biri kimi qeyd olunmalıdır.

Azərbaycan Respublikasında miqrasiya proseslərinin idarə olunması və miqrasiya siyasətinin tənzimlənməsi istiqamətində yardımlar edilərsə, yaxın gələcəkdə aşağıdakı göstəricilərin əldə olunması haqqında danışmaq mümkündür.

- yardımın istehsalın müasirləşməsinə və iqtisadi dirçəlişinə təsiri;
- müasir infrastrukturun formalaşmasına təsiri;
- insan ehtiyatlarının inkişafına təsiri;
- əhalinin planlaşdırılmasına təsiri (demoqrafik amil);
- makroiqtisadi siyasətin optimallaşmasına təsiri və s.
- bütün bunlar aşağıdakı vasitələrin hesabına həyata keçirilməlidir və s.

Azərbaycan Respublikası dövlət miqrasiyası siyasətinin məqsədini miqrasiya axınlarının tənzimlənməsi, idarə olunmayan miqrasiya proseslərinin neqativ təsirinina aradan qaldırılması, gözlənilməz kütləvi miqrasiyaya səbəb olan amillərin əvvəlcədən öyrənilməsi və optimal həlli üçün qabaqlayıcı tədbirlərin kompleksin hazırlanması, miqrantların öz hüquqlarını maneəsiz həyata keçirmələri üçün lazımi şəraitin yaradılması, həmçinin ölkədə özünə sığınacaq axtaran şəxslərə humanist münasibət göstərilməsi məsələlərini təşkil edir. Bu zaman əsas vəzifələr miqrantların Azərbaycan Respublikası Konstitusiyası və müvafiq

qanunvericilik aktları ilə, habelə Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrlə müəyyənləşdirilmiş, hüquq və mənafelərin müdafiəsindən, miqrantlara iqtisadi, etnik, dini, sosial maraqlarını və aktiv əmək fəaliyyəti ilə məşğul olmalarını təmin edən şəraitin yaradılmasından ibarət olmalıdır. Respublikada eyni zamanda miqrasiya proseslərinin tənzimlənməsi zamanı ölkənin mənafeyinin qorunması və immiqrasiya kvotasının müəyyənləşdirilməsində ölkənin sosial-iqtisadi inkişafına uyğun gələn əməkçi miqrantlara üstünlük verilməlidir.



# MÜNDƏRİCAT

**Ön söz** ........ 5

*I BÖLMƏ*

**HEYDƏR ƏLİYEV: ŞƏXSİYYƏT VƏ DÖVLƏTÇİLİK**

**Ramiz Mehdiyev**. Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu ........ 9

**Əli Həsənov.** Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması ........ 29

**Əli Nağıyev.** Müstəqil Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev yolu ........ 53

**Fərhad Əliyev**. Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf modeli ........ 61

**Şahlar Əsgərov**. Heydər Əliyev və təhsil quruculuğu ........ 72

**Səlahəddin Xəlilov**. Müdriklik: ideya və əməlin Harmoniyası ........ 83

## *II BÖLMƏ*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA YENİ CƏMİYYƏT: SİYASİ, SOSİAL VƏ MƏDƏNİ İNKİŞAF PROBLEMLƏRİ


1. **İ.Hüseynova.** Heydər Əliyev və Qafqazda sülh siyasəti ........ 99
2. **S.Vəliyeva.** Azərbaycançılıq – milli ideologiyamızın əsas istiqaməti kimi ........ 119
3. **B.Əkbərov.** Heydər Əliyev və milli konstitutsiyamız ........ 126
4. **M.Əlizadə.** Yeni Azərbaycançılıq ideyası Heydər Əliyev siyasətinin əsas prinsiplərindəndir........ 136
5. **N.Qocatürk.** Qayıdışdan yüksəlişə gedən yol ........ 143
6. **Н.Р.Салманова**. Теория и практика переходного периода в Азербайджане........ 157
7. **M.B.Zeynalov** – Heydər Əliyev və Azərbaycanda fəlsəfə tarixinin tədqiqi və tədrisinin zəruriliyi haqqında........ 174
8. **Ə.Əhmədov.** Siyasi mədəniyyətin totalitar və plüralist tipləri........ 193
9. **Т.А.Сеидова.** Г.Алиев и женское движение в Азербайджане ........ 204





10. **А.Т.Зульфалиева**. Актуальные проблемы формирования политической культуры Азербайджана на современном этапе........ 207
11. **S.Əsədov** . Avropada təhlükəsizlik sisteminin formalaşmasında Azərbaycanın iştirakı........ 212
12. **B.Haqverdiyev**. Müasir təhsil siyasətinin sosial-psixoloji parametrləri........ 215


## *III BÖLMƏ*

## H.ƏLİYEV VƏ AZƏRBAYCANDA İQTİSADİ İNKİŞAF VƏ EKOLOGİYA PROBLEMLƏRİ


1. **Ş.Qasımov.** Heydər Əliyev və Azərbaycan sənayesinin inkişafı ........ 225
2. **F.F.Ramazanov.** Heydər Əliyev və Azərbaycan təbiətinin mühafizəsi ........ 233
3. **Ə.V.Kosayev.** Azərbaycan Respublikasının neft strategiyası ........ 245
4. **A.F.Musayev.** Ölkədə aparılan vergi siyasətinin nəticələri ........ 249
5. **R.B.Məhərrəmov.** Azərbaycanda kiçik sahibkarlığın inkişafının vergi tənzimlənməsi ........ 255

6. **C.N.Məmmədov.** Heydər Əliyev və sosial sığorta sistemində islahatlar ..... 263

7. **A.D.Vəliyev.** Azərbaycan Respublikasında rəqabətin inkişafı və bu sahədə qanunvericilik bazası ..... 265

8. **З.Нурахмедов.** Проблемы и совершенствование учета в условиях рыночной экономики ..... 270

9. **С.Т.Абасова.** Роль предпринимательства в реформировании переходной экономики Азербайджана ..... 272

10. **T.Ə.Paşayev.** İdxal vergilərinin iqtisadiyyatın tənzimlənməsində rolu ..... 276

11. **С.И.Набиева.** О перспективах конкурентоспособности машиностроительного комплекса Азербайджана ..... 281

12. **Г.В.Бабаева.** Анализ инвестиционной деятельности электроэнергетической промышленности Азербайджана ..... 287

13. **T.Hüseynli.** Azərbaycanda audit və bu sahədə olan problemlər ..... 289



*IV BÖLMƏ*

## MÜSTƏQİL AZƏRBAYCAN QLOBAL İQTİSADİ SİSTEMDƏ

1. **А.Д.Мурадов.** Перспективы и пределы использования Азербайджаном защитных мер в глобальной экономической среде ..... 295

2. **Г.З.Юзбашева.** Глобализация и национальные интересы Азербайджана ..... 301

3. **İ.H.Alıyev.** Qloballaşma və aqrar sahənin inkişafı ..... 305

4. **Z.Əhmədov.** Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasının səmərəliliyinin artırılmasında ASK-nın rolu ..... 308

5. **R.Məmmədov.** Azərbaycanda kənd təssərüfatının dünya iqtisadiyyatına inteqrasiya yolları haqqında ..... 315

6. **K.İ.Mustafayev.** Qloballaşma prosesi və Azərbaycan ..... 317

7. **Н.М.Мустафаева.** Влияние отраслевой структуры на динамику внешнеэкономической деятельности республики ..... 320

8. **D.Ə.Vəliyev**. Xarici iqtisadi fəaliyyətdən əldə edilən gəlirlərin Azərbaycanda vergiyə cəlb edilməsi xüsusiyyətləri ........ 324

9. **Ç.A.İbrahimli**. Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiya prosesində daxili istehsalın gücləndirilməsinin rolu ........ 338

10. **V.A.Əliyev.** Bakı-Tbilisi-Ceyhan layihəsi rəqabətə tab gətirən layihədir ........ 342

11. **Ə.Z.Həsənov.** Qloballaşma və Azərbaycanda azad iqtisadi zonalar yaradılması məsələləri ........ 345

12. **Г.Г. Шарифов.** Аграрная сфера страны в условиях глобализации ........ 347

13. **R.Əliyeva.** Azərbaycanda miqrasiya prosesinin tənzimlənməsi məsələləri ........ 349



| | |
|---|---|
| **Nəşriyyatın direktoru:** | **E.Yüzbaşov** |
| **Mətnin yığımı:** | **İ. Qasımova** |
| **Kompüter tərtibatı:** | **M. Oruczadə** |

| | |
|---|---|
| **Yığlmağa verilmiş:** | **04.04.2003** |
| **Çapa imzalanmış:** | **21.04.2003** |
| **Format:** | **60x90 1/16** |
| **Tiraj:** | **600** |
| **Fiziki çap vərəqi:** | **23** |

Kitab "Azərbaycan Universiteti" nəşriyyatında nəşrə hazırlanmış və **"ADİLOĞLU" MMC**-nin mətbəəsində hazır diapozitivlərdən istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.

**"Azərbaycan Universiteti" nəşriyyatı**
*Ünvan: Bakı, 370110, akad. Mirəli Qaşqay küç. 84.*

**"ADİLOĞLU" MMC**
*Ünvan: Bakı şəh., Ü.Hacıbəyov küç., 38/3*
*Tel.: 98-68-25*

T3(2A)
264